Biz maddi dəyərləri insan kapitalına çevirməliyik.
İlham Əliyev

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

ISSN 2664-4770

Cild 2, №2, 2019
Vol. 2, №2, 2019
Том 2, №2, 2019
İldə dörd dəfə nəşr olunur.

Peşə təhsili və insan kapitalı

Vocational education and human capital

Профессиональное образование и человеческий капитал

***Elmi-praktiki, metodiki jurnal* ∗ *Scientific-practical and methodological journal* ∗**

Научно-практический, методический журнал

*****

Redaksiya heyətinin sədri
Mustafayev F.F. (i.e.d., prof.)

Baş redaktor
Balakişiyev Ş.Ş. (f.e.f.d.)

Redaksiya heyətinin üzvləri

Əlizadə R.İ. (t.e.d., prof.), **Ağayev F.H.** (t.e.f.d.), **İbrahimov M.A.** (i.e.d., prof.), **İlyasov M.İ.** (p.e.d., prof.), **Quliyev N.Ə.** (p.e.d., prof.), **Vəliyev F.H.** (t.e.d., prof.), **Həsənov Q.H.** (i.e.f.d.), **Tanırverdiyev T.M.** (a.e.f.d.), **Əmiraslanov T.İ.** (əməkdar mədəniyyət işçisi), **Əsgərov R.B.** (əməkdar müəllim), **Zeynalov V.E., Əlili A.A., Mehdiyeva N.B., Camalov H.E.**

*****

Chairman of the editorial board
Mustafayev F.F. (prof., dr.)

Chief editor
Balakishiyev Sh.Sh. (a.s.s.dr.)

Members of the editorial board

Alizadeh R.I. (prof., dr.), **Agayev F.H.** (a.s.s.dr.), **Ibrahimov M.A.** (prof., dr.), **Ilyasov M.I.** (prof., dr.), **Guliyev N.A.** (prof., dr.), **Veliyev F.H.** (prof., dr.), **Hasanov G.H.** (a.s.s.dr.), **Tanirverdiyev T.M.** (a.s.s.dr.), **Amiraslanov T.I.** (honored cultural worker), **Asgarov R.B.** (honored teacher), **Zeynalov V.E., Alili A.A., Mehdiyeva N.B., Jamalov H.E.**

*****

Пред. ред. коллегии
Мустафаев Ф.Ф. (д.э.н., проф.)

Главный редактор
Балакишиев Ш.Ш. (к.ф.н.)

Члены редакционной коллегии

Ализаде Р.И. (д.т.н., проф.), **Агаев Ф.Г.** (д.ф.т.н.), **Ибрагимов М.А.** (д.э.н., проф.), **Ильясов М.И.** (д.ф.н., проф.), **Гулиев Н.А.** (д.ф.н., проф.), **Велиев Ф.Г.** (д.т.н., проф.), **Гасанов Г.Г.** (д.ф.э.н.), **Танырвердиев Т.М.** (д.ф.с.н.), **Амирасланов Т.И.** (заслуженный деятель культуры), **Аскеров Р.Б.** (заслуженный учитель), **Зейналов В.Е., Алили А.А., Мехтиева Н.Б., Джамалов Х.Е.**

"Peşə təhsili və insan kapitalı" jurnalında pedaqogika, texnika, iqtisadiyyat, informatika, ekologiya və digər fundamental elm bölmələri üzrə məqalələr, metodiki yazılar dərc edilir.

*****

The journal "Vocational Education and Human Capital" publishes clauses, and other pieces of information on pedagogy, technology, economics, informatics, ecology and other fundamental sciences, including methodical articles.

*****

В журнале "Профессиональное образование и человеческий капитал" публикуются статьи по педагогике, технике, экономике, информатике, экологии и других фундаментальных науках, а также методологические статьи.

MÜNDƏRİCAT

Rəsmi sənədlər

5 **Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı**
8 **Peşə təhsilinin dövlət standartları**

Pedaqogika

12 **A.Abbasov.** Ailə tərbiyəsinin prinsipləri
19 **M.İlyasov.** Səriştəli müəllim hazırlığı pedaqoji təhsilin əsas hədəfi kimi
25 **Ş.Ağayev, A.Əliyeva.** Peşə təhsilində pedaqoji prosesin mərhələlər üzrə idarə edilməsi
31 **R.Yusifoğlu.** Simmetriya və onun poetik əsərlərin strukturunda yeri

İqtisadiyyat

34 **X.Dadaşov, A.Sadıxov.** Azərbaycanın iqtisadi və mədəni tərəqqisində Heydər Əliyev amili
38 **C.Məmmədov.** Alternativ və bərpa olunan enerji istehsalında maliyyə təşviqi siyasətinin rolu
45 **C.Quliyev.** Bazar iqtisadiyyatının inkişafında peşə təhsilinin yeri
50 **Z.Mustafayeva.** Müəssisənin kadr potensialının səmərəliliyinin qiymətləndirilməsi
54 **O.Bondarenko, D.Yavtuşenko.** Ukrayna telekommunikasiya operatorları müəssisələrinin fəaliyyətində innovativ xidmətlər
59 **T.Pürhani.** Heyvandarlıq məhsullarının insanın sağlam qidalanmasında rolu və keyfiyyət xüsusiyyətləri

Texnika

64 **Ş.Kazımov, M.Əsgərova.** Elektrik enerjisinin ötürülməsi və paylanmasının effektivliyini artırmaq yolları
69 **K.Məmmədova, Y.Əliyeva.** Çevik robotların vibrasiyalı analizi
74 **R.Həsənli.** Yüksəkmöhkəm çuqunun zərbə özlülüyünün tədqiqi

İdarəetmə

78 **A.Şükürov.** Müasir dövrdə ictimaiyyətlə əlaqələr işinin dövlət orqanlarının səmərəli fəaliyyətinə təsiri

Beynəlxalq əlaqələr (layihələr, təcrübələr)

82 **K.Endo.** Yaponiya təhsil sisteminin tarixi

Sahibkarlarla əməkdaşlıq

86 **G.Haşımova.** Peşə təhsili müəssisələri ilə işəgötürənlər (sahibkarlar) arasında əlaqə

Metodika və innovasiyalar

88 **M.Qurbanov.** Kompetensiyalara Əsaslanan Modul Texnologiyalarının peşə təhsilində tətbiqini zəruri edən amillər
92 **S.Məmmədova.** Müasir dərs nümunəsi
94 **E.Rəhimova.** Atom fizikası elementlərinin tədrisi təcrübəsindən
98 **H.Camalov.** Səriştəəsaslı modulların inteqrasiyalı tədrisinin əhəmiyyəti
101 **Məqalələrin tərtibatı qaydaları**

CONTENTS

Official documents

5 **Resolution of the Cabinet of Ministers of the Republic of Azerbaijan**
8 **Govrement standarts of vocational education**

Pedagogy

12 **A.Abbasov.** Principles of family upbringing
19 **M.İlyasov.** Training qualified teachers as the main goal of teacher education
25 **Sh.Agayev, A.Aliyeva.** Stage managment of pedagogical process in vocational education
31 **R.Yusifoglu**. Symmetry and is poetry poems in place structure

Economics

34 **Kh.Dadashov, A.Sadıkhov.** The role of Heydar Aliyev in the economic and cultural progress of Azerbaijan
38 **J.Mammadov.** The role of financial incentives in the production of alternative and renewable energy
45 **J.Quliyev.** The place of vocational education in the market economy
50 **Z.Mustafayeva.** Assessment of efficiency of personal potential of the enterprise
54 **B.Mikhalivna, Y.Aleksandrovna.** The introduction of innovative services in the activities of enterprises of telecommunications operators of Ukraine
59 **T.Purhani.** The role and quality of animal products in healthy nutrition

Technology

64 **Sh.Kazımov, M.Asgerova.** The ways of increasing the efficency and transmission of electrical energy
69 **K.Mammadova, Y.Aliyeva.** Vibration analysis of flexible manipulator
74 **R.Hasanli.** Investigation of toughness of high-strength cast iron

Management

78 **A.Shukurov.** The influence of public affairs on the effectiveness of state agencies in modern time

International relations (projects, practices)

82 **K.Endo.** The history of Japan educational system

Cooperation with entrepreneurs

86 **G.Hashimova.** The contact with vocational education enterprises and employer

Methodology and innovations

88 **M.Qurbanov.** The factors that mane use of comfeting based mobile technologies in vocational education
92 **S.Mammadova**. Model of modern lesson
94 **E.Rahimova.** The experience of teaching elements of atomic physics
98 **H.Jamalov.** İmportance of integrative teaching of specialized modules
101 **Guidelines for writing articles**

О Г Л А В Л Е Н И Е

Официальные документы

5 **Постановление Кабинета Министров Азербайджанской Республики**
7 **Государственные стандарты профессионального образования**

Педагогика

12 **А.Аббасов.** Принципы семейного воспитания
19 **М.Ильясов.** Подготовка компетентных учителей как основная цель педагогического образования
25 **Ш.Агаев, А.Алиева.** По этапное управление педагогическим процессом в профессиональном образовании
31 **Р.Юсифоглу.** Симметрия и ее место в структуре поэтических произведений

Экономика

34 **А.Садыгов, Х.Дадашов.** Фактор Гейдар Алиева в экономическом и культурном прогрессе Азербайджана
38 **Дж.Мамедов.** Роль политики финансового стимулирования в производстве альтернативной и возобновляемой энергии
45 **Дж.Гулиев.** Место профессионального образования в развитии рыночной экономики
50 **З.Мустафаева.** Оценка эффективности кадрового потенциала предприятия
54 **О.Бондаренко, Д.Явтушенко.** Внедрение инновационных услуг в деятельность предприятий операторов связи Украины
59 **Т.Пурхани.** Роль и черты качества продуктов питания животных в здоровом питании

Техника

64 **Ш.Казымов, М.Аскерова.** Пути повышения эффективности передачи и распределения электроэнергии
69 **К.Мамедова, Е.Алиева.** Вибрационный анализ гибких роботов
74 **Р.Гасанли.** Исследование ударной вязкости высокопрочного чугуна

Управление

78 **А.Шукуров.** Влияние общественных отношений на эффективность деятельности государственных органов в современном мире

Международные отнощения (проекты, практика)

82 **К.Эндо.** История японской системы образования

Сотрудничество с предпринимателями

86 **Г.Хашимова.** Отношения между учреждениями профессионального образования и работодателями (предпринимателями) расширяются

Методика и инновации

88 **М.Гурбанов.** Факторы, которые требуют использования модульных технологий в профессиональном образовании
92 **С.Мамедова.** Пример современного урока
94 **Э.Рагимова.** Из опыта преподавания элементов атомной физики
98 **Х.Джамалов.** Важность интегрированного обучения в компетентностных модулях
101 **Инструкции по составлению статей**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

Q Ə R A R

№ 173

Bakı şəhəri, 16 aprel 2019-cu il

"Peşə təhsili pilləsinin bir səviyyəsindən növbəti səviyyəsinə keçid Qaydası"nın təsdiq edilməsi haqqında

"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli, 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli, 140 nömrəli Fərmanının 1.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Peşə təhsili pilləsinin bir səviyyəsindən növbəti səviyyəsinə keçid Qaydası" təsdiq edilsin (əlavə olunur).

Azərbaycan Respublikasının Baş naziri

Novruz Məmmədov

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin
2019-cu il 16 aprel tarixli,
173 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

Peşə təhsili pilləsinin bir səviyyəsindən növbəti səviyyəsinə keçid

QAYDASI

1. Ümumi müddəalar

1.1. Bu Qayda "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun 9.11-ci maddəsinə əsasən hazırlanmışdır və peşə təhsili pilləsinin bir səviyyəsindən növbəti səviyyəsinə keçid qaydasını müəyyən edir.

1.2. Bu Qayda tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün peşə təhsili müəssisələrinə şamil edilir.

2. Peşə təhsilinin növbəti səviyyəsinə keçidin şamil edildiyi hallar

2.1. Peşə təhsili pilləsinin bir səviyyəsindən növbəti səviyyəsinə keçid peşə təhsili pilləsinin bir səviyyəsində təhsili bitirməklə növbəti səviyyəsinə keçid deməkdir (bundan sonra – peşə təhsili pilləsində keçid).

2.2. Peşə təhsili pilləsində keçid bir peşə təhsili müəssisəsi daxilində və ya tələbələrin bir peşə təhsili müəssisəsindən digər peşə təhsili müəssisəsinə keçməsi vasitəsilə həyata keçirilir.

2.3. Peşə təhsili səviyyələri üzrə keçid tələbələrin qəbul olunduqları təhsil bazasına (ümumi orta və ya tam orta təhsil bazası) müvafiq olaraq aparılır.

2.4. Peşə təhsili pilləsində keçid dedikdə, aşağıdakı hallar nəzərdə tutulur:

2.4.1. ümumi orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili almış məzunların texniki peşə təhsili səviyyəsində və ya yüksək texniki peşə təhsili səviyyəsində ikinci tədris ilindən etibarən təhsilinin davam etdirilməsi;

2.4.2. tam orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili almış məzunların texniki peşə təhsili səviyyəsində və ya yüksək texniki peşə təhsili səviyyəsində birinci tədris ilinin ikinci yarımilindən etibarən təhsilinin davam etdirilməsi;

2.4.3. ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili almış məzunların yüksək texniki peşə təhsili səviyyəsində üçüncü tədris ilindən etibarən təhsilinin davam etdirilməsi;

2.4.4. ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil almış məzunların yüksək texniki peşə təhsili səviyyəsində dördüncü tədris ilindən etibarən təhsilinin davam etdirilməsi;

2.4.5. tam orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili almış məzunların yüksək texniki peşə təhsili səviyyəsində ikinci tədris ilində təhsilinin davam etdirilməsi.

2.5. Peşə təhsili pilləsində keçid peşə təhsili üzrə ixtisasların peşə istiqamətlərinin uyğunluğu təmin edildikdə mümkündür.

2.6. Peşə təhsili müəssisələrinin məzunları peşə təhsilini başa vurduğu ildən etibarən 2 (iki) il müddətində peşə təhsili pilləsində keçid edə bilərlər.

2.7. Peşə təhsili müəssisələrinin məzunlarının peşə təhsili pilləsində keçidi yalnız peşə təhsili müəssisəsində vakant (boş) yerlər olduqda mümkündür.

3. Peşə təhsili pilləsində keçid üçün müraciət və ixtisas seçimi

3.1. Peşə təhsili müəssisələrinin məzunları peşə təhsili pilləsində keçid üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinin Milli Təhsil Məlumat Bazasının Elektron sənəd qəbulu sistemində (bundan sonra – elektron sistem) "Elektron ərizə"ni doldurarak təsdiq etməlidirlər.

3.2. Peşə təhsili pilləsində keçid üçün ixtisas seçimi elektron ərizə doldurulan zaman həyata keçirilir.

3.3. Ərizəçilər sərbəst seçim əsasında müvafiq peşə təhsili səviyyəsini, peşə təhsili müəssisələrini və ixtisaslar üzrə vakant yerləri müəyyənləşdirir və istədikləri ardıcıllıqla ixtisas seçimini edirlər.

3.4. Peşə təhsili pilləsində keçid üçün müraciət etmiş şəxslər maksimum 5 (beş) ixtisas seçmək hüququna malikdirlər.

4. Sənədlərin baxılması və müsabiqənin keçirilməsi

4.1. Elektron ərizə qəbulu prosesi yekunlaşdıqdan sonra ərizəçilərin elektron sistem tərəfindən ixtisas seçimlərinin düzgün olub-olmadığı müəyyən edilir.

4.2. İmtina üçün əsas olmadıqda, məzunun peşə təhsilinin növbəti səviyyəsinə qəbul edilməsinə dair qərar qəbul edilir.

4.3. Keçid üçün ərizələrin sayı vakant yerlərin sayından çox olduqda, müraciət edənlər arasında müsabiqə seçimi aparılır. Müsabiqə seçimində aşağıdakı göstəricilərdən istifadə edilir:

4.3.1. ixtisas fənləri və istehsalat təlimi dərsləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;

4.3.2. ixtisas üzrə iş stajı;

4.3.3. işəgötürənlər tərəfindən göndəriş.

4.4. Peşə təhsilinin növbəti səviyyəsinə keçidlə bağlı məlumat ərizəçinin elektron şəxsi kabinetində yerləşdirilir, eləcə də ərizəsində göstərdiyi elektron poçt ünvanına və ya əlaqə telefonuna bu barədə mesaj göndərilir, əvvəl təhsil aldığı peşə təhsili müəssisəsinə isə şəxsi işin müvafiq peşə təhsili müəssisəsinə göndərilməsi ilə bağlı müraciət olunur.

4.5. Peşə təhsilinin növbəti səviyyəsinə keçmiş şəxsə onun müraciəti əsasında məzun olduğu peşə təhsili müəssisəsi tərəfindən 3 (üç) iş günü müddətində akademik arayış (akademik transkript) verilir.

4.6. Peşə təhsilinin növbəti səviyyəsinə qəbul edilmiş şəxs 10 (on) iş günü müddətində qəbul olunduğu peşə təhsili müəssisəsinə aşağıdakı sənədləri şəxsən təqdim edir:

4.6.1. peşə təhsili haqqında dövlət sənədinin əsli;

4.6.2. akademik arayış (akademik transkript);

4.6.3. şəxsiyyət vəsiqəsinin surəti;

4.6.4. sağlamlıq və fiziki inkişafı özündə əks etdirən müvafiq formalı tibbi arayış;

4.6.5. hərbi bilet və ya çağırışçı şəhadətnaməsi.

4.7. Bu Qaydanın 4.6-cı bəndində göstərilən müddətdə sənədlərin peşə təhsili müəssisəsinə təqdim edilməməsi onun həmin ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir.

4.8. Tələbənin şəxsi işi alındıqdan sonra onun keçdiyi peşə təhsili müəssisəsində tələbələr sırasına daxil olması barədə müvafiq tədbirlər həyata keçirilir.

4.9. Müsabiqənin nəticələri ilə bağlı ərizəçilər Azərbaycan Respublikasının Təhsil Nazirliyinə şəxsiyyəti təsdiq edən sənədin əslini təqdim etməklə, şəxsən müraciət edə bilərlər və ya bununla bağlı inzibati qaydada və ya məhkəməyə şikayət verə bilərlər.

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin
2019-cu il 11 mart tarixli,
85 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

PEŞƏ TƏHSİLİNİN DÖVLƏT STANDARTLARI

1. Ümumi müddəalar

1.1. Peşə təhsilinin dövlət standartları (bundan sonra – dövlət standartları) Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarına, fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, sahə üzrə mütərəqqi beynəlxalq elmi-pedaqoji prinsiplər, milli və ümumbəşəri dəyərlər əsasında hazırlanmışdır.

1.2. Dövlət standartları aşağıdakıları müəyyənləşdirir:

1.2.1. peşə təhsilinin məzmununu;

1.2.2. peşə təhsilinin idarə olunmasını;

1.2.3. peşə təhsili müəssisələrinin maddi-texniki bazasını;

1.2.4. peşə təhsilinin infrastrukturunu;

1.2.5. peşə təhsilində təhsilverənlərin keyfiyyət göstəricilərini;

1.2.6. peşə təhsilində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini.

1.3. Dövlət standartları tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün peşə təhsili müəssisələrinə şamil olunur və peşə təhsili sahəsində ixtisaslar üzrə təhsil proqramlarının hazırlanmasında və tətbiqində əsas tutulur.

1.4. Peşə təhsili pilləsində tədris nəticəyönlü, sərişta əsaslı və modul strukturlu təhsil proqramları (bundan sonra – kurikulum) əsasında həyata keçirilir və varislik təmin olunur.

1.5. Dövlət standartları 5 ildən bir yenilənir.

2. Peşə təhsilinin məzmunu

2.1. Peşə təhsilinin məzmunu təhsilalanın, cəmiyyətin, dövlətin və ayrı-ayrı işəgötürənlərin maraq və tələblərini, milli və ümumbəşəri dəyərləri əks etdirməklə, təhsilalanların yaş, fizioloji və psixoloji xüsusiyyətləri nəzərə alınmaqla, onların dünyagörüşünün formalaşmasını, ömürboyu təhsil konsepsiyasına və əmək bazarının tələblərinə uyğun zəruri bilik, bacarıq və sərişt ələrə yiyələnməsini, müstəqil, yaradıcı şəxsiyyət kimi əmək fəaliyyətinə hazırlanmasını, cəmiyyətin faydalı və məhsuldar üzvünə çevrilməsini təmin edir.

2.2. Peşə təhsilinin məzmunu qanunvericilikdə qeyd edilmiş ümumi tələbləri ödəməklə yanaşı, "ömürboyu təhsil" prinsipinə əsasən, təhsilalanların aşağıdakı modullar vasitəsilə əsas sərişt ələrə malik olmalarını təmin edir:

2.2.1. ana dilində ünsiyyət:

2.2.1.1. ana dilinin qrammatik xüsusiyyətlərini dərk edərək istifadə etmək;

2.2.1.2. peşəkar şifahi ünsiyyət qurmaq;

2.2.1.3. peşəkar yazılı ünsiyyət qurmaq;

2.2.2. xarici dildə ünsiyyət:

2.2.2.1. xarici dilin qrammatik xüsusiyyətlərini dərk edərək istifadə etmək;

2.2.2.2. xarici dildə şifahi peşəkar ünsiyyət qurmaq;

2.2.2.3. xarici dildə yazılı peşəkar ünsiyyət qurmaq;

2.2.3. hesablama əməliyyatlarını yerinə yetirmə:

2.2.3.1. məsələlərin həllində riyazi düşüncə nümayiş etdirmək;

2.2.3.2. müvafiq hesablamalar aparmaq;

2.2.3.3. qrafik və cədvəllər hazırlamaq və istifadə etmək;

2.2.3.4. təsviri statistikadan istifadə etmək;
2.2.4. informasiya texnologiyaları:
2.2.4.1. məlumatları əldə etmək, qiymətləndirmək və idarə etmək;
2.2.4.2. müvafiq sosial media vasitələrindən istifadə etmək;
2.2.4.3. rəqəmsal məzmun hazırlamaq;
2.2.4.4. informasiya kommunikasiya texnologiyalarından təhlükəsiz şəkildə istifadə etmək;
2.2.5. peşə etikası:
2.2.5.1. peşəkarlıq prinsiplərinə riayət etmək;
2.2.5.2. vaxtdan səmərəli istifadə etmək;
2.2.5.3. qrup daxilində səmərəli işləmək;
2.2.5.4. iş yerində davranış qaydalarını təhlil etmək;
2.2.6. sahibkarlıq:
2.2.6.1. sahibkarlıq ideyalarını və imkanlarını müəyyən etmək;
2.2.6.2. biznes plan hazırlamaq;
2.2.6.3. ideyaların həyata keçirilməsi haqqında məlumat vermək;
2.2.7. şəxsi inkişaf və karyera planlaşdırılması:
2.2.7.1. normativ-hüquqi şənədlərdən istifadə etmək;
2.2.7.2. karyera məqsədlərini müəyyən etmək və müasir işaxtarma və müraciət üsullarından istifadə etmək;
2.2.7.3. ölkədə və dünyada baş verən siyasi, ictimai və iqtisadi prosesləri şərh etmək;
2.2.7.4. təbiətin və ətraf mühitin qorunması prinsiplərini təhlil etmək;
2.2.8. estetika və mədəni özünüifadə:
2.2.8.1. Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin əsas əsərlərini öyrənmək;
2.2.8.2. dünya incəsənət nümunələrini və məşhur mədəniyyət və incəsənət xadimlərinin əsərlərini öyrənmək;
2.2.8.3. kreativlik və estetika anlayışlarını təhlil edərək onlardan istifadə etmək;
2.2.8.4. etiket və nəzakət qaydalarını təhlil edərək onlardan istifadə etmək.

2.3. Peşə təhsilinin məzmunu müvafiq peşə standartları və Milli Kvalifikasiyalar Çərçivəsinə uyğun olaraq, ixtisasın kvalifikasiya standartları əsasında formalaşdırılır və Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən modul strukturlu nümunəvi kurikulum vasitəsilə tədris edilir.

2.4. Peşə təhsili müəssisələrində ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, dərəcələrin yüksəldilməsi və yaşlıların təhsili istiqamətlərini əhatə edən müvafiq kursların təşkili Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən modul strukturlu kurikulumlar vasitəsilə həyata keçirilir.

2.5. Peşə təhsilinin məzmunu təhsilalanların peşəkar inkişafına xidmət etməli, tətbiqi və tərbiyəvi xarakter daşımalı, məzmunun təhsilalanlar tərəfindən rahat mənimsənilməsini təmin etməlidir.

2.6. Peşə liseylərində və peşə təhsil mərkəzlərində ümumi orta təhsil bazasından qəbul olunanlara qanunvericiliyin tələblərinə uyğun olaraq, tam orta təhsil səviyyəsi üzrə ümumtəhsil fənləri tədris edilir.

2.7. Peşə təhsili müəssisələrində tədris ili iki yarımildən ibarətdir. Hər tədris ilində təlim müddəti 15 sentyabr tarixindən başlanır və nümunəvi tədris planına müvafiq olaraq yekunlaşır. Dərs ili ərzində qış tətili 8 gündür. İxtisasdan asılı olaraq modulların tədrisi yay aylarında da keçirilə bilər.

2.8. Peşə təhsili müəssisələrində təlim məşğələləri 45 dəqiqə, məşğələlərarası fasilə isə 5-10 dəqiqə müəyyənləşdirilir. Tədris emalatxanalarında praktiki məşğələlər zamanı təlimin birinci ilində hər 45 dəqiqədən, təlimin ikinci və sonrakı illərində hər 90 dəqiqədən sonra 10 dəqiqə fasilə verilir.

3. Peşə təhsilinin idarə olunması

3.1. Peşə təhsili müəssisəsi aşkarlıq, şəffaflıq və demokratik prinsiplər əsasında Azərbaycan Respublikasının “Təhsil haqqında” və “Peşə təhsili haqqında” qanunlarına, digər normativ-hüquqi

aktlara və öz Nizamnaməsinə uyğun idarə olunur.

3.2. Dövlət peşə təhsili müəssisələrinin ali idarəetmə orqanı Pedaqoji Şuradır. Bələdiyyə və özəl peşə təhsili müəssisəsində ali idarəetmə orqanı həmin təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən olunur. Pedaqoji Şuranın yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş Pedaqoji Şura haqqında Əsasnamə və təhsil müəssisəsinin Nizamnaməsi ilə tənzimlənir.

3.3. Pedaqoji Şuranın iclaslarında təhsil sahəsində dövlət siyasətinə uyğun olaraq, təlim-tərbiyə, tədris prosesinin təşkili və həyata keçirilməsi, işəgötürənlərlə qarşılıqlı əlaqələr, innovativ pedaqoji ideyaların və istehsalat yeniliklərinin tətbiqi, sağlam psixoloji mühit və təhlükəsiz şəraitin yaradılması, maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, maliyyə-təsərrüfat məsələləri, ümumi fəaliyyətin yaxşılaşdırılması, həvəsləndirmə, mükafatlandırma istiqamətində təkliflər və hesabatlar müzakirə olunaraq müvafiq qərarlar qəbul edilir.

3.4. Təhsil müəssisələri müvafiq ixtisaslar üzrə təhsilin məzmunu ilə bağlı qərarların verilməsi məqsədi ilə peşə təhsili prosesinin iştirakçılarının (təsisçilər, təhsilalanlar, təhsilverənlər, tədrisə köməkçi heyət, valideynlər və ya digər qanuni nümayəndələr) yer aldığı işçi qrupları yarada bilər.

3.5. Peşə təhsili müəssisələri təsisçisi tərəfindən təsdiq edilmiş, 5 ildən bir yenilənən strateji plan əsasında idarə edilir.

3.6. Strateji plan özündə təhsil müəssisəsi haqqında ümumi məlumatı, gələcəyə dair baxış və dəyərləri, GZİT-nin (güclü, zəif, imkanlar, təhlükələr) təhlilini, strateji hədəfləri, hədəflərə uyğun nəticələri, ölçülə bilən tədbirləri, tədbirlərin icrası üçün maliyyə vəsaitini və icra müddətlərini ehtiva edir.

3.7. Təhsil müəssisəsi strateji planda qeyd edilən hədəflərin icrası ilə bağlı yarımillik hesabat hazırlayır və Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinə təqdim edir.

3.8. Peşə təhsili müəssisəsinə rəhbərlik qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifəyə təyin edilən direktor tərəfindən həmin müəssisənin Nizamnaməsinə uyğun həyata keçirilir.

3.9. Tabeliyindən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən peşə təhsili müəssisələrində təhsilin keyfiyyətinə dövlət nəzarəti Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

3.10. Peşə təhsili müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi peşə təhsili müəssisələrinin ixtisaslaşma sahələri nəzərə alınmaqla, hər tədris ilinin nəticələrinə görə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

3.11. Peşə təhsili müəssisəsi öz fəaliyyətinə görə təhsilalanlar, işəgötürənlər, cəmiyyət və dövlət qarşısında məsuliyyət daşıyır.

3.12. Təhsilalanların, təhsilverənlərin, peşə təhsili müəssisəsinin inzibati, inzibati-idarəetmə, inzibati-təsərrüfat və digər heyətinin hüquq və vəzifələri Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunları, peşə təhsili müəssisəsinin nizamnaməsi və daxili intizam qaydaları, eləcə də peşə təhsili müəssisəsi ilə əmək münasibətləri olan şəxslərə münasibətdə, eyni zamanda, əmək müqavilələri ilə tənzimlənir.

4. Peşə təhsili müəssisəsinin maddi-texniki bazası

4.1. Peşə təhsili müəssisəsinin maddi-texniki bazası daşınan və daşınmaz əmlakdan ibarətdir.

4.2. Peşə təhsili müəssisəsinin maddi-texniki bazası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli, 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" ilə müəyyən edilən standartlara uyğun olmalıdır.

4.3. Peşə təhsili müəssisəsi təhsilalanlar üçün yaşayış və tədris binalarına, yardımçı təsərrüfata, iaşə avadanlığına, idman meydançasına, idman zalına, sanitariya qovşaqlarına, kitabxana, oxu zalı, klub, mövcud normativlərə uyğun təchiz olunmuş tibb məntəqəsi, yeməkxana, yataqxana, məişət otağı, camaşırxana, paltar və ayaqqabıların təmiri və gigiyena otaqları, hamam, anbar və s. xidmət

otaqlarına, nəqliyyat vasitələrinə malik olur.

4.4. Peşə təhsili müəssisəsi ona verilmiş əmlakdan yalnız Nizamnamə ilə müəyyən edilmiş məqsədlər üçün istifadə edə bilər. Müəssisənin əmlakının təhsildənkənar məqsədlər üçün istifadəsi qadağandır.

4.5. Peşə təhsili müəssisəsinin maddi-texniki bazasına mövcud ixtisasların tələblərinə uyğun olaraq, tədris laboratoriyaları, emalatxanalar, idman və akt zalları, təhsilalan və təhsilverənlər üçün mebel avadanlıqları, informasiya kommunikasiya texnologiyası avadanlıqları, audio-vizual avadanlıqlar, tədris-əyani vəsaitlər, təlimin texniki vasitələri, dərslik və elmi-bədii ədəbiyyat fondu daxildir.

5. Peşə təhsilinin infrastrukturu

5.1. Peşə təhsilinin infrastrukturuna qoyulan minimum tələblər aşağıdakılardan ibarətdir:

5.1.1. ömürboyu təhsili təmin edən təhlükəsiz və rahat təhsil şəraiti, pedaqoji kadrlarla təminat, təhsil fəaliyyəti üçün zəruri imkanlara malik təmirli binalar, yardımçı bina və qurğular, idman meydançası və ya zalı və qurğuları, müvafiq kadrlarla təmin olunmuş tibb, iaşə obyektləri, kitabxana, rabitə, su, istilik, elektrik sistemləri, sanitar qovşaqları və sürətli internet xidməti;

5.1.2. əlilliyi olan şəxslərin inklüziv təhsilinin təşkili;

5.1.3. işəgötürənlərin tələbləri və müvafiq müqavilələr əsasında müəyyən modul üzrə dərslərin qeyd edilmiş normalara uyğun olan müəssisə, idarə və təşkilatlarda yaradılan sinif otaqlarında keçirilməsinin mümkünlüyü.

6. Təhsilverənlərin keyfiyyət göstəriciləri

6.1. Peşə təhsili müəssisəsində təhsilverənlərin attestasiyası (sertifikatlaşdırılması) "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq həyata keçirilir.

6.2. Peşə təhsili müəssisələrində çalışan təhsilverənlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi peşə təhsili müəssisələrində mühəndis-pedaqoji heyətin bilik və bacarıqlarının qiymətləndirilməsi əsasında həyata keçirilir.

6.3. Peşə təhsili müəssisələrində təhsilverənlərin keyfiyyət göstəricilərinə aşağıdakılar daxildir:

6.3.1. ixtisası üzrə dövrün tələbatına uyğun elmi-nəzəri biliklər və praktik səriştə;

6.3.2. təhsilalanlarla ünsiyyət qurma və iş bacarığı;

6.3.3. əxlaqi-mənəvi keyfiyyətlər, pedaqoji etika və mədəniyyət;

6.3.4. əməkdaşlıq, tədqiqatçılıq, özünütəhsil və idarəçilik bacarığı;

6.3.5. yaradıcılıq və sağlam rəqabət tələb edən layihələrdə, müsabiqə və innovativ proqramlarda iştirak etmək qabiliyyəti;

6.3.6. öz fəaliyyətini təqdim etmək və qabaqcıl pedaqoji təcrübələrdən bəhrələnmək bacarığı;

6.3.7. ədalətlilik, məsuliyyətlilik və cavabdehlik;

6.3.8. işlədiyi təhsil müəssisəsində və ictimaiyyətdə hörmət və nüfuz qazanmaq bacarığı.

6.4. Peşə təhsili sisteminə yeni işə qəbul edilən pedaqoji təhsili olmayan rəhbərin və mühəndis-pedaqoji işçilərin pedaqogikaya və psixologiyaya dair biliklərə, həmçinin fənlərin tədrisi metodikası üzrə bacarıqlara malik olmalarını təmin edən təhsil proqramları (kurikulumlar) üzrə Azərbaycan Respublikası Təhsil Nazirliyinin müəyyən etdiyi qurumlar tərəfindən keçirilən təlimlərdə 3 ay müddətində iştirakı təmin edilir.

6.5. Peşə-ixtisas fənn müəllimlərinin və istehsalat təlimi ustalarının peşələrinə uyğun ən geci 2 ildən bir Azərbaycan Respublikası Təhsil Nazirliyinin müəyyən etdiyi müəssisə və təşkilatlarda yeni texnika və texnologiyalar üzrə istehsalat təcrübəsi keçmələri təmin olunur.

7. Təhsilalanların səriştə səviyyəsi

7.1. Peşə təhsili müəssisələrində təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi peşə təhsili pilləsində təhsilalanların aralıq və yekun dövlət attestasiyasının keçirilməsi əsasında aparılır.

7.2. Peşə təhsili pilləsində təhsilalanların səriştə səviyyəsi Milli Kvalifikasiyalar Çərçivəsinə uyğun olaraq, ixtisasın kvalifikasiya standartları əsasında hazırlanmış kurikulumlarda və ayrı-ayrı modullarda bilik, bacarıq və məsuliyyət (yanaşma) xüsusiyyətləri qeyd edilən təlim nəticələrinə əsasən müəyyən edilir.

Peşə təhsili və insan kapitalı. Cild 2, №2, 2019 s.12-18

AİLƏ TƏRBİYƏSİNİN PRİNSİPLƏRİ

Akif Abbasov,
Azərbaycan Respublikası Təhsil İnstitutunun elmi katibi,
pedaqogika üzrə elmlər doktoru, professor
e-mail: a.abbasov@arti.edu.az

UOT: 37

Xülasə. *Məqalədə ailə tərbiyəsinin prinsipləri, onların mahiyyəti, məzmunu, uşaqların tərbiyəsində rolu və oynadıqları rolun əhəmiyyəti müəyyənləşdirilir. Eyni zamanda, o qənaətə gəlinir ki, tərbiyənin bu prinsiplərindən düzgün istifadə etməklə valideynlər öz fəaliyyətlərində səmərəli nəticə əldə edə bilərlər.*

Açar sözlər: *tərbiyə, ailə tərbiyəsi, prinsip, tərbiyənin prinsipləri, ailə tərbiyəsinin prinsipləri.*
Key words: *upbringing, family upbringing, principle, principles of upbringing, principles of family upbringing.*
Ключевые слова: *воспитание, семейное воспитание, принцип, принципы воспитания, принципы семейного воспитания.*

Valideynlər uşağa iş tapşıranda, ona böyüklərlə, özündən kiçiklərlə davranış və rəftar qaydalarını öyrədərkən, dərslərini hazırlamaqda kömək göstərərkən, yaxşı əməlinə görə onu rəğbətləndirərkən, bu və ya digər xoşagəlməz hərəkətə görə cəzalandırmaq istəyərkən müəyyən tələbləri, rəhbər müddəaları əsas götürürlər. Həmin tələb və müddəalar bir deyil, bir neçədir. Pedaqoji ədəbiyyatda onlar ailə tərbiyəsinin prinsipləri adlanır.

Ailə tərbiyəsinin prinsipləri dedikdə, ailədə tərbiyə prosesinin təşkilinin məzmunu, metod və formalarını müəyyənləşdirən rəhbər müddəalar başa düşülməlidir. Valideyn həmin tələbləri öz fəaliyyətində əsas götürür. Bu və ya digər prinsip konkret şəraitdə və situasiyalarda ayrı-ayrı uşaqlara yanaşma tərzini, fəaliyyətin ümumi istiqamətini göstərir.

Ailə tərbiyəsinin əsas prinsiplərini aşağıdakı kimi xarakterizə etmək olar:

– tərbiyədə məqsəd aydınlığı;
– tərbiyə işinin həyatla, əməklə və Azərbaycan Respublikasının quruculuğu ilə əlaqələndirilməsi;
– yaşauyğunluq;
– ailə tərbiyəsinin humanistyönlülük prinsipi;
– təbiətəmüvafiqlik prinsipi;
– mədəniyyətəmüvafiq tərbiyə prinsipi;
– fərdi xüsusiyyətlərin nəzərə alınması;
– tərbiyədə sistemlilik, ardıcıllıq və fasiləsizlik;
– nikbinlik (uşağın müsbət cəhətlərinə istinadən qüsurlarının aradan qaldırılması);
– uşağın şəxsiyyətinə hörmətlə düzgün tələbkarlığın uzlaşdırılması (tərbiyədə hörmət və tələbkarlıq);
– tələblərdə vahidliyin gözlənilməsi;
– tərbiyə prosesinə kompleks yanaşma.

Tərbiyədə məqsədaydınlığı prinsipi uşağın şəxsiyyətinin təşəkkül tapıb formalaşmasında mühüm əhəmiyyət daşıyır. Prinsipin mahiyyəti

ondan ibarətdir ki, valideyn tərbiyənin ümumi məqsədini aydın təsəvvür edir, yaxın vəzifələri müəyyənləşdirməyi bacarır, şüurlu şəkildə, fəal surətdə və təkidlə onları yerinə yetirməyə çalışır və o, övladının ləyaqətli vətəndaş kimi böyüməsində maraqlıdır.

Tərbiyələndirmək kimi mühüm, həyati əhəmiyyətli işdə ikinci dərəcəli, yaxud əhəmiyyətsiz məsələ yoxdur və ola da bilməz. Bu sahədə görülən tədbirlər məqsədyönlü olmalı, ümumbəşəri və milli dəyərləri əhatə etməli, uşaqları mədəni davranış və nəzakətli rəftar qaydalarına yiyələndirməli, mənəvi hiss, duyğu və şüuru formalaşdırmağa xidmət göstərməlidir. Haqqında danışılan prinsip ailədə aparılan tərbiyə işinin və tərbiyənin məqsədinə uyğun qurulmasını nəzərdə tutur, valideynin aydın perspektivə malik olmasını, qarşısında hansı vəzifələrin dayandığını və onları həyata keçirtmək üçün nələrin lazım gəldiyini bilməyi, əldə olunanların təhlilini aparmağı, yol verilmiş nöqsanları görməyi, tərbiyə işində yüksək nəticələr qazanmağı ondan tələb edir. Məqsəd aydın olmadıqda valideyn öz fəaliyyətində uğur qazana bilməz. Şərqin böyük sənət abidəsi olan "Kəlilə və Dimnə"də yazılmışdır: *"Ağıllı adam gərək işin əvvəlində onun sonunun nə ilə qurtaracağını gözünün qabağına gətirə, yola çıxmamış hara gedəcəyini müəyyən edə. Əks halda o, yolun ortasında avara qalar"* (1). Nəticə odur ki, məqsədin aydın başa düşülməsi və yerinə yetirilməsi ailədə uşaqlarla aparılan tərbiyə işlərinin səmərəliliyini artırır.

Tərbiyə işinin həyatla, əməklə və Azərbaycan Respublikasında dinc quruculuq işləri ilə əlaqələndirilməsi prinsipi. Həyatda, cəmiyyətimizdə, ölkənin daxilində və xaricində hər gün çox müxtəlif hadisələr baş verir. Həmin hadisələrin bəziləri bilavasitə uşaqların həyatı ilə bağlı olur. Onları sevindirir, yaxud kədərləndirir. Uşaqlar həmin hadisələrin bəzilərinin canlı şahidi olur, bir qismindən isə mətbuat, televiziya və radio, tay-tuşları, ailə üzvləri vasitəsi ilə xəbər tuturlar. Cəmiyyətin həyatında baş verən dəyişikliklər böyük əhəmiyyətə malikdir.

Bu gün ölkəmiz müharibə şəraitindədir. Əhalimizin milyon nəfərdən artığı (təxminən yeddidə bir hissəsi) qaçqın, köçkün, didərgin vəziyyətində yaşayır. İşğal olunmuş torpaqlarımızın azad edilməsi tam ciddiliyi ilə qarşıda dayanır. Vətənin müdafiəsinə hazır olmaq, dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsinə çıxmaq və s. təxirəsalınmaz vəzifələrdir. Valideynlər uşaqlarla tərbiyə işləri aparmaqla yanaşı, yeri gəldikcə, onları həyatda baş verən ayrı-ayrı hadisələrlə, ölkəmizdə gedən dinc quruculuq işləri, zəhmət adamları və onların fədakar əməyi ilə tanış etməlidirlər.

Uşaqlar müsbət nümunələr, mütərəqqi adət və ənənələr əsasında tərbiyə almalıdırlar. Lakin həyatdakı mənfiliklər, naqis hallar və onların doğurduğu nəticələrə də diqqət yetirilməlidir ki, həmin acı nəticələr uşaqlara məlum olsun.

Bu mənada tərbiyə işini həyatla əlaqələndirməyi mühüm tələb kimi götürmək, eyni prinsipə əsaslanmaq səmərəli nəticələnir. Türkiyə Respublikasının yaradıcısı və öndəri Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" devizinin mahiyyətini uşaqlara çatdırmaq olar. Biz sülh istəyir, müharibəyə nifrət edirik. Lakin… Vətən təhlükədə olanda ölüm-dirim savaşına atılmaq artıq zərurətə çevrilir. Tərbiyə işinin həyatla əlaqələndirilməsi ona görə vacibdir ki, gənc nəsil müvafiq mikro və makro mühitdə yaşayır, fəaliyyət göstərir. Müəyyən mühitdə yaşayıb onun təsirindən azad olmaq isə mümkünsüzdür.

Yaşauyğunluq prinsipi. Uşaqların yaş dövrlərini tarixən müxtəlif şəkildə təsnif etmişlər. "Qurani-Kərim"lə tanışlıqdan belə qənaət hasil olur ki, insan doğulandan həyatının sonuna kimi üç dövrü – *uşaqlıq, cavanlıq və qocalıq dövrünü* yaşayır. "Rum" surəsində deyilir: *"Sizi zəif yaradan, sonra sizə güc verən, sonra sizi zəiflədən, qocaldan Allahdır"*. Göründüyü kimi, burada üç dövr diqqət mərkəzində dayanır.

Məhəmməd peyğəmbər (s.ə.s.) yaş dövrlərinə münasibətini aşağıdakı şəkildə bildirmişdir: "Uşaq yeddi il ağa, yeddi il vəzir, yeddi il isə quldur". Burada "qul" deyəndə insanın cavanlığı, işə-gücə yararlı olduğu dövr nəzərdə tutulur. Həzrəti Əlinin qənaətincə, "Uşağı yeddi il azad buraxın, yeddi il ədəb və tərbiyə öyrədin, yeddi il isə işlədin". Məhəmməd peyğəmbər (s.ə.s.) də, imam Əli də yaş dövrlərinin yeddi-yeddi olmaqla, üç dövrünü diqqət mərkəzinə gətirirdilər: a) **ilkin uşaqlıq dövrü;** b) **uşaqlıq dövrü;** c) **erkən gənclik dövrü.**

Qədim Yunanıstan filosofu Aristoteldə (Ərəs-

tun) gənc nəslin həyatını yeddi-yeddi olmaqla, üç dövrə ayırmışdır: **0-7 yaş** (bitki dövrü, başqa sözlə, bitkiyə qulluq göstərmək vacib olduğu kimi, uşağa da baxılmalı, qayğısı çəkilməlidir); **7-14 yaş** (heyvani dövr, başqa sözlə, uşaqlarda iradi keyfiyyətlərin tərbiyə olunması); **14-21 yaş** (insani dövr, başqa sözlə, gənclərin zehni tərbiyəsi qayğısına qalmaq).

Çex pedaqoqu Y.A.Komenski yaş dövrlərini altı-altı olmaqla, dörd dövrə bölmüşdür: **0-6 yaş** (ailədə ana məktəbi – məktəbəqədər ailə tərbiyəsi); **6-12 yaş** (hər kənddə və qəsəbədə "ana dili" məktəbi); **12-18 yaş** (hər şəhərdə "latın məktəbi"), **18-24 yaş** (akademiya – ali məktəb).

Fransız maarifçilərindən Jan Jak Russonun bölgüsü digərlərindən fərqlənir. O, yaş dövrlərinin **0-2 yaş** (uşağın fiziki tərbiyəsinə diqqət yetirilir); **2-12 yaş** (əqli yuxu dövrü. Uşaq guya bu müddət ərzində hələ müstəqil şəkildə fikir söyləmək, mücərrəd anlayışları qavramaq iqtidarında deyil); **12-15 yaş** (əqli və əmək tərbiyəsi kimi səciyyələnən dövr); **15 yaş** (yetkinlik yaşınadək olan əxlaq tərbiyəsi dövrü) nəzərdə tuturdu.

Bütün bunları nəzərə alaraq uşaqların hazırda aşağıdakı yaş dövrlərini qeyd etmək lazımdır: *məktəbəqədər yaş dövrü, məktəb yaşı dövrü.* ***Məktəbəqədər yaş dövrü*** kimi şərti olaraq, uşağın anadan olduğu gündən məktəbə gedənə qədərki müddət götürülür. Bura ***çağalıq dövrü*** (0,6 yaş), ***körpəlik dövrü*** (0,6-2 yaş), ***erkən uşaqlıq dövrü*** (2-3 yaş) və ***məktəbəqədər yaş dövrü*** (3 yaşdan 6 yaşadək) aid edilir.

Məktəbəqədər yaş dövrü **üç** yerə – kiçik məktəbəqədər yaş (3-4,5 yaş), orta məktəbəqədər yaş (1,5-5,5 yaş), böyük məktəbəqədər yaş dövrünə (5,5-6 yaş) bölünür.

Məktəb yaşı dövrü də üç yerə – *kiçik məktəb yaşı* (6-10 yaş), *orta məktəb yaşı* (10-15 yaş), *böyük məktəb yaşına* (15-17 yaş) bölünür. Orta məktəb yaş dövrünü **yeniyetməlik yaşı**, böyük məktəb yaş dövrünü isə **ilk gənclik yaşı** adlandırırlar. Yeniyetməlik yaş dövrü də iki yerə – kiçik və böyük yeniyetməlik yaşına ayrılır.

Göstərilən yaş dövrlərində uşaqların inkişafı **üç** istiqamətdə gedir: *anatomik-fizioloji inkişaf; psixoloji inkişaf; intellektual-mənəvi inkişaf.*

Uşaqların hər yaş dövrünə xas səciyyəvi xüsusiyyətləri mövcuddur. Məktəbəqədər dövrdə kiçik yeniyetmə yaşlı uşağın böyük yeniyetmə yaşındakı uşaqla ilk gənclik yaşındakı uşağın xarakteri, fərdi xüsusiyyətləri, əqli inkişafının səviyyəsi, dünyagörüşü, hətta anatomik-fizioloji məlumatları və s. eyni deyildir. İbtidai siniflərdə oxuyan şagirdlərin təlim materialı orta və yuxarı siniflərə nisbətən asan olur. Eləcə də kiçik məktəbyaşlı şagirdlərlə müqayisədə orta və böyükyaşlı məktəblilərə daha mürəkkəb tələblər irəli sürülür. Deməli, yaş xüsusiyyətləri nəzərə alınır. Konkret şəxsin, o cümlədən, uşaqların hər birinin özünəməxsus fərdi xüsusiyyətləri mövcuddur. Həm də müvafiq yaş dövründə bütün məktəblilər üçün eyni dərəcədə səciyyəvi sayılan xüsusiyyətlər də vardır.

Kiçik məktəb yaşı dövründə (I-IV siniflər) uşaqlar emosionallıq, tərifi xoşlamaq və bundan ruhlanmaq, böyüklərə, doğmalara, valideynə və müəllimə ehtiram, hörmət və inam bəsləmək, eyni zamanda, tez yorulmaq, diqqətdə davamsızlıq, səmimi olmaq və s. ilə seçilirlər. Digər yaş dövrləri ilə müqayisədə 6-10 yaşlı uşaqlar təlimə səyli münasibət, ata-ananın və müəllimin sözünə baxmaq, sinifdənxaric tədbirlərə, əyləncə və bayramlara, gəzintiyə, ekskursiyaya böyük maraq göstərmək, həssaslıq, intizamı gözləmək və həm də tənəffüslərdə dəhlizdə qaçmaq, bir-birilə tutaşmaq və s. ilə fərqlənirlər. Valideynin övladlarıyla, eləcə də müəllimin həmin uşaqlarla ünsiyyəti, rəftar və yanaşma tərzi onların bir-biri ilə qarşılıqlı münasibətlərinin xarakterini müəyyənləşdirir. Ata-ananın və müəllimin şəxsi nümunəsinin oğlan və qızlardan ötrü əhəmiyyəti böyükdür. Uşaqlarda özlərini ata-analarına, müəllimlərinə bənzətmək meyli qüvvətli olur.

Bu yaş dövründə uşaqlarda təlimə şüurlu münasibəti, iradi keyfiyyətləri inkişaf etdirib formalaşdırmaq nəticəsində onlarda fəallıq, müstəqillik, mütəşəkkillik, təşəbbüskarlıq, öyrənilən mövzulara maraq yaranır. Onlarda getdikcə müqayisə və ümumiləşdirmələr aparmaq, müvafiq nəticələrə gəlmək bacarıqları və vərdişləri artır, güclənir. Bu yaş dövründə uşaqlarda insanlara və təbiətə qayğıkeş münasibət, xeyirxahlıq, Vətən sevgisi, böyüyə hörmət, düzlük və doğruluq, yoldaşlıq və s. kimi müsbət keyfiyyətləri uğurla inkişaf etdirmək mümkündür.

Orta məktəb yaşı dövründə (V-IX siniflər) uşaqlarda orqanizmin bütün sistemi əsasən for-

malaşır. Anatomik-fizioloji inkişaf əsaslı dəyişikliklərlə müşayiət olunur. Bu dəyişikliklər uşaqların psixikasında öz izlərini buraxır. Haqqında danışılan yaş dövrü yeniyetməlik yaşına düşür. Başqa yaş dövrləri ilə müqayisədə yeniyetməlik yaşı özünün ziddiyyətləri ilə seçilir və uşaqlıq dövrü ilə gənclik yaş dövrü arasında bir növ körpü rolunu oynayır. Uşaqlarda böyüklərə xas əlamətlər meydana gəlir. Yeniyetmələr yaşlıların nümunəsini mexaniki təkrarlamaqdan azad olur, öz hərəkət, davranış və rəftarlarına tənqidi yanaşmağa başlayırlar.

Böyük məktəb yaşı dövrünü (X-XI siniflər) bioloji yetişkənliyin başa çatması dövrü kimi səciyyələndirmək mümkündür. Uşaqlar ilk gənclik yaş dövrünə qədəm qoyurlar. Onlarda təbiətdə və cəmiyyətdə baş verən hadisələrə, insanların qarşılıqlı münasibətlərinin xarakterinə özündən əvvəlki yaş dövrlərindən fərqli yeni baxışlar sistemi təşəkkül tapır, psixikalarında köklü dəyişikliklər baş verir, maraqları bir tərəfdən dərinləşir, digər tərəfdən fərdiləşir. Onlar müstəqil həyatın astanasında dayandıqları üçün, həm də öz gələcəkləri barədə düşünür, hislərini tənzimləməyi və idarə etməyi bacarırlar. Müstəqil peşə seçimi edir, valideynləri ilə də məsləhətləşir, müvafiq qərara gəlirlər.

İlk gənclik yaşında olan oğlan və qızlar yoldaşlıq və dostluq münasibətlərində daha sabitqədəmdirlər, yoldaşları arasından baxışları, maraqları, əqidələri, xarakterləri uyğun gələn dostlarını müəyyənləşdirirlər. Bu dostluq bəzən illərlə, ömürlərinin sonuna kimi davam edir. Oğlan və qızların qarşılıqlı münasibətlərində də əsaslı dəyişiklik baş verir. İlk sevgi də bu yaş mərhələsində yaranır. Bəziləri qonşu, məhəllə, sinif, yaxud məktəb yoldaşları arasından gələcək ömür-gün yoldaşlarını seçirlər. Valideynlər, müəllimlər, sinif rəhbərləri də onların yoldaşlıq, dostluq, məhəbbət hislərinə qayğı ilə yanaşmalı, yersiz eyhamlara, sorğu-suallara yol verməməlidirlər.

Ailə tərbiyəsinin humanistyönlülük prinsipi. Bu prinsip Yan Amos Komenskinin əsərlərində, Jan Jak Russo və Lev Tolstoyun azad tərbiyə nəzəriyyəsində özünün ifadəsini tapır. Haqqında danışılan bu prinsip valideynin subyektiv münasibətləri əsasında öz münasibətlərini düzgün qurmağı bacaran övladına müstəqil subyekt kimi yanaşmasını nəzərdə tutur. Bu prinsipdən istifadə şəxsiyyətin təşəkkülünə və onun sosiallaşmasının bütün aspektlərinə müsbət təsir göstərir.

Humanistyönlülük prinsipindən faydalanma imkan verir ki, refleksiya və özünütənzim inkişaf etsin, ətraf aləmlə münasibətlər formalaşa bilsin, şəxsi ləyaqət hissi təşəkkül tapsın, şərəf hissi inkişaf etsin, məsuliyyət, təmkin formalaşsın.

Təbiətəmüvafiqlik prinsipi. Yan Amos Komenski hələ XVII əsrdə diqqəti bu prinsipin geniş imkanlarına yönəltmişdir. Onun pedaqogikası təbiətəmüvafiqlik prinsipinə əsaslanırdı. Bu prinsip sonralar – XVIII-XIX əsrlərdə xüsusilə dəbdə olmuşdur. Hazırda təbiətəmüvafiqlik prinsipi aşağıdakıları nəzərdə tutur:

– uşağın cinsini və yaşını hesaba almaqla tərbiyələndirmək;

– təbiətin və insanın inkişafının ümumi qanunlarını əsas götürməklə tərbiyə işlərini qurmaq;

– təbii və sosial proseslərin qarşılıqlı əlaqəsinin elmi cəhətdən başa düşülməsinə yönəltmək;

– uşaqda özü-özünün inkişafına görə məsuliyyətini formalaşdırmaq.

Təbiətəmüvafiqlik prinsipinə uyğun olaraq uşaqlarda təbiətə, planetə, biosferə münasibət üzrə müvafiq etikyönümün, həmçinin təbiəti mühafizə və ehtiyatların qorunması üzrə təfəkkürün və davranışın tərbiyə edilməsi lazımdır. Y.A.Komenskinin qənaətincə, "insan təbiətin bir hissəsidir. Ona görə də onun ümumi qanunlarına tabe olmalıdır" (2, s.19).

Mədəniyyətəmüvafiq tərbiyə prinsipi. İngilis pedaqoqu Con Lokkun (XVII əsr), fransız mütəfəkkiri Helvetsinin (XVIII əsr) və Avstraliya alimi İohan Henrix Pestalotsinin (XIX əsr) əsərlərindən qaynaqlanmışdır. XIX əsrdə Adolf Disterveq bu prinsipi formalaşdırmışdır. Disterveqə görə, mədəniyyətəmüvafiq tərbiyə prinsipinin mahiyyəti ondan ibarətdir ki, "uşağın tərbiyəsində təbii ki, yaş xüsusiyyətlərindən başqa bir də doğulduğu və gələcəkdə yaşayacağı yerin şəraiti, vaxtı nəzərdə tutulmalıdır".

Yeni pedaqoji təfəkkür şəraitində mədəniyyətəmüvafiq tərbiyə prinsipi o deməkdir ki, tərbiyə mədəniyyətin ümumbəşəri dəyərlərinə əsaslanmalı, bu və ya digər milli mədəniyyətin dəyərlərinə, normalarına, səciyyəvi xüsusiy-

yətlərinə uyğun şəkildə qurulmalı və digər regionun ənənələrinə də uyğun gəlməli, ümumbəşəri dəyərlərə zidd olmamalıdır.

Fərdi xüsusiyyətlərin nəzərə alınması prinsipi. Hər bir şəxs özünəməxsus fərdi xüsusiyyətlərə malikdir. Zahiri bənzərlik mümkün olduğu halda, xarakter və xasiyyətcə heç kim birbirinə oxşamır. Nəsrəddin Tusi yazırdı: "Heç bir surət bir-birinə oxşamadığı kimi, heç bir xasiyyət də başqa xasiyyətə oxşamaz. Ona görə də tərbiyə və təlimdə ehmallıq göstərilsə, hər kəsin cilovu öz təbiətinin ixtiyarına verilsə, o, bütün ömrüboyu hansı xasiyyətdə doğulmuşdursa, elə də qalar" (3). Odur ki, Tusi valideynlərə məsləhət görürdü ki, övladlarının tərbiyəsi ilə yaxından məşğul olsunlar və onlara vicdanlı olmağı öyrətsinlər.

Ailə tərbiyəsində fərdi fərqləri hesaba almaqla səmərəli nəticələr qazanmaq olar. Fərdi fərqlər temperamentin tiplərindən irəli gəlir. Mövcud ədəbiyyatda dörd temperament tiplərini xassələrinə görə aşağıdakı şəkildə səciyyələndirirlər: ***sanqvinik*** – zirək, ***fleqmatik*** – sakit, ***xolerik*** – coşqun, ***melanxolik*** – zəif.

Sanqvinik tip üçün səciyyəvidir: gümrah, şən və işgüzar olmaq, başladığı işi bəzən axıra çatdırmamaq, özünü lazım olandan çox qiymətləndirmək, uğursuzluqdan tez təsirlənmək, şəraitə uyğunlaşmağı bacarmaq, hər hansı bir işə girişib həmin işdən başqasına keçmək, həmişə gümrah əhval-ruhiyyədə olmaq və s.

Xolerik tipə xas əlamətlər bunlardır: bir yerdə qərar tuta bilməyən, narahat, hövsələsiz, təşəbbüskar, qətiyyətli, kobud, inadkar, hazırcavab, risk edən, kinsiz, tez özündən çıxan, məqsədə çatmaq yolunda inadkar, əhvalı tez dəyişən və s.

Fleqmatik temperament tipinə məxsus əlamətlər: ehtiyatlı və ağıllı olmaq, soyuqqanlılıq, qaradinməzlik, səliqəlilik və intizamı xoşlamaq, təmkinlilik, boş-boş danışmağı xoşlamamaq, gün rejimini ciddi gözləmək, hamıya eyni cür yanaşmaq, yeni şəraitə gec alışmaq, hislərini cilovlaya bilmək və s.

Melanxolik tip üçün səciyyəvidir: hər şeyi ürəyinə salmaq, həssaslıq, utancaqlıq, yeni şəraitdə özünü itirmək, tanış olduğu yeni şəxslərlə ünsiyyətə girməkdə çətinlik çəkmək, tənhalığı xoşlamaq, küsəyənlik, təsir altına tez düşmək, özünə, həm də başqalarına tələbkar yanaşmaq və s.

Valideyn uşağının fərdi fərqlərini öyrənib, bunları nəzərə almaqla tərbiyə işlərini qurmursa, təbii ki, tərbiyəetmə fəaliyyətində çətinliklərlə qarşılaşacaqdır. Hər bir uşağın, qızın və oğlanın fərdi xüsusiyyətlərini bilmək və həmin xüsusiyyətləri hesaba almaq tərbiyə prosesində müvəffəqiyyətin rəhnidir.

Tərbiyədə sistemlilik, ardıcıllıq və fasiləsizlik prinsipi. Uşağın hərtərəfli və ahəngdar inkişafına tərbiyə vasitəsi ilə nail olunur. Lakin istənilən fəaliyyət sistemli şəkildə aparıldıqda, ardıcıllıq gözlənildikdə səmərəli nəticələr qazanılır. Valideyn övladları ilə qarşılıqlı münasibətlərdə konkret tərbiyəvi vəzifələri yerinə yetirir. Bu vəzifələr bir-biri ilə sıx surətdə bağlıdır. Tərbiyənin tərkib hissələri, komponentləri, istiqamətləri arasında əlaqə gözlənilməlidir. Ardıcıllıq bu əlaqələrin mütəmadi şəkildə bir-birini izləməsini nəzərdə tutur.

Ailədə aparılan sistemli tərbiyə işləri məktəbdə təlim prosesində, tənəffüslərdə, təhsilalanların asudə vaxtlarında davam etdirilməli, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə daha da inkişaf etdirilib möhkəmləndirilməlidir.

Tərbiyə işi sürəkli, uzunmüddətli bir prosesdir. Ona görə o fasilələri xoşlamır. Bir də görürsən ki, valideyn müəyyən müddət tərbiyə ilə ciddi məşğul olur, övladlarının davranış, rəftar və ünsiyyət tərzinə, qardaş-bacıları, məktəb, sinif və məhəllə yoldaşları ilə onların qarşılıqlı münasibətlərinin xarakterinə diqqət yetirir. Bu zaman müvafiq tələblər irəli sürür, tapşırıqlar verir, onların özfəaliyyəti, müstəqilliyi, təşəbbüskarlığı qayğısına qalır. Sonra birdən-birə sanki ciddiliyi, tələbkarlığı azalır, tərbiyə işinə fikir vermir. Tez-tez güzəştə gedir, tələblər irəli sürmür, ehtiyac olmadan güzəştə gedir, uşağı bağışlayır, "yazığı gəlir", "halına acıyır". Tapşırıq verir, onun necə yerinə yetirildiyini və ümumiyyətlə, yerinə yetirilib-yetirilmədiyini yoxlamır. Və yaxud da xeyli vaxt keçdikdən sonra yadına düşür ki, oğluna nə isə tapşırmışdır. İcranın vəziyyətindən xəbər tutmaq istəyəndə məlum olur ki, atanın (ananın) maraqlanmadığını görən uşaq tapşırılan işi yerinə yetirməmişdir. Yaxud valideyn "Sizi konsertə aparacağam" və s. bu kimi verdiyi vədə əməl etmir. Təbii ki, bu, uşağın diqqətindən yayınmır, onu arxayınlaşdırır, əvvəlki kimi davranış və rəftarına fikir vermir. Deməli, tərbiyədə fasilə yaranmışdır. Tərbiyə prosesi isə bu fasiləni

xoşlamır.

Başqa hallara da təsadüf olunur. Valideyn xoşagəlməz hərəkətinə görə uşağı cəzalandıracağını bildirir, lakin dediyini unudur. Uşaq cəzasız qalır. Belə vəziyyət bir neçə dəfə təkrar olunur. Uşaq atanın (ananın) sözünün söz olaraq qalacağı qənaətinə gəlir. Beləliklə, valideyn özü sözünün təsirini aşağı salır. Uşaq isə onun dediklərinə laqeyd yanaşır. Nəticədə, tərbiyədə sistem, ardıcıllıq pozulur. Bu isə yolverilməzdir.

Nikbinlik prinsipi. Uşağın yaxşı keyfiyyətlərini əsas götürmək, onun qabiliyyət və bacarığını, istedadını qiymətləndirməklə mənfi cəhətlərini aradan qaldırmağı nəzərdə tutur. Uşaqlar arasında elələri vardır ki, ailədəki yanlış tərbiyə, məhəllə mühitinin pozucu təsiri altında özünü yaxşı aparmır, özündən kiçikləri incidir, həmyaşıdları ilə kobud davranır, savaşır, məktəbdə dərsə mane olur, söyüş söyür, intizamı pozur, məşğələlərdən qaçır. Valideynlər belə yeniyetmələrlə ehtiyatlı davranmaq əvəzinə, onlarla ixtilafa girir, kobud davranır, üstlərinə qışqırır, bəzən də onları döyürlər. Bu kimi hallar isə valideyn-övlad münasibətlərini çətinləşdirir. Bir sıra hallarda sözəbaxmaz, düzəlməz saydıqları bu yeniyetmələrdən əllərini üzür, onların tərbiyə olunmasının qeyri-mümkünlüyü barədə bədbin əhval-ruhiyyəyə qapılırlar. Nikbinlik prinsipi yeniyetməyə münasibətdə nikbin olmağı, bu sahədə bədbinliyə qapılmamağı tələb edir.

Pedaqoji prosesdə nikbin olmaq nəyi nəzərdə tutur? Heç kim anadan nümunəvi, intizamlı, bilikli, başqa sözlə, ən yaxşı mənəvi keyfiyyətlərə yiyələnmiş şəkildə və yaxud intizamsız, mənfi keyfiyyətlərlə doğulmur. Uşağın xarakteri düşdüyü mühitin, aldığı tərbiyənin təsiri nəticəsində formalaşır. Lakin uşaq və yeniyetmə şəxsiyyətinin hansı şəkildə təşəkkül tapmasından asılı olmayaraq, onu müsbət pedaqoji təsirlərlə əhatə etmək mümkündür. Hətta nümunəvi sandığımız uşaq və yeniyetmənin xarakterində də xoşagəlməz cəhətlər (təkəbbürlük, lovğalıq, xudpəsəndlik və s.) olur. Lakin onun uğurlarının fonunda böyüklər bu cəhətlərə fikir vermirlər. Əslində bunlar valideynin diqqətindən yayınmamalıdır. İntizamsız, yaxşı oxumayan, mənfi davranışı və mənfi keyfiyyətləri ilə başqalarında narahatçılıq doğuran yeniyetmələrə gəldikdə isə, onları gözdən salmaq lazım deyildir. Tərbiyədə nikbinlik prinsipinə "Uşağın müsbət keyfiyyətlərinə istinad etməklə ondakı qüsurların aradan qaldırılması prinsipi" də deyirlər. Elə bir insan tapmaq olmaz ki, o, yalnız bütün mənfi keyfiyyətləri özündə cəmləşdirsin. Həyatda diqqət mərkəzində olmayan, yaxşı oxumayan, hansısa işi, hərəkəti ilə fərqlənməyən şəxslər bəzən ekstremal şəraitlərdə elə mərdlik nümunəsi göstərirlər ki, yaxşı insan sandığımız bəziləri belə vəziyyətlərdə sadəcə seyrçi kimi dayanıb baxır, yaxud üzlərini çevirib keçirlər.

Valideyn və müəllimlər "yolagəlməz", "düzəlməz", "çətin", "tərbiyəsiz" hesab etdiyi övladına nikbin nəzərlə baxdıqda, onun da yola gələcəyinə, düzələcəyinə, tərbiyəli və nümunəvi olacağına inandıqda və bu istiqamətdə fəaliyyət göstərdikdə müsbət nəticələr əldə edirlər. Deməli, çalışmaq, səy göstərmək, çətinliklərdən qorxmamaq lazımdır.

Yeniyetmələr hərtərəfli öyrənilməlidir. Bu zaman mənfi keyfiyyətləri ilə bərabər onların müsbət tərəfləri də (mərddir, qorxmazdır, cəsurdur, qüvvətlidir, yaxşı idmançıdır, foto ilə, rəsmlə məşğul olur, yaxşı səsə malikdir, tarda, qarmonda ifa edir və s.) aşkara çıxacaqdır. Onların istedad və qabiliyyətləri nəzərə alınıb rəğbətləndirildikdə müsbət nəticələrə nail olunur.

Uşağın şəxsiyyətinə hörmətlə düzgün tələbkarlığın uzlaşdırılması *(tərbiyədə hörmət və tələbkarlıq)* **prinsipi.** Məhəllədə futbol oynayarkən uşaq qonşunun pəncərəsinin şüşəsini sındırmışdır. Oğlan savaşmışdır. Valideyn nə etməlidir? Bir də görürsən ki, ata, yaxud ana uşağın üstünə qışqırır, onu təhqir edir. "Heyvan", "yaramaz", "axmaq", "tərbiyəsiz", "intizamsız" və s. bu kimi sözlərlə onun şəxsiyyətini alçaldır. Hətta uşağa əl qaldıran valideynlər də var.

Uşaqdan cəmiyyətdə mövcud olan etik normaları yerinə yetirməyi, düzgün davranmağı, intizamı gözləməyi tələb etmək lazımdır. Tutduğu xoşagəlməz hərəkətə və ya əmələ görə, əlbəttə, o, tərifləmməyəcək, əksinə, müvafiq cəza alacaqdır. İntizama nail olmaq, uşaqlarda mədəni davranış adət və vərdişlərini formalaşdırmaq üçün ailənin hər bir yaşlı üzvü, valideyni mehriban, qayğıkeş, səmimi olduğu qədər, həm də ciddi və tələbkar olmalıdır. Lakin tələbkarlıq heç də əsas vermir ki, onlar uşağın şəxsiyyətini təhqir etsin, ləyaqətini alçaltsınlar. Naqis əməlinə görə

uşağa güzəştə getmək yox, onu cəzalandırmaq ata-ananın borcudur. Axı cəzasızlıq intizamsızlıq yaradır. Fəqət cəzanın şəxsiyyətin mənliyini tapdalayan söymək, döymək, təhqir etmək kimi yolverilməz üsullarına əl atmaq pedaqoji mərifətsizlik, etikasızlıqdır, tərbiyəçinin nüfuzuna xələl gətirir, onun hörmətini aşağı salır, pedaqoji səriştəsizliyini, təcrübəsizliyini, acizliyini göstərir.

Ailədə olduğu kimi məktəbdə də şagirdlərə bir çox tələblər verilir. Tələbin onlar tərəfindən başa düşülməsinə, ona əməl edilməsinin zəruriliyinə inam oyatmaq üçün bir sıra şərtlər gözlənilməlidir. Onları nəzərdən keçirək:

– Tələblər pedaqoji etika çərçivəsində verilməli, pedaqoji mərifətə və fakta əməl edilməlidir.

– Tələb uşağa aydın olmalıdır.

– Uşağın yaşı nəzərə alınaraq ona tələb qoyulmalıdır.

– Tələb onun gücünə uyğun gəlməlidir.

– Tələblər irəli sürülərkən uşağın fiziki və ruhi vəziyyəti, əhvalı nəzərə alınmalıdır. Uşaq xəstə, dalğın, qanıqara, əhvalı pərişan ola bilər. Təbii ki, belə vəziyyətlərdə o, tələbə maraq göstərməyəcək, yaxud onu könülsüz yerinə yetirəcəkdir.

– Valideynin tələbləri ədalətli olmalı, subyektiv mülahizələrə söykənməməlidir. Əks-təqdirdə uşaqda tələblərə, sərəncama, tapşırılan işə hiddət və acıq yarana bilər. O, tələbi yerinə yetirməkdən imtina edər ki, bu da valideyn-övlad münasibətlərini çətinləşdirər, ixtilaflı vəziyyət doğurar.

– Ata-analar tələblərində ardıcıllığı gözləməlidirlər.

– Ardıcıl bir neçə tələbin irəli sürülməsi məqsədəuyğun deyildir.

– Tələblər tərbiyənin məqsədinə zidd olmamalı, əksinə, onun yerinə yetirilməsinə istiqamətlənməlidir.

Ailədə isə valideyn tələb verdikdən sonra fikrini dəyişib, yersiz güzəştə getməməlidir. İkincisi, ailə üzvləri vahid dəst-xətti gözləməlidirlər. Atanın verdiyi düzgün tələb ana tərəfindən, ananın verdiyi tələb isə ata tərəfindən müdafiə olunmalıdır. Müxtəlif tələblərin verilməsi uşaqda tələbə qarşı etinasızlıq yaradır və onu belə qənaətə gətirir ki, tələbə əməl etmək heç də məcburi deyildir. Yaxud hansı tələb onun ürəyincə olursa, ona əməl edir. Valideyn tələbin yerinə yetirilib-yetirilmədiyinə nəzarət etməlidir. Bəzən uşaq tələbə qarşı durur. Təbii ki, bu da yaxşı hal deyildir. Odur ki, soyuq, rəsmi şəkildə tələbi yerinə yetirməyin lazım gəldiyini ona xatırlatmaq lazımdır.

Nəticə. Dediklərimizdən belə nəticəyə gəlmək olar ki, nümunəvi valideyn insan şəxsiyyətini alçaldan vasitələrə müraciət etmir, əksinə, daha səmərəli təsir üsulları axtarıb tapır. Uşağın şəxsiyyətinə hörmət və tələbkarlıq yanaşı getməlidir. Tərbiyənin bu prinsiplərdən düzgün istifadə edən valideynlər öz fəaliyyətlərində səmərəli nəticələr əldə edirlər.

ƏDƏBİYYAT

1. Kəlilə və Dimnə. Bakı, Öndər, 2004.
2. Seyidov Ə.Y. Pedaqogika tarixi. Bakı, Maarif, 1968.
3. Tusi N. Əxlaqi-nasiri. Bakı, Lider, 2005.
4. Abbasov A.N. Pedaqogika (dərs vəsaiti). Bakı, Mütərcim, 2013.
5. Abbasov A.N. Pedaqogika. Müxtəsər konspekt və sxemlər (dərs vəsaiti). Bakı, Mütərcim, 2007.

A.Abbasov

Principles of family upbringing

Summary

The article defines the principles of family upbringing, their essence, content, their importance in raising children and the role they play. At the same time using these principles of upbringing, parents can achieve productive outcomes in their activites.

А.Аббасов

Принципы семейного воспитания

Резюме

В статье определены принципы семейного воспитания, их сущность, содержание, их важность в воспитании детей и роль которую они играют. В то же время делается вывод о том, что воспитание детей может быть эффективно использовано в их деятельности, если они будут эффективно использовать обучение.

SƏRİŞTƏLİ MÜƏLLİM HAZIRLIĞI PEDAQOJİ TƏHSİLİN ƏSAS HƏDƏFİ KİMİ

Müseyib İlyasov,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
kafedra müdiri, pedaqogika üzrə elmlər doktoru, professor
e-mail: museyibilyas@gmail.com

UOT: 37.01

Xülasə. *Səriştəlilik əsasən pedaqoji fəaliyyət prosesində formalaşsa da, onun əsası pedaqoji təhsil zamanı qoyulur. Ona görə də tələbələrin peşə-ixtisas hazırlığında onların bir səriştəli müəllim kimi hazırlanması üçün bəzi vacib problemlərin həllinə nail olmaq lazım gəlir. Bunlar əsasən tələbələrdə peşəkarlıq və səriştəlilik motivlərinin, səriştəlilik üçün zəruri sayılan keyfiyyətlərin formalaşdırılması və pedaqoji təhsildə bir sıra praktiki fəaliyyət növlərinin həyata keçirilməsindən ibarətdir. Məqalədə müəllimlərdə pedaqoji səriştəliliyin zəif olmasının səbəbləri araşdırılmış və pedaqoji təhsil dövründə tələblərdə pedaqoji səriştəliliyin ilk elementlərinin formalaşdırılmasının forma və metodları şərh edilmişdir.*

Açar sözlər: *müəllim, peşəkarlıq və səriştəlilik, peşə bilikləri, motiv, adaptasiya.*
Key words: *teacher, professionalism and competency, professional knowledge, motif, adaptation.*
Ключевые слова: *учитель, профессионализм и компетентность, профессиональные знания, мотив, адаптация.*

Peşəkarlıq və səriştəlilik müəllimin peşə fəaliyyətinin əsas atributlarından biridir. Peşə fəaliyyətinin əsas uğuru müəllimin peşəkarlıq və səriştəlilik səviyyəsinin yüksəkliyi ilə xarakterizə olunur. Səriştəlilik uğura aparan əsas yolun başlanğıcıdır. Müəllim səriştəli olduqda onun pedaqoji fəaliyyəti bütün istiqamətlərdə özünəməxsus məzmun və xarakter alır, seçilir, fərqlənir. Lakin səriştəlilik nə diplomla verilir, nə də birdən-birə formalaşır. Onun qazanılması bilavasitə pedaqoji proseslə, həm də yaradıcı şəkildə axtarışlar aparmaqla müəllimin müntəzəm olaraq üzərində çalışması, nəzəri və praktiki bilik və bacarıqlarını artırması ilə sıx bağlıdır. Təcrübə qazanmaq, onu artırmaq, nəzəriyyə ilə təcrübənin vəhdətinə nail olmaq kimi proseslər pedaqoji səriştəliliyi artırır, dərinləşdirir. Bunlardan əvvəl isə onun formalaşmasının əsası müəllim hazırlığı prosesində, yəni pedaqoji təhsil zamanı qoyulur. Bu zaman alınan nəzəri biliklər səriştəliliyin qazanılması üçün əsas baza rolunu oynayır. Onun möhkəm və dərin olması, bilavasitə səriştəliliyin qazanılmasına istiqamətləndirilməsi gələcək müəllimlərin peşəkarlıq və səriştəlilik bacarıqlarının ilkin rüşeymlərinin yaranmasına səbəb olur.

Ona görə də müəllimin pedaqoji peşəkarlığının və sərişt əliliyinin formalaşmasına pedaqoji təhsil illərindən, yəni peşə biliklərinin aşılanması prosesindən başlanılmalıdır.

Peşə bilikləri peşə fəaliyyətinin nəzəri və praktiki əsaslarının mənimsənilməsindən ibarət olduğundan pedaqoji fəaliyyətin səviyyəsinə də ciddi təsir göstərir. Peşə biliklərinin dərin olması, müasir tələblərə, peşə və ixtisas hazırlığının standartlarına cavab verməsi müəllim peşəsinin əsaslarını mənimsəmədə böyük rol oynadığı kimi, gələcək müəllimlərin sərişt əliliyə malik olmalarına da əsaslı təsir edir. Ali məktəbdə bu istiqamətdə formalaşmış bilik, bacarıq və vərdişlər pedaqoji fəaliyyətdə peşəkarlıq və sərişt əliliyin özünü göstərməsi ilə müşayiət olunur.

Pedaqoji fəaliyyətdə mühüm rol oynayan sərişt əlilik müəllimi bir peşəkar kimi xarakterizə edən başlıca keyfiyyətdir. Sərişt əlilik zəifdirsə, müəllim fəaliyyətinin məhsuldarlığı da, nəticəsi də zəif olacaqdır. Ona görə də müəllimin pedaqoji sərişt əliliyə yiyələnməsi onun bir müəllim kimi formalaşmasının əsasını təşkil edir.

Aparılan çoxsaylı müşahidə və araşdırmalar göstərir ki, bu gün ali təhsil diplomu alaraq müəllim kimi fəaliyyətə başlayan məzunların əksəriyyəti nəzəri hazırlığa malik olduqları qədər praktiki bacarıq və vərdişlərə malik deyildirlər. Onlar müəyyən səviyyədə məktəbin həyatında fəal şəkildə iştirak edə bilmirlər. Tədris etdiyi fənnin nəzəri əsaslarını yaxşı bilsələr də, onların çatdırılmasında, şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında, təhsilalanlarla və onların valideynləri ilə ünsiyyətdə, şagird kollektivinin təşkilində, şagirdlərin təfəkkür və təxəyyüllərinin inkişaf etdirilməsində optimal metod və priyomlardan istifadə etməklə istiqamətverici, bələdçi kimi funksiyalarını reallaşdırmaqda çətinlik çəkirlər, yəni sərişt əlilik göstərə bilmirlər. Bunun aşağıda qeyd olunan bir sıra obyektiv və subyektiv səbəblərini qeyd etmək olar:

1. Orta məktəbdə peşəyönümü işlərinin düzgün aparılmaması nəticəsində pedaqoji təhsil alan tələbələrin bir qisminin yalnız ali təhsil almaq xatirinə pedaqoji təhsil müəssisələrində oxuması. Bu günün həqiqəti belədir. Apardığımız təhlillər göstərir ki, orta məktəblərdə şagirdlərin peşəyönümü işlərinə lazımi səviyyədə diqqət verilmədiyindən onların peşə, ixtisas seçimlərində çox yanlışlıqlar olur. Onların bir qismi hansı fənn blokunu yaxşı mənimsəyiblərsə, orada olan ixtisaslardan birini, yaxud da qəbul imtahanı zamanı topladıqları müəyyən ballar hansı ixtisasa uyğun gəlirsə oranı da seçirlər. Nəticədə müəllimlik peşəsi ilə bağlı ixtisaslar üzrə təhsil alan tələbələrin heç də hamısı müəllimlik peşəsini sevdikləri, yaxşı müəllim olacaqları arzusu ilə bu peşəni seçmirlər. Belə tələbələr yalnız ali təhsil almaq xatirinə bu ixtisasa yiyələnirlər. Onların gələcəkdə peşəkar və sərişt əli müəllim olacaqları, daim üzərlərində işləyərək müəllimlik sənətinin fövqündə dayanacaqları bir o qədər də inandırıcı görünmür. Fikrimcə, gələcəyin əsl müəllimlərini orta məktəb partaları arxasında hazırlamaq, oradan seçmək, ən yaxşı ümidverici şagirdlərini müəllim peşəsinə istiqamətləndirmək təhsilimizin uğurlu əllərdə olmasına möhkəm zəmin ola bilər. Bu, cəmiyyətimizin, millətimizin gələcəyi ilə bağlı bir problem olduğundan orta məktəblərdə şagirdlərimizin müəllimlik peşəsinə yönəldilməsinə ciddi yanaşmaq tələb olunur.

2. Pedaqoji ali təhsil müəssisələrinin tədris planlarında tələbələrin praktiki hazırlıqlarına verilən vaxtın nəzəri hazırlığa nisbətən daha az olması və praktikyönümlü fəaliyyətin zəifliyi. Ali məktəblərdə təlimin əsas təşkili forması olan mühazirənin xüsusi rola malik olduğu şübhəsizdir. Lakin mühazirələrin ənənəvi formalarda aparılması, hətta bəzi müəllimlərin hələ də "imla" deyərək onu yazdırması, tələbələrlə heç bir əks əlaqə yaratmadan, müzakirə doğuran problemləri onlarla bərabər, pedaqoji prosesin tərəfdaşı kimi qarşılıqlı şəkildə həll etmədən aparılması, əlbəttə onun dəyərini və təsir imkanlarını çox aşağı salır. Tədris planlarının təhlili göstərir ki, tələbələrin auditoriya məşğələlərinin çox hissəsi mühazirələrin payına düşür ki, bunun da nəticəsində məzunların praktiki hazırlıqlarının səviyyəsi çox aşağı olur.

Son dövrlər novator müəllimlərin bir qisminin mühazirə mətnlərini əvvəlcədən tələbələrə çatdıraraq öyrənmələrini tapşırmaları, məşğələ zamanı isə onu geniş şəkildə müzakirə formasında apararaq tədris prosesini təşkil etməsi müsbət hal kimi dəyərləndirilməli və bu təcrübə geniş-

ləndirilməlidir. Digər tərəfdən də yeni tədris planları hazırlanarkən laborator-praktikyönümlü məşğələ saatlarının artırılması tələbələrin praktiki hazırlığının yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərərdi.

3. Tələbələrin müstəqil işlərə, kurs və buraxılış işlərinə praktikyönümdən yanaşa bilmələri. Tələbələrin praktiki hazırlıqlarının zəif olmasının bir səbəbi də özünü bu məsələlərdə büruzə verir. Müstəqil işlər, kurs işləri, buraxılış işləri, hətta pedaqogika, psixologiya və metodika fənlərindən aparılan tələbə elmi-tədqiqat işləri də nəzəri şərhlərdən, praktiki əsasa söykənməyən, təcrübədən doğmayan sırf nəzəri məsələlərdən ibarət olur. Tələbələr məktəb təcrübəsindən, özlərinin müşahidə materiallarından istifadə edə bilmirlər. Başqa sözlə, kitabların təsiri altında olur, təhlillər, ümumiləşdirmələr aparmağı bacarmır, müstəqil nəticələr çıxara bilmirlər. Bunların nəticəsi olaraq, ali pedaqoji təhsil müəssisələrinin məzunlarının bir qismi diplom aldıqları vaxtdan iki-üç ay keçməsinə baxmayaraq müəllim seçimində, xüsusən də praktiki hazırlıq üzrə müvafiq ballar toplaya bilmədiklərinə görə işlə təmin ola bilmirlər.

4. Pedaqoji təhsil müəssisələrinin orta məktəblərlə əlaqəsinin lazımi səviyyədə olmaması. Bu işdə pedaqoji təmayüllü ali məktəblərin nəzdində baza məktəblərinin olmaması böyük maneçilik törədir. Hələ vaxtı ilə görkəmli rus alimi M.V.Lomonosov universitetlərin yanında gimnaziyaların olmasını vacib hesab etmiş və gimnaziyası olmayan universitetləri "şumlanmış, lakin toxum əkilməmiş torpağa" bənzətmişdir.

Bir neçə il öncə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Səbail rayonundakı 7 nömrəli tam orta məktəbin baza məktəbi kimi Azərbaycan Dövlət Pedaqoji Universitetinə verilməsi, Bakı Slavyan Universitetinin nəzdində məktəb-lisey kompleksinin və Odlar Yurdu Universitetinin özünün orta məktəbinin olması bu sahədə təqdirəlayiq addım kimi dəyərləndirilməlidir. Lakin bunlarla kifayətlənmək olmaz. Hələ aşağı kurslardan, xüsusən psixologiya və pedaqogika fənlərinin öyrənilməsi prosesində tələbələrin orta məktəblərlə əlaqəsinin yaradılması, onların pedaqoji prosesdə iştirak etmələri olduqca faydalı olardı. Vaxtı ilə tədris planlarında olan və orta məktəblərdə həyata keçirilən pedaqogikadan laborator-praktiki məşğələlər tələbələrin həm praktikyönümlü fəaliyyətdə iştirak etmələrində, həm də yuxarı kurslarda keçəcəkləri pedaqoji təcrübəyə hazırlıqda olduqca yaxşı nümunə idi. Bu tipdə olmasa da, bir qədər yeni və daha optimal formada tələbələrin orta təhsil ocaqlarından yararlanmalarına geniş şərait yaradılması onların həm praktiki hazırlıqlarının yüksəlməsinə, həm də orta məktəblərlə əlaqələrinin güclənməsinə mühüm töhfələr verərdi.

5. Müəllim peşəsinə sosial adaptasiya üzrə tələbələrlə psixoloji-pedaqoji işlərin zəif aparılması. Pedaqoji ali və orta ixtisas təhsili müəssisələrində bu istiqamətdə işlərin hansı səviyyədə aparıldığına diqqət etsək görərik ki, nazirlik və universitet rəhbərliyi səviyyəsində bu problemə xüsusi diqqət yetirilməsinə baxmayaraq, ayrı-ayrı müəllimlər tərəfindən bu sahədə görülən işlər heç də yüksək səviyyədə deyildir. Tədris planlarında müəllimlərin peşə-ixtisas hazırlığı fənlərinin imkanlarının zəifliyi bir yana, mövcud imkanlardan da lazımi səviyyədə istifadə olunmur. Bunun da əsas səbəbi ali məktəb müəllimlərinin bəzilərinin sərişt əlilik səviyyələrinin o qədər də yüksək olmamasıdır.

Təcrübə göstərir ki, pedaqoji təhsil alan tələbələrlə sosial-peşə adaptasiyası üzrə işlərə geniş yanaşılmalı, pedaqoji təmayüllü təhsil ocaqlarında oxuyan hər bir tələbənin bu peşəyə, ixtisasa adaptasiya olunmasına xüsusi diqqət yetirilməlidir. Bu, gələcək müəllimlərin öyrəndikləri peşəyə dərindən yiyələnməsində mühüm mərhələ olduğu kimi, həm də onların bu sahəyə daha sıx bağlanmalarına zəmin yaradardı. Bunun üçün zəruri olan məsələlərdən biri onların müəllimlik fəaliyyətinə psixoloji cəhətdən də hazırlanmalarının təmin edilməsidir ki, bunların da içərisində peşə motivlərinin formalaşdırılması xüsusi yer tutur.

Motivlər təlimin əsas elementi olmaqla, tələbələrin öyrənmə-idraki fəaliyyətlərində rəhbərlik mövqeyindəki təhriklərdir. Bunlar təhrikedici rol oynamaqla tələbələrdə öyrənmə, biliklərə yiyələnmə tələbatlarının artmasına da impulslar

verir, onu daha da gücləndirir.

Öyrənmə motivlərinin sırasında idraki maraq və tələbatların xüsusi yer tutduğu intellektual-təhrikedici motivlər tələbələrdə müəllim sənətinə, pedaqoji peşənin sirlərinə dərindən yiyələnmə tələbatlarını daha da gücləndirir. Tələbələrdə müəllimlik peşəsinə motivlərin formalaşdırılmasında idraki və sosial motivlərin elə bir kombinasiyası yaranır ki, bunlar da gələcək pedaqoqlarda zəruri bir sıra peşəkarlıq vərdişlərinin və peşə səriştəliliyinin yaranmasında mühüm zəmindir. Ona görə də pedaqoji təhsil prosesində elə motivlərin formalaşdırılmasına nail olmaq lazım gəlir ki, onlar tələbələrin fəallığını təmin edə bilsin, öyrənilən hər bir fənn tələbə üçün şəxsi məna kəsb etsin və yaranmış motivlərin dərk olunma səviyyəsi yüksəlsin.

Motivlərin başqalarının təsiri ilə yaranan xarici, yaxud tələbələrin özlərinin daxilindən gələn öz təşəbbüsləri ilə yaranan daxili motivlər olması da, onların peşəkarlıq və səriştəliliyə yiyələnmələrində az rol oynamır. Təcrübə göstərir ki, xarici motivlər bu prosesdə müəyyən təsir gücünə malik olsalar da, əsas rol daxili motivlərə məxsusdur. Daxili motivlər daha güclü, daha dərin və davamlı olmaqla tələbələrin müəllimlik peşəsinə daha ürəkdən bağlanmalarına səbəb olur.

Peşəkarlıq və səriştəlilik keyfiyyətlərinin daxili motivlər hesabına yaranması tələbələrin gələcək peşə fəaliyyətində xüsusi əhəmiyyət kəsb etdiyindən başlıca məsələlərdən biri, onlarda peşəkarlığa və səriştəliliyə səbəb olacaq motivlərinin formalaşdırılmasına nail olmaqdır. Bu prosesin iki mərhələdən və bir sıra metod və priyomlardan istifadə edilməklə aparılması əlverişlidir.

Birinci mərhələ tələbələrin təlim-idrak motivlərinin öyrənilməsindən ibarətdir. Motivlərin öyrənilməsi onun formalaşdırılması ilə qırılmaz surətdə bağlı olduğundan ona xüsusi əhəmiyyət verilməlidir. Bunun üçün aşağıdakı məsələlərin həyata keçirilməsi vacibdir:

– öyrənmə-idrak fəaliyyətinin məqsədlərinin müəyyənləşdirilməsi;

– motivlərin əsas səbəblərinin öyrənilməsi;

– motivlərin dinamikasının, dinamik inkişafının öyrənilməsi.

İkinci mərhələ motivlərin formalaşdırılması ilə bağlıdır. Tələbələrdə motivlərin formalaşdırılması üçün bir sıra rəngarəng metod və vasitələrdən istifadə etmək, həmçinin xüsusi treninqlərin aparılması da olduqca vacibdir.

Tələbələrdə peşə səriştəliliyi və peşəkarlığın ilk elementlərinin formalaşdırılmasında özünütəhrik, özünəinam motivlərinin yaranmasına və tərbiyə edilməsinə də xüsusi önəm verilməlidir. Bunun üçün tələbələrlə aşağıdakı məzmunda bir sıra işlərin aparılması zəruridir:

– müəllim peşəsinin zəruriliyinə, müqəddəsliyinə və ən şərəfli peşə olmasına onlarda inamın formalaşdırılması;

– tələbələrdə özünəinam hislərinin möhkəmləndirilməsi və inamsızlığa sövq edən söz və hərəkətlərə yol verilməməsi;

– tələbələrin daxili aləminə nüfuz edə bilməklə, onlarda müəllimlik peşəsində yüksək nailiyyətlər qazana biləcəklərinə inam yaratmaq;

– tələbələri müəllimlik peşəsinin sirlərinə yiyələnməyə stimullaşdırmaq və s.

Tələbələrdə peşəkarlıq və səriştəlilik motivlərinin formalaşdırılması pedaqoji fəaliyyət üçün təsirsiz qalmır. Bu təsir özünü həm tələbəlik illərində, həm də ondan sonrakı dövrlərdə bu və ya digər dərəcədə büruzə verir. Onlar tələbəlik illərində özünü aşağıdakı şəkildə göstərə bilir:

1. Tələbələrə pedaqoji peşənin sirlərinə daha dərindən yiyələnməyə və bu istiqamətdə əsaslı bilik, bacarıq və vərdişlər qazanmağa təhrikedici təsir göstərir.

2. Tələbələrdə müəllim üçün zəruri sayılan bir sıra peşə keyfiyyətlərinin tərbiyə olunmasına, müəllim peşəsinə dərin və davamlı maraq oyadılmasına zəmin yaradır.

3. Tələbələrdə müasir dövrün artan tələblərinə cavab verən peşəkar və səriştəli müəllimlərə ehtiyac olması təsəvvürü və pedaqoji peşənin sosial dəyərini dərk etmək qabiliyyətlərini formalaşdırır.

4. Müəllim peşəsinə adaptasiyaedici təsir göstərməklə gələcək müəllimlərin bu peşəyə və seçdikləri ixtisasa dərindən bələd olmasına və bağlanmasına təsir göstərir.

5. Müəllim peşəsinin nüfuzunu qorumaq, onun şərəfli adına layiq olmaq təşəbbüsünü formalaşdırır, özünü müəllim kimi görmək arzusunun

reallaşmasına stimullar yaradır və s.

Aydın məsələdir ki, müəllim üçün zəruri olan və ola biləcək bir çox səriştəlilik keyfiyyətlərinin müəllim hazırlığı prosesində, tələbəlik illərində yaradılması imkan xaricindədir. Bu, əsasən müəllimin peşə fəaliyyəti ilə paralel gedən bir prosesdir. Lakin tələbələrlə bu istiqamətdə işlərin aparılması gələcək fəaliyyət üçün elə bir baza, elə bir əsas yaradır ki, onu heç nə ilə əvəz etmək olmaz. Bu baxımdan da müasir dövrdə tələbələrin peşə hazırlığı prosesində müəllimin peşə səriştəliliyi üzrə müəyyən işlərin aparılmasına ciddi ehtiyac vardır. Bunun üçün pedaqoji təhsil müəssisələrində aşağıdakı bir sıra işlərin aparılması zəruridir:

– pedaqoji peşəyönümünün gücləndirilməsi, tələbələrdə müəllimlik peşəsinə maraq və meylin formalaşdırılması;

– tələbələrlə sistemli iş aparmaqla müəllim üçün zəruri olan bir sıra pedaqoji qabiliyyətlərin formalaşdırılması;

– pedaqoji təcrübənin, seminar və laborator məşğələlərin məzmununu dərinləşdirməklə tələbələrin praktiki peşə bacarıqlarının artırılması;

– peşə bacarıqları və səriştəliliyi formalaşdıra biləcək yeni ixtisas kurslarının tədris planına daxil edilməsi;

– tələbələrdə peşəkarlıq və səriştəlilik motivlərinin gücləndirilməsinə təsir edə biləcək auditoriyadankənar tədbirlərdən istifadə edilməsi və s.

Ona görə də gələcək müəllimlərin ixtisas hazırlığı ilə yanaşı, onlarda bir sıra səriştəlilik və peşəkarlıq keyfiyyətlərinin formalaşdırılması önə çəkilməlidir. Bunlar həm də gələcək müəllimlərin peşə marağının daha da gücləndirilməsində və gələcəkdə yeni-yeni kompetensiyaların yaranmasında mühüm əhəmiyyətə malikdir. Bu baxımdan tələbələrin hələ təhsil illərində seçdikləri ixtisas üzrə səriştəliliyə yiyələnməsi üçün aşağıdakı bir sıra praktiki fəaliyyətin reallaşdırılmasını vacib hesab etmək olar:

1. Qəbul imtahanları zamanı müəllim peşəsinə seçimin aparılmasına xüsusi önəm verilməsi və bu sahədə abituriyentlərin maraq, bacarıq və qabiliyyətlərinin nəzərə alınması.

2. Tələbələrin müəllim peşəsinə psixoloji hazırlığının keyfiyyətinin yüksəldilməsi, pedaqoji peşəyönümünün gücləndirilməsi, onlarda müəllimlik peşəsinə maraq və meylin formalaşdırılması.

3. Tədris prosesində yeni təlim texnologiyalarından istifadəyə üstünlük verilməsi, seminar və laborator məşğələlərin məzmununu dərinləşdirməklə tələbələrin praktiki peşə bacarıqlarının artırılması.

4. İlkin müəllim hazırlığında tələbələrin pedaqoji təcrübəsinin intensivləşdirilməsi, görülən işlərin məzmununun dərinləşdirilməsi və praktikyönümlülüyün təmin edilməsi.

5. Qabaqcıl ölkələrin səriştəli müəllim hazırlığı proqramının mənimsənilməsi və ondan yaradıcılıqla istifadə edilməsi.

6. Tədris planına tələbələrdə praktiki peşə bacarıqları və səriştəliliyi formalaşdıra biləcək "Müəllim peşəkarlığı və səriştəliliyi", "Müəllimin bədən dili", "Pedaqoji etika", "Praktiki pedaqogika" və s. kimi yeni ixtisas kurslarının daxil edilməsi.

7. Tələbələrdə praktiki bacarıq və vərdişlər aşılaya biləcək auditoriyadan kənar fəaliyyət növlərinin təşkilinə və aparılmasına xüsusi diqqət verilməsi və s.

Nəticə. Bütün bunlar məktəblərimizin daha səriştəli, daha bacarıqlı və müəllimlik sənətini sevərək onu seçən, müəllimlik peşəsinin ləyaqətini qoruyan müəllimlərlə təmin edilməsinə, nəticədə isə xalqımızın, millətimizin daha savadlı, bilikli olmasına gətirib çıxardır.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". Bakı, 2013.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, Ozan, 1998.
3. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı, Elm və təhsil, 2018.
4. İlyasov M.İ. Şagirdlərin peşə seçməyə hazırlanması. Bakı, Elm, 2009.
5. Mehrabov A.O. Səriştəli müəllim hazırlığının problemləri. Bakı, Elm və təhsil, 2015.

M.Ilyasov

Training qualified teachers as the main goal of teacher education

Summary

Although the skill is formed in the pedagogical process, its foundation is laid in the process of teacher education. Therefore, in the training requirements, it is necessary to solve a number of important tasks in order to prepare them as a competent teacher. Basically, this is the formation of students' professionalism and competence motivation, the formation of skills necessary for competence, as well as the implementation of a number of practical exercises in teacher education. The article discusses the reasons why pedagogical competence is weak among teachers, and interprets the form and methods of forming the first elements of pedagogical competence in teaching in the process of pedagogical education.

М.Ильясов

Подготовка компетентных учителей как основная цель педагогического образования

Резюме

Хотя умение формируется в педагогическом процессе, его основа закладывается в процессе педагогического образования.

В основном это профессионализм и компетентность студентов, навыки, неободимые для компетентности, и реализация ряда практических занятий в педагогическом образовании. В статье рассмотрены причины слабой педагогической компетентности учителей, а также интерпретированы форма и методы формирования первого элемента компетентности у студентов в период обучения.

PEŞƏ TƏHSİLİNDƏ PEDAQOJİ PROSESİN MƏRHƏLƏLƏR ÜZRƏ İDARƏ EDİLMƏSİ

Şahrza Ağayev,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, qabaqcıl təhsil işçisi
e-mail: shahrza-a@mail.ru

Aybəniz Əliyeva,
Bakı şəhəri 83 nömrəli məktəb-liseyin tərbiyə işləri üzrə direktor müavini
e-mail: slicey83@mail.ru

UOT: 37.01; 377

Xülasə. *Məqalədə peşə təhsilində pedaqoji prosesin mərhələlərinin səciyyəvi xüsusiyyətləri, mühüm cəhətləri, birinin digəri üçün əsas olması və bu işdə müəllimin səriştəsi, standartlar əsasında modulun tətbiqinə əsaslanan müasir pedaqoji prosesin mərhələlərinin mahiyyəti, peşə təhsilində pedaqoji prosesin inkişaf ardıcıllığına hazırlıq, əsas və yekun mərhələlərinin müəyyən sistem təşkil etməsi, pedaqoji texnologiyaların komponentləri, praktiki nümunələr şərh edilmişdir.*

Açar sözlər: *peşə, hazırlıq, əsas, yekun, pedaqoji diaqnostika, strategiya, konseptuallıq, təhlil və özünütəhlil.*
Key words: *profession, preparation, main, closing, pedagogical diagnosis, strategy, conceptuality, analysis and self-analysis.*
Ключевые слова: *род занятий, подготовка, базовый, итоговый, педагогическая диагностика, стратегия, концептуальность, анализ и самоанализ.*

İnsanın fiziki və mənəvi qüvvəsinin tətbiqi sahəsi olan peşə, xüsusi hazırlıq və iş təcrübəsi sayəsində qazanılan nəzəri bilikləri və əməli vərdişləri özündə əks etdirən əmək fəaliyyətidir. Məqsədyönlü əmək fəaliyyəti üçün peşə hazırlığını təmin edən təhsildə pedaqoji prosesin mərhələləri üzrə təlim işinin təşkili həmişə aktuallıq kəsb etmişdir. Müasir dövrün tələblərinə uyğun peşə hazırlığı beynəlxalq səviyyədə keyfiyyət daşıyaraq, insan kapitalını təcəssüm etdirməlidir. Peşə hazırlığı əməyin ilk bölgüsü, müəyyən insan qruplarının və ya fərdin heyvandarlıq və əkinçiliklə məşğul olması ilə başlanmışdır. Müxtəlif məhsulların mübadiləsi tədricən mürəkkəb xarakter aldıqca, yeni peşələrə ehtiyac yaranaraq, cəmiyyətin sonrakı inkişafı nəticəsində yeni sənətlər və sənətkarlar – ovçular, dəmirçilər, daşyonanlar, xarratlar, dərzilər yaranmış və müasir texnoloji sahələrin meydana gəlməsinə səbəb olmuşdur.

Hər hansı bir peşə (ixtisas) müəyyən qabiliyyət tələb edir. Peşələrin hamısı üçün yaradıcılıq qabiliyyəti vacib şərtdir. Müəyyən sənəti və ya ixtisası öyrənmək və bu sahədə uğurla çalışmaq üçün insan peşənin şəxsiyyət qarşısında qoyduğu tələblərə tam cavab verməlidir. Peşə seçən şəxslərdən konkretlik, dəqiqlik, icra intizamı, səliqəlik tələb olunur. Həmin keyfiyyətlər bəzi sahələrdə böyük rol oynamaya bilər, lakin texnika ilə işləyən şəxslər üçün onlar həyati əhəmiyyətə malikdirlər. Yaradıcılıq, ixtiraçılıq, texniki fantaziya, yeni əmək məhsulları və iş üsulları formalaşdırmaq peşə təhsilində pedaqoji prosesin mərhələlərinin reallaşdırılması ilə həllini tapmış olur.

Təcrübə göstərir ki, işdə müvəffəqiyyət qa-

zanmaq ümumi və xüsusi qabiliyyətlərin qarşılıqlı sintezi ilə mümkündür. Hər bir şəxs məşğul olduğu fəaliyyət sahəsinin konkret tələblərindən asılı olaraq, fizioloji xüsusiyyətlər əsasında qabiliyyətini inkişaf etdirir. Hər hansı bir əmək fəaliyyəti sayəsində qabiliyyət təzahür edir, formalaşır. "Çayın sahilində dayanmaqla üzməyi öyrənmək olmaz" müdrik kəlamı bu yerdə məntiqli səslənir. Həyatda müəyyən qabiliyyətə malik olmayan insan tapmaq çətindir. Müşahidə göstərir ki, bəzi peşə və ya ixtisasın özü müəyyən səbəbdən (səhv düşəndə) insan üçün faydalı olmur. Ona görə də gənclərin peşə və ya ixtisas seçimində diqqətli olmaları, şəxsi keyfiyyətləri, qabiliyyətləri və fizioloji xüsusiyyətlərini araşdırmaqla seçim aparmaları vacibdir. Peşə təhsilində pedaqoji prosesin mərhələləri öz tələbləri ilə biri digəri üçün əsas olmalıdır. Bu işdə müəllimin səriştəsi mühüm əhəmiyyət kəsb edir. Açıq etiraf etməliyik ki, standartlar əsasında modulun tətbiqinə əsaslanan müasir pedaqoji prosesin mərhələləri mahiyyətinə görə peşə təhsilində lazımınca dəyərləndirilmir.

Peşə təhsilində pedaqoji prosesin inkişaf ardıcıllığına **hazırlıq, əsas** və **yekun** mərhələlər daxil olmaqla, müəyyən sistem təşkil olunur. **Pedaqoji prosesin hazırlıq mərhələsində** nəzərdə tutulmuş istiqamətdə vəzifələrin həyata keçirilməsi üçün qarşıya qoyulan məqsədin, mövcud şəraitin diaqnostikası, nailiyyətlərin proqnozlaşdırılması, prosesin inkişafının planlaşdırılması və s. vacibdir. Qarşıya qoyulan məqsəd pedaqoji prosesin konkret sistemi ilə bağlı olur. Bu mərhələdə tədris müəssisələrinin tələbə kontingentinin real imkanları arasındakı ziddiyyətlər aşkara çıxarılır. Planlaşdırılan prosesdə həmin ziddiyyətlərin həlli yolları hərəkətverici qüvvə kimi keyfiyyətin yüksəldilməsini təmin edir.

Peşə təhsilində pedaqoji prosesin hazırlıq mərhələsinin məqsəd və vəzifələri diaqnostik araşdırmaların aparılması ilə müəyyənləşdirilir. Pedaqoji diaqnostika prosesin baş verəcəyi şərtləri və şəraiti aydınlaşdırmaq istiqamətində aparılan tədqiqatdır. Burada məqsəd nəzərdə tutulan nəticələrə nail olmağa kömək göstərmək və ya mane ola biləcək səbəblər haqqında aydın təsəvvür əldə etməkdir. Diaqnostika zamanı öyrədən və öyrənənlərin real imkanları, onların əvvəlki hazırlıq səviyyəsi, əməliyyatın baş verdiyi şərait və digər bir çox vacib şərtlər haqqında lazım olan bütün informasiyalar toplanılır, pedaqoji prosesin gedişi və nəticələri proqnozlaşdırılır. Proqnozlaşdırmanın mahiyyəti proses başlamazdan əvvəl mövcud konkret şəraitdə əldə ediləcək mümkün nəticələrə ilkin qiymətin verilməsindən ibarətdir. Mürəkkəb metodlarla həyata keçirilən proqnozlaşdırma pedaqoqlara pedaqoji prosesin səmərəli olacağını və ya arzuolunmaz nəticələrə gətirib çıxaracağını gözləmədən, onun planlaşdırılmasına və gedişinə fəal müdaxilə etmək imkanı yaradır. Prosesin inkişafının planlaşdırılması təlimin strategiyası ilə şərtlənir. **"Strategiya"** yunan mənşəli söz olub, ***"sərkərdənin incəsənəti"*** mənasını verir. Təhsildə təlim strategiyası öyrədənin öyrənən qarşısına qoyulan məqsədə çatmaq üçün öyrətmə metod və üsullarından istifadəsi kimi başa düşülür. Təlim strategiyaları özündə təhsilin, dövlətin mədəni, siyasi və ictimai reallığı ilə bağlı bütün komponentlərini ehtiva edir. Müşahidələrdən aydın olur ki, təlim strategiyalarına inteqrativ yanaşma təhsilin keyfiyyətinin və öyrənənlərin müvəffəqiyyətlərinin artmasına gətirib çıxarır. Eyni zamanda, təlim strategiyaları dəqiq nəticə əldə etmək üçün qurulan təlim modelidir və onlar xüsusi proqramlarla həyata keçirilir. Bu məqsədlə biliyi eşitmə, görmə və əməli şəkildə almaq prosesində öyrənənlərə keyfiyyətli tədris üçün çoxsaylı təlim strategiyası yaradılmışdır. Belə təlim metodlarından – *əqli hücum, BİBÖ, Venn diaqramı, şaxələndirmə, anlayışın çıxarılması, layihələndirmə, kublaşdırma* və s. qeyd etmək olar. Kublaşdırma tədqiqat metodlarından biri olub, mövzunun hərtərəfli öyrənilməsinə şərait yaradır. Kublaşdırma vasitəsi ilə tələbə mövzunu təsvir və müqayisə etməyə, əlaqələndirməyə, təhlilə, tətbiq və mübahisəyə yönəldir.

Təlim strategiyaları müəyyən əsaslar üzrə qurulur. Bura daxildir: *fəal və özünüidarə edən təhsil; tələbələrin bilik və bacarıqlarına əsaslanma; refleksiyaya istiqamətlilik; tələbənin idrakının, sosial kompetentliyinin inkişafı; təlim prosesində interaktivlik və kooperativlik.*

Pedaqoji prosesdə təlim strategiyası ilə yanaşı, təlim texnologiyaları da tətbiq edilir.

Lakin onlar arasında oxşar və fərqli cəhətlər vardır. Hər ikisi öyrənəni inkişafa yönəltməyə, bilik qazanmağa, qoyulan məqsədə çatmağa kömək edir. Bu həm də oxşar cəhətlər üçün xarakterikdir. Fərqli cəhətləri isə pedaqoji proesdə məqsədə çatmaq üçün meydana çıxan sualın qoyuluşuna uyğun axtarılan cavabın məzmununda əksini tapmışdır. Təlim strategiyası "Təlimin bu və başqa məqsədlərinə çatmaq üçün biz nə edirik?" sualına təlim texnologiyası isə "Təlim məqsədlərinə effektli çatmaq üçün biz nə etməliyik?" sualına cavab verir.

Rusiyalı tədqiqatçı German Selevkonun fikrincə, hər bir pedaqoji texnologiya sistemliliyi və ardıcıllığı özündə ehtiva edir. O, aşağıdakı bir neçə əsaslı metodoloji tələblərə cavab verməlidir:

• **Konseptuallıq** – hər bir pedaqoji texnologiyanın elmə əsaslandığını nəzərdə tutur və özündə təhsil məqsədlərinə çatmaq üçün psixoloji, didaktik, sosial-pedaqoji prosesləri ehtiva edir.

• **Sistemlilik** – özündə sistemin bütün xüsusiyyətlərinin olması deməkdir, onu isə prosesin məntiqli hissələrinin bir-biri ilə qarşılıqlı bağlanması, tamlığın əmələ gəlməsi kimi izah etmək olar.

• **İdarəetmə** – təlim prosesinin layihələndirmə, planlaşdırma, tələbələrin qarşılıqlı fəaliyyətlərinin idarə olunması mərhələlərini əhatə edir. Bu zaman diaqnostik analiz apararaq, səhvlərin düzəldilməsi, ayrı-ayrı vasitələrdən istifadə və təhsil prosesini idarə etmək imkanları yaranır.

• **Effektivlik** – çox mürəkkəb bir şəraitdə yaranan təlimin effektivliyində onun başqa texnologiyalardan fərqi aşkarlanmalıdır ki, bu da öz növbəsində, təyin olunmuş bilik standartının yiyələnməsinə təminat versin.

• **Yenidən tətbiqolunma** – pedaqoji texnologiyanın başqa subyektlər tərəfindən digər oxşar eynitipli məktəblərdə istifadə etməsini nəzərdə tutur.

Təlim texnologiyalarının tətbiqi zamanı şərait, pedaqoji-psixoloji mühit və sinfin səviyyəsindən asılı olaraq, müxtəlif tələbləri nəzərə almaq və bunları düzgün tətbiq etmək zərurəti ortaya çıxır.

İnsanın ağlını, təfəkkürünü inkişaf etdirən təhsil strategiyaları və təlim texnologiyaları dərketmə-koqnitiv nəzəriyyə əsasında qurulmuşdur. Koqnitiv elmi nəzəriyyənin əsasları İsveçrə psixoloqu Jan Piaje və keçmiş sovet psixoloqu Vıqotskiyə məxsusdur. Koqnitiv nəzəriyyə, yəni dərketmə nəzəriyyəsi konstruktivizmə aiddir. Dərketmə prosesində hər bir tələbə öz bilik və təcrübəsindən çıxış edərək, yeni biliklərini yaradır.

Pedaqoji prosesdə əsas mərhələ aşağıdakı qarşılıqlı, əlaqəli mühüm elementləri özündə birləşdirir:

– qarşıdakı fəaliyyətin məqsəd və vəzifələrinin müəyyən olunması və izah edilməsi;

– pedaqoqlarla öyrənənlərin bir-birinə qarşılıqlı təsiri;

– pedaqoji prosesin nəzərdə tutulmuş metodları, vəzifələri və formaları;

– əlverişli şəraitin yaradılması;

– öyrənənlərin fəaliyyətini stimullaşdırmaq üçün müxtəlif tədbirləri həyata keçirtmək;

– pedaqoji prosesin digər proseslərlə əlaqəsini təmin etmək.

Pedaqoji prosesin səmərəsi üçün təhsildə idarəetmə fəaliyyətinin məqsəd və vəzifələrinin təşkilində aşağıdakı zəruri məsələlər həllini tapmalıdır:

– idarəetmənin quruluşunun müəyyənləşdirilməsi;

– hər dövr üçün quruluş, məzmun və funksional komponentlərin ayrılması;

– idarəetmənin bütün dövrlərində işdə olan çətinlikləri aradan qaldırmaq üçün qarşılıqlı fəaliyyətin təşkil edilməsi;

– pedaqoji və tələbə kollektivləri səviyyəsində idarəetmə bacarığının öyrənilib həyata keçirilməsi;

– əks-əlaqə, koordinasiya və idarəetmədə münasibətlərin yaradılması.

Peşə təhsilində müəllim pedaqoji prosesin əsas mərhələsi üzrə məqsəd və vəzifələri müasir pedaqoji texnologiyalara istinad etməklə həyata keçirə bilər. Təcrübə göstərir ki, peşə təhsilində ixtisasını mükəmməl bilən mütəxəssis pedaqoji prosesin tələblərini mərhələlər əsasında qurmaqda çətinlik çəkir. Öyrənənin ahəngdar inkişafı təmin edilmir. Ona görə də təhsilalan bazar iqtisadiyyatının rəqabətində istədiyinə nail ola bilmir.

Praktiki mənada pedaqoji texnologiya dedikdə, həm də qarşıya qoyulmuş məqsədəuyğun olaraq bilik, bacarıq, vərdiş və münasibətləri formalaşdırmaq və onlara nəzarəti həyata keçirtmək üçün əməliyyatlar kompleksi başa düşülür. Pedaqoji texnologiyada müəllimin fəaliyyətinin funksional komponentlərinə ***qnostik (idraki), layihələşdirici, konstruktiv, təşkilatçılıq, kommunikativlik (ünsiyyət)*** daxildir.

Müəllimin vəzifəsi təlim texnologiyalarının ardıcıllıqla gerçəkləşdirdiyi bilikləri toplamaq, təlim-tərbiyənin məqsədlərini layihələşdirmək, təlim-tərbiyə prosesini təşkil etmək, bilikləri tələbələrə öyrətmək əməliyyatlarından ibarətdir. Bu məqsədlə pedaqoji texnologiyada müəllimin fəaliyyətinin funksional komponentlərinin mahiyyətinə aydınlıq gətirməyi məqsədəuyğun sayırıq:

Qnostik komponentə görə müəllim təlim-tərbiyənin məqsədlərini, tədris etdiyi fənnin məzmunu barədə bilikləri, təlim prinsiplərini və texnologiyalarını öyrənməklə öyrədici və tərbiyəedici məşğələlər aparmaq kimi əməliyyatları həyata keçirməlidir.

Layihələşdirici komponentin tələbinə uyğun olaraq, müəllim uzaq məqsədləri (perspektivləri), əməliyyatları, vasitələri özündə birləşdirməyi təmin etməlidir.

Konstruktiv komponent dedikdə, qarşıdakı məşğələni hazırlamaq üçün əməliyyatlar komplekti başa düşülür.

Təşkilatçılıq komponenti məşğələləri hazırlamaq və keçirtmək üçün əməliyyatlar komplektini nəzərdə tutur.

Kommunikativ komponent isə tələbələrlə qarşılıqlı ünsiyyət prosesi zamanı fəaliyyət üçün əməliyyatlar komplektini özündə birləşdirir.

Texnologiyaların müxtəlif təsnifatlarından ikisi – ***pedaqoji və psixoloji texnologiyalar*** xüsusilə qeyd edilir. Pedaqoji texnologiyalarda əməliyyatlar və hərəkətlər fiziki cəhətdən hiss olunur. Psixoloji texnologiyalar isə gizli xarakter daşıyır. Bu, konkret insanın psixikasında baş verən əməliyyat və hərəkətlərdir.

Pedaqoji və psixoloji texnologiyalar arasında dəqiq sərhədi müəyyənləşdirmək olduqca çətindir. Pedaqoji texnologiyalara təlim, tərbiyə, inkişaf və diaqnostika texnologiyaları aiddir.

Təlim texnologiyası dedikdə, bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün əməliyyatlar kompleksi nəzərdə tutulur.

Tərbiyə texnologiyası nisbi, sabit və müntəzəm olaraq ümumiləşən münasibətlərin məqsədyönlü formalaşdırılması üçün əməliyyatlar komplektidir. Tələbənin kimliyini şəxsiyyət baxımından kəşf etmək üçün müəllimin apardığı əməliyyatlar tərbiyə texnologiyası ilə şərtlənir. Hər tələbəyə müəllim fərdi yanaşmaqla istedadını üzə çıxartmaq məqsədi daşıyır. Bununla da o, kəşf edilən tələbəyə yanaşma tərzini müəyyənləşdirir, nisbi, sabit və müntəzəm olaraq ümumiləşən münasibətlərin məqsədyönlü formalaşdırılması üçün əməliyyatlar həyata keçirir. Məsələn, müəllim tələbəni yalnız dərs prosesində deyil, sinifdənkənar tədbirlərdə, istehsalat təcrübəsində əməli fəaliyyət zamanı müşahidə yolu ilə, eyni zamanda, dərs vaxtı və dərsdən sonra həmkarları ilə münasibətdə (tədbirlərdə, davranışda və s.) onu izləməklə kəşf edir.

İnkişaf texnologiyası təlim-tərbiyə texnologiyaları ilə əlaqədar olub, əqli bacarıqların formalaşdırılması kimi nəzərdə tutulur. Deməli, bacarıqların formalaşdırılması harada baş verirsə, orada da psixi inkişaf müşahidə olunur. Analoji olaraq qeyd edə bilərik ki, fiziki inkişaf zamanı fiziki bacarıqlar nəticə kimi özünü göstərir.

Diaqnostika texnologiyası pedaqoq və psixoloqların tələbərin məktəbə hazırlığını diaqnozlaşdırmaqla apardıqları əməliyyatların məcmusudur.

Pedaqoji texnologiyaların psixi materialı kimi təlim prosesində biliklər predmetlərin və hadisələrin psixi obrazlarıdır. 12 növ analizatorun beyinə gətirdiyi informasiya orada 12 növ obraz yaradır. Deməli, biliklər öyrənənlərin psixikasında formalaşmış obrazlardır. Əgər biliklərin psixi materialı obyektlərin və ya hadisələrin obrazlarıdırsa, onda inkişafın psixi materialı da psixi əməliyyatlardır. Bu əməliyyatlar psixi proseslərdə həyata keçirilir. Peşə təhsilində tələbələrin psixi inkişafı pedaqoji proseslərdə yeni psixi əməliyyatların formalaşdırılmasını təmin edir.

Peşə təhsilində pedaqoji sistemin təkmilləşdirilməsi iki yolla, ***intensiv və ekstensiv*** olmaqla həyata keçirilir. **İntensiv yol** pedaqoji

sistemin daxili ehtiyatlarını işə salmaqla bağlıdır. Məsələn, yeni metodların tətbiqi ilə tələbələrə müstəqil iş bacarıqlarının aşılanması onları özünütəhsilə cəlb etməyin intensiv yoludur. **Ekstensiv yol** isə pedaqoji prosesə əlavə vaxt və vəsait cəlb olunmasını nəzərdə tutur. Məsələn, gənc nəslə möhkəm bilik vermək üçün təlim müddətini uzatmaq, proqramları genişləndirmək olar. Bu, ekstensiv yoldur. Halbuki onsuz da məqsədə nail olmaq mümkündür.

Pedaqoji prosesdə yeniliklərin miqyası müxtəlif ola bilər. Müəyyən bir metodu, formanı təkmilləşdirmək, yeni iş texnologiyalarını tətbiq etmək, yaxud təhsil və tərbiyə sistemini yeniləşdirmək mümkündür. Ölkədə aparılan uğurlu islahatlar təhsilin maddi bazasında, təhsil və tərbiyə işinin məzmununda, metodikasında, müəllim-tələbə münasibətlərində, idarəetmədə dünya standartlarına uyğun əsaslı yeniliklər peşə təhsilinin dinamik inkişafına öz təsirini göstərəcəkdir.

Bu gün pedaqogika elminin qarşısında duran ən aktual problemlərdən biri ahəngdar şəxsiyyətin formalaşdırılmasıdır. Təlimin əsas məqsədi öyrənənlərin şüurunda dünyanın bütöv mənzərəsini, tamlığını yaratmaqdan, onların intellektual inkişafını və tərbiyəsini təmin etməkdən ibarət olması ideyasına peşə təhsilində lazımınca önəm verilmir. Əsas diqqət peşə hazırlığında zəruri bacarıqların mənimsənilməsinə yönəldilir. Bu mənada müasir dərs təkcə tədris vəzifələrinin deyil, təlim-tərbiyə və inkişafın bir-biri ilə qarşılıqlı əlaqədə pedaqoji prosesin tamlığı ilə dəyərləndirilir. Odur ki, müasir təlim texnologiyalarından bacarıqla istifadə etmək müəllimdən səriştə və peşəkarlıq tələb edir. Pedaqoqlarla öyrənənlərin qarşılıqlı məqsədyönlü təsiri təlim və tərbiyə prosesində düzgün həllini tapır. Bunun üçün müəyyən olunan qanunauyğunluqlara müvafiq vahid pedaqoji prinsip və metodların yaradılması barədə təsnifatın aparılması fikri 1990-cı ildən başlanılmış və 2000-ci illərdə də davam etdirilmişdir. Burada insan və şəxsiyyət amili qarşıya qoyulan başlıca məqsəd kimi dəyərləndirilməlidir.

Peşə təhsili və insan kapitalı anlayışları öz həllini şəxsiyyətin ahəngdar inkişafında tapmış olur. Yeni pedaqoji təfəkkürün konseptual modeli də, məhz deyilənlərə əsaslanır. Müasir dövrdə yeni pedaqoji, psixoloji konsepsiyalara görə təhsilalanın bir şəxsiyyət kimi formalaşdırılması və inkişafı üçün təhsil humanistləşdirilməli və demokratikləşdirilməlidir. Təlim təhsilləndirici, inkişafetdirici, tərbiyəedici olmalı, fərdiləşdirilməli və differensiallaşdırılmalıdır. Yeni pedaqoji təfəkkürdə təhsilalanın bir şəxsiyyət kimi formalaşdırılması təhsil sisteminin başlıca vəzifəsi olmalıdır.

Pedaqoji prosesin səmərəliliyi bu elementlərin bir-biri ilə məqsədyönlü əlaqəsindən, onların istiqamətinin və praktiki həyata keçirilməsinin ümumi məqsədə zidd olmamasından asılıdır.

Pedaqoji prosesin həyata keçirilmə mərhələsində onun idarə edilməsi ilə bağlı operativ qərarlar qəbul etmək üçün əks əlaqənin mühüm rolu vardır. Əks əlaqə prosesi keyfiyyətlə idarə etmək üçün əsasdır. Bununla əlaqədar qeyd etmək lazımdır ki, pedaqoji proses sistemi xeyli dərəcədə özünü tənzimləyən sistemdir. Çünki orada iştirak edən insanlar öz iradəsinə və sərbəst seçim imkanına malikdirlər.

Pedaqoji prosesin gedişində operativ əks-əlaqənin yaradılması qarşılıqlı təsirdə vaxtında düzəlişlər aparmağı təmin edir və bu da ***prosesin yekun mərhələsi*** kimi alınan nəticələrin təhlili ilə başa çatır. Təhlil zamanı pedaqoq buraxılan səhvlərdən nəticə çıxardır, öyrənir və inkişaf edir. Pedaqoji prosesin təhlilini aparmaq, həm də onu təşkil edən komponentlərin funksiyalarını dəqiq şərh etmək bacarığı tələb edir. Burada vacib və daha əhəmiyyətli olanları aşkar etmək, ziddiyyətləri tapmaq və onların aradan qaldırılmasının optimallaşdırılmasına yönəldilən yolları müəyyənləşdirməkdir.

Ciddi təhlil və özünütəhlil pedaqoji ustalığın yüksəldilməsinin ən mühüm şərtidir. Pedaqoji prosesin gedişi və nəticələri proqnozlara uyğun gəlmirsə, onda səhvin harada, necə və nə üçün buraxıldığını müəyyən etmək lazımdır. Praktika göstərir ki, pedaqoq prosesin diaqnostikasını və proqnozunu nəzərə almayanda daha çox səhv buraxır. Belə proses öyrənənlərin vaxtını almaq və marağını itirməkdən başqa heç nə vermir.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi"nin başlıca

istiqamətləri rəhbər tutulmaqla 2020-ci ilədək olan dövr ərzində Azərbaycanın peşə təhsili və təlimi sistemində aşağıdakı strateji hədəflər müəyyən edilib:

– işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası;

– nəticələrə əsaslanan güclü maliyyələşdirmə sisteminin yaradılması;

– məqsədli peşə inkişafı proqramlarının yaradılması;

– sektorlar üzrə spesifik proqramların yaradılması;

– peşə təhsili və təlimi üzrə hədəflərin əldə olunmasına təkan verəcək vasitələrin tətbiqi.

Nəticə. O qənaətə gəlmək olar ki, bu prioritet məsələlərin uğurlu həllində peşə təhsilində pedaqoji prosesin mərhələləri üzrə təlim işinin təşkili öz töhfəsini verəcəkdir. Pedaqoji texnologiyanın metodoloji tələblərini nəzərə alan müəllim öz fəaliyyətində tədris etdiyi fənnin məzmunu barədə bilikləri həyata keçirərkən öyrədici və tərbiyəedici məşğələləri əsas götürməlidir. Beləliklə, əldə edilənlər peşə təhsilinin dinamik inkişafına cəlb edilərək, təhsilalanların yüksək səviyyədə şəxsiyyət kimi formalaşmasına səbəb olcaqdır.

ƏDƏBİYYAT

1. Ağayev Ş. İbtidai sinif şagirdlərinin əməyə hazırlanması. Bakı, MMC, 2015, 316 səh.
2. Ağayev Ş., Məmmədova S. Texniki-peşə təhsili müəssisələrində təlimin təşkilinin didaktik məsələləri. Bakı, Nasir, 2010, 204 səh.
3. Qasımova L., Mahmudova R. Pedaqogika. Bakı, Çaşıoğlu, 2012, 548 səh.
4. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı, Nurlan, 2007, 568 səh.
5. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, Mütərcim, 2007, 448 səh.
6. Sadıqov F. Pedaqogika. Bakı, Adiloğlu, 2009, 600 səh.
7. Əliyeva Ş. və b. Hümanist pedaqogikanın aktual məsələləri. Bakı, ADPU-nun nəşriyyatı, 141 səh.

Sh.Agayev, A.Aliyeva

Stage managment of pedagogical process in vocational education

Summary

The article considers the features of the stages of the pedagogical process in vocational education. Modern pedagogical process introduction of the module on the basis of standarts, the development pedagogical process in vocational is intense shown this article.

Ш.Агаев, А.Алиева

По этапное управление педагогическим процессом в профессиональном образовании

Резюме

В статье интерпретировалось содержание педагогического процесса в профессиональном образовании для этапов педагогического процесса, его сущностных особенностей, основ друг на друге и сущности этапов современного педагогического процесса, основанного на компетентности учителяи на стандартах. А также подготовки к последовательности развития педагогического процесса в профессиональном образовании, комментируются компоненты педагогических технологий, практические примеры.

SİMMETRİYA VƏ ONUN POETİK ƏSƏRLƏRİN STRUKTURUNDA YERİ

Rafiq Yusifoğlu,
Sumqayıt Dövlət Universitetinin
Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının müəllimi,
filologiya elmləri doktoru, professor, Əməkdar mədəniyyət işçisi
e-mail: rafig_yusifoglu@mail.ru

UOT: 82.09

Xülasə. *Məqalədə simmetriyanın müxtəlif növ, müxtəlif janrlı sənət əsərlərində, xüsusən həyatdakı yeri, rolu və əhəmiyyətindən söz açılır. Ahəngin, ritmin, vəznin və qafiyənin şeirdə simmetriya yaratma vasitələri kimi təhlili verilir.*

Açar sözlər: *simmetriya, struktur, sənət, ədəbiyyat, poetika, ritm, qafiyə.*
Key words: *symmetry, structure, art, literature, poetry, rhythm, rhetoric.*
Ключевые слова: *симметрия, структура, искусство, литература, поэзия, ритм, рифма.*

Bu danılmaz həqiqətdir ki, sənət əsərləri həyatda olanın bədii əksi, inikasıdır... Rəssamlıq mənzərəni, zahiri görünüşü, musiqi ritmi, ahəngi, şeir düşüncəni, hiss və həyəcanı əks etdirir. Aristotelin irəli sürdüyü mimesis – təqlid məsələsi bütün ədəbiyyat və incəsənət, musiqi əsərləri, bütün bədii formalar və janrlar üçün əsasdır [1, 48]. Mimesis müəyyən mənada müəmmalı sənət məbədlərinin qıfılını açmağa qadir sehrli açardır. Özü də bu açar bütün qapılara düşür...

İstər rəssamlığın, istər incəsənətin digər növlərinin – heykəltaraşlığın, arxitekturanın, xalçaçılıq sənətinin, musiqinin, teatrın, kinonun, istərsə də bədii ədəbiyyatın cövhərində, strukturunda özünəməxsus simmetriya elementləri mövcuddur. Elmin də mayasında qanunauyğunluq, simmetriya dayanır. Elm də, incəsənət də, ədəbiyyat da, musiqi də insanın dünyadakı ölçülü-biçili, mükəmməl qanunauyğunluqları dərk etmək ehtiyacından yaranmışdır. Məhz təbiətdəki harmoniyaya, simmetrik tənzimlənmə qaydalarına istinad nəticəsində elmi-texniki inqilaba nail olmaq, mükəmməl cihazlar, nəqliyyat vasitələri yaratmaq mümkün olmuşdur. Nizam, dəqiq ölçü-biçi, simmetriya yalnız gözəllik yaratmaq yox, mövcudluq vasitəsinə çevrilmişdir. Bütün uğurların cövhərində sərt simmetriya qaydaları mövcuddur. Sənətin bütün növləri üçün simmetriya əsas meyarlardan biri, bəlkə də birincisidir. Amma simmetriya təkcə forma məsələsi deyil, məzmuna da əhəmiyyətli dərəcədə təsir etmək gücündədir.

"Simmetriya" yunan sözü olub, eyni-ölçülülük, mütənasiblik, bütöv bir şeyin hissələrinin mərkəzə, ortaya görə uyğun, mütənasib düzülüşü, yerləşməsi, düzülüşcə uyğunluq mənasını verir [2, s.120].

Simmetriya demək olar ki, elmin bütün sahələrini – riyaziyyatı, həndəsəni, fizikanı, astro-

nomiyanı, kimyanı, biologiyanı və s. əhatə edir. Mütənasib quruluş, mütənasib hərəkət həyatın, kainatın mövcudluq vasitəsidir. Ən kiçik cisimdən, maddədən, zərrədən tutmuş kainata qədər hər şey mütənasib bir mexanizm əsasında mövcuddur və bütün bunlar Allahın, Ulu Yaradanın qüdrətinin əsas göstəricilərindəndir. İnsan adi kəpənəyə, böcəyə, çiçəyə, gülə, balığa, quşa baxanda heyrətə gəlir...

Dilin özünün belə qayda-qanunları simmetriyaya əsaslanır. Fonetik elementlər, ahəng qanunu, eynicinsli saitlərin, samitlərin bir-birini izləməsi danışarkən xüsusi ahəngdarlıq yaradır. Ritm əslində səs simmetriyası əsasında formalaşır. Ritmsiz nə vəznli poetik əsərlər, nə də musiqi təsəvvür etmək olmaz. Görkəmli rus ədəbiyyatşünası L.İ.Timofeyevin bu qənaəti şübhə doğurmur ki, ritm, səs təkrarı nitqə emosional çalar verir [3, s.133]. Səslənmə gözəlliyi məzmunun daha təsirli şəkildə oxucuya çatdırılmasında, onun yaddaşlara həkk olunmasında mühüm rol oynayır. Görünür, ona görə də qədim zamanlarda yaşayan görkəmli alimlər, filosoflar fikir və düşüncələrini, elmi qənaətlərini xüsusi ritmli nəzm parçaları ilə ifadə etmişlər. Nəzm zaman-zaman fikir və mülahizələrin etibarlı saxlanc yerinə çevrilmişdir. Müqəddəs dini kitabımız "Qurani-Kərim"in ayələrinin qafiyələnməsi, əsərin başdan-başa nəzm formasında nazil edilməsində də özəl bir hikmət gizlənməkdədir. Bu müqəddəs kitabın bir cümləsinə belə xələl gəlməməsinin, onun fərqli variantlarının yaranmamasının bir səbəbi də məhz Ulu Allahın yaratdığı, hər yerdə özünü bu və ya digər şəkildə göstərən simmetriya qaydalarıdır. Kainatdakı mizan tərəzi həyatın bədii əksi olan sənət əsərlərində də müxtəlif şəkildə qorunmaqdadır.

Görkəmli ədəbiyyat nəzəriyyəçisi, filosof, "Poeziya sənəti" əsərinin müəllifi Nikola Bualo şairdən şeir yazarkən dilin bütün qayda-qanunlarına riayət etməyi, əsərin üzərində zərgər kimi işləməyi, məzmun və forma vəhdətini, bütün simmetriya qaydalarını gözləməyi tələb edərək yazırdı: *"Bunun üçün şeirdə ahəngə diqqət yetir, vəzni pozma, misranı iki yerə bölməli olsan, elə et ki, sözlər arasındakı fasilə mənaya xələl gətirməsin, onu daha aydın nəzərə çatdırsın. Xüsusilə, səy et və çalış ki, sözlərdəki saitlər dalbadal gəlib qarışmasın, ahəngi pozmasın"* [4, s.31].

Şeirə bir zərgər əsəri kimi baxan Bualo adi səslərdən tutmuş, qafiyələrə, misraların ölçüsünə, hecaların sayına, misradaxili bölgülərə qədər hər şeyə riayət etməyi vacib sayırdı. Ümumiyyətlə, poetik əsərlər rifmasız, ritmsiz təsəvvürə gəlmir. Rifma (qafiyə) ritmin şeirdə, nəzm əsərlərində təzahür formalarındandır. Dünya poeziyasında vəznin özünəməxsus yeri və rolu olmuşdur. Bütün nəzm əsərlərinin əsasında, nəzm sistemlərinin tərtibində və ahəngin yaradılmasında simmetriya qaydaları dayanır. Eramızdan 8 əsr əvvəl Yunanıstanda yaranmış, sonra Roma ədəbiyyatına keçmiş antik vəznin uzun və qısa hecalarının simmetrik təkrarlanması, birbirini əvəz etməsi üzərində qurulması elm aləminə yaxşı məlumdur. Ərəblər tərəfindən yaradılmış, sonralar bütün Şərq ədəbiyyatının əsas vəznlərindən birinə çevrilmiş əruz vəznində də ritm yaratmaq üçün saitlərin uzun və qısa tələffüz olunmasının müvaziliyindən istifadə edilməsi də səslənmədə simmetriyanı, ahəngdarlığı qorumaq vasitəsinə çevrilmişdir. İstər sillabik, istərsə də sillabik-tonik vəznlərdə də hecaların, eləcə də vurğuların, təqtilərin (daxili bölgülərin) tənasübü ilə ritmi yaradan vasitəyə çevrilir. Hətta sərbəst şeirin özündə belə xüsusi bir ahəngdarlıq vardır. Burada da ritm gözlənilir, qafiyədən istifadə olunur.

"Qafiyə sizi əvvəlki misraya qaytarır, onu yada salmağa məcbur edir, müəyyən bir fikir əmələ gətirən bütün misraları bir-birinə yapışdırıb dayanmağa məcbur edir... Mən həmişə ən səciyyəvi sözü misranın axırına qoyur və necə olursa olsun, ona qafiyə axtarıb tapıram" [5, s.38]. Sərbəst şeirin yaradıcılarından biri sayılan Vladimir Mayakovskinin "Şeiri necə yazmalı" məqaləsindəki bu fikirlər məsələyə aydınlıq gətirmək baxımından çox maraqlıdır. Doğrudan da, məzmunun özündən doğan bənzərsiz qafiyələr həm şeirdəki fikrin ifadəsinə yardımçı olur, həm də onun estetik gözəlliyini, musiqiliyini, emosional təsir gücünü qat-qat artırır. Heca və əruz bazalı sərbəst şeirlərdə ritm, ahəngdarlıq onu nəsr əsərlərindən ayırır. Ümumiyyətlə, bütün vəznlər üçün simmetriya qaydalarının gözlənilməsi ən ümumi cəhətdir. Səslənmə, ritm

ahəngdarlığı, rəng uyarlığı simmetriya qaydaları ilə tənzimlənir.

Qafiyə səs simmetriyası yaradır, lap kəpənəyin qanadı kimi... Ölçü simmetriyası, rəng uyarlığı, səslənmə uyğunluğu... Notlar... Bunların heç biri simmetriyasız mümkün deyildir. Misralar arasındakı simmetrik pauza, durğu belə ahəng yaradır.

"Gözəllik həyatda gördüyümüz ən ahəngdar, ən kamil bir şeydir" [6, s.48]. Onu simmetriyasız, ritmsiz, ahəngsiz təsəvvürə gətirmək olmur. Əslində simmetriya sənət əsərlərində gözəlliyin təzahür formasıdır. Gözəlliyin özünün xüsusi ölçüləri və meyarları vardır ki, bunlar da məhz simmetriya qaydaları ilə tənzimlənir.

Nəticə. Deyilənlərdən aydın olur ki, nəinki incəsənətin, musiqinin, poeziyanın, hətta kainatın özünün belə dəqiq simmetriya qaydaları vardır – məsafə simmetriyası, ritm simmetriyası, dövretmə simmetriyası... Bu simmetriya pozularsa, fəlakət qaçılmazdır... Ürəyin döyüntüsündə belə ritm, ahəngdar pauza vardır.

ƏDƏBİYYAT

1. Aristotel. Poetika. Bakı, Azərnəşr, 1974, 200 səh.

2. Azərbaycan dilinin izahlı lüğəti. IV cild. Bakı, Şərq-Qərb, 2006, 712 səh.

3. Тимофеев Л.И., Основы теории литературу. Москва, Просвещение, 1976, с. 448.

4. Bualo N. Poeziya sənəti. Bakı, Azərnəşr, 1969, 184 səh.

5. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı, Maarif, 1978, 200 səh.

6. Rəfili M. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı, 1958, 282 səh.

R.Yusifoglu

Symmetrya and is poetry poems in place structure

Summary

This article is shown the different kends of simmetries, works of different genres the role and place in the life. At the same time an analysis of the creation of symmetry in seaweed rhythm and ghafia.

Р.Юсифоглу

Симметрия и ее место в структуре поэтических произведений

Резюме

В статье рассматриваются различные типы симметрии, произведения разных жанров, особенное место, роль и значение жизни. Дается анализ гармонии, ритма и рифмы как инструментов симметрии в поэтических произведениях.

Peşə təhsili və insan kapitalı. Cild 2, №2, 2019 s.34-37

AZƏRBAYCANIN İQTİSADİ VƏ MƏDƏNİ TƏRƏQQİSİNDƏ HEYDƏR ƏLİYEV AMİLİ

Xaliq Dadaşov,
Azərbaycan Texniki Universitetinin
İctimai fənlər kafedrasının dosenti,
fəlsəfə üzrə fəlsəfə doktoru
e-mail: dadasov@mail.ru

Adil Sadıxov,
Azərbaycan Texniki Universitetinin
İctimai fənlər kafedrasının dosenti,
fəlsəfə üzrə fəlsəfə doktoru
e-mail: ilgarsu@mail.ru

UOT: 33

Xülasə. *Məqalədə Azərbaycan tarixinin otuz ildən çoxunu siyasi, iqtisadi və mədəni həyatının yenidən dirçəlişində Heydər Əliyevin yeritdiyi uzaqgörən daxili və xarici siyasət sayəsindəki inkişafdan söhbət açılır. Eyni zamanda, Azərbaycanın dünyada etibarlı tərəfdaşa çevrildiyi qeyd edilir.*

Açar sözlər: *iqtisadiyyat, mədəniyyət, incəsənət, uzaqgörənlik, qayğı.*
Key words: *economy, culture, art, foresight, care.*
Ключевые слова: *экономика, культура, искусство, дальновидность, забота.*

Tarixin taleyüklü dönəmlərində vətəni ağır sınaqlardan çıxartmaq vəzifəsi böyük tarixi şəxsiyyətlərin üzərinə düşür. Bu tarixi şəxsiyyətlər varlıqları ilə doğma vətənə bağlı olurlar. 1960-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tariximizin otuz beş illik bir dövrü, məhz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın hərtərəfli inkişafı, gələcək tərəqqisi üçün sosial-iqtisadi, ictimai-mədəni həyatın bütün sahələrinin inkişafı idarəçilik və liderlik qabiliyyətinə malik Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. 1969-cu ildən Azərbaycanın sovetlər birliyinin ən qabaqcıl respublikalarından birinə çevrilməsi üçün Heydər Əliyev zəngin idarəçilik təcrübəsi sayəsində o dövrdə böyük dönüş yaratmışdır. Bunların nəticəsində Azərbaycan uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edəcək yeni proqramların icrasına başlayır. Heydər Əliyev 1982-ci ildə SSRİ kimi nəhəng bir dövlətin ali rəhbərliyi tərkibində Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi məsul bir vəzifədə olarkən bu vəzifənin verdiyi imkanlardan Azərbaycanın iqtisadi inkişafı naminə məharətlə istifadə edir. O, Moskvada – Mərkəzi Komitədə tutduğu vəzifədən kənarlaşdırıldıqdan xeyli sonra xalqın və respublika hakim dairələrinin dəfələrlə təkidli dəvətini qəbul edib 1993-cü il iyunun 9-da Bakıya gəlir. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşılayır. İyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilir. Onun apardığı uğurlu daxili və xarici siyasət Azərbaycanın müstəqilliyinin ardıcıl və dönməz olduğunu bir daha sübut edir.

1993-cü ildən başlayaraq, Heydər Əliyevin həyata keçirtdiyi bu siyasət Azərbaycanın iqtisadiyyatının dirçəlməsinə səbəb olur. 1994-cü ildə maliyyə islahatı keçirilir, xarici ticarət liberallaşdırılır. Regionların sosial-iqtisadi inkişafına diqqət artırılır. Həmin illərdə rabitə, kənd

təsərrüfatı sahələrində də irimiqyaslı, beynəlxalq səviyyəli layihələr həyata keçirilir. 1994-cü ildə ABŞ-ın "Motorola" şirkəti ilə birgə "Bakcell" BM təsis edilir. Azərbaycanın ilk mobil operatoru fəaliyyətə başlayır. 1996-cı il iyun ayının 6-da Bakıda, sovetlər məkanında çox unikal qurğulardan sayılan, hündürlüyü 310 metr olan "Teleqüllə" istifadəyə verilir. SSRİ ərazisində tikiləcək 3 nadir qurğudan birinin Azərbaycana gətirilməsi, tikintisi üçün 3 milyon manatdan artıq vəsaitin ayrılması və Moskvada Siyasi Bürodan keçirilməsi kimi çətin məsələləri, məhz Heydər Əliyev həll edib. Üstəlik teleqüllənin milli memarlıq ənənələri əsasında milli ornamentlərlə tikilməsini tələb edir. Bununla da Bakıdakı teleqüllə Rusiya və Pribaltikada tikilənlərdən özünəməxsusluğu, fərqliliyi ilə seçilir. 1996-cı il dekabr ayının 15-də "Azərcell" birgə müəssisəsinin açılışı mərasimində çıxış edən Heydər Əliyev rabitə sahəsi ilə bağlı yeni tezis irəli sürür: – "Müstəqil dövlətin müstəqil rabitə sistemi olmalıdır". Bu həm də 34 minlik rabitəçilər ordusunun qarşısına qoyulan vəzifə idi. 90-cı illərin əvvəllərinədək bütün beynəlxalq telefon danışıqları, beynəlxalq rabitə əlaqələri Moskva tərəfindən aparılırdı. Əldə edilən gəlirlər də sovetlər birliyinin büdcəsinə daxil olurdu. Respublikamıza ayrılan vəsaitin miqdarı isə Moskvanın "səxavətindən" asılılığına son qoyulur. Artıq Azərbaycanda dünyaya birbaşa çıxışı olan müstəqil rabitə sistemi fəaliyyət göstərir. ABŞ, İngiltərə, Yaponiya, İsrail, Türkiyə, Yunanıstan, Fransa, Danimarka, Cənubi Koreya və başqa ölkələrin rabitə şirkətləri ilə qurulan birgə əməkdaşlıq sayəsində "AzEuroTel" birgə müəssisəsi, Beynəlxalq və şəhərlərarası danışıq stansiyası, Yerüstü peyk stansiyası, "Artel" birgə müəssisəsi kimi bir çox rabitə obyektləri açılır. Səmərəli fəaliyyət sayəsində əldə edilən gəlirlər də Azərbaycana daxil olur. İstifadəyə verilən obyektlərin tikintisi isə Rabitə Nazirliyinin vəsaiti hesabına başa gəlir. Dövlətdən heç bir vəsait alınmır.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara uyğun olaraq aparılıb. 1995-ci il 12 noyabr tarixində referendum yolu ilə qəbul edilən Azərbaycan Respublikasının yeni Konstitusiyası ölkəmizin gələcək inkişafının mühüm istiqamətlərini müəyyənləşdirir. Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət olmasını bəyan edib, insan hüquq və azadlıqlarını ön plana çəkir. Çox keçmir ki, milli həmrəylik təmin edilir, nizami ordu yaradılır. 1996-cı il 8 iyul tarixində "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında" və 14 may 1999-cu il tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" sərəncamlar ölkəmizin Avropa Şurası ilə əlaqələrinin möhkəm əsaslar üzərində qurulmasını təmin edir. Nəticədə Azərbaycan Respublikası 2001-ci il 17 yanvar tarixində Avropa Şurası Parlamentinin qərarına əsasən, Avropa Şurasına tamhüquqlu üzv kimi qəbul edilir.

Ümummilli lider Heydər Əliyevin apardığı məqsədyönlü siyasət və onun rəhbərliyi ilə həyata keçirilən kompleks tədbirlər nəticəsində Azərbaycanda dinamik inkişaf təmin edilir. Tarixi təcrübə göstərir ki, əgər dövlətin strateji, perspektiv mənafeyi baxımından onun daxili və xarici siyasətinin ümumiləşdirilmiş konsepsiyasını müəyyənləşdirməyi bacaran və bu mənafeyi beynəlxalq forumlarda müdafiə edən, dövlətçiliyi ümumxalq işinə çevirməyi bacaran, xalqı öz arxasınca aparan şəxsiyyət yoxdursa, dövlətçiliyi qorumağı əməli surətdə həyata keçirən praktiki siyasətçi-diplomat və daxildə əmin-amanlığı, ölkənin iqtisadi inkişafını təmin etməyi üzərinə götürən yaradıcı təsərrüfat rəhbəri yoxdursa, həmin ölkənin gələcəyindən nikbin ruhda danışmaq çətin olar.

Kənd təsərrüfatı sahəsində də aparılan ciddi islahatlar, beynəlxalq maliyyə qurumları ilə birgə həyata keçirilən kənd təsərrüfatının kreditləşdirilməsi layihələri Heydər Əliyevin yeritdiyi uzaqgörən siyasəti bir daha təsdiqləyir. Qətiyyətli iqtisadi islahatlar qısa vaxt ərzində geniş beynəlxalq dəstək alır. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırlayır və ölkəmizə maliyyə yardımı göstərir. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq, iqti-

sadiyyatın liberallaşdırılmasına yönəldilən radikal islahatlar həyata keçirilir. Tezliklə ölkədə çevik pul-kredit, büdcə, vergi, gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olunur.

2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi Azərbaycan nefti və qazının birbaşa Avropa və dünya bazarına çıxışını təmin edir. Ulu Öndərin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynayır. Bununla da qonşu ölkələrlə münasibətləri xeyli genişləndirən ümummilli lider o dövrdə 68 ölkənin hökumət başçıları ilə görüşlər keçirir. Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatların sessiyalarında, zirvə toplantılarında iştirak edirdi.

Heydər Əliyev iqtisadiyyatla bərabər, Azərbaycan mədəniyyətini də heç vaxt yaddan çıxarmır. O, Azərbaycanın mədəniyyət və incəsənətini hər bir azərbaycanlı üçün iftixar mənbəyi hesab edirdi. Ona görə də bu sahədə qazanılmış uğurları dünya ictimaiyyətinə fikrinə çatdırmaq üçün böyük səy göstərir. Onun ədəbiyyat və incəsənət xadimlərinə, o cümlədən, Azərbaycan bəstəkarlarından Q.Qarayevə, F.Əmirova, Niyaziyə, dünya şöhrətli müğənni R.Behbudova, rəssamlarımızdan T.Salahova, M.Abdullayevə, Ö.Eldarova, L.Kərimova, şair və ədiblərimizdən S.Rüstəmə, R.Rzaya, İ.Əfəndiyevə, M.İbrahimova, S.Rəhimova və başqa müqtədir sənətkarlara göstərdiyi qayğı Ulu Öndərin gündəlik fəaliyyətinin ayrılmaz hissəsi idi.

XXI əsrin əvvəllərində azad mətbuatın inkişafı dövlət siyasətinin əsas tərkib hissəsinə çevrilir. Heydər Əliyev Azərbaycan televiziyasına kütləvi informasiya vasitəsi olmaqla bərabər, həm də mədəniyyət və incəsənətimizin ayrılmaz bir hissəsi kimi diqqət yetirir, bu sahənin inkişafı üçün müxtəlif qərarlar qəbul edir, sərəncamlar imzalayır. Bu cəhətdən, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin "Dövlət Radio Verilişləri və Televiziya Komitəsi haqqında" 1969-cu il 30 sentyabr tarixli Qərarı komitənin gələcək fəaliyyəti üçün çox böyük əhəmiyyət daşıyır. Belə ki, radio və televiziyanın təşkilat quruluşunda bir sıra dəyişikliklər edilir. Respublikanın ayrı-ayrı zonalarında komitənin daimi müxbir məntəqələri yaradılır. Maddi-texniki bazanı inkişaf etdirmək yolunda da mühüm addımlar atılır.

Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 500, "Kitabi-Dədə Qorqud" dastanının 1300, Nizami Gəncəvinin 840, İmadəddin Nəsiminin 600, Mirzə Fətəli Axundovun 170, Hüseyn Cavidin 120 illik yubileyləri Heydər Əliyevin şəxsi təşəbbüsü və təşkilatçılıq fəaliyyəti sayəsində həyata keçirilir.

Ümumiyyətlə, Heydər Əliyevin hakimiyyəti dövründə teatr, kino, musiqi, təsviri və tətbiqi sənət sahələrində böyük inkişaf müşahidə olunur. 1973-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi münasibəti ilə keçirilən yığıncaqda Heydər Əliyevin proqram səciyyəli, dolğun məruzəsi də o zaman yalnız teatr işçilərinin deyil, bütün xalqımızın ürəyindən xəbər verir. Bu dəyərli məruzə Azərbaycan teatrının keçmişini, bu gününü və hər şeydən əvvəl, sabahını göz önündə canlandırır. Heydər Əliyev deyirdi: – "Əgər Azərbaycan xalqı müsəlman şərqində ilk dəfə 1873-cü ildə milli teatrı yaratmış və dünya mədəniyyətinə qovuşmuşsa, bu xalqın nə qədər böyük mənəviyyatı vardır. O, nə qədər böyük mədəniyyətə, nə qədər yüksək intellektə malikdir və onun nə qədər böyük daxili qüdrəti var".

Dahi şəxsiyyətin Azərbaycan dilinə, dil və nitq mədəniyyətinə göstərdiyi diqqət də xüsusi olaraq vurğulanmalıdır. Mahir natiqlik məharətinə malik Ulu Öndər hamıdan dil mədəniyyətinə önəm verməyi, ana dilini yaxşı bilməyi və savadlı danışmağı tələb edərək deyirdi: – "Dil böyük bir aləmdir. Öz ana dilini bilməyən adamlar şikəst adamlardır".

Heydər Əliyevin Azərbaycan mədəniyyətinə göstərdiyi diqqət və qayğı heç vaxt yaddan çıxan deyil. Belə bir fikir var ki, millət şəxsiyyətini yetişdirir, şəxsiyyət də öz millətini dünyaya tanıdır. Müasir Azərbaycanın memarı Heydər Əliyev ümummilli lider və millət qəhrəmanı kimi tarixin şərəfli taxtına ucalıb. Ulu Öndərin milli mədəniyyətə, mənəviyyata göstərdiyi münasibət və mövqe hər birimiz üçün böyük

məktəbdir.

Xalqı tarixdə yaşadan onun yetirdiyi böyük şəxsiyyətləridir. Xalqımızın böyük oğlu, türk dünyasının fəxri, ümummilli lider Heydər Əliyev, məhz belə nəhəng simalardandır. Onun ölməz ideyaları bu gün də yaşamaqdadır. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev zəkasının izi görünməsin. 2004-cü il dekabr ayının 29-da Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ədəbiyyat və incəsənət xadimlərinin bir qrupuna yüksək dövlət mükafatları və fəxri adları təqdim edərkən demişdir: – "Bilirsiniz ki, Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyevin mədəniyyət, incəsənət, elm xadimlərinə diqqəti daim yüksək olmuşdur. O, şəxsən özü bütün məsələlərlə məşğul olurdu, çalışırdı ki, maksimum dərəcədə diqqət göstərilsin, qayğı göstərilsin. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ilk illərin çətinliklərinə baxmayaraq, bu sahəyə daim diqqət göstərirdi... Mən də öz növbəmdə çalışıram ki, bu ənənələri davam etdirəm".

Nəticə. Ulu Öndərin müəyyənləşdirdiyi strategiyanı Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildən bugünədək uğurla, müasir dövrün tələblərinə uyğun həyata keçirir. Bu siyasətin nəticəsində ictimai-siyasi, sosial və mədəni həyatın bütün sahələrində mühüm işlər görülmüşdür. Müxtəlif sahələr üzrə həyata keçirilən dövlət proqramları Azərbaycanı qısa zaman kəsiyində sürətlə inkişaf edən ölkəyə çevirmişdir.

ƏDƏBİYYAT

1. Heydər Əliyev şəxsiyyətinə beynəlxalq baxış. Bakı, 2013, 244 səh.
2. Heydər Əliyev. Ömürlük missiya. Bakı, 2014, 107 səh.
3. Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı, 2010, 416 səh.
4. Heydər Əliyev və müasir Azərbaycan. Bakı, 2013, 115 səh.
5. Heydər Əliyev və yeni cəmiyyət modeli. Bakı, 2014, 776 səh.
6. Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası. Bakı, 2011, 952 səh.

Kh.Dadashov, A.Sadıkhov

The role of Heydar Aliyev in the economic and cultural progress of Azerbaijan

Summary

The article considers that Heydar Aliyev diligently engaged in the economy, culture and art of Azerbaijan. All of the above primarily serves the development of the Azerbaijani state. And also at the same time in the article indicates that care Heydar Aliyev, representatives of art and literature is its far-sighted policy. As a result, the Azerbaijani state developed even more, its spirituality increased.

А.Садыгов, Х.Дадашов

Фактор Гейдар Алиева в экономическом и культурном прогрессе Азербайджана

Резюме

В статье рассматривается, что Гейдар Алиев усердно занимался экономикой, культурой и искусством Азербайджана. Все сказанное в первую очередь служит развитию Азербайджанского государства. А также одновременно в статье указывается, что забота Гейдара Алиева представителям искусства и литературы является его дальновидной политикой. В итоге еще больше развивалось Азербайджанское государство, возросло его духовность.

Peşə təhsili və insan kapitalı. Cild 2, №2, 2019 s.38-44

ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ İSTEHSALINDA MALİYYƏ TƏŞVİQİ SİYASƏTİNİN ROLU

Coşqun Məmmədov,
Azərbaycan Respublikası Milli Məclisinin
Elm və Təhsil Komitəsinin eksperti,
Xəzər Universitetinin doktorantı,
e-mail: joshgun.mammadov@hotmail.com

UOT: 336; 338

Xülasə. *Məqalədə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində inkişafa nail olunması və əlverişli investisiya mühitinin yaradılması məqsədi ilə həyata keçirilən təşviq siyasəti öyrənilmiş, beynəlxalq aləmdə onların tətbiqi prosesi tədqiq edilmişdir. Nəticədə alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və inkişafı üçün investorların maliyyə xərclərinin azaldılması, eyni zamanda, ənənəvi enerji istehsalı müəssisələrinə qarşı rəqabətədavamlı investisiya mühitinin yaradılması məqsədi ilə stimullaşdırıcı tədbir kimi maliyyə təşviqi siyasətinin tətbiqinin daha da genişləndirilməsinin zəruriliyi göstərilmişdir.*

Açar sözlər: *alternativ və bərpa olunan enerji mənbələri, təşviq siyasəti, investisiya, subsidiya, sahibkarlıq fəaliyyəti.*
Key words: *alternative and renewable energy sources, incentive policies, investments, subsidies, business activities.*
Ключевые слова: *альтернативные и возобновляемые источники энергии, политика стимулирования, инвестиции, субсидии, предпринимательская деятельность.*

Alternativ və bərpa olunan enerji mənbələri (ABOEM) hesabına enerji istehsalının inkişafı və onun genişləndirilməsi ənənəvi enerji mənbələrinə olan tələbatın azalmasına xidmət edir. Tələbatın bərpa olunan enerji mənbələri hesabına təmin edilməsi, eyni zamanda, enerji idxalının səviyyəsinə də ciddi təsir göstərməklə xaricdən enerji asılılığını aradan qaldırır. Bu da ölkənin milli enerji təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ölkənin enerji təhlükəsizliyi isə onun milli təhlükəsizliyinin mühüm tərkib hissələrindən biri kimi dəyərləndirilir.

Yaxın keçmişə nəzər salsaq görərik ki, 1973-cü ilin oktyabrında "Neft İxrac edən Ərəb Ölkələri Təşkilatı" (*Organization of Arab Petroleum Exporting Countries*) tərəfindən tətbiq edilən neft embarqosu nəticəsində yaranan enerji böhranı bir sıra dövlətlərdə (ABŞ, Böyük Britaniya, Kanada, Yaponiya və s.) "şok" effekti yaratmışdır. Belə ki, embarqonun 1974-cü ilin mart ayında sona çatmasına baxmayaraq, neftin bir bareli qısa müddət ərzində 3 dollardan 12 dollara

qədər yüksəldi. Nəticədə neft embarqosu dünya siyasətinə və qlobal iqtisadiyyata bir çox qısa və uzunmüddətli təsirləri ilə yadda qalmış oldu. Bu enerji böhranı sonralar tarixdə "İlk neft şoku" (First oil shock) kimi adlandırılmışdır. Daha sonra 1979-cu ildə baş verən növbəti neft böhranı isə "İkinci neft şoku" (*Second oil shock*) kimi adlandırıldı [13].

Beləliklə, dünyada baş verən bu kimi böyük neft böhranları və sonrakı dövrlərdə sürəkli qiymət artımları nəticə etibarı ilə enerji asılılığının çox ciddi problem olduğunu, eyni zamanda, enerji təhlükəsizliyinin təmin edilməsinin də zəruriliyini nümayiş etdirdi. Lakin təəssüflər olsun ki, bütün bunlara rəğmən baş vermiş bu kimi hadisələr ənənəvi enerji mənbələrindən asılılığa elə də ciddi təsir göstərmədi. Belə ki, ümumdünya enerji statistik məlumatlarına əsasən, ümumi elektrik enerji istehsalında ənənəvi enerji mənbələrinin ABOEM-ə olan nisbəti hələ də 70%-dən çoxdur. Bu isə enerji idxalından asılı olan ölkələrin öz enerji təhlükəsizliyinin təmin edilməsi baxımından ciddi risk təşkil etməkdədir [10, s.41].

Bu səbəbdən həmin sahəyə investisiya yatırmaq istəyən investorların maliyyə xərclərinin azaldılması, eyni zamanda, ənənəvi enerji istehsalı müəssisələrinə qarşı rəqabətədavamlı investisiya mühitinin yaradılması məqsədi ilə ABOEM-dən istifadənin inkişafı və bu sahənin genişləndirilməsi üçün dünyada müxtəlif təşviq siyasətindən istifadə edilərək stimullaşdırıcı tədbirlər həyata keçirilir.

Beynəlxalq təcrübədə təşviq siyasəti

Neft böhranından sonra Yaponiya hökuməti 1973-cü ildə alternativ və bərpa olunan enerji daxil olmaqla, yeni enerji texnologiyalarını inkişaf etdirmək və satışını həyata keçirtmək məqsədi ilə "Günəş İşığı Layihəsi"nin (*Solar Light Project*) icrasına başlamışdır [4, s.14]. Bu məqsədlə 1980-ci ildə hökumət tərəfindən "Yeni Enerji və Sənaye Texnologiyalarının İnkişafı Təşkilatı" təsis edilmiş və bu təşkilat 1993-cü ildə "Günəş İşığı Layihəsi" çərçivəsində daha da inkişaf etdirilmişdir. Hökumət daha sonra bu siyasəti bir qədər də təkmilləşdirərək 1994-cü ildə günəş enerjisindən istifadənin genişləndirilməsi məqsədi ilə yaşayış məntəqələrində günəş fotovoltatik sistemləri, 1998-ci ildə isə külək enerjisi sistemləri üçün subsidiyalar tətbiq etməyə başladı. Bu növ subsidiyalar ölkədə alternativ və bərpa olunan enerjinin inkişafını təşviq etmək məqsədi ilə "texnoloji inkişaf" və ya "ilkin investisiya" kontekstində tətbiq edilmişdir [3, s.142; 8, s.2761-2769].

Çin hökuməti isə enerjiyə olan tələbatı ödəmək və idxaldan asılılığı aradan qaldırmaq məqsədi ilə Maliyyə Nazirliyi tərəfindən 2009-cu ildə günəş enerjisi üzrə iki subsidiya proqramını tətbiq etməyə başlamışdır. Bunlardan birincisi, dam örtüyü üçün fotovoltatik günəş panelləri sistemlərinin qurulması layihələrinə dəstək məqsədi ilə yaradılmış "Solar Roofs" proqramıdır. Proqrama əsasən, investisiya layihəsinin dəyərinin 50%-ni subsidiya təşkil edir. İkinci subsidiya proqramı isə binalarda fotovoltatik günəş panelləri sistemləri və kənd yerlərinin elektrikləşdirilməsi layihələri üçün geniş miqyaslı fotovoltatik enerji layihələri çərçivəsində "Solar Roofs" proqramından da böyük fotovoltatik enerji layihələrinə dəstək verən "Golden Sun Demonstration" layihəsidir. Proqram şəbəkə sistemlərinin ümumi dəyərinin 50%-ni və kənd yerləri üçün icra olunacaq layihələrin isə 70%-ni təmin edir [7, s.510].

Almaniyada isə alternativ və bərpa olunan enerji istehsalı müəssisələrinin inkişafının stimullaşdırılması məqsədi ilə tətbiq olunan subsidiyalar baxımından ümumi vəziyyət belədir: bioqaz enerjisi hesabına istehsal olunan elektrik enerjisinin hər kvt-na görə əlavə quraşdırma xərcləri də daxil olmaqla 10 il müddətinədək illik 50-160 avro, biokütlə enerjisi üçün 100 kvt-adək, hər kvt üçün 45 avro üstəlik isitmə qazanlarının alışı üçün 1750-4500 avro, geotermal enerjisi üçün 100 kvt-dək 3500-15300 avro və günəş enerjisi üzrə isə 20-100 m^2 üçün 1863-22500 avro dəyərində subsidiyalar tətbiq edilir [3, s.137].

Onu da qeyd etmək lazımdır ki, ABOEM-dən istifadəni dəstəkləyən və müxtəlif təşviq siyasəti tətbiq edən dövlətlərin sayı hər il davamlı olaraq artmaqdadır. Belə ki, hazırda onların ümumi sayı 179-a (2016-cı ildə 176 ölkə) bərabərdir. Halbuki bu göstərici 2005-ci ildə cəmi 17 ölkəni əhatə edirdi [10, s.33].

Təşviq siyasəti və onun növləri

Təşviq siyasəti iki qrupa bölünür: ***Birinci qrup maliyyə təşviqi*** qrupudur. Bu təşviq qrupu

indi bütün dünyada təməl təşviq siyasəti kimi də qəbul edilir. Bu qrupa isə iki təməl təşviq siyasəti daxildir [2, s.54; 1, s.2; 12, s.887-897]:

1. Təminatlı tarif siyasəti (*Tariff Guarantee, Feed-in tariff*).

2. Kvota siyasəti (*Renewable portfolio standard*).

Təminatlı tarif siyasəti qiymətəsaslı, Kvota siyasəti isə miqdarəsaslı təşviq siyasəti kimi qiymətləndirilir. Hər iki təməl siyasətdən əlavə, güzəştli kredit siyasəti və açıq tender siyasəti kimi stimullaşdırıcı tədbirlər məhdud sayda olsa da tətbiq edilməkdədir.

İkinci qrupa isə vergi təşviqləri daxildir. Vergi təşviqləri dünyada (ABŞ kimi bir neçə ölkə istisna olmaqla) ikinci təşviq siyasəti kimi qəbul edilərək, maliyyə təşviqindən fərqli olaraq əsasən, tamamlayıcı təşviq siyasəti kimi tətbiq edilməkdədir.

Təminatlı tarif siyasəti

Təminatlı tarif siyasəti ABOEM-dən istifadə sahəsində geniş tətbiq edilən və ən təsirli təşviq siyasəti kimi qəbul olunur. Bu anlayış bir sıra xarici ədəbiyyatlarda müxtəlif adlarda da işlənməkdədir: minimum qiymət təminatı, bərpa olunan enerji ödənişi, bərpa olunan tariflər və s. Təminatlı tarif siyasəti ilk dəfə olaraq, 1978-ci ildə ABŞ-da tətbiq edilməyə başlanılmışdır. Hazırda isə dünyanın 113 müxtəlif bölgəsində tətbiq olunmaqdadır. Avropa birliyində isə gerçəkləşdirilən təminatlı tarif siyasəti Avropa Komissiyası tərəfindən ən təsirli və aşağı məsrəfli təşviq siyasəti kimi qəbul edilməkdədir [10, s.19].

Təminatlı tarif siyasətinin tətbiqi zamanı investorlara ABOEM-ə əsaslanan elektrik enerjisi istehsalı üçün uzun bir dövr ərzində (15-25 il) alış təminatı təklif edilir. Alış məbləği isə istehsal edilən 1 kvt.s elektrik enerjisinə görə müəyyənləşdirilir. Bu zaman müəyyən edilmiş məbləğ ABOEM-in növləri və tətbiq texnologiyaları nəzərə alınmaqla fərqləndirilir. Belə ki, günəş enerjisi kimi yüksək investisiya xərcləri tələb edən enerji növü az məsrəfli külək enerjisi ilə müqayisədə daha yüksək təminatdan yararlanmaqdadır. Tətbiq edilən tariflər isə hər bir ölkə üzrə fərqlənir. Həmçinin məbləğ müəyyən edilərkən investisiya riski, layihənin ümumi dəyəri və istismar müddəti kimi xüsusiyyətlər də nəzərə alınır. Almaniya, İspaniya, Portuqaliya və Danimarka kimi ölkələrdə uğurla yerinə yetirilən təminatlı tarif siyasəti modellərində məbləğ istehsal xərcləri nəzərə alınmaqla, investorlara qiymət dəyişikliklərinə qarşı və real layihə xərclərinə əsaslanan alış təminatı təqdim edilir [2, s.60; 1, s.4].

Təminatlı tarif siyasəti bazar qiymətindən asılılığına görə iki qrupa bölünür [2, s.61; 1, s.4; 6, s.955-965]:

1. Bazar qiymətindən asılı olmayan və sabit qiymət tətbiq edilən təminatlı tarif modeli.

2. Bazar qiymətindən asılı olan və əlavə haqq kimi premium tətbiq edilən təminatlı tarif modeli.

Birinci modeldə ABOEM hesabına istehsal olunan elektrik enerjisi üçün sabit qiymət təminatı verildiyi halda, ikinci modeldə ABOEM-in ətraf mühit, sosial və strateji əhəmiyyəti, yaxud ABOEM-in növləri üzrə istehsal xərcləri nəzərə alınmaqla bazar qiymətinə əlavə olaraq premium tətbiq edilir. Bu iki növün ən çox tətbiq edilən növü isə sabit qiymət təminatlı tarif modelidir. Lakin bununla yanaşı, premium tətbiq edilən təminatlı tarif modeli də elektrik enerjisi istehsalı üzrə pərakəndə satış qiymətində stabillik olmadığı üçün ənənəvi enerji mənbələrinə qarşı təsirli rəqabət mühitinin formalaşmasını təmin edir.

Bazar qiymətindən asılı olmayan və sabit qiymət tətbiq edilən təminatlı tarif modelinin dörd fərqli tətbiq növü mövcuddur [2, s.62]:

– *sabit qiymət modeli;*

– *qiymətin inflyasiyaya görə tənzimləndiyi model;*

– *uzunmüddətli tarif modeli;*

– *spot bazar qiyməti modeli.*

Sabit qiymət modeli – müqavilənin qüvvədə olduğu müddət ərzində istehsalçıya istehsal olunan elektrik enerji alışına görə enerji bazarında pərakəndə satış qiymətindən asılı olmayan sabit qiymət təklif edilir. Beləliklə, enerji bazarında pərakəndə satış qiymətində müəyyən dəyişiklik olsa da, istehsalçıya təklif edilən qiymət dəyişməz qalır. Başqa sözlə, alternativ və bərpa olunan enerji istehsalçıları enerji bazarında ənənəvi enerji mənbələri hesabına istehsal olunan elektrik enerjisi qiymətlərində baş verən dəyişikliklərdən təsirlənmir və dövlət tərəfindən onlara təklif olunan təminatlı tariflərdən yararlanmağa davam edirlər. Bunun üçün təklif olunan qiymətin real bazar qiymətlərinə uyğunlaşdırıl-

Dünya ölkələrində ABOEM-ə əsaslanan enerji istehsalı üzrə təminatlı tarif siyahısı

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələr (EUR/kv.s)					
Ölkələr	Külək enerjisi (onshor)	Külək enerjisi (offshor)	Günəş enerjisi (PV)	Bioenerji	Kiçik hidro enerji
Avstraliya	0,095	-	0,190-0,276	0,100-0,150	0,05
Belçika	0,05	0,09	0,15	0,02	0,05
Kanada	0,086	-	0,259-0,410	0,097-0,103	0,091-0,098
Çexiya	0,082-0,108	0,108	0,45	0,077-0,103	0,081
Danimarka	0,037	0,083	0,054-0,080	0,020	-
Estonya	0,051	0,051	0,073	0,051	0,051
Finlandiya	0,0835-0,0902	-	-	-	-
Fransa	0,082	-	0,0818-	0,125	0,06
Almaniya	0,05-0,089	0,15	0,1178-	0,06-0,1433	0,042-0,127
Yunanıstan	0,07-0,09	0,07-0,09	0,40-0,55	0,07-0,08	0,07-0,08
Macarıstan	0,095	-	-	-	0,029-0,052
İslandiya	0,059	0,059	-	0,072	0,072
İsrail	0,24-0,31	-	0,40	-	-
İtaliya	0,127-0,291	0,205-0,216	0,135-0,288	0,110-0,257	0,096-0,257
Yaponiya	0,190-0,474	-	0,345-0,394	0,112-0,336	0,207-0,293
Koreya	0,072	-	0,49	-	0,051
Luksemburq	0,08-0,10	0,08-0,10	0,28-0,56	0,103-0,128	0,079-0,103
Hollandiya	0,118	0,186	0,32-0,40	0,115-0,177	0,073-0,125
Polşa	0,157	-	0,265	0,038	0,169
Portuqaliya	0,074	-	0,257-0,47	0,119	0,075
Slovakiya	0,05-0,09	-	0,45	0,072-0,10	0,066-0,10
Sloveniya	0,087-0,094	-	0,267-0,414	0,074-0,224	0,077-0,105
İspanya	0,073	-	0,32-0,34	0,107-0,158	0,077
İsveçrə	0,055-0,125	-	0,39-0,61	0,095-0,011	-
Türkiyə	0,055-0,075	-	0,095-0,14	-	0,05-0,067
İngiltərə	0,051-0,241	0,37	0,082-0,177	0,12	0,051-0,241
ABŞ/Vermont ştatı	0,087-0,188	-	0,208	0,093	0,091
ABŞ/Viskonsin ştatı	0,054-0,062	-	0,085	0,062-0,066	-
Digər ölkələr (USD/klv.s)					
Argentina	0,025	-	0,15	0,025	0,025
Brazilya	0,097	-	0,044	0,054	-
Bolqarıstan	0,075-0,096	-	0,35-0,38	0,061-0,217	0,057-0,113
Çin	0,051-0,062	-	0,11-0,13	0,039	-
Ekvador	0,070	-	0,308	0,074-0,085	0,048-0,055
Hindistan	0,052-0,078	-	0,22	-	-
Malaziya	-	-	0,28-0,62	0,09-0,11	0,08
Malta	-	-	0,26-0,36	-	-
Cənubi Afrika	0,11	-	0,36	0,108	0,086
Tayland	0,0341	-	0,0341	0,006-0,0101	-
Ukrayna	-	-	0,43	-	-

Mənbə: *Wind Works, Tables of Feed-in Tariffs Worldwide 2014 [11]*

ması və proqnozlara əsaslandırılması olduqca zəruridir. Bu səbəbdən layihə xərcləri yüksək olan günəş enerjisi istehsalına, layihə xərcləri az olan külək enerjisi istehsalı ilə müqayisədə daha yüksək təminatlı tarif təklif edilir. Məsələn, bu modelin müvəffəqiyyətlə tətbiq edildiyi ölkələrdən biri olan Almaniyada sabit qiymət tətbiq edilən təminatlı tarif modeli sayəsində təkcə 2000-2008-ci illər ərzində alternativ və bərpa olunan enerji istehsalı təqribən iki dəfədən çox artaraq, 6,3%-dən 15%-dək yüksəlmişdir. Bu modelin əsas mənfi cəhəti isə qiymət təyin edilərkən inflyasiyanın nəzərə alınmaması göstərilir. Belə ki, bir müddətdən sonra inflyasiyanın təsirindən investorların elektrik enerjisi satışından əldə etdikləri gəlirlərin real dəyəri aşağı

düşür. Bu məqsədlə beynəlxalq təcrübədə investorlara təminat vermək və onlarda güvən yaratmaq məqsədi ilə layihənin istismar müddəti nəzərə alınmaqla təklif edilən təminat müddəti uzadılır və təminatlı enerji tarifi istehsal xərci müəyyənləşdirilir.

Qiymətin inflyasiyaya görə tənzimləndiyi model – bu modelə əsasən istehsal olunan elektrik enerjisinin qiyməti inflyasiya nəzərə alınmaqla tənzimlənir. Başqa sözlə, bu modeldə inflyasiya səbəbindən elektrik enerjisinin pərakəndə satış qiyməti artdıqca tarif də artır. Beləliklə, enerji tarifi iqtisadiyyatda baş verən bu kimi dəyişikliklərə görə tənzimləndikcə enerji istehsalçılarının gəlirləri də qorunmuş olur. Bir sözlə, sabit qiymət modeli üçün irəli sürülən əsas çatışmayan cəhət də aradan qaldırılır.

Qiymətin inflyasiyaya görə tənzimləndiyi modeli bir çox ölkələrdə fərqli tətbiq edirlər. Məsələn, İrlandiyada qiymət əvvəldən müəyyən edilmiş bir formula əsasında illik inflyasiya nəzərə alınmaqla hesablanır. İspaniyada inflyasiyaya görə qiymət tənzimlənməsi rüblük və ya illik dövrlər üzrə aparılır. Kanadada istehsal olunan elektrik enerjisinin minimum qiymətinin 20%-i dəyərində inflyasiya tənzimlənməsi həyata keçirilir. Fransada isə ABOEM-in növlərinə və istehsal texnologiyasına görə 40-100% arası inflyasiya tənzimlənməsi aparılır. Qiymətin inflyasiyaya görə tənzimləndiyi modelin əsas üstünlüyü istehlak qiymətlərində baş verə biləcək hər hansısa dəyişikliklərə qarşı əlavə qorumanı təmin etməklə, investorların üzləşə biləcəyi riskləri minimuma endirməkdən ibarətdir. Bundan əlavə, modelin iqtisadi-siyasi alət kimi tətbiqi də çox sadədir. Lakin modelin mənfi cəhəti ondan ibarətdir ki, müqavilənin qüvvədə olduğu müddət ərzində tələb olunan ödənişlərin müntəzəm və yüksək olması gələcəkdə dövlət büdcəsi üçün müəyyən qədər maliyyə yükü narahatlığını yarada bilər.

Uzunmüddətli tarif modeli – bu modeldə ilk illərdə daha yüksək qiymət ödənişi nəzərdə tutulur. Belə ki, ilkin dövrdə elektrik enerjisinin pərakəndə satış qiymətindən yuxarı qiymət təyin edildiyi halda, müəyyən bir müddətdən sonra tarif elektrik enerjisinin pərakəndə satış qiymətindən aşağı götürülür. Bu modelin də fərqli tətbiq formaları mövcuddur. Məsələn, ABŞ-ın Minnesota ştatında müqavilənin qüvvədə olduğu müddətin ilk on ili ərzində yüksək qiymət, qalan on ili ərzində isə aşağı qiymət tətbiq edilir. Sloveniyada isə qiymət beşinci ilin sonunda 5%, onuncu ilin sonunda isə 10% azaldılır. Bu modelin əsas məqsədi ABOEM üzrə xüsusilə, külək enerjisi üçün əlverişli bölgələrdə layihələrin həddindən artıq təşviq edilməsinin qarşısının alınması, əvəzində isə alternativ və bərpa olunan enerji layihələrinin daha böyük coğrafi ərazilərdə genişləndirilməsinə nail olmaqdan ibarətdir. Bu cür modelin əsas üstünlüyü isə dəstəyə daha çox ehtiyacı olan layihələrin ilkin dövrdə yüksək gəlir əldə edilməsini təmin etmək məqsədi ilə xərclərin azaldılmasına nail olmaqdan ibarətdir. Lakin bütün bunlara baxmayaraq, bu modelin az küləkli ərazilərdə, yəni investisiya üçün elə də cəlbedici olmayan sahələrdə dəstəklənməsi narahatlığı qalmaqdadır [5, s.19].

Spot bazar qiyməti modeli (ing: spot market price) – bu modelin əsas hədəfi spot bazar qiyməti ilə proqnozlaşdırılan qiymət arasında olan fərqdir. Belə ki, spot bazar qiyməti proqnozlaşdırılan tarif məbləğini üstələyərsə qiymət aşağı salınır və ya əksinə artırılır. Bu səbəbdən bu cür model bazar qiymətindən asılı bir model kimi də qəbul edilir. Lakin ödəniləcək qiymət sabit olduğundan bazar qiymətindən asılı olmayan və sabit qiymət tətbiq edilən təminatlı tarif modeli qrupuna daxil edilir. Bu modelin uğurla tətbiq edildiyi ölkələrdən biri olan Hollandiyada ABOEM hesabına istehsal edilən elektrik enerjisinin qiyməti spot bazar qiymətinin 2/3 hissəsindən az olarsa, aradakı qiymət fərqi subsidiyalar hesabına aradan qaldırılır. Əks halda isə istehsalçılara ayrılan subsidiyalar azaldılır. Bu modelin isə əsas mənfi cəhəti spot bazar qiyməti ilə tarif arasındakı fərqin dövlət büdcəsi hesabına qarşılanmasıdır ki, bu da dövlət büdcəsi üçün gələcəkdə maliyyə yükü ola biləcəyi narahatlığını yaratmış olur.

Bazar qiymətindən asılı olan və əlavə haqq olaraq premium tətbiq edilən təminatlı tarif modelinin isə üç fərqli tətbiq növü mövcuddur [2, s.63]:

1. Sabit premium təminatlı tarif modeli;

2. Dəyişkən premium təminatlı tarif modeli;

3. Sabit faiz təminatlı tarif modeli.

Sabit premium təminatlı tarif modeli – burada sabit qiymət modelində olduğu kimi, eyni şəkildə alternativ və bərpa olunan enerji istehsalçısına satınalma təminatı verilir. Fərqləndirici cəhət ondan ibarətdir ki, bu modelin tətbiqi zamanı elektrik enerjisinin mövcud bazar qiymətinə əlavə olaraq müəyyən məbləğdə premium əlavə edilir. Lakin bu istehsalçıya ödəniləcək premium elektrik enerjisinin real bazar qiymətinə uyğun olaraq müəyyən edilir. Belə ki, bazar qiymətləri yüksəldikcə premium azalır, azaldıqca isə əksinə, premium yüksəlir. Burada da əvvəlki modellərdə olduğu kimi, qiymətlər müəyyənləşdirilərkən ABOEM-in növləri, tətbiq edilən texnologiyalar və layihələrin həcmi nəzərə alınır. Ümumilikdə isə beynəlxalq təcrübədə elektrik enerjisi qiymətinə əlavə edilən premiumun bazar qiymətindən yuxarı olduğunu görə bilərik. Həmçinin bu modelin enerji bazarında rəqabətçi mühitin formalaşması qaydalarına daha uyğun olduğunu deyə bilərik. Çünki qiymət bazar tələbinə görə dəyişir. Hazırda isə Çexiya, Sloveniya, Estoniya və Danimarka kimi ölkələrdə bu modeldən istifadə edilməkdədir.

Dəyişkən premium təminatlı tarif modeli – bu modelin əvvəlkindən fərqi ondadır ki, onun tətbiqi zamanı daha çevik qiymət təklif edilir və qiymətləndirilmə bazar şəraitində baş verən dəyişikliklərdən asılı olaraq aparılır. Belə ki, elektrik enerjisinin pərakəndə satış qiyməti müəyyən bir səviyyəyə yüksəlincə premium da paralel şəkildə azalır və müəyyən bir səviyyədə premium azalaraq sıfıra endirilməklə, istehsalçı spot bazar qiyməti modelinə keçir. Burada əsas məqsəd elektrik enerjisinin pərakəndə satış qiymətinin yüksəlməsi zamanı yaranan spekulyativ mənfəəti minimuma endirmək və yaxud əksinə, bazar qiyməti aşağı düşdükdə isə investora yüksək investisiya təminatı yaratmaqdır. Bu model, qiymətin maya dəyəri ilə daha uyğun olmasını asanlaşdırır. Bundan əlavə, ödəmədə aşağı və yuxarı hədlər (limitlər) də müəyyən edilir.

Sabit faiz təminatlı tarif modeli – burada istehsalçıya ödənilən məbləğ bazar qiymətində baş verən dəyişikliklərə görə müəyyənləşdirilir. Belə ki, elektrik enerjisinin pərakəndə satış qiymətinə görə tarifi də dəyişir. Bu səbəbdən model istehsalçı üçün çox risklidir. Çünki elektrik enerjisi qiyməti anidən artdıqda, istehsalçılar üçün spekulyativ fayda əldə edilərkən, qiyməti də anidən aşağı düşdükdə mənfəətin azalması müşahidə edilir. Bu model ilk dəfə 1990-2000-ci illər ərzində Almaniya və Danimarkada, 2004-2006-cı illər ərzində isə İspaniyada tətbiq edilmişdir. Almaniyada layihənin böyüklüyünə və növünə görə elektrik enerjisinin tarifi pərakəndə satış qiymətinin 90%-i, Danimarkada 85%-i, İspaniyada isə 75-80% arası müəyyənləşdirilir. Lakin İspaniyada bu model uğursuzluqla nəticələnmiş, elektrik enerjisi qiymətlərinin yüksək olduğu dövrlərdə bu model yüksək ödənişlərə səbəb olmuşdur. Beləliklə, bu uğursuz nəticələr səbəbindən hazırda həmin modelə üstünlük verilmir.

"Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə qeyd edilir ki, 2020-ci ilədək Azərbaycanda alternativ enerji istehsalına 1,04 milyard manat investisiya yatırılması nəzərdə tutulmuşdur. Ümumilikdə isə 2020-ci ilədək ölkəmizdə istehsal edilən ümumi elektrik enerjisinin ən azı 20%-nin, məhz alternativ və bərpa olunan enerji mənbələri hesabına əldə olunması hədəf götürülmüşdür. Lakin bu hədəflərə nail olmaq üçün maliyyə-kredit sahəsində müasir yanaşmaya çox ciddi ehtiyac vardır. Belə ki, istər yerli, istərsə də xarici investorların bu sahəyə marağının artırılması və ölkədə sahibkarlığın inkişafına nail olunması üçün beynəlxalq təcrübəyə əsaslanan maliyyə təşviqi siyasəti tətbiq edilməlidir.

Nəticə. Ölkə üzrə alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və onun inkişafını təmin etmək üçün bu sahəyə investisiya yatırmaq istəyən investorların maliyyə xərclərinin azaldılması, eyni zamanda, ənənəvi enerji istehsalı müəssisələrinə qarşı rəqabətədavamlı investisiya mühitinin yaradılması məqsədi ilə stimullaşdırıcı tədbir kimi maliyyə təşviqi siyasətinin tətbiqinin daha da genişləndirilməsi vacibdir. Bu məqsədlə alternativ və bərpa olunan enerji sahəsində qabaqcıl təcrübəyə və yüksək nailiyyətlərə malik olan ölkələrlə əməkdaşlığı daha da genişləndirmək və onların təcrübələrindən maksimal dərəcədə yararlanmaq gərəkdir.

ƏDƏBİYYAT

1. Çelikkaya A. Avrupa Birliği Üyesi Ülkelerde Yenilenebilir Enerjiye sağlanan Teşvikler Üzerine Bir İnceleme. T.C. Sayıştay Başkanlığı, Sayıştay Dergisi, sayı 104, ocak-mart 2017, s.1-26.

2. Çelikkaya A. Yenilenebilir Enerjinin Teşvikine Yönelik Uluslararası Kamu Politikaları Üzerine bir İnceleme, Eskişehir Osmangazi Üniversitesi, Maliye Dergisi, Ocak-Haziran 2017, №172, s.52-84.

3. Ulusoy A., Bayraktar C. Yenilebilir enerji kaynaklarına yönelik vergisel teşviklerin değerlendirilmesi, HAK-İŞ Uluslararası Emek ve Toplum Dergisi, cilt 7, yıl 7, sayı 17, s.123-160, 1/2018.

4. Баскакова М. Японская экономическая модель. Журнал Мировая экономика и международные отношения "Наука" №1, Москва, 2004.

5. Василевский Э. Структурные сдвиги, динамика и эффективность роста экономики США до 2020 г. Журнал Мировая экономика и международные отношения "Наука" №9, Москва, 2006.

6. Couture T., Gagnon Y. An Analysis off Feed-in Tariff Remuneration Models: Implications for Renewable Energy Investment, Energy Policy Journal №38, 2010.

7. Lo. K.A. Critical review of China's rapidly developing renewable energy and energy efficiency policies. Renewable and Sustainable Energy Re-views, №29, 2014.

8. Maruyama Y., Nishikido M., Iida T. The rise of community wind power in Japan: Enhanced acceptance through social innovation. Energy Policy Journal №35 (5), 2007.

9. REN 21 (Renewable Energy Policy Network for the 21st century) Renewables 2015, Global Status Report.

10. REN 21 (Renewable Energy Policy Network for the 21st century), Renewables 2018, Global Status Report.

11. Wind Works, Tables of Feed-in Tariffs Worldwide 2014.

12. Yong Z., Tang K., Wang L. "Do Renewable Electricity Policies Promote Renewable Electricity Generation? Evidence from Panel Data", Energy Policy Journal №62: p.887-897, 2013.

13.https://en.wikipedia.org/wiki/1973_oil_crisis#cite_note-cbc-3 - 1973 oil crisis.

J.Mammadov

The role of financial incentives in the production of alternative and renewable energy

Summary

This article explores the policy of financial incentives in the field of alternative and renewable energy sources, the creation of a favorable investment environment, as well as their application in the international arena.

As a result, the need to expand the use and development of the field of alternative and renewable energy sources, reduce investor costs, as well as the need to further expand the use of financial incentive policies to create a competitive investment environment against traditional energy sources has been emphasized.

Дж.Мамедов

Роль политики финансового стимулирования в производстве альтернативной и возобновляемой энергии

Резюме

В данной статье исследуется политика финансового стимулирования области альтернативных и возобновляемых источников энергии, создание благоприятной инвестиционной среды, а также их применение на международной арене.

В результате, была подчеркнута необходимость расширения использования и развития области альтернативных и возобновляемых источников энергии, снижение затрат инвесторов, а также необходимость дальнейшего расширения применения политики финансового стимулирования в целях создания конкурентоспособный инвестиционной среды против традиционных источников энергии.

BAZAR İQTİSADİYYATININ İNKİŞAFINDA PEŞƏ TƏHSİLİNİN YERİ

Cəmaləddin Quliyev,
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında
Dövlət Məşğulluq Xidmətinin rəis müavini
e-mail: jamaladdin.guliyev@mlspp.gov.az

UOT: 33; 377

Xülasə. *Məqalədə Azərbaycanda bazar iqtisadiyyatına keçid haqqında məlumat, bazar iqtisadiyyatına keçidlə əlaqədar iqtisadiyyatda və əmək bazarında pozitiv dəyişikliklər, peşə və ixtisas haqqında izahlar, işsiz şəxslər üçün məşğulluq xidməti orqanları tərəfindən peşə hazırlığının təşkili haqqında məlumat, peşə təhsilinin iqtisadiyyatda rolu barədə müzakirələr, modul təliminin mahiyyəti öz əksini tapmışdır.*

Açar sözlər: *bazar iqtisadiyyatı, əmək bazarı, məşğulluq, peşə, ixtisas, peşə hazırlığı, modul təlimi.*
Key words: *market economy, labour market, employment, vocation, specialty, vocational education, module training.*
Ключевые слова: *рыночная экономика, рынок труда, занятость, профессия, специальность, профессиональная подготовка, модульное обучение.*

Ölkəmizdə dövlət müstəqilliyinin təmin edilməsi, bazar münasibətlərinin dərinləşməsi sahəsində aparılan iqtisadi islahatlar iqtisadiyyatımızın inkişafı və dünya təsərrüfat sisteminə daha sıx inteqrasiya olunması üçün əlverişli şərait yaratmışdır. Məhz belə bir şəraitdə milli iqtisadiyyatın formalaşması və ölkənin qlobal bazarlarda yerinin müəyyən edilməsi, onun mövqeyinin perspektiv dövr üçün möhkəmləndirilməsi dövlətin siyasi-iqtisadi fəaliyyətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyev və onun uğurlu davamçısı olan dövlət başçısı İlham Əliyevin müəyyən etdiyi milli iqtisadi strategiyanın başlıca istiqamətlərini makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadi artımın təmin edilməsi, dünya təsərrüfat sisteminə və əmək bazarına inteqrasiyanın gücləndirilməsi, sosial rifahın yüksəldilməsi və iqtisadi təhlükəsizliyi möhkəmləndirən aspektlər təşkil edir.

Respublikamızda baş verən iqtisadi dəyişiklikləri getdikcə daha da sürətləndirən islahatların aparılması və yeni məzmunlu ictimai-siyasi münasibətlərin formalaşması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, ölkədə müxtəlif mülkiyyət növlərinə əsaslanan, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi, azad sahibkarlığa hüquqi təminatın yaradılması, qlobal strukturlara inteqrasiyanın gücləndirilməsi və digər iqtisadi inkişaf məsələlərinə daim diqqət yetirilir.

Azərbaycan dövləti mülkiyyətin çoxnövlüyü əsasında müxtəlif şaxələndirilmiş təsərrüfat formalarının, daxili bazarın yaranması və fəaliyyəti üçün çevik infrastrukturun yaradılması, biznes

və sahibkarlıq fəaliyyətinin inkişafı, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, inflyasiya və işsizliyin qarşısının alınması, əhalinin sosial müdafiəsinin təşkili sahəsində məqsədyönlü işlər aparır. Bu işlərin gerçəkləşməsində dövlət öz funksiyası çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrinə aid tənzimləyici tədbirlər həyata keçirir.

Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafı ilk növbədə, xarici investisiyaların səfərbər edilərək iqtisadiyyatın inkişafına yönəldilməsindən xeyli asılıdır.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra onun güclü dövlət kimi formalaşmasında neft sənayesinin rolu daha da artmışdır. Artıq Azərbaycan nefti keçmiş ittifaq ehtiyaclarının ödənilməsi üçün deyil, yalnız xalqının maddi-rifah şəraitinin yaxşılaşdırılması üçün istifadə edilir. Bununla əlaqədar olaraq neft sənayesinin inkişafını təmin etmək, bu sahədə əldə edilmiş vəsaitlərdən əhalinin sosial şəraitinin yaxşılaşdırılması və yüksəldilməsi üçün səmərəli istifadəsini təşkil etmək məqsədi ilə ölkədə vahid və məqsədyönlü neft strategiyası həyata keçirilir.

Müasir dövrün formalaşmış reallıqları belədir ki, elmi-texniki və iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, heç bir ölkə xarici iqtisadi əlaqələrsiz və digər ölkələrlə əməkdaşlıq etmədən öz milli iqtisadiyyatının optimal inkişafını təmin edə bilməz. Ona görə də bütün ölkələr öz aralarında beynəlxalq və regional səviyyədə maddi nemətlərin və xidmətlərin istehsalı və mübadiləsi sahəsində iqtisadi əlaqələrə girirlər.

Müasir insan həyatda ona lazım olan bütün əmtəələri özü istehsal etmir. Lakin cəmiyyətin inkişafının müəyyən mərhələlərində heç də belə olmamışdır. İbtidai insanlar həyat uğrunda mübarizə apararaq yaşamaq üçün özünə həm qida əldə etməli, həm paltar hazırlamalı, yaşayış yeri tikməli, həm də düşmənlərdən müdafiə olunmalı idilər.

Cəmiyyətin sonrakı inkişafında əməyin ictimai bölgüsü aparılmağa başlandı. İlk əmək bölgüsü müəyyən insan qruplarının və ya fərdin heyvandarlıq, digərlərinin isə əkinçiliklə məşğul olması ilə başlamışdır. Əkinçilər və heyvandarlar bir-birinə lazım idilər. Çünki bir qrupun heyvandarlıq məhsullarına, digər qrupun isə əkinçilik məhsullarına ehtiyacı var idi. Beləliklə, əmək məhsullarının mübadiləsi yarandı.

Cəmiyyətin inkişafı nəticəsində müxtəlif sənətlərin yaranması əmək bölgüsündə ikinci mühüm mərhələ sayıla bilər. Artıq əmək məhsullarının bölünməsi sənətkarlar, heyvandarlar və əkinçilər arasında aparılırdı. Müxtəlif məhsulların mübadiləsi tədricən mürəkkəb xarakter alır, həcmi genişlənir və beləliklə də, ictimai əmək bölgüsünün üçüncü mərhələsində tədricən yeni peşəyə ehtiyac yaranırdı. Bu peşə nümayəndələri əsasən məhsulların mübadiləsi ilə məşğul olanlar, yəni tacirlər idi. Cəmiyyətin inkişafı əməyin tədricən maddi və mənəvi nemətlər istehsalı ilə məşğul olan peşələrin bölgüsünə səbəb oldu.

Müasir cəmiyyətdə, xüsusilə bazar iqtisadiyyatı şəraitində əməyin minlərlə növü meydana çıxmışdır. Hazırda yeni idarəetmə üsulları, yeni texnologiyalar, innovativ həllər tətbiq edilir. Bunların hər biri insan qarşısında qoyduğu tələblər sistemi ilə birgə peşə adlandırıla bilər.

Peşə – cəmiyyətin zəruri ehtiyaclarına uyğun olaraq, əməyin bölgüsü nəticəsində insanın fiziki və mənəvi qüvvəsinin məhdud tətbiq sahəsi olub, əvəzində fərdin yaşamı və inkişafı üçün imkan yaradır.

Peşə – xüsusi hazırlıq və iş təcrübəsi nəticəsində nəzəri biliklərə və təcrübi vərdişlərə yiyələnmiş insanın əmək fəaliyyətidir (məşğulluğudur). Peşələr işin xidmət funksiyaları və tətbiq edilən əmək alətləri ilə xarakterizə edilir.

İxtisas – insanın əmək fəaliyyəti növü olub, müəyyən istehsal (xidmət) sahəsində məşğul olmağa imkan yaradan bilik və əməli vərdişlər kompleksidir. İxtisas peşə daxilində formalaşır (peşə daxilində müxtəlif fəaliyyət növləridir). Peşə bir və ya bir neçə ixtisası əhatə edə bilər. Məsələn, müəllimlik peşəsi – fizika müəllimi, riyaziyyat müəllimi, kimya müəllimi və s. ixtisasları; mühəndislik peşəsi – tikinti mühəndisi, maşınqayırma mühəndisi, cihazqayırma mühəndisi və s. ixtisasları əhatə edir.

Minlərlə peşə və ixtisas vardır ki, və onları bir-birindən fərqləndirmək heç də asan iş deyil. Elə bu məqsədlə də peşələri təsnif edirlər. Ümumiyyətlə, təsnifat hər hansı bilik, yaxud insan fəaliyyəti sahəsində tabeli anlayışlar sistemidir ki, bu anlayışlardan da siniflər arasında əlaqə yaratmaq vasitəsi kimi istifadə edilir.

Təsnifat əsasında əşyaları, hadisələri hər hansı mühüm əlamətə görə növlərə bölürlər. Peşənin düzgün təsnifi onlarla tanışlığı asanlaşdırır. **Peşələrin təsnifinin müxtəlif növləri** vardır. Ən sadə təsnifat peşələrin baş hərflərinə görədir *(əlifba sırası əsasında)*. Lakin peşəseçimi baxımından belə təsnifat əlverişli deyil, çünki peşə seçən gənc çox vaxt peşənin adını hələ dəqiq bilmir. Digər təsnifata görə peşələri fiziki və zehni əmək kimi iki qrupa bölmək olar (əməyin xarakteri əsasında bölgü). Son vaxtlar istehsalın mexanikləşdirilməsi, avtomatlaşdırılması və kompüterləşdirilməsi nəticəsində bu iki qrup arasındakı sərhədlər silinməkdədir. Əgər vaxtilə fiziki əməklə fəhlələr, zehni əməklə mühəndis-texniki heyət məşğul olurdusa, indi vəziyyət dəyişmişdir. Elə sahələr var ki, orada fəhlələr də zehni işlə məşğul ola bilər. Bu gün elə peşələr var ki, onu bu qruplardan hər hansı birinə aid etmək asan deyil (məsələn, rəqəmli proqramla idarə edilən dəzgahların operatoru peşəsi).

Peşələrin digər təsnifatı onların *iqtisadiyyatın sahələri üzrə* bölgüsüdür. Bu sahələr üzrə əhalinin məşğulluğunu aşağıdakı sektorlara bölmək olar: tikinti və sənaye, nəqliyyat və rabitə, kənd təsərrüfatı, ticarət, humanitar sahə (elm, təhsil, səhiyyə, mədəniyyət), dövlət idarəetmə orqanları, xidmət, servis, qeyri-istehsal sahələri və s. Peşələrin iqtisadiyyatın sahələri üzrə təsnifi şərti xarakter daşıyır. Belə ki, bəzi sahələr bir-birinə nüfuz etmişdir (məsələn, elm və səhiyyə, elm və rabitə və s.). Digər tərəfdən, sahə və sahələrarası (yəni iqtisadiyyatın bir neçə sahəsində geniş yayılmış) peşələr də mövcuddur. Məsələn, çilingər peşəsi (bu peşəyə sənayedə, nəqliyyatda, texnikanın müxtəlif sahələrində rast gəlirik).

Peşələri *maddi-istehsal sahələri* üzrə də təsnif etmək olar: maddi-istehsal sahə peşələri (sənaye, kənd təsərrüfatı, tikinti, rabitə və s.) və qeyri-istehsal sahə peşələri (səhiyyə, mülki nəqliyyat-sərnişin yük daşıması, ticarət, KİV, təhsil və s.). Sahələri istehsal və qeyri-istehsal sahələrinə bölərkən də qeyri-dəqiqliyə yol verilə bilər. Belə ki, əhalinin demək olar hamısı müxtəlif istehsal növləri ilə məşğuldur. Cəmiyyət üçün faydalı, istənilən əmək nəticəsindən asılı olmayaraq maddi və ya mənəvi istehsal yaradıcı əməkdir. Bu mənada bütün peşələr cəmiyyət üçün eyni səviyyədə əhəmiyyət kəsb edir.

Fəhlə peşələrini ixtisas dərəcələri səviyyəsinə və işin xarakterinə görə də təsnif etmək olar: Məsələn, *yüksək ixtisaslı peşələr* (mürəkkəb texnoloji proseslərlə əlaqəli işləri icra edən fəhlələr – sazlayıcı, operator və s.), *ixtisaslı peşələr* (kütləvi fəhlə peşələri – çilingər, qaynaqçı, frezerçi, tornaçı və s.), *aşağı ixtisaslı peşələr* (makinaçı, liftçi və s.), *ixtisas tələb etməyən peşələr* (yardımçı fəhlələr). Yuxarıdakı təsnifat formalarında verilən peşə qrupları gələcək peşəseçimi üçün konkret məlumat vermir. Doğrudan da, peşənin insan şəxsiyyətinə verdiyi tələbləri (qabiliyyət, maraq, imkan) bilmədən, onun konkret şəxsə uyğun olub-olmadığını söyləmək çətindir. Bu məqsədlə peşələri sahələr üzrə yox, insan amilinə nəzərən, müəyyən əlamətlər üzrə təsnif etmək məqsədəuyğundur.

Yuxarıda qeyd etdiyimiz kimi, **peşə müəyyən tələblər külliyyatı ilə xarakterizə olunan əmək fəaliyyəti növüdür.** İnsanın əmək fəaliyyətinin hər növü bir sıra komponentlərdən ibarətdir: ***əməyin predmeti, məqsədi, vasitəsi, fəaliyyət şəraiti.*** Məhz bu komponentlər konkret şəxsə verilən tələbləri müəyyən edir. Belə ki, insan işləyərkən onun diqqəti ümumilikdə iqtisadiyyatın sahələrinə deyil, əməyin konkret predmetinə yönəlir. İş prosesində bu predmet müəyyən dəyişikliyə uğrayır. Bu dəyişiklik əməyin məqsədidir, ona müəyyən əmək alətləri və vasitələrindən istifadə etməklə nail olmaq olar. Peşə seçimində insan üçün maraq kəsb edən məsələlərdən biri də əmək şəraitidir. Beləliklə, peşələrin təsnifatı bu **dörd** əlamət əsasında aparılarsa, peşəseçimi daha asan və səmərəli həyata keçirilə bilər.

Azərbaycan dövləti bazar iqtisadiyyatı şəraitində işsizliyin azaldılması və məşğulluğun yüksəldilməsi üçün yeni iş yerlərinin yaradılması istiqamətində ardıcıl şəkildə tədbirlər görmək niyyətində olduğunu bəyan etmiş və bu məqsədlə konkret tədbirlər həyata keçirmişdir ki, bu da işsizliyin səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, işaxtaran və işsiz şəxslərin məşğulluğunun təmin olunması, imkanlarının genişləndirilməsi, özünüməşğulluğun inkişaf etdirilməsi, əmək bazarında rəqabətədavamlılığın artırılması ilə əlaqədar tədbirlərin həyata keçirilməsi Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Res-

publikasının Məşğulluq Strategiyası (2019-2030-cu illər)"nda da öz əksini tapmışdır.

Strategiyada iqtisadiyyatın inkişafındakı struktur dəyişikliklərini və əmək bazarının tələblərini nəzərə alaraq, rəqabətqabiliyyətli ixtisaslar üzrə kadrların hazırlanması istiqamətində peşə təhsili sisteminin təkmilləşdirilməsi və bu məqsədlə metodologiyanın hazırlanması bir vəzifə kimi qarşıya qoyulmuşdur. Qeyd olunanlarla əlaqədar 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş "Məşğulluq haqqında" və "Peşə Təhsili haqqında" Azərbaycan Respublikası Qanunlarına, eləcə də Nazirlər Kabinetinin müvafiq Qərarı ilə təsdiq olunmuş Milli Kvalifikasiya çərçivəsinə əsaslanaraq Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən peşə hazırlığı istiqamətində bir sıra mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Peşə hazırlığı əmək bazarının və işəgötürənlərin real tələbləri nəzərə alınmaqla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin yerli orqanlarında da Məşğulluq Strategiyasına uyğun təşkil edilir. Bu isə bazar iqtisadiyyatı şəraitində cəmiyyətin stabilliyi, müəssisələrin inkişafı deməkdir. Peşə hazırlığı məşğulluq mərkəzləri ilə bağlanmış müqavilələrə uyğun xüsusi lisenziyası olan təhsil müəssisələrində modul tipli kurikulumlar əsasında həyata keçirilir.

"Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, işaxtaran və işsiz şəxslər aşağıdakı hallarda peşə hazırlığına cəlb edilirlər:

– işaxtaran və işsiz şəxslər lazımi peşə və ya ixtisası olmadığına görə onun üçün münasib iş seçmək mümkün olmadıqda;

– işaxtaran və işsiz şəxs əvvəlki peşə (ixtisas) üzrə işləmək qabiliyyətini itirdikdə.

İqtisadiyyatın qloballaşması, bununla əlaqədar informasiya bolluğunun yaranması və rəqabətin gücləndirilməsi istehsalat proseslərinin dəyişməsinə gətirib çıxarır və təhsilin genişləndirilməsində, kadrların hazırlanmasında yeni üsullara tələbatı artırır. Bu da öz növbəsində peşə təhsilində mühüm əhəmiyyət kəsb edir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar həyata keçirilən iqtisadi islahatların nəticəsi olaraq, əmək bazarında pozitiv dəyişikliklər əldə edilmiş, yeni mütərrəqi tədris texnologiyalarının tətbiqinə zərurət yaranmışdır.

Bu məqsədlə Məşğulluq Xidməti orqanları nəzdində 2007-ci ildə Bakı şəhərində, 2008-ci ildə Göyçay rayonunda, 2009-cu ildə isə Naxçıvan şəhərində Peşə Tədris Mərkəzləri yaradılmışdır. Hazırda Gəncə şəhərində də belə Tədris Mərkəzi yaradılır.

Regional Peşə Tədrisi Mərkəzlərində modul təlimi sistemi tətbiq edilmişdir. Bu təlim fasiləsiz peşə təhsilini təmin edir və istehsalat sahələrində müasir texnologiyanın tətbiqi ilə əlaqədar istehsalatdan ayrılmamaq şərti ilə peşə səriştəsinin artırılmasına da imkan verir.

Modul təliminə keçid məntiqi olaraq, fərdi təhsil şəraitində fəal və müstəqil fəaliyyəti və kredit-reytinq sistemini nəzərdə tutan Boloniya deklarasiyasının əsas prinsiplərindən irəli gəlir.

Modul təlimi tədrisə və bacarıqların inkişafına sistemli yanaşma olaraq aşağıdakı bir-biri ilə qohum olan daxili proseslərdən ibarətdir:

– tədrisdə yeni tələbin qiymətləndirilməsi və tədrisi təşkil olunacaq peşənin müəyyənləşdirilməsi;

– kompitentlik nöqteyi-nəzərindən işin təhlili;

– potensial dinləyicilərin sayının müəyyənləşdirilməsi;

– modul təlimi proqramlarının hazırlanması;

– əmək vərdişləri modullarının tədris materiallarının hazırlanması;

– çeviklik və fərdilik prinsiplərinə əsaslanan tədrisin həyata keçirilməsi.

İnkişaf etmiş Avropa ölkələri təcrübəsinin göstərdiyi kimi, təhsildə modul təliminin tətbiqi nəticəsində aşağıda qeyd olunan üstünlüklər əldə edilir:

– mütəxəssislərin hazırlıq keyfiyyətinin nəinki yalnız nəzəri cəhətdən, həm də istehsalat funksiyalarının da əhəmiyyətli dərəcədə yüksəlməsinə gətirib çıxarır;

– fərdi proqramların tərtib olunması, fərdi təlimlərin müddətlər və mahiyyət üzrə keçirilməsinə imkan verir;

– təlim prosesi formalarının çevikliyi və aşkarlığı ilə səciyyələnir;

– təlim müddətini minimum 2 dəfə azaldır;

– təlim xərclərini 2,5 dəfə azaldır və iqtisadi fəallığı yüksəldir.

Dövlət Məşğulluq Xidməti tərəfindən bazar iqtisadiyyatı şəraitində işaxtaran və işsiz şəxslərin məşğulluğunun təmin olunmasına köməklik

göstərilməsi məqsədi ilə Regional Peşə Tədris Mərkəzlərində iqtisadiyyatın müxtəlif sahələrini, o cümlədən, kənd təsərrüfatı, sənaye, xidmət və turizm sahəsini əhatə edən hazırlıq kursları təşkil edilir. Peşə hazırlığı vasitəsi ilə müvafiq səriştələr əldə edən şəxslər bazar iqtisadiyyatının tələblərinə uyğun, əmək bazarına səmərəli inteqrasiya olunaraq, iqtisadiyyatın müxtəlif sahələrində çalışırlar. Hər il minlərlə işaxtaran vətəndaş rəqabətqabiliyyətli peşələrə yiyələnərək, məşğulluqlarını təmin etmək üçün real imkanlar qazanırlar. Bunu peşə hazırlığı kurslarına cəlb olunanları əks etdirən aşağıdakı diaqramda görmək olar:



Mütəmadi olaraq peşəyönümü və peşə hazırlığı xidmətinin mahiyyətinin daha dərindən anlaşılması, təbliğ olunması məqsədi ilə Bakı şəhərində, eləcə də respublikamızın digər şəhər və rayonlarında icra hakimiyyətinin nümayəndələri, təhsil işçiləri, valideynlər, tələbələr cəlb olunmaqla konfranslar keçirilir. Son zamanlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Beynəlxalq Əmək Təşkilatının dəstəyi ilə bir sıra dövlətlərin (İsveç, Almaniya, Avstriya, İrlandiya, Litva, Rusiya və b.) təcrübəsinə əsaslanaraq, peşə hazırlığı və peşəyönümü işinin təkmilləşdirilməsi istiqamətlərində layihələr həyata keçirilir. Belə layihələrdən biri də əmək bazarında olan tələb və təklifin öyrənilməsini iqtisadiyyatda daha çox tələb olunan peşə və ixtisasların müəyyən edilməsini nəzərdə tutan observatoriyanın yaradılmasıdır.

Nəticə. Keçirilən bu tədbirlərin nəticəsi olaraq o qənaətə gəlinir ki, bazarın tələblərinə uyğun rəqabətqabiliyyətli kadr hazırlığının peşəkarlıq səviyyəsinin artırılması, bazar iqtisadiyyatının tələblərinə cavab verən səriştələrin əldə edilməsi məqsədi ilə təcrübəli mütəxəssislər, ekspertlər tərəfindən mütəmadi olaraq keçirilən bu təlimlər öz səmərəsini verməkdədir.

ƏDƏBİYYAT

1. Axundov S. Mənəvi tərbiyə və peşə oriyentasiya üzrə iş. Bakı, 1974.

2. Перспективы и тенденции в образовании взрослых (сборник статей). Составители: Уве Гартеншлегер, Херберт Хинцен. Издательство А.В.К. Тимошка, Санкт-Петербург, 2000.

3. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2018.

4. Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2019-2030-cu illər).

5. Əliyev A., Şəkərəliyev A. Bazar iqtisadiyyatına keçid. Dövlətin iqtisadi siyasəti. Bakı, 2002.

J.Quliyev

The place of vocational education in the market economy

Summary

The article contains information on the transition to a market economy in Azerbaijan, positive changes in the economy and the labor market, explanations about occupations and qualifications, information on the organization of vocational training by the Employment Services Authority for the unemployed, discussions on the role of vocational education in the economy, the essence of the module training.

Дж.Гулиев

Место профессионального образования в развитии рыночной экономики

Резюме

Статья содержит информацию о переходе к рыночной экономике в Азербайджане, позитивные изменения в экономике и рынке труда, связанные с переходом в рыночную экономику, пояснения по профессиям и квали-фикациям, информацию об организации профессиональной подготовки, профессионального образования со стороны служб занятости, роли профессионального образования в экономике, суть модульного обучения.

Peşə təhsili və insan kapitalı. Cild 2, №2, 2019 s.50-53

ОЦЕНКА ЭФФЕКТИВНОСТИ КАДРОВОГО ПОТЕНЦИАЛА ПРЕДПРИЯТИЯ

Зохра Мустафаева,
Азербайджанский Государственный Экономический Университет (UNEC),
доктор философии по экономике, доцент кафедры «Игтисадият»
e-mail: zohra.mustafayeva53@gmail.com

УДК: 65

Резюме. *В статье рассматривается эффективное использование кадрового потенциала как основной резерв повышения результативности деятельности организации. Изложены основные принципы, методы и подходы оценки эффективности кадрового потенциала предприятия, а также последовательность её проведения. Предлагается SWOT-анализ для выявления и ликвидации слабых сторон кадрового потенциала предприятия.*

Ключевые слова: *кадровый потенциал, результаты деятельности, оценка эффективности, предприятие, персонал, методы, анализ.*
Açar sözlər: *kadr potensialı, fəaliyyətin nəticələri, səmərəliliyin qiymətləndirilməsi, müəssisə, personal, metodlar, analiz.*
Key words: *personnel potential, results of activity, efficiency assessment, enterprise, personnel, methods, analysis.*

В последние годы возрастает значимость кадрового потенциала, так как все большеечисло руководителей предприятия понимают, что кадры являются главным ресурсом и от их квалификационного уровня, трудовой и социальной активности во многом зависят конечные результаты деятельности.

Кадровый потенциал предприятия – это обобщающая характеристика совокупных способностей постоянных работников предприятия, имеющих определенную квалификацию, прошедших подготовку и обладающих специальными знаниями, опытом работы в сфере деятельности, способных эффекти0вно выполнять функциональные обязанности и давать экономические результаты в соответствии с поставленными текущими и перспективными целями предприятия [1].

Следует отметить, что показателем оптимального использования кадрового потенциала предприятия считается не только успешная результативность производства, но и создание благоприятных условий труда, обеспечение достойной социальной защиты, хорошего морально-психологического климата, возможностей для самореализации личности.

Наличие кадрового потенциала позволяет заранее на плановой основе, по научно и практически обоснованной программе готовить кандидатов на вновь создаваемые и подлежащих замещению вакантные долж-

ности, эффективно организовать обучение и стажировку, рационально их использовать на различных направлениях и уровнях [4]. По качественному и количественному составу кадровый потенциал должен отвечать действующим организационно-штатным структурам с учетом их развития на будущее.

Эффективное использование кадрового потенциала современного предприятия необходимо рассматривать как основной резерв роста результативности деятельности данной организации. Именно поэтому особое значение приобретает оценка кадрового потенциала, направленная на интенсификацию труда работников.

Оценка кадрового потенциала делает возможным приобретать трудовые навыки, знания и умения, которые необходимы для осуществления конкретного задания. Однако проведение оценки кадрового потенциала для некоторых предприятий является трудновыполнимой задачей, что отрицательно воздействует на результаты их деятельности.

Для оценки эффективности кадрового потенциала до начала ее проведения необходимо провести всесторонний и глубокий анализ наличия кадрового потенциала, а также качественного состава кадров предприятия. Этот анализ следует начинать с исследования социально-демографических данных: пола, возраста, образования, стажа работы, квалификации и др. Существует большое разнообразие методов оценки кадрового потенциала, основной целью которых является улучшение итогов работы исполнителей различных подразделений и предприятия в целом.

Итоги оценки кадрового потенциала могут иметь такие последствия для предприятия, как сокращение, увольнение или увеличение штата работников, изменение в организационной структуре предприятия, в системе нормирования и заработной платы, морально-психологическом климате в коллективе, степени удовлетворения работников условиями и итогами труда, повышении или снижении числа конфликтных ситуаций. В целом жепроцесс оценки решает поставленные задачи по улучшению текущей деятельности персонала, определению перспектив и планов развития работников организации, созданию хорошего морально–психологического климата в коллективе.

Следует отметить, что несмотря на то, что методов оценивания кадрового потенциала достаточно много, они в большинстве своем не являются идеальными, имеют определенные преимущества и недостатки.

Оценивание основных параметров деятельности может быть комплексным, локальным, пролонгированным и экспрессивным.

Наиболее трудоемкой является комплексная оценка. Как правило, такое оценивание складывается на основе исследованиявыполнения отдельных функций и их единства как системы.

Локальная оценка в отличие от комплексной осуществляется на основе итогов выполнения одной функции либо её доли. Кроме того, при такой оценке чаще всего ограничиваются выявлением факта выполнения или невыполнения функции.

Пролонгированное оценивание проводится на основе исследования длительного времени трудовой деятельности.

Экспрессивная оценка, наоборот, относится только к текущей трудовой деятельности.

Одним из главных достоинств оценки кадрового потенциала является то, что она даёт возможность выявить наличие резерва на выдвижение.

Оценка кадрового потенциала должна включать диагностику ориентации руководящего персонала, распределение управленческих ролей, умение проектировать распределение управленческих ролей, умение создавать инновационный потенциал.

Приоритетными принципами оценивания кадрового потенциала являются:

– справедливое обсуждение итогов работы;

– достоверность критериев;

– надежность методов;

– конфиденциальность;

– рассмотрение личностных и деловых качеств работников, их соответствие должности; оптимальное сочетание критики и

поощрения.

К показателям оценки кадрового потенциала предъявляются следующие требования:

– полнота и достоверность отражения результатов;

– конкретность;

– обеспечение сопоставимости, как с предыдущим периодом, так и с достижением других лиц (предприятий) [6].

Из всех существующих общенаучных методов в оценке кадрового потенциала используются:

*– **индукция** – позволяет заранее определить итоги наблюдений и экспериментов на базе данных прошлого опыта;*

*– **дедукция** – её использование позволит прийти к логическому выводу об оптимальности использования инструментов оценки;*

*– **аналогия** – позволяет, к примеру, определить самый эффективный способ подбора и расстановки кадров на основе сравнения позитивных и негативных сторон всех сотрудников;*

*– **систематизация** – процесс объединения исследуемых объектов по группам однородных сведений. Данный метод используется на последнем этапе оценки при разработке выводов и предложений;*

*– **анализ** – является исходной точкой прогнозирования, планирования, управления кадровым потенциалом предприятия.*

В оценке кадрового потенциала часто используются методы системного подхода. Применение системного подхода предполагает использование метода декомпозиции, который позволяет разделять сложные явления на простые, облегчающие их исследование.

Следует отметить, что метод декомпозиции тесно связан с методом последовательной подстановки, способствующим исследованию воздействия на кадровый потенциал каждого фактора в отдельности. В данном случае воздействие других факторов исключается. В итоге факторы ранжируются и выделяются наиболее значимые из них.

Экономико-математический подход включает широко применяемый экспертный метод, использующий профессиональные тесты способностей или индивидуальные анкеты. Чтобы получить достоверный результат, следует соблюсти все условия и стандарты процедуры тестирования: мотивация персонала, снятие эмоционального напряжения. Помимо этого, интерпретация результатов требует профессиональной подготовки и практического опыта, особенно если необходимо совместить результаты различных тестов [2]. Достоинством этого метода является высокая вероятность получения результатов, которые будут позитивно влиять на повышение кадрового потенциала организации.

При оценке эффективности кадрового потенциала предприятия применяется также имитационное моделирование, которое предполагает использование кейс метода либо метода конкретных ситуаций. К достоинствам данного метода относится возможность определения того, выполняет ли специалист поставленные перед ним задачи. Таким образом, эта методика дает возможность выявить неквалифицированных работников, которых следует уволить, или недостаточно квалифицированных, требующих обучения.

Один из наиболее распространенных видов управленческого анализа является SWOT-анализ, позволяющийс учетом конкретной ситуации выявлять и структурировать сильные и слабые стороны предприятия, её потенциальные возможности и угрозы, устанавливать связи между ними и делать нужные выводы и принимать решения для ликвидации слабых сторон кадрового потенциала предприятия [5]. Следует отметить недостатки этого метода, к которым можно отнести трудность в точном разграничении необходимых показателей либо критериев, которые являются слабыми или сильными сторонами в кадровом потенциале, а также в поиске угроз и возможностей. Методы, используемые кадровыми службами предприятия в оценке потенциала системы управления персоналом и потенциала персонала, можно представить, как количественные методы, которые можно о характеризовать как формализованные и массовые. Формализация выражается в направленности

на изучение строго определенных анализируемых переменных, заданных заранее, их количественное измерение. Высокий уровень формализации количественных методов связан с их статистической обработкой [3].

Следует признать, что в центрах оценки зарубежных компаний применяются различные технологии, которые позволяют произвести комплексную оценку не только потенциала самого персонала, но и предприятия в целом: анализ основных показателей; индивидуальный анализ конкретных ситуаций; профессиональные и психологические тесты; экспертные наблюдения.

Заключение. В заключении отметим, что для наиболее эффективной оценки кадрового потенциала предприятию следует выбрать из множества предлагаемых выше подходов и методов один либо применять несколько методов одновременно. В зависимости от того, какой метод будет выбран и насколько точно и качественно будут его применять, будет определяться его эффективность, а, следовательно, точность принятых управленческих решений, которые основаны на итоговых результатах проведенной оценки.

ЛИТЕРАТУРА

1. Андреев С.В. Кадровый потенциал и проблемы занятости. Москва; Издательствово Института социологии, 2007.

2. Александрова В. Оценка персонала: роскошь или необходимость? (Электронный ресурс).

3. Гаврилова О. Обзор систем, методов и методик оценки персонала. М.; Юрист, 2003.

4. Кабанов А.Я. Управление персоналом организации. М.; ИНФРА, 2001.

5. Кузьмина Н., Гурьянова А. Кадровый аудит ЗАО «САЕН-КО» (Электронный ресурс).

6. Шамина Л.К. Методология и методы управления адаптацией инновационных процессов на промышленном предприятии. Автореферат диссертации. Санкт-Петербург, 2012.

Z.Mustafayeva

Müəssisənin kadr potensialının səmərəliliyinin qiymətləndirilməsi

Xülasə

Məqalədə kadr potensialının səmərəli istifadəsi müəssisənin əsas fəaliyyət istiqamətlərindən biri kimi nəzərdən keçirilir. Onun əsas prinsipləri, təqdimatları, müxtəlif metodları və qiymətləndirmə effektivliyi, həmçinin müəssisənin kadr potensialının qiymətləndirilməsinin həyata keçirilməsinin ardıcıllığı göstərilmişdir. Məqalədə müəssisənin kadr potensialının zəif cəhətlərini müəyyənləşdirmək və aradan qaldırmaq üçün SWOT-analiz təklif edilmişdir.

Z.Mustafayeva

Assessment of efficiency of personal potential of the enterprise

Summary

The article considers the effective use of human resources as the main reserve to improve the effectiveness of the organization. The basic principles, methods and approaches for assessing the effectiveness of the personnel potential of the enterprise, as well as the sequence of its implementation. A SWOT analysis is proposed to identify and eliminate the weaknesses of the company's personnel potential.

THE INTRODUCTION OF INNOVATIVE SERVICES IN THE ACTIVITIES OF ENTERPRISES OF TELECOMMUNICATIONS OPERATORS OF UKRAINE

Bondarenko Olena,
Candidate of Philosophical Sciences Art. lecturer of the department of management and marketing O.S. Popov Odessa national academy of telecommunications, Ukraine
e-mail: 7871996@gmail.com

Yavtushenko Diana,
Student, O.S. Popov Odessa national academy of telecommunications, Ukraine

UDC: 621.396.4

Summary. *Analysis of the external and internal environment of the operator of telecommunications, private joint stock company kyivstar are done in the article. Factors affecting the level of innovative activity of Ukrainion enterprises are considered, the main problems of the introduction of innovative services in the activity of the operator of telecommunication in Ukraine are highlighted.*

Key words: *innovation activities of enterprises, innovative service, telecommunications operators.*
Açar sözlər: *müəssisənin innovativ fəliyyəti, innovativ xidmət, telekommunikasiya operatoru.*
Ключевые слова: *инновационная деятельность предприятия, инновационная услуга, телекоммуникационный оператор.*

In modern reality, new views on the factors of socio-economic growth in the world economy are being formed. In total, it can be seen from the example of developed countries that sustainable economic growth is based on a high level of innovation and the use of knowledge and innovation as one of the main economic resources. It is innovation activity of enterprises that can ensure their competitiveness both in the domestic market and in the external one. After analyzing the dynamics of innovation activity of enterprises in Ukraine, one can determine a tendency to increase the total amount of expenditures on innovation activity (Fig. 1). In the structure of expenditures, expenditures for research and development, as well as expenditures for the purchase of machines of equipment and software, have a tendency to increase (Білоброва, 2019) [1].

In addition, in the last ten years there has been a positive trend towards an increase in the share of innovatively active enterprises. So, in 2006, it was 11.2%, and in 2016 – 18.9% of enterprises that were engaged in innovation (Fig. 2).

If the current trend continues, it is possible to predict a growth in the share of innovatively active enterprises to 19.8% in 2019.

Since telecommunication operators are also subjects of economic activity, they in the process of their economic activity and implementation of innovative activity face the same difficulties as other enterprises of other industries. At the same time, enterprises of telecommunications operators have a number of features. This is due to the specifics of the telecommunications industry.



Fig. 1. Dynamics of innovation activity of Ukrainian enterprises.



Fig. 2. Forecast of changes in the innovative activity of Ukrainian enterprises

Today, a huge stream of data passes through the networks of telecommunications companies. A significant problem for many telecommunications companies is the issue of monetization of data passing through their networks. In order to preserve and expand the client base, telecommunications enterprises must provide a wide range of services to their customers in order to retain them [2].

In order to see the influence of certain factors on the socio-economic development and development of innovative activities of a communications enterprise, we will make a SWOT analysis of the activities of the leading Ukrainian telecommunications operator, Kyivstar (Table 1).

According to the results of the analysis, it should be noted that the company "Kyivstar" is almost a monopolist among mobile operators in Ukraine. It has the largest network coverage. 51% in the GSM 1800 range controls Kyivstar. The company also has wide opportunities for further development of its activities, as it owns equipment that supports the latest 4G and LTE communication standards. Therefore, the first will be able to provide a full launch of 4G, which has a 37.5 + 37.5 MHz spectrum. Also, the company has certain excess spectrum that can be sold to other companies, in particular to the company Lifecell, and receive additional financial resources. The Kyivstar company is profitable and the number of its subscribers is growing (Лазоренко, 2017) [3].

As for the negative tendencies of the company, they do not differ from the problems of other mobile communication companies, namely:

– high competition;

– unattractive conditions for attracting investments related to the socio-political situation in the country.

At the same time, the company has enough of its own financial resources is profitable and has the ability to obtain additional funds through the sale or rental of its own equipment and network.

It is worth noting the presence in Ukraine of the factors hindering the conduct of effective innovation by telecommunications enterprises. These disadvantages include:

– imperfection of patent-license, antitrust, tax legislation;

– reducing the level of purchasing power of the population;

– systemic crisis phenomena in the country's economy;

– low level of interaction between science and business.

One of the main problems of launching new generation networks in Ukraine is the lack of a frequency resource. For a long time, the frequencies were distributed randomly and as a result, it turned out that different companies have unequal bands in different ranges.

It is also necessary to develop the infrastructure of innovation activities, including the information support system, the examination system, the financial and economic system, production and technological support, the certification system, the system for training and retraining of personnel.

The reason for Ukraine's lagging behind in innovation is the weak infrastructure of innovation, the lack of motivation of producers to

Table 1.
SWOT analysis of the Kyivstar telecommunications operator

Strengths	Weaknesses
• Kyivstar is part of VimpelCom Ltd - one of the world's largest integrated telecommunications companies. • Wide coverage of the territory (a large market share of 35%, and a place in the market). • Using own, not leased equipment. • The device supports the latest 4G and LTE communication standards. • Corporate social responsibility as the most important priority of the activity. • Use of new tools (Starman company is registered in August 2016). • The company became profitable in 2015, having received net profit in the amount of UAH 4973 million. In 2016, it increased its net profit by 19.6%, and in 2017 increased by 28.7% compared to 2015. • Increase in the number of subscribers (in 2016 by 26.1 million people).	• Offer other mobile operators more favorable tariffs and services; • Staff turnover.
Opportunities	**Threats**
• Introduction of 4G and 5G coverage in Ukraine. • The tendency to increase the number of smartphones and tablet computers owned by the public. • Development of new services. • Government support for the development of information technology. The company has provided nearly 32 billion hryvnia investment in the development of the telecom infrastructure of Ukraine. • Operator entering the financial sector. • Availability of own equipment for the introduction of 4G technology. • Acquisition of Volia.	• Intense competition in the mobile market in Ukraine. • Unstable political and economic conditions in the country. • Reduced attractiveness of business in Ukraine for investors.

implement innovations as a means of competition.

One of the innovative areas of retaining its competitive position and ensuring the stable development of communications enterprises in modern conditions is:

– launch 4G technology, and then launch 5G networks. This will facilitate the implementation of the "State Program for the Implementation of Digital TV and Radio Broadcasting";

– launch of high-speed Internet;

– Compliance with international standards in the field of communications.

For the normal development of 4G FDD LTE, each operator should have at least 2x10 MHz band available. It is also desirable to expose a 900 MHz spectrum to a similar process. Kyivstar has all the necessary capabilities for this, both technical and technological, and financial. The company has 37.5 +37.5 MHz of spectrum and the necessary equipment, which it inherited from its merger with Beeline. Today, Kyivstar is a profitable enterprise, which allows it to focus on innovation activity and the introduction of innovative services [4].

In order to analyze the state and efficiency of the introduction of new services, it is necessary to provide some statistical data.

Over the past two years, trends have been observed when subscribers stopped using several SIM cards of different operators and made their choice in favor of the leader of the telecom

market, Kyivstar (Македон В. В., 2013) [5].

The priority of Kyivstar is the development of world-class communication technologies in Ukraine. The company is actively investing in the expansion of the territory of the 3G network and the creation of a technical base for the rapid updating of mobile communication standards.

Innovative activities and innovative services that the company has introduced in general form are presented in Table 2.

Table 2.

Innovative activities of the company in recent years

Year of implementation	Formulation of the content of innovation
• 2015-2016	updating most of the radio network by installing multistandard equipment
• 2016	the year of the company's transformation into a digital service provider, the introduction of Digital Stack - a new digital IT infrastructure
• 2017	upgrading the radio network by installing a new hardware that supports various communication standards, including 4G and continued 3G service
• 2017	Internet service is seven couples
• 2018	Launch 4 and 4.5G networks
• 2018	Formation of fundamentally new tariffs wfavor the provider among competithich ors

Thanks to an innovative approach to the formation of tariffs, the number of subscribers for the fourth quarter of 2017 increased by 400 thousand - to 26,500,000, compared to the same period of 2016. And in 2018, in connection with the introduction of 4G and the improvement of 3G, there is such a tendency of increase in clientele.

Figure 3 shows the increase in subscribers by year.



Fig. 3. Dynamics of growth of the client base of Kyivstar by years.

As a result of the study, it was concluded that a stable economic condition of an enterprise is characterized by its degree of profitability and working capital, financial stability and dynamics of the structure of funding sources, ability to pay off debt obligations, and directly depends not only on the clarity of work of all structural divisions, but also from innovation policy, innovative services and approaches implemented on it.

In turn, for the normal development of 4G FDD LTE, each operator should have a range of at least 2x10 MHz.

Ukraine's leading telecommunications company, Kyivstar, has all the necessary capabilities for this, both technical and technological, as well as financial. The company has 37.5 +37.5 MHz of spectrum and the necessary equipment, which it has inherited at the merger with the company "Beeline". Today Kyivstar is a profitable enterprise. His income is about 5 billion UAH. The project proposed that 1 MHz in the 2.6 GHz band for one region will cost a little more than 1 million UAH. Licenses will be issued for 15 years. In general, under the 5G allocated 80 MHz in four bands: 2510-2545 MHz, 2565-2570 MHz, 2630-2665 MHz, 2685-2690 MHz.

Thus, one nationwide license in 25 regions (without Crimea and Sevastopol) at 20 MHz will cost the operator UAH 500 million. Given that Kyivstar has its own networks and equipment, it will only need to purchase a license. Taking into account the amount of the company's net profit, the funds necessary to acquire a license are quite

real for the company. Thus, the introduction of 5G technology for Kyivstar is absolutely possible and will further strengthen its position in the Ukrainian mobile market and will bring even greater income.

LITERATURE

1. Білоброва І.О. Проблеми мотивації інноваційної діяльності: Світова практика та українські реалії. // І.О. Білоброва / Ефективна економіка. – [Електронний ресурс]. Режим доступу: http://www.economy.nayka.com.ua

2. Ганечко І. Проблеми розвитку інновацій в Україні // І. Ганечко // Економіка. – 2011. – №5. – С. 21 – 24.

3. Лазоренко Л.В. SWOT – Аналіз діяльності підприємств мобільного зв'язку // Л.В. Лазоренко / Науковий вісник Херсонського державного університету. – 2017. – № 23-2. – С. 54 – 57.

4. Пенькова О.Г. Проблеми реалізації інноваційної стратегії розвитку України // О.Г. Пенькова // Формування ринкових відносин в Україні. – 2007. – № 9. – С. 96 – 99.

5. Македон В.В. Стратегічний інноваційний розвиток підприємств: теорія та методологія [Електронний ресурс] / В. В. Македон, Д. С. Рубець // Вісник Національного технічного університету "ХПІ". Технічний прогрес та ефективність виробництва. – 2013. – № 45. – С. 75 – 86. – Режим доступу: http://nbuv.gov.ua/UJRN/Vcpitp_2013_45_14

O.Bondarenko, D.Yavtuşenko

Ukrayna telekommunikasiya operatorları müəssisələrinin fəaliyyətində innovativ xidmətlər

Xülasə

Məqalədə "Kiyevstar" xüsusi bir telekommunikasiya operatorunun xarici və daxili mühiti təhlil edilir. Ukrayna müəssisələrinin innovativ fəaliyyət səviyyəsinə təsir edən amillər nəzərə alınmaqla Ukraynada telekommunikasiya operatorunun fəaliyyətində innovativ xidmətlərin tətbiqinin əsas problemləri vurğulanır.

О.Бондаренко, Д.Явтушенко

Внедрение инновационных услуг в деятельность предприятий операторов связи Украины

Резюме

В статье сделан анализ внешней и внутренней среды оператора телекоммуникаций, частного акционерного общества «Киевстар». Рассмотрены факторы, влияющие на уровень инновационной активности украинских предприятий, выделены основные проблемы внедрения инновационных услуг в деятельность предприятия телекоммуникационного оператора в Украине.

Peşə təhsili və insan kapitalı. Cild 2, №2, 2019 s.59-63

HEYVANDARLIQ MƏHSULLARININ İNSANIN SAĞLAM QİDALANMASINDA ROLU VƏ KEYFİYYƏT XÜSUSİYYƏTLƏRİ

Tamara Pürhani,
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin
Baytarlıq Elmi-Tədqiqat İnstitutunun aparıcı elmi işçisi,
biologiya üzrə fəlsəfə doktoru
e-mail: purkhani57@bk.ru

UOT: 636.293.2.;611,17:576,16

Xülasə. *Məqalədə camış ətinin insan qidaları içərisində ən qiymətli heyvandarlıq məhsullarından biri olduğu göstərilmişdir. Ətin dad keyfiyyəti, qidalılıq dəyəri, onun kimyəvi tərkibindən asılılığı və bu ətin çox mürəkkəb tərkibə malik olduğu qeyd edilmiş, həmçinin camış ətinin başqa mal ətlərindən fərqi, inəklərə nisbətən infeksion, invazion, qan-parazitar, brusellyoz, hipodermatoz və s. xəstəliklərə az tutulmaqları haqqında məlumatlar da yer almışdır.*

Açar sözlər: *mal əti, qidalılıq dəyəri, ət məhsulları, camış əti, ətin kimyəvi tərkibi, əzələ toxuması, parazitar xəstəliklər, minerallar, vitaminlər.*
Key words: *beef, nutritional value, meat products, buffalo meat, parasitic diseases, chemical composition of meat, muscle tissue, minerals, vitamins.*
Ключевые слова: *говядина, питательная ценность, мясные продукты, мясо буйвола, мышечная ткань, химический состав мяса, паразитарные заболевания, минералы, витамины.*

Cəmiyyətdə hamı tərəfindən birmənalı şəkildə qəbul edilmiş bir deyim var: "Həkimlər yalnız insanların müalicəsi ilə məşğuldurlar. Baytarlar isə bütün bəşəriyyəti xəstəliklərdən xilas edirlər". Bu deyim konkret bir peşənin insanın, cəmiyyətin, ümumən bəşəriyyətin həyatındakı önəmini çox aydın ifadə edir. Həmin peşəyə yiyələnmiş insanın peşəkarlığını, səriştəliliyini qabarıq xətlə cızaraq, ona bu gün də, sabah da böyük ehtiyac olduğunu göstərir. Bu ehtiyacın, tələbin təmini də ixtisaslı kadrların hazırlanması məsələsinin həllindən keçir.

İnsan qidaları içərisində ət ən qiymətli heyvandarlıq məhsuludur. Ət və ət məhsulları insanın qida rasionunda mühüm yer tutur. Ət məhsulları üçün əsas xammal qaramal, qoyun, balıq və ev quşlarıdır. Ət və ət məhsullarının tərkibində olan maddələr insan orqanizminin böyüməsinə, inkişaf etməsinə, bir sözlə, normal həyat fəaliyyəti üçün çox lazımlıdır. Odur ki, əhalini ət və ət məhsulları ilə təmin etmək sağlam qidalanma baxımından çox zəruri məsələlərdən biridir.

Ət canlılarda sümüklə dəri arasındakı maddədir. Ət dedikdə, hər şeydən əvvəl, skelet əzələləri və onlara birləşmiş yağ və toxumalar nəzərdə tutulur. Bəzən dil, qaraciyər, ağciyər, böyrək, beyin, ürək, diafraqma, baş əti və qida borusu da ət adlanır. Bir çox heyvan (camış, inək, qoyun, keçi və s.), quş və balıq ətindən qida məhsulu kimi istifadə edilir.

Ətin qidalılıq dəyəri və dad keyfiyyəti onun kimyəvi tərkibindən çox asılıdır və mürəkkəb kimyəvi tərkibə malikdir. Ətin kimyəvi tərkibi dedikdə, onun qidalılıq cəhətdən ən qiymətli sayılan yumşaq hissəsinin kimyəvi tərkibi nəzərdə tutulur. Bu tərkibə insan orqanizmi üçün inşaat (plastik) materialı və enerji mənbəyi rolunu oynayan su, minerallar, zülallar, lipidlər, karbohidratlar, azotlu və azotsuz ekstraktiv maddələr, vitaminlər, fermentlər və s. daxildir. Ətin tərkibində 17% zülal, 20% yağ, 62% su, 1% kül varsa, həmin ət yüksək keyfiyyətli hesab edilir. Həmçinin ətin kimyəvi tərkibi heyvanın növündən, yaşından, cinsindən və köklük dərəcəsindən asılıdır.

İstifadə etdiyimiz ətin qidalılıq dəyəri onun tərkibindəki zülalların keyfiyyət göstəriciləri ilə təyin edilir. Ətdə zülallar, adətən, əzələ toxumasında olur və onlar tam dəyərli zülallar adlanır. Bu zülalların tərkibində əvəzolunmaz amin turşuları – leysin, fenilalanin, lizin, izoleysin, triptofanin vardır. Əgər zülalda bir əvəzolunmaz amin turşusu olarsa, həmin ət qidalı sayılmır. Bu, heyvanda mübadilə prosesinin pozulmasına, böyümənin dayanmasına və nəhayət, heyvanın ölümünə səbəb olur. Bundan başqa, ət yüksək keyfiyyətli protein, dəmir, fosfor, kükürd, maqnezium kimi minerallar və PP, B1 və B2 vitaminlərinin əsas mənbəyidir. Yağsız ətlər protein pəhrizinin əsasını təşkil edir. Halbuki ətin tərkibində, qan plazmasında xolesterin səviyyəsini qaldıran və tac damarların xəstəliyinə səbəb olan doymuş yağ turşuları vardır.

Mal əti dedikdə, inək, camış, öküz, dana, bir sözlə, iribuynuzlu mal-qaranın əti nəzərdə tutulur. Mal ətinin keyfiyyəti onun qidalandığı yemdən və yaşından asılıdır. Ətin saxlanılma şəraiti də bilavasitə onun keyfiyyətinə təsir edir. Keyfiyyətli mal ətinin rəngi qırmızı olur və ondan ətə məxsus xüsusi qoxu gəlir. Ümumiyyətlə, 100 qram mal ətinin tərkibi və qidalılıq dəyəri aşağıdakı kimidir: zülallar – 17 qram; yağlar – 17,4 qram; su – 65 qram; ətin kalorisi – 150-180 kkal.

Mal ətində xeyli sayda vitaminlər, mikro və makroelementlər vardır. Eyni zamanda, A, E, C, B1, B2, B6 , B12, PP vitaminləri və Na, Mg, K, Fe, Zn, Co, P və digər minerallarla zəngindir. Hətta mal ətindən bəzi xəstəliklərin müalicəsində də istifadə edilir. Anemiya və qan azlığı zamanı mal əti yemək məsləhətdir. Britaniya həkimləri qanda dəmir çatışmazlığından, anemiyadan əziyyət çəkən xəstələrə gündə 200 qram mal əti yeməyi məsləhət görürlər. Malın qaraciyəri dəmirlə zəngin olduğu üçün infarkt və böyrək daşı xəstəliklərinin profilaktikası məqsədi ilə həkimlər insanlara istifadə etməyi tövsiyə edirlər. Bununla yanaşı, mal ətinin zərərli xüsusiyyətləri də vardır. Onun tərkibində olan purin orqanizmdə sidik turşusunun artmasına, çox istifadə isə podaqranın, osteoxondrozun və müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur. İnsanlara elə gəlir ki, ət qidaları orqanizmi gücləndirir, amma əslində belə deyildir.

Həkimlər söyləyirlər ki, qırmızı ətin (mal, qoyun) orqanizm tərəfindən tez-tez qəbulu bəzi orqanlarda xəstəliyin əmələ gəlməsinə səbəb olur. Məsələn, ət çox qəbul edildikdə böyrəklərdə böyrək çatışmazlığını artırır, həmçinin əriməyən daş əmələ gətirir.

Qırmızı ət yemək mədə üçün də ziyanlıdır. Belə ki, ət qidalarının yağlılıq dərəcəsindən asılı olaraq, mədədə 3-5-6 saata yaxın həzm prosesi gedir və onun həzmi üçün böyük miqdarda mədə şirəsi tələb edilir. Yaxşı çeynənilməmiş ət mədəni incidir və s. narahatlıq törədir. Ətin zərəri yalnız mədəni məhv etməklə bitmir. Onu yeyən zaman qanın tərkibinə külli miqdarda sidik turşusu (purin maddəsi) nuklein daxil olur, ac hüceyrələr isə onları yeyir. Nəticədə onlara qarşı dərmanlardan istifadə etməklə bədənimizi daha da zəhərləyir və orqanlarımızı məhv edirik. Mal ətinin tərkibində külli miqdarda ekstraktiv maddələr də vardır ki, onlar əsəb sisteminə çox pis təsir göstərir və həmin maddələrdən yaranan duzlar isə damar sistemini qıcıqlandırır.

Araşdırmalar göstərmişdir ki, qırmızı ətin tez-tez qəbulu böyrək pozulması riskini, ani ölümü, ürək-damar və bəzi xərçəng xəstəliyi növlərinin riskini artırır. Ətin əzələ toxumasında yağlar və lipidlər sabit miqdarda, yəni 3% olur. Onlar hüceyrə daxilində və liflər arasında sərbəst, həm də zülallara birləşmiş şəkildədir. Əzələ toxumasında yağabənzər maddələrdən ən geniş yayılanı fosfolipidlər və steroidlərdir. Fosfolipidlərin miqdarı 0,5-0,8%, xolesterinin miqdarı isə 50-70% təşkil edir. Əzələdəki fosfolipidlərə qliserinin mürəkkəb efirləri olan leysitin, kefalin və plazmalogen

aiddir, xolesterin isə sərbəst, zülallarla birləşmiş halda, 10%-i isə steroidlər formasında olur.

Heyvan ətinin əzələ toxumasında olan ekstraktiv maddələr az olub, ətə dad və qoxu verirlər. Onlar **azotlu** və **azotsuz** ekstraktiv maddələrdir. Azotlu ekstraktiv maddələrin miqdarı 0,9-2,5%-ə qədərdir. Buraya ATF, ADF, AMF turşuları, fosfokreatin, kreatin, asetilxolin, histamin, karnozin, karnitin, anserin, tiamin, amin turşuları, ammonyak və s. aiddir. Amma onlar zülal təbiətinə malik deyillər. Kreatin ətin spesifik dadını və qoxusunu şərtləndirir. ATF, ADF, AMF mononukleotidlərdir və əzələlərdə yağların sintezində iştirak edirlər.

Əzələlərdə olan azotsuz ekstraktiv maddələrə isə qlikogen və onun çevrilmə məhsulları olan dekstrinlər, maltoza, qlükoza və s. aiddir. Qlikogen əsasən, qaraciyərdə, eninəzolaqlı əzələlərdə toplanır. Qaraciyərdə 2,7-5%, əzələlərdə isə 1% təşkil edir. Heyvanlarda əzələ toxuması vitaminlərlə çox da zəngin deyil, lakin insan qidasında B qrup (B1, B2, B6, B12), PP və patogen turşusu vitaminlərinin əsas mənbəyi hesab edilir.

Mal ətində 50-dən artıq ferment vardır. Onlar hüceyrə daxilində gedən biokimyəvi reaksiyaların hamısında iştirak edir. Miozin, miogen fermenti plastik material hesab edilir, çünki toxuması onlardan əmələ gəlir. Həmçinin əzələlərdə qeyri-üzvi birləşmələr, su və mineral maddələr də vardır. Suyun miqdarı (əzələ toxumasında) 72-80% olur, bunun bir hissəsi sərbəst, bir hissəsi isə birləşmiş şəkildə olur. Mal ətinin əzələ toxumasının 1-1,5%-ni makro və mikromineral maddələr təşkil edir. **Makroelementlər** – K, Ca, Mn, P, Cl, Fe; **mikroelementlər** – Cu, Sn, Co, Ni, Mo, Pb-dur.

Əzələ toxumasında mineral maddələrin böyük əhəmiyyəti vardır. Onlar sümük toxumasının əmələ gəlməsində, möhkəmlənməsində, turşu-qələvi münasibətinin nizamlanmasında və s. böyük rol oynayır.

Mal ətində zülal qoyun ətinə nisbətən daha çoxdur. Dietoloqlar məsləhət bilirlər ki, qoyun əti ilə müqayisədə mal əti orqanizm üçün daha faydalıdır. Çünki qoyun ətində donmuş yağ turşuları həddindən artıq yüksəkdir. Bu da hipoproteinlərin tarazlığını pozur və orqanizmdə arzu olunmayan yağların faizini yuksəldir. Bu zaman orqanizmdə xolesterinin miqdarı artır, qaraciyərdə piylənmə, mədəaltı vəzidə isə bir sıra xəstəliklər əmələ gəlir. Ümumiyyətlə, sağlam qidalanmaq üçün daha çox balıq ətinə yer verilməlidir. Çünki qoyun ətinin hər gün insanlar tərəfindən qəbul edilməsi ürək-damar xəstəliklərinin yaranmasına səbəb olur.

Təsərrüfatlarda ət istehsalı olduqca baha başa gəlir. Ona görə də ətin maya dəyərinin aşağı salınması yollarının tədqiq olunması olduqca vacib məsələdir. Onun üçün camışçılığı inkişaf etdirmək daha məqsədəuyğundur. Nəticədə, ət istehsalını və ondan gələn gəliri xeyli artırmaq mümkündür. Azərbaycanda ət və ət məhsulları istehsalının artırılmasında və maya dəyərinin aşağı salınmasında camışçılığın əhəmiyyəti böyükdür.

Təcrübələr göstərmişdir ki, iki yaşlı camışların əti həm dadına, həm həzmediciliyinə, həm də keyfiyyətinə görə inək ətindən heç də geri qalmır. Tərkibində zülal, fosfor turşusu və dəmirin çox olmasına görə həkimlər qan azlığı xəstəliyinin müalicəsi üçün xəstələrə cavan camış (kəlçə) ətindən istifadə etməyi məsləhət görürlər. Açıq demək lazımdır ki, camış ətinin bərkliyinə (tərkibində 40%-ə qədər dəmir olduğu üçün) və gec bişdiyinə görə Azərbaycan xalqı bu ətə üstünlük vermir. Kökəldilmiş camış ətindən hazırlanan kotlet, küftə, dolma, bozbaş, qovurma, basdırma və döymə kabablar dadına, keyfiyyətinə və qidalılığına görə inək ətindən hazırlananlardan heç də geri qalmır. Camışlardan çöl işlərində istifadə edildiyi üçün onların əzələləri və lifləri qalınlaşıb kobudlaşır. Ətini də yumşaltmaq üçün uzun müddət bişirmək lazım gəlir.

Professor A.Ağabəyli orta köklükdə olan iş camışlarından 2 və 15 yaşında olan iki kəlin ətinin yetişmə prosesini və xüsusiyyətlərini öyrənmək məqsədi ilə tədqiqat işləri aparmışdır. Məlum olmuşdur ki, sağlam camış əti 1-4 dərəcə istilikdə 4-5 günə yetişir, yəni ət şirələnir və ətirlənir, əzələlər də nisbətən zəifləyir. İstilik 12-17 dərəcəyə qalxanda artıq ətin yetişməsi sürətlənir və 36 saata bitir. Camış ətinin yetişmə göstəriciləri ətin yararlılıq dərəcəsini müəyyən etməkdə böyük rol oynayır.

Xroniki xəstəliklərə tutulmuş heyvanların ətində ilk saatda turşuluğun (pH) reaksiyası 6,8-ə, bir gün saxlanılarsa, maksimuma, yəni 61,52-yə çatır. Həmin ət 10 gün saxlanılsa belə qaba,

azşirəli və ətirsiz olur. İstilik artdıqca (to) ətin turşuluğu da artır, səhərisi gün artıq ətdə bakterioloji pozulma əlamətləri baş verir. Ət məhsullarında pH-ı 6,3 olan ət şübhəli hesab edilir. Bu zaman həmin ət mütləq bakterioloji və kimyəvi müayinədən keçirilməlidir. Camışlar tez yetişən və kökəlməyə meyilli heyvanlardır. Cavan camışların əti dad etibarı ilə yaxşı mal ətindən seçilmir və yumşaq olur. Camış ətindən əsasən, kolbasa istehsalında geniş istifadə edilir. Bəzi müəlliflər balaq ətinin (camış balası) buzov ətindən üstün, yəni daha zərif, şirəli və dadlı olduğunu qeyd edirlər. Camış ətində fosfor turşusu, dəmir elementləri, su, zülal, quru maddələr qaramala nisbətən çox, yağ isə azdır. Onlar ətlik, südlük və qarışıq, ətlik-südlük istiqamətdə yetişdirilir. Heyvanlarda iki növ məhsuldarlıq əlaməti yaratmaq mümkündür və bu zaman ortaya çıxan çətinliklərin qarşısı alına bilər. Camışlar da qarışıq məhsul tipinə malikdir. Onlarda möhkəm və müxtəlif xəstəliklərə davamlı olan immunitet tipi mövcuddur. Bu tipə görə camışlar müxtəlif mühit şəraitinə, çətinliklərə uyğunlaşır, kökəlməyə meyilli və nisbətən çətin şəraitə davamlı heyvanlardır. Məhsuldarlığı etibarı ilə də südlük-ətlik tipə aid edilirlər.

Azərbaycan da heyvandarlıq elminin görkəmli nümayəndələrindən biri, ömrünün altmış ilindən çoxunu bu sahənin, xüsusən də camışçılıq elmi və təcrübəsinin inkişafına həsr etmiş, onlarla fundamental əsərlərin, metod və texnologiyaların müəllifi, "Azərbaycan" və "Bolqar mürrəhi" camış cinslərinin həmmüəllifi, Rusiya Federasiyası Beynəlxalq Keyfiyyət Problemləri Akademiyasının həqiqi üzvü, akademik Eyyub Bəşirov apardığı tədqiqatların nəticələrinə əsaslanaraq bildirir ki, camışlar öz ekologiyalarında heç bir xəstəliyə tutulmurlar. O, camış məhsullarının keyfiyyət xüsusiyyətləri barədə yazırdı: – *"Camış ətində dəmir və fosfor həddindən artıq olduğundan birbaşa qana müsbət təsir göstərir. Camış əti bərk olur, elə onun qiyməti də bundadır. Tərkibindəki dəmirin çoxluğu ona möhkəmlik verir. Camış ətinin lifləri arasında başqa heyvanlarda olduğu kimi, piy qatı görünmür, ətində xolesterin də yoxdur, radiasiyaya davamlıdır".*

Camış südündən bəhs edərkən Eyyub müəllim bu fikirləri bildirirdi: – *"Camış südü digər südlərə nisbətən qida kimi daha qiymətlidir. Büsbütün vitamin A-dır. İnək südü isə karotindir. İnsanın qaraciyərinə saatlarla işləmək lazım gəlir ki, həmin karotini vitamin A-ya çevirsin. Vitamin A isə sağlamlığın əsasıdır. Vitamin A qaraciyərdən qana keçir. Artığı isə ehtiyat kimi qaraciyərdə qalır. Bu vitamin gözü işıqlandırır, enerjisini artırır, sağlamlaşdırır.*

Camış südünün yağlılıq faizi inəyinkindən iki-üç dəfə çoxdur. Camış südünün yağlılığı 9-12, inəyinki isə 2,8-3,8%-dir. Rekord cins inəkdə isə bu rəqəm 5%-dən yuxarı olmur. Camışın ümmun sistemi çox möhkəm və güclüdür. Bu səbəbdən də camış məhsulları ilə qidalanan insanların da ümmun sistemi möhkəm olur. Orqanizmin xəstəliklərə qarşı müqaviməti, mübarizə qabiliyyəti yüksəlir".

Elmi təcrübələrlə sübut edilmişdir ki, bir nəfər ildə orta hesabla 82 kq ət və ət məhsulları istifadə etməlidir. Amma bu belədirmi? Xeyr, bugünkü vəziyyətdən və şəraitdən asılı olaraq həmin kriteriyaya əməl olunmur. Camışların çəkisi 500-600, hətta kəllərin çəkisi 800 kq-dək olur. Bu baxımdan camışçılığın inkişaf etdirilməsi hesabına ət və ət məhsullarının istehsalını artırmaq üçün böyük imkanlar vardır. Çünki onlara az əmək sərf etməklə, böyük məhsuldarlıq əldə etmək olar. Camış ətində mioxrom maddəsi çox olduğuna görə ətinin rəngi tünd qırmızıya, inək ətinin rəngi isə solğun qırmızıya çalır. Bu camış əti ilə inək ətinin birinci fərqidir. İkinci fərqi isə camışın iç piyinin inək piyinə nisbətən ağ rəngdə olmasıdır.

Tədqiqatlar zamanı məlum olmuşdur ki, camışlar bir çox infeksion, invazion və terapevtik xəstəliklərə qarşı dözümlüdürlər. Xüsusən də kütləvi qırğınla nəticələnən qarayara xəstəliyinin törədicisinə qarşı camışlar az həssasdırlar. Onlar hətta kütləvi tələfat verən qan paraziti xəstəliklərinə tutulmurlar. Vərəm, taun, dabaq kimi çox yayılan xəstəliklərdən onlarda ağırlaşma halları müşahidə edilmir, brusellyoz xəstəliyində də balasalma halları baş vermir. Həmçinin qoturluq və dəmrov kimi dəri xəstəliklərinə də camışlar çox az hallarda tutulurlar. Çünki camışların bədəni inəklərə nisbətən möhkəmdir, dəriləri qalındır və əksər halda onlar suda çox yatdıqlarından parazitlər dəridə yuva sala bilmirlər.

Azərbaycanda isti iqlim şəraitində qan para-

ziti xəstəlikləri – plazmidozlar camışlardan fərqli olaraq inəklərə daha çox ziyan vurur. Camışlar təbii olaraq bu xəstəliyə tutulmadıqları üçün piroplazmidozun heyvandarlığa vurduğu külli miqdarda zərəri camışçılığın inkişafını gücləndirməklə on dəfələrlə azaltmaq mümkündür. Qaramalın hipodermatoz xəstəliyinin törədiciləri də camışlardan uzaqdır və onlar bu xəstəliyə yoluxmurlar. Həmin xəstəliyə tutulan inəklərin dərisi deşildiyi üçün xammal olaraq keyfiyyətini itirir, camışın dərisi isə əksinə, qalın olduğundan yüngül sənaye üçün yüksək keyfiyyətli və qiymətli xammal hesab edilir.

Camışların bədənləri möhkəm olduğuna görə ağciyər xəstəliklərinə inəklərə nisbətən çox davamlıdırlar. Tədqiqatlar göstərmişdir ki, istər vərəm, istərsə də qurd xəstəliklərinə də camışlar dözümlüdürlər. Camışların qanı da ət məhsulları içərisində qidalılıq cəhətdən ən qüvvətli qida maddəsi hesab edilir. Ondan təmiz halda kolbasa istehsalında, qan unu şəklində isə qarışıq yemlərin hazırlanmasında geniş tətbiq edilir.

Qırmızı ətdən tez-tez istifadə etmək müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Ona görə də bu cür ətlərdən lazım olan miqdarda istifadə edilməsi məsləhətdir. Sağlam yaşamaq üçün qırmızı mal ətləri içərisində camış əti daha faydalıdır. Camış əti həm də dietik ət hesab edilir.

Nəticə. Göstərilənləri nəzərə alaraq, ərzaq təminatı və qida təhlükəsizliyi baxımından, bu gün camışçılığın ətlik, südlük istiqamətində inkişaf etdirilməsi çox vacibdir. Akademik Eyyub Bəşirovun xüsusi vurğuladığı iki fikir də diqqəti çəkir ki, camış iqtisadi səmərəsinə görə digər heyvanlardan üstündür. Belə ki, az yemlə kifayətlənir, az da qulluq tələb edir. Səmərəliliyi isə yemə, qulluğa çəkilən xərcləri qat-qat üstələyir. O ki qaldı məhsuldarlığa, bunun da artırılmasının ən doğru yolu təsərrüfatlarda yüz faiz süni mayalandırmaya keçilməsidir. Həmin üsulun tətbiqi məhsuldarlığın min dəfə artırılmasına imkan verir. Odur ki, camışçılığı inkişaf etdirmək daha məqsədəuyğundur. Bunun üçün də Azərbaycanda camışçılıq təsərrüfatlarının yaradılması və genişləndirilməsi bu günün ən ümdə məsələlərindən biri olmalıdır.

ƏDƏBİYYAT

1. Ağabəyli A.Ə. Azərbaycan camışları. Bakı, 1980, 165 səh.
2. Babayev A.N. Camışçılığın əhəmiyyəti. Bakı, 1986, 110 səh.
3.Pürhani T.A. Camışlarda kəllə sümüklərinin ekoloji və yaş xüsusiyyətləri. Monoqrafiya. Gəncə, 2003, 135 səh.
4. Кудряшов Л.С. Физико-химические и биохимические основы производства и мясных продуктов. Москва, 2008, стр. 160.
5. Qədimova N.S. Ət və ət məhsullarının texnologiyası. Dərslik. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2013.
6. Bəşirov E.B. Azərbaycanda heyvandarlığın inkişafının elmi əsasları. Bakı, Ziya, NPM, 329 səh.

T.Purhani

The role and quality of animal products in healthy nutrition

Summary

Buffalo meat for human food in the article was shown one of the most valuable livestock products. It has been noted that the nutritional value of the meat, the taste quality depends on its chemical composition and that meat has a very complex composition. The article also discusses the differences between beef, different from meat, cows, invasions, infections, blood parasitic, brusellosis, hypodermatosic, etc it is written that they are less likely to be lee.

Т.Пурхани

Роль и черты качества продуктов питания животных в здоровом питании

Резюме

В статье было показано, что мясо буйвола для человеческой пищи является один из самых ценных продуктов животноводства. Было отмечено что пищевая ценность мяса, качество вкуса зависит от его химического состава и того, что имеет очень сложную композицию. Также в этой статье говориться о том, что в отличие от других говядин в мясе буйволе инвазий, инфекций, брюцеллиоза, кровного-паразитарного, гиподерматоза и тд. болезней горазде меньше.

Peşə təhsili və insan kapitalı. Cild 2, №2, 2019 s.64-68

ELEKTRİK ENERJİSİNİN ÖTÜRÜLMƏSİ VƏ PAYLANMASININ EFFEKTİVLİYİNİ ARTIRMAQ YOLLARI

Şəmsəddin Kazımov,
Naxçıvan Dövlət Universitetinin
Elektroenergetika kafedrasının müdiri, dosent
e-mail: s_kazimov@gmail.ru

Məhsəti Əsgərova,
Naxçıvan Dövlət Universitetinin
İqtisadiyyat kafedrasının müəllimi
e-mail: mehseti_74@mail.ru

UOT: 62; 621.1

Xülasə. *Məqalədə müasir dövrdə energetikanın inkişafına və energetik sistemin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına verilən tələblər, elektrik enerjisinin ötürülməsi proseslərinin yeni innovasiya texnologiyalarının əsasında qurulma və təhlili metodlarının təkmilləşdirilməsindən bəhs edilir. Eyni zamanda, məqalədə energetika sənayesinin elektrik göstəricilərinin yaxşılaşdırılmasına təsir edən əsas amillərdən biri olan innovasiya ehtiyatlarının tətbiqindən danışılır.*

Açar sözlər: *texniki-iqtisadi, enerjinin ötürülməsi, innovasiyalar, innovasiya texnologiyaları, peşə təlimi, istehsal, energetika sənayesi, enerji səmərəliliyi.*
Key words: *technical-economic, energy transmission, innovation, innovation technologies, vocational training, production, energy industry, energy efficiency.*
Ключевые слова: *технико-экономический, передача энергии, инновации, инновационные технологии, профессиональная подготовка, производство, энергетика, энергоэффективность.*

Respublikamızda baş verən dərin sosial-iqtisadi, siyasi dəyişikliklər təhsilin təhlükəsizliyinin təmin edilməsi probleminə obyektiv şəkildə yeni elmi, ideoloji, metodiki və konseptual yanaşmaların inkişafını tələb edir. Həyata keçirilən təhsil islahatı, tətbiq olunan müasir tədris metodları təhsilin keyfiyyətinin yüksəldilməsinə səbəb olur. Təhsil hər hansı bir ölkənin milli təhlükəsizliyinin ən mühüm komponentlərindən biridir.

Təhsil sistemində aparılan islahatlar yalnız məktəb tikintisi ilə yekunlaşmır. Tikilən və ya əsaslı şəkildə yenidən qurulan təhsil müəssisələrinin maddi-texniki bazaları da gücləndirilmiş, məktəblər ən müasir informasiya və kommunikasiya avadanlıqları ilə təchiz olunmuşdur. Hazırda Naxçıvan Muxtar Respublikasının ən ucqar kənd məktəbləri belə, elektron lövhələr, kompüter dəstləri, internet və digər avadanlıqlarla təmin edilmişdir.

"Cəmiyyətin gələcək tərəqqisi təhsilin vəziyyətindən asılıdır", – deyən Ümummilli liderin ideyalarına sədaqət göstərilərək yeni nəslin

təhsilli olması üçün ən müasir şərait yaradılmış, təhsil quruculuğu sahəsində qarşıda duran vəzifələr uğurla yerinə yetirilmişdir.

Hazırda ali təhsil məktəblərində böyüməkdə olan gənc nəslin texniki təfəkkürünü, elementar konstruktor, texnoloji bilik və vərdişlərini inkişaf etdirmək məqsədi ilə peşəyönümlü işlərin aparılması üçün peşə təhsili sisteminin yeniləşməsi tələb olunur. Ona görə də ali texniki məktəblərdə kadr hazırlığının aktuallığını nəzərə alaraq müəyyən tədbirlər həyata keçirilir.

Məqsədyönlü enerji siyasəti hər bir dövlətin milli təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Bu mənada ölkəmizdə iqtisadiyyatın, onun sosial həyatının istər ötən əsrin 70-80-ci illərində, istərsə də müstəqillik dövründəki dinamik inkişafı bir çox mühüm amillərlə yanaşı, elektrik enerji sistemi ilə də bağlıdır. Hazırda Azərbaycan müstəqil enerji sisteminə malikdir. Bu sistemin əsası ötən əsrin 70-ci illərində qoyulmuşdur.

Elektrik sistemi yer planetində yaradılan ən böyük süni sistemlərdən biridir. Bu sistem tərəfindən istehsal olunmuş elektrik enerjisinin texniki və iqtisadi cəhətdən əlverişli formada ötürülməsi və istehlakçılar arasında paylanması dövrümüzün əsas problemlərindən biri sayılır.

Elektrik enerjisi bir-biri ilə qarşılıqlı təsirdə və əlaqədə olan, digər enerji sistemləri və paylayıcı şəbəkələri ilə birləşən xeyli sayda elektrik stansiyaları tərəfindən istehsal edilir. Elektrik enerjisinin ötürülməsi və paylanması üçün nəzərdə tutulmuş elektrik şəbəkəsi və sistemində də digər texniki obyektlər kimi, özünün iş funksiyasının yerinə yetirilməsi prosesində müəyyən miqdarda enerji sərf olunur. Həmin enerji **şəkil 1**-də göstərildiyi kimi, elektrik enerjisinin ötürülməsinin texnoloji sərfiyyatı adı altında ifadə edilir. Sxemdən aydın olur ki, elektrik enerjisinin ötürülməsinin texnoloji sərfiyyatı yarımstansiyaların istehsalat ehtiyaclarına və elektrik enerjisinin texniki itkilərinə ayrılır.

Qeyd etmək lazımdır ki, elektrik şəbəkəsinin qurulması və istismarının keyfiyyət səviyyəsi onun faydalı iş əmsalı ilə xarakterizə olunur:

$$\eta=\frac{W_d-W_{ts}}{W_d}\cdot 100\% = \frac{W_d-W_{xs}-\Delta W}{W_d}\cdot 100\%$$

burada W_d– şəbəkəyə daxil olan enerji; W_{ts}- elektrik enerjisinin texnoloji sərfiyyatı; ΔW– elektrik enerji itkiləridir.

Elektrik enerjisinin ötürülməsi zamanı enerji sistemi ilə tələbatçılar arasında maliyyə əməliyyatlarının aparılmasında hökmən enerji balansı ödənilməlidir, yəni

$$W_d=W_ö+W_{ts}\pm W_k$$

burada $W_ö$ – qiyməti tələbatçılar tərəfindən ödənilən enerji; W_k – kommersiya itkiləridir.



Şəkil 1. Elektrik enerjisinin ötürülməsi zamanı tələb olunan enerji sərfiyyatının strukturu.

Kommersiya itkiləri – elektrik enerjisinin oğurlanması, məişət cihazlarının işlətdiyi enerjiyə olan ödənişin qeydedici cihazların göstərişləri ilə uyğun gəlməməsi, ödənişin gecikdirilməsi və s. nəticəsində yaranan itkilərdir.

Müasir dövrdə enerji satışı müəssisələrinin hesabatlarında elektrik enerjisinin qeydiyyatı sistemlərinin xətaları ilə şərtlənən itkilər də kommersiya itkilərinin tərkibinə daxil edilir. Müxtəlif ölkələrin enerji sistemlərinin iş təcrübəsi göstərir ki, elektrik enerjisinin çevrilməsi, ötürülməsi prosesi zamanı yaranan itkilər 7-15% intervalında olur. Həmin itkilər elektrik sisteminin şəbəkələrində gərginlik, güc və enerji itkilərinin artması və buna uyğun elektrik enerjisinin keyfiyyətinin pisləşməsi ilə nəticələnir ki, bu da

tələbatçıların və elektrik avadanlıqlarının normal iş rejimlərinin pozulmasına gətirib çıxarır.

Energetikanın inkişafına, energetik sistemin texniki iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına qoyulan tələblər elektrik enerjisinin ötürülməsi proseslərinin hesablama və təhlili metodlarının mükəmməlləşdirilməsini zəruriləşdirir. Son zamanlar bununla əlaqədar elektrik şəbəkələrində elektrik enerjisinin nəqli və paylanması məsələlərinə xüsusi diqqət yetirilir.

Elektrik şəbəkələrinin hesablanmasının əsas şərtlərindən biri onların iqtisadi cəhətdən əlverişliliyinin təyin olunmasıdır. İqtisadi cəhətdən əlverişli şəbəkə variantının seçilməsi məqsədi ilə bir sıra variantlar üçün texniki-iqtisadi hesabatlar aparılır. Məlumdur ki, bu və ya digər tikililərin, yaxud müəssisələrin iqtisadi cəhətdən əlverişliliyi onların tikilməsinə sərf olunan **kapital xərcləri, istismar xərcləri** və **məhsulun qiyməti** ilə xarakterizə edilir. Gərginliyi verilmiş elektrik şəbəkələri üçün kapital xərcləri əsasən, şəbəkənin bu və ya digər hissələri üçün seçilmiş naqillərin en kəsiyindən asılıdır. İstismar xərcləri isə nəzərə çarpacaq dərəcədə şəbəkədəki elektrik enerjisi itkilərindən asılı olaraq dəyişir. Ötürülən elektrik enerjisinin qiyməti nə qədər aşağı olarsa, onda itkilər üçün ayrılan xərclər də bir o qədər azalar.

Naqillərin və kabellərin en kəsiyinin seçilməsi zamanı çalışmaq lazımdır ki, elektrik enerjisi itkiləri maksimum dərəcədə azalsın, həmçinin də şəbəkənin qurulması zamanı əlvan metal sərfiyyatı və çəkilən xərclərə qənaət olunsun.

Energetika sənayesinin perspektiv inkişafında əsas məsələ onun enerji effektivliyinin təmin edilməsidir. Enerji effektivliyi aşağıda göstərilən **üç** əsas parametrlə xarakterizə edilir:

– *enerji təhlükəsizliyi;*

– *iqtisadi effektivlik;*

– *sosial effektivlik.*

Respublikamızın yeni iqtisadi sistemə, bazar iqtisadiyyatına keçidi ilə əlaqədar elmi dövriyyəyə **"innovasiya"** termini daxil oldu. Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, energetika sənayesinin elektrik göstəricilərinin yaxşılaşdırılmasına təsir edən əsas amillərdən biri innovasiya ehtiyatlarının tətbiqidir.

Texnoloji innovasiya dedikdə, istehlakçıların müəyyən tələbatlarını ödəmək üçün istehsal prosesində yeni ideya və biliklərin, ixtira, kəşf və elmi-texniki işləmələrin maddiləşməsi başa düşülür. İnnovasiyanın kommersiyalaşdırılması yalnız o halda mümkün ola bilər ki, innovasiya bazara məhsul kimi çıxarılır və onun satılması mümkün olur. Əgər innovasiya məhsul formasında olmazsa, onda kommersiyalaşma innovasiyanın potensial xassəsinə çevrilər və gələcəkdə məhsula dönüb satıla bilər. İnnovasiyanın kommersiyalaşması yeni texnika və texnologiyaların mövcud iqtisadi şəraitdə effektivliyinin azlığı səbəbindən çətinləşə bilər. Bu problem energetika sənayesində daha da aktualdır. Belə ki, hidrogen energetikası texnologiyası ənənəvi və qeyri-ənənəvi (bərpa olunan) enerjiyə söykənən kiçik energetika texnologiyası və s. ilə bir çox ölkələrin ümumi iqtisadi fonunda həmişə effektiv olmur. Çünki enerji istehsalı və satışı sahəsində tarif sisteminin düzgün və səmərəli qurulmaması bu sahədə, xüsusən də qeyri-ənənəvi enerji mənbələrinin istifadəsinə əsaslanan kiçik energetikanın inkişafına həmişə maneçilik törədir.

İnnovasiya texnologiyalarının, xüsusən də kiçik energetikanın inkişafına təsir edən əsas amillərdən biri də investisiya siyasətinin və onun əsas formalarının düzgün seçilməsindən çox asılıdır. Bu həmişə belə olmuş və indi də o cür qalır. İnvestisiyanın formasının seçilməsində və təsvirində başlıca yeri dövlətin siyasəti tutur.

Yeni texnologiyaların tətbiqi baxımından energetika sənayesi iki əsas istiqamətdə inkişaf edə bilər **(şəkil 2).**

– *ənənəvi enerjiyə əsaslanan böyük energetikanın inkişafı;*

– *ənənəvi və qeyri-ənənəvi (bərpa olunan) enerjiyə əsaslanan kiçik energetikanın inkişafı.*

Dünya ölkələrinin təcrübəsi göstərir ki, son illər ikinci istiqamətin inkışafına daha çox fikir verilir. Bu baxımdan respublikamızda, o cümlədən, Naxçıvan Muxtar Respublikasında ənənəvi və qeyri-ənənəvi (bərpa olunan) enerjiyə əsaslanan kiçik energetikanın inkişaf etdirilməsi nəticə etibarı ilə energetika sisteminin enerji effektivliyi göstəricilərinin artırılmasına müsbət təsir göstərə bilər. Bu da həm strateji, həm də iqtisadi cəhətdən səmərəlidir.



Şəkil 2. Enerji texnologiyalarının əsas inkişaf istiqamətləri.

Texnologiya bazarının təhlili göstərir ki, enerji şirkətlərinin innovativ texnologiyaların inkişafı sahəsində yaratdıqları xüsusi tədqiqat-axtarış mərkəzləri bu sahənin inkişafına təkan verirlər. Müasir dövrdə enerji ehtiyatlarının azalması, qiymətlərin dəyişkən olması, dünya ölkələrinin siyasi, iqtisadi və enerji mənbələri uğrunda maraqlarının toqquşması hər bir ölkənin enerji təhlükəsizliyini təmin etmək üçün güclü bir strategiya müəyyənləşdirməsini zəruri edir.

Ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhalinin və iqtisadiyyatın enerji daşıyıcıları ilə etibarlı təminatı, yanacağın və enerji növlərinin şaxələndirilməsi, bərpa olunan enerji mənbələrindən istifadə ilə yanaşı, enerji resurslarından səmərəli istifadəsi xüsusi əhəmiyyət kəsb edir. Enerji resurslarından səmərəli istifadə edilməsi dayanıqlı enerji siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Enerji səmərəliliyi güclü və dayanıqlı bir iqtisadiyyata malik olmaq istəyən ölkələr üçün çox önəmlidir.

Enerji səmərəliliyi istehlak edilən enerji miqdarının istehsaldakı kəmiyyət və keyfiyyətin aşağı salınmadan, iqtisadi inkişafın və rifah səviyyəsinin yüksəldilməsinə maneə yaratmadan azaldılmasıdır. Geniş mənada enerji səmərəliliyi və enerjiyə qənaət, enerji resurslarının (elektrik və istilik enerjisi, təbii qaz, benzin, dizel və s.) itkilərini azaltmaq, tullantıların və enerjinin geri qazanılmasını və dəyərləndirilməsini təmin etmək, müasir texnologiyaların və elmi-texniki nailiyyətlərin tətbiqi ilə istehsala toxunulmadan enerji tələbini azaltmaq, alternativ və bərpa olunan enerji mənbələrindən istifadəni artırmaq kimi tədbirləri əhatə edir. Enerji səmərəliliyi yalnız resurslara qənaət edilməsinə hədəflənməyib, dayanıqlı iqtisadi inkişafa, yaşıl iqtisadiyyata keçidə və ətraf mühitin təhlükəsizliyinin təmin edilməsinə, rəqabətədavamlı, ucuz sənaye və kənd təsərrüfatı məhsullarının istehsalına, istehlakçıların enerji daşıyıcıları ilə təminatının yüksəldilməsinə, kommunal xidmətlərdə israfçılığın və artıq xərclərin azaldılmasına şərait yaratmaqdadır. Enerji səmərəliliyi təmin edilmədiyi təqdirdə ölkənin enerji resurslarına sərf etdiyi izafi vəsait iqtisadi inkişaf və sosial rifah qarşısında başlıca problem kimi qalacaqdır.

Nəticə. Enerji səmərəliliyinin təmin edilməsi ölkəmizin enerji təhlükəsizliyi siyasətinin əsas tərkib hissələrindən biridir. Ölkəmizin enerji təhlükəsizliyinin dayanıqlığının təmin edilməsi, ümumdaxili məhsulun enerji tutumunun azaldılması, ölkə iqtisadiyyatının rəqabətədavamlılığının gücləndirilməsi, ətraf mühitin qorunması, kommunal xidmətlərdə israfçılığın və artıq xərclərin azaldılması üçün enerji resurslarından səmərəli istifadə edilməlidir. Enerji resurs-

larından səmərəli istifadə edilməsi və son tələbatçıların enerji effektivliyinin təmin edilməsi eyni zamanda, ölkə iqtisadiyyatının dayanıqlı inkişafına nail olunmasına, ixrac potensialının artmasına, istehlakçıların enerji resursları ilə təminatının yüksəldilməsinə, ətraf mühitin və enerji ehtiyatlarının qorunmasına şərait yaradır.

ƏDƏBİYYAT

1. Шумпетер И.М. Теория экономического развития. Прогресс, 1982, с. 455.

2. Инновационный менеджмент. / Под ред. Ильенковой С.Д. М. Юнити, 1997, с. 216.

3. Никофоров Г.А. Разработка и обоснование инновационно-инвестиционной стратегии развития малой энергетики. Дисс.канд. наук. Якутск, 2005, с. 151.

4. Санто Б. Инновация как средство экономического развития / Пер. с венгерского. / Общая ред. и вступ. ст. Сазонова. Б.В.Сазонова. М; Прогресс, 1990, с. 296.

Sh.Kazımov, M.Asgerova

The ways of increasing the efficency and transmission of electrical energy

Summary

The article deals with the development of energy in the modern era and the improvement of the technical and economic performance of the energy system, focusing on the development and adoption of new innovative technologies for the transmission ofelectrical energy. This article is based on the use of innovative resources,one of the key factors affecting the improvement of the electrical performance of the power industry.

Ш.Казымов, М.Аскерова

Пути повышения эффективности передачи и распределения электроэнергии

Резюме

В статье рассматриваются вопросы развития энергетики в современную эпоху и улучшения технико-экономических показателей энергосистемы. Основное внимание уделяется разработке и внедрению новых инновационных технологий для передачи электрической энергии. А также в статье говоритса об использовании инновационных ресурсов, одного из ключевых факторов, влияющих на улучшение электрических показателей электроэнергетики.

ÇEVİK ROBOTLARIN VİBRASİYALI ANALİZİ

Kifayət Məmmədova,
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin
Kompüter mühəndisliyi kafedrasının dosenti,
texnika üzrə fəlsəfə doktoru
e-mail: ka.mamedova@yandex.ru

Yeganə Əliyeva,
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin
Kompüter mühəndisliyi kafedrasının baş müəllimi,
texnika üzrə fəlsəfə doktoru
e-mail: yegane.aliyeva.1969@mail.ru

UOT: 62

Xülasə. *Məqalədə yeni nəsil robotlarda enerji istehlakını azaltmaq məqsədi ilə daha çevik elementlərdən istifadə edilməsi nəzərdə tutulur.Robotik strukturlarda yüngül və çevik elementlərin ağır və sərt (əyilməz, bükülməz, oynaq və ya çevik olmayan) elementlərə görə üstünlükləri daha da artmışdır. Lakin element və bağ elastik materialdan hazırlanan zaman hərəkət boyunca və ondan sonra manipulyatorlarda vibrasiyalar (titrəyişlər) yaradır. Həmçinin məqalədə üç sərbəstlik dərəcəli vibrasiyalı çevik manipulyatorun analizi nəzəri və praktiki olaraq reallaşdırılmışdır. Tədqiqat prosesində vibrasiyalı manipulyatoru analiz etmək üçün onun polad hissəsində vibrasiya testi aparılmışdır. Tədqiqatın əsas prosesini verilənlərin analizi təşkil edir. Bu məqsədlə sonlu elementlərin analizi üçün manipulyator Abaqus proqramında modelləşdirilir. Proqram vasitəsi ilə üçbucaqlı sürət profili üçün hərəkət zamanı və ondan sonra manipulyatorun vibrasiya reaksiyası əldə edilir.*

Açar sözlər: *çevik manipulyator, vibrasiya, hərəkət, nəzarət, sonlu elementlər analizi.*
Key words: *flexible manipulators, vibration, motion, control, finite elements.*
Ключевые слова: *гибкие манипуляторы, вибрация, движение, контролъ, анализ конечных элементов.*

Çevik sistemlərin az enerji istehlak etmələrinə və daha sürətlə işləmələrinə baxmayaraq, yüksək vibrasiya səviyyələrinə malikolma səbəbindən onların istifadə sahələri məhdudlaşır. Çevik bir sistem, bir idarəetmə girişi ilə hərəkət edərək və ya dönərək mövqeyini dəyişdikdə hərəkət müddətində və sonradan bu sistemə ətalət yükünün təsir göstərməsi səbəbindən vibrasiya yaranır. Çevik bir sistemdə hərəkət fazaları tamamlandıqdan sonra onun üzərində yaranan vibrasiyalar qalıq vibrasiyalar adlanır. Kosmik strukturlarda yükqaldırıcı kranlar və çevik robotlar kimi bir çox sahələrdə bu tip qalıq vibrasiyaların azaldılması olduqca vacibdir. Qalıq vibrasiyalar sistemin nizamlı rejiminin sonaçatma dəqiqliyinə əhəmiyyətli dərəcədə təsir edir. Vibrasiya səviyyələri artdıqda növbəti əməliyyatda gecikmə yaranır. Çevik robot sistemlərinin istifadə edildiyi sənaye sahələrində qalıq vibrasiya yüksək sürət əməliyyatlarına təsir edərək səmərəliliyi azaldır.

Mövzuda [1] çevik robotların ətraflı elmi nəzəriyyəsi və müxtəlif idarəetmə sahələri təsnif edilir. Eyni zamanda, çevik robotların dinamik analizləri biroxlu, ikioxlu və çoxoxlu olaraq təsnif edilmiş və müvafiq mənbələrin digər tədqiqat sahələri araşdırılmışdır [2].

Qalıq vibrasiyanı idarə etmək məqsədi ilə sistemlərə aktiv və ya passiv nəzarət tətbiq edilə bilər. Aktiv vibrasiya nəzarəti qapalı, passiv vibrasiya isə açıq nəzarəti tələb edir [3]. Aktiv vib-

rasiya nəzarəti stasionar və ya mobil strukturlara tətbiq edilə bilər [4-6]. Çevik robotların qalıcı vibrasiyaları hərəkət əmrlərini dəyişdirərək açıq dövrəyə nəzarəti azalda bilər [7-11]. Bu mənbə əməliyyatlarında vahid və çevik robotun nəzarəti hissəsində araşdırılmışdır. Digər bir araşdırmada fırlanma çevikliyinin qalıq vibrasiyasına nəzarəti idarə etmək məqsədi ilə şok spektrinə əsaslanan iki üsul təklif olunmuşdur [12]. Vibrasiyaları aradan qaldırmaq üçün axın diaqramı ümumiləşdirilir. Əgər pulse siqnalının müddəti sistemə tətbiq olunan hərəkət girişində düzgün seçilərsə, qalıq vibrasiya sıfıra bərabər ola bilər. Başqa bir araşdırmada isə sikloid hərəkət profilindən istifadə edərək modtoplama üsulu ilə qalıq vibrasiyaya nəzarət təmin edilmişdir [13].

Tədqiqatlar zamanı əməliyyatlarda üçoxlu çevik manipulyatorun nəzəri və təcrübi vibrasiyalı analizi aparılmışdır. Nəzəri analiz üçün Abaqus proqramında sonlu element modeli yaradılmış və bu modeldə bəndlərin elastikliyi nəzərə alınaraq vibrasiya analizi həyata keçirilmişdir. Bəndlərin elastikliyi üçün eksperimental tezlik analizi nəticələrindən istifadə edilmişdir. Sürət profilində isə müvafiq sürətləndirmə müddəti tətbiq edilərək, qalıq vibrasiya səviyyələrinin azalması müşahidə olunmuşdur. Qeyd etmək lazımdır ki, çevik manipulyatorların tədqiqi və əldə edilən nəticələr əsasında yaranan problemin həllinə dair yeni bir nəzəriyyənin formalaşdırılması olduqca vacibdir. Bu məqsədlə ilk olaraq, çevik robotların dinamik analizinə baxılmalıdır. Çevik robotların dinamik analizləri biröçülü, ikiölçülü və çoxölçülü sistemlər üzrə siniflendirilir və aparılan tədqiqatlarda dəyərləndirilmişdir. Bu tədqiqat prosesində modelləşdirilmə metodları qruplaşdırılmış və nəticədə çevik manipulyatorlara uyğun dinamik modellər qurulmuşdur.

1. Çevik manipulyatorların dinamik analizi

Çevik manipulyatorların dinamik analizini aparmaq məqsədi ilə eksperimental sistem qurulmuşdur. Bu sistem üçölçülü polad qol manipulyatorundan – R3A-St, ADINK – PCI-8366 kompüterəsaslı hərəkətə nəzarət sistemindən, microstrain – naqilsiz vibrasiya ölçü sistemindən ibarətdir. Eksperimental sistem **şəkil 1**-də göstərilmişdir.

Şəkil 1. Eksperimental sistem.

Tədqiqat prosesinin təşkili məqsədi ilə öncə rijitli (sərt) manipulyatorun, sonra isə çevik manipulyatorun dinamik analizi aparılmışdır. Əldə olunan ölçmə informasiyası əsasında çevik manipulyatorun vibrasiya səviyyəsi müəyyənləşdirilmişdir. Tədqiqat manipulyatorunun ilk hissəsi sərt, ikinci hissəsi isə çevikdir. Sərt hissə 60x40 mm kəsikli, 3 mm qalınlığında qutu profildən və 3 mm qalınlığında nazik lövhədən ibarətdir. Manipulyatorun qolunun maksimum açıldığı məsafə 1010 mm-dir. **Cədvəl 1**-də manipulyatorun elementlərinin ölçüləri verilmişdir.

Cədvəl 1.

Tədqiqat manipulyatoru	Ölçülər (uzunluq x en x qalınlıq) (mm)
Sərt elementlər	410 x 60 x 40
Çevik elementlər	600 x 40 x 3

R3A-St-yə qoşulan üç servo mühərrikli kompüter əsasən, hərəkəti idarəetmə kartı tərəfindən idarə olunur. Hərəkəti idarəetmə kartı və servo idarəedicilər ardıcıl olaraq, SSCNET şəbəkəsi ilə bağlıdırlar. Servo idarəedicilər Visual Basic ilə ADLINK-ActiveX komponentlərindən istifadə edərək proqramlaşdırılmışdır. Naqilsiz ölçmə sistemi bir əsas stansiyadan və üç istiqamətdə təcili ölçmə modulundan ibarətdir. Vibrasiya siqnallarının USB qoşulma kabelləri kompüterdə baza stansiyası vasitəsi ilə qeyd olunur. Naqilsiz vibrasiya sensoru üç istiqamətdə təcili ölçmə qabiliyyətinə malikdir və manipulyatorun son nöqtəsindən 80 mm məsafədə yerləşdirilmişdir. Lokal koordinatlardakı ölçü istiqamətləri şəkil 1-də göstərilmişdir. R3A-St-nin vəziyyəti mühərrik-1, mühərrik-2 və mühərrik-3-ün fırlanma bucaqları ilə müəyyən olunur. Artırılmış mühərrikin fırlanma vektoru

$$q_{mi} = [\theta_{1i}, \theta_{2i}, \theta_{3i}]^T$$

ilə müəyyənləşdirilir. Burada θ_{1i}, θ_{2i}, θ_{3i} müvafiq olaraq 1, 2 və 3 nömrəli mühərriklərin fırlanma bucaqlarıdır. Son nöqtələrinin başlanğıc vəziyyəti isə

$$q_{ea}=q_{ea}+q_{e0}$$

ilə müəyyən edilir. Burada ilk termin q_{ea} – stabil vəziyyətdə mühərriklərin bucaq vektoru, ikinci termin isə q_{e0} – manipulyatorun başlanğıc vəziyyəti üçün müəyyənləşdirilən və fırlanma zamanı yaranan mühərrik bucaqlarıdır. Ona görə də manipulyatorun stabil vəziyyətində $q_{ea}=\lceil 0\ 0\ 0 \rceil^T$-ə bərabər olacaqdır.

R3A-St trapesiyavari sürət profilinin xüsusi bir halı olan üçbucaq sürət profili ilə B mövqeyinə köçürülmüşdür. Trapesiyavari sürət profili **şəkil 2**-də göstərilir.



Şəkil 2. Trapesiyavari sürət profili.

Burada t_a – artan təcil müddəti, t_c – sabit sürət müddəti, t_d azalan təcil müddəti, t_m – hərəkət müddətidir. Trapesiyavari sürət profili üçün sürət vektoru $t_i=[t_a, t_c, t_d, t_m]$ ifadəsi ilə təyin olunur. Burada i addımın nömrəsidir. Trapesiyavari sürət profilində $t_c=0$ üçün üçbucaq sürət profilinə çevrilir. Dönmə bucağı ilə bağlı olaraq maksimum sürət və hərəkət müddəti aşağıdakı ifadələrlə hesablanır:

$$\dot{\theta}_{i_max} = \frac{\theta_i}{t_m - 0.5t_a - 0.5t_d} \qquad (1)$$

$$t_i = t_a + t_c + t_d \qquad (2)$$

R3A-St, Visual Basic proqramında müəyyən edilmiş sürət profili ilə A mövqeyindən B mövqeyinə köçürülür. Proqramda verilənlər bazası mühərriki fırlanma açıları q_{ei} və sürət profilinin vaxt vektor məlumatlarını ehtiva edir.

Əməliyyat girişi **Cədvəl 2.**

Mövqe	Addım	t_i	q_{ei}
A	0		$[15,30,60]^T$
B	1	[1.8253,0,0.1747,2]	$[60,60,30]^T$

Cədvəl 2-də addım 0-da manipulyator quraşdırma mövqeyindən, mühərrik-1 θ_{1i} = 45º, mühərrik-2, θ_{2i} = 30º, mühərrik-3 θ_{3i}=30º-dək dönərək A mövqeyinə çevrilir. 0-cı addımdakı vaxt parametrləri vacib deyildir. Addım 1-də mühərrik-1; θ_{2i} = 45º, mühərrik-2; θ_{2i} = 30º, mühərrik-3; θ_{2i} =30° dönərək hərəkət 2 san. ərzində tamamlanır. Üçbucaqlı sürət profili üçün t_a = 1.8253 san., t_c = 0 san., t_d = 0.1747 san. t_i təyin edilərkən oxlar tərəfindən əldə edilən maksimal sürətlərin açılmaması lazımdır. Vibrasiya siqnalları manipulyatorun hərəkəti zamanı və sonra qeyd olunur. Nümunəvi hərəkət üçün son nöqtənin şəkil 1-də göstərilən lokal çevik qurğusuna nisbətən əyilmə istiqamətində (x) qeyd olunan vibrasiya siqnalı **şəkil 3**-də göstərilmişdir.



Şəkil 3. t_i = [1.8253, 0, 0.1747,2] hərəkəti boyunca və qalıq vibrasiyaya cavab siqnalı.

Ölçmə (Node Commander v 2.3) proqramında 617 Hz seçmə tezliyi ilə 8 san. ərzində vibrasiya qeydiyyatı aparılır və vibrasiya siqnalları Excel fayllarında qeyd olunur. Matlab paketində hazırlanan bir proqramla qeyd olunan faylda sürətləndirmə məlumatları oxunur və vibrasiya analizləri edilir. Proqramda 10 Hz aşağı keçid filtrindən istifadə edilir və hərəkətin başlanğıcı ərazi səviyyəsində dəyişiklik ilə təyin olunur. Şəkil 3-də göstərilən siqnalın işlənilməsi nəticəsində əldə edilən əyilmə istiqamətində qalan vibrasiyalar **şəkil 4**-də göstərilmişdir.



Şəkil 4. ti =[1.8253, 0, 0.1747,2.0000] qalıq vibrasiyaya cavab.

Şəkil 4-də göstərilən sabit vibrasiya cavabından Matlab proqramında hazırlanmış Fast Fourier Transform (FFT), yəni furye çevirməsindən istifadə edərək manipulyatorun öz tezlikləri

alınır. Alınan tezlik spektri **şəkil 5**-də göstərilir.



Şəkil 5. Tezlik spektri.

2. Teorik analiz

Nəzəri analiz üçün Abaqus proqramında polad hissələrdən ibarət olan üçbucaqlı sərt-elastik manipulyatorun sonlu element modeli şəkil 6-da göstərilir.



Şəkil 6. Manipulyatorun (a) işıq modeli, (b) vizualizasiya olunmuş işıq modeli.

Manipulyatorun sonlu elementlər modelində ikidüyünlü B31 xətti fəza elementlərindən istifadə olunur. Bu model cəmi 109 elementdən, 120 düyündən ibarətdir. Aparılan təhlil nəticəsində material xüsusiyyətlərinin elastiklik modulu E=210 GPa, sıxlıq p = 7800 kq/m^3, poisson nisbəti GP = 0.29 kimi müəyyən edilmişdir.

Hərəkət boyunca və ondan sonra vibrasiya nəticələrini əldə etmək üçün dinamik analiz növü seçilir. Bu analiz mərhələsində çevik modeldə geometrik qeyri-xətti təsirlər nəzərə alınır. Dinamik analiz üçün vaxt addımı 0.001 və s., analiz zamanı isə 4 s idi. Manipulyatorun hərəkət müddəti 2 s, qalıq vibrasiya müddəti 2 s-dir. Bundan başqa, manipulyatorun vibrasiya reaksiyasının analiz nəticələri sonlu nöqtələrin yerdəyişməsi və ya sürətləndirilməsi kimi qiymətləndirilə bilər. Eksperimental tədqiqatla müqayisə etmək üçün sürətləndirmənin nəticələri nəzərə alınır.

Təcrübi və nəzəri nəticələrin müqayisəsi

Üçbucaqlı sürət profili üçün eksperimental və nəzəri vibrasiya nəticələri **şəkil 7** və **8**-də müqayisə edilmişdir.

Manipulyator hər iki hərəkəti eyni vaxtda başa çatdırmışdır. Cədvəl 2-də göstərilən nümunəvi hərəkətlər üçün hərəkət müddətində və onun fazaları bitdikdən sonra əldə olunan vibrasiya nəticələri (**şəkil 7a**) qeyd olunmuşdur. Burada azalan təcil müddəti t_d=0.1747 s-dir.



Şəkil 7. Hərəkət müddətində və qalıq vibrasiyaya cavab: (a) t_i=[1.8253, 0, 0.1747,2], (b) t_i= [1.3012, 0, 0.6988,2].

Şəkil 7(b)-də t_i=[1.3012,0,0.6988,2] üçün nəticələr verilmişdir. Burada azalan təcil müddəti t_d=0.6988s-dir. Manipulyatorun statik vəziyyətində təcil müddətlərinin əlavə vibrasiya səviyyələrinə əhəmiyyətli dərəcədə təsir etdiyi görünür. Azalmanın ədədi hala gətirilməsi üçün şəkil 7-də verilən nəticələrdən yalnız əlavə vibrasiya siqnallarını ayıraraq şəkil 8-də göstərmək lazımdır.



Şəkil 8. Əlavə vibrasiya nəticələri:
(a) ti=[1.8253, 0, 0.1747,2], (b) ti= [1.3012, 0, 0.6988,2].

Şəkil 8-dəki nəticələrdən istifadə edərək, əlavə vibrasiya səviyyələrinin RMS qiymətləri və hər iki hərəkətdə müşahidə olunan azalma nisbəti **cədvəl 3**-də verilmişdir.

Cədvəl 3.

t_i	Təcrübi	Azalma %	Abaqus	Azalma %
[1.8253,0,0.1747,2]	5.187		4.6857	
[1.3012,0,0.6988,2]	0.5215	89.95	0.3634	92.24

Altı ölçülü manipulyatordan sənayedə müxtəlif məqsədlər üçün məsələn, daşıma, qaynaq, rəngləmə və s. işlərdə geniş istifadə olunur. Bu sistemlərdə son nöqtəyə təsir edən xətaların əsas səbəbi ilk üçölçülü sistemdəki vibrasiyaların və yerləşdirmə xətalarının üst-üstə düşməsi ilə yaranır. Meydana çıxan vibrasiyalar manipulyatorları sərtləşdirərək aradan qaldırıla bilər. Amma

həmin manipulyatorları hərəkətə gətirmək üçün tələb olunan fırladıcı mexanizmlər istər ölçü, istərsə də güclərinə görə böyükdürlər. Bu isə enerji sərfiyyatına görə problem yaratdığında münasib deyildir. Çevik manipulyatorların isə sərt olmayan (yaxud az sərtli) elementləri əsasında yaranan vibrasiyaların müəyyənləşdirilməsi və aradan qaldırılması üçün manipulyatorun həssaslığı çox vacib şərtdir.

Nəticə. Göründüyü kimi, məqalədə üçölçülü ardıcıl çevik manipulyatorun nəzəri və eksperimental vibrasiya analizi aparılmışdır. Test qurğusu qurulmuş, təcrübi manipulyatorun üçbucaq surət profilləri tətbiq olunmuş və hərəkət boyunca əlavə vibrasiyalar ölçülmüşdür. Eksperimental nəticələri müqayisə etmək üçün Abaqus proqramında sonlu elementlərdən ibarət vibrasiya modeli qurularaq manipulyatorun vibrasiya reaksiyaları əldə edilmişdir. Nəzəri və eksperimental vibrasiyaların nəticələrinin bir-birinə mütənasib olaraq dəyişdiyi və surət profilində sürətlənməsinin əlavə vibrasiya səviyyələrinə təsir göstərdiyi müşahidə edilmişdir.

ƏDƏBİYYAT

1. Benosman M. and Le Vey G. Control of flexible manipulators. A survey, Robotica 22, 2004, p. 533-545.
2. Dwivedy S.K., Eberhard P. Dynamic analysis of flexible manipulators, a literature review, Mechanism and Machine Theory 41, 2006, p. 749-77.
3. Preumont A.Vibration control of active structures an introduction. Second ed. Netherlands. Kluwer Academic Publishers. 2002.
4. Karagülle H., Malgaca L., Öktem HF. Analysis by active vibration control in smart structures by ANSYS. Smart Mater Struct, 2004, p. 661-7.
5. Malgaca L., Karagülle H. Numerical and experimental study on integration of control actions into the finite element solutions in smart structures. Shock Vib 2009,16 (4), p. 401-15.
6. Reis J.C.P, Costa J.S. da Motion planning and actuator specialization in the control of active-flexible link robots. Journal of Sound and Vibration 331, 2012 p. 3255-3270.

K.Mammadova, Y.Aliyeva

Vibration analysis of flexible manipulator

Summary

The use of lighter arms is aimed in new generation robots to reduce power consumption. The advantages of light and flexible arms over heavy and rigid arms on robotic structures include increased payload-to-weight ratio and the use of smaller actuators. However, the arm or joint flexibility of a manipulator causes vibrations during the movement, residual vibrations after the movement and inaccuracies at end-point positioning. In this study, vibration analysis of a 3-DOF serial flexible manipulator was carried out theoretically and experimentally. Vibration tests were done on the experimental manipulators with steel links. The system was modeled in Abaqus for finite element vibration analysis. The vibration responses of the flexible manipulator were obtained during motion and after motion for triangular motion inputs. It is observed that the deceleration time in the motion input affects the residual vibration significantly.

К.Мамедова, Е.Алиева

Вибрационный анализ гибких роботов

Резюме

Статья нацелена на использование более легких вооружений роботов нового поколения для снижения энергопотребления. Преимущества легкого и гибкого оружия над тяжелыми и жесткими рукавами на роботизированных конструкциях включают увеличенное соотношение полезной нагрузки и веса и использование меньших приводов. Однако гибкость манипулятора или сустава манипулятора вызывает вибрации во время движения, остаточные вибрации после движения и неточности при позиционировании конечной точки. В этом исследовании был проведен теоретический и экспериментальный анализ вибрации 3-DOF последовательного гибкого манипулятора. Вибрационные испытания проводились на экспериментальных манипуляторах со стальными звеньями. Система была смоделирована в программе Abaqus для анализа вибраций конечных элементов. Реакции вибрации гибкого манипулятора были получены во время движения и после движения для входов треугольного движения. Наблюдается, что время торможения входа движения существенно влияет на остаточную вибрацию.

ИССЛЕДОВАНИЕ УДАРНОЙ ВЯЗКОСТИ ВЫСОКОПРОЧНОГО ЧУГУНА

Рамиз Гасанли,
Азербайджанский Технический Университет,
доцент кафедры «Металлургия и металловедения»,
кандидат техничеких наук
e-mail: hasanli_dr@mail.ru

УДК: 669.131.7: 621.78

Резюме. *Исследование ударной вязкости высокопрочного чугуна с шаровидным графитом при низких температурах весьма актуально, в связи с усиливающейся тенденцией его применения в оборудовании ответственного назначения, работающем в регионах с отрицательными климатическими температурами.*

Целью настоящей работы является повышение хладостойкости высокопрочного чугуна с шаровидным графитом, производимого в металлических формах, посредством использования легирующих элементов, в частности меди и никеля. Установлено, что высокопрочный чугун с шаровидным графитом, отливаемый в металлические формы, легированный никелем и медью в количествах, соответственно 1,0 и 0,5, можно рекомендовать для деталей ответственного назначения запорных устройств, работающих в условиях с отрицательными климатическими температурами.

Ключевые слова: *высокопрочный чугун, шаровидный графит, экономное легирование, металлическая форма, хладостойкость, термическая обработка, детали запорных устройств.*
Açar sözlər: *yüksəktöhkəm çuqun, kürəvi qrafit, qənaətlə legirləmə, metal qəlib, zərbə özlülüyü, soyuğadavamlılıq, termiki emal, bağlayıcı qurğu hissələri.*
Key words: *high-strength pig-iron, spherical graphite, economical the alloyed, the metal form, cold resistance, thermal processing, details of latches.*

Изучение хладостойкости высокопрочного чугуна с шаровидным графитом (ВЧШГ) при низких температурах весьма актуально, в связи с усиливающейся тенденцией его применения в оборудованиях ответственного назначения, работающих в регионах с отрицательными климатическими температурами.

Целью настоящей работы является повышение хладостойкости ВЧШГ, производимого в металлических формах, посредством использования легирующих элементов, в частности никеля и меди, в количествах соответственно 1,0 и 0,5%. Выбор этих элементов связан с их эффективным положительным воздействием на структуру и физико-механические свойства чугуна. В работе были испытаны образцы семи плавок чугуна, химический состав которых приведен в табл.1.

Модифицирование чугуна осуществляли в ковше (сэндвич-процесс) лигатурой $ФСМ_Г$-5 по ТУ14-5-134-86, содержащая до 7,0% Mg, до 60% Si и до 1% РЗМ, в количестве 1,0% от массы жидкого металла.

Перед модифицированием лигатуру дробили, просеивали и просушивали, для обработки расплава использовали фракции 2,0…20,0 мм.

Таблица 1.

Химический состав плавок чугунов

Номер плавки	Содержание элементов, %					
	Ж	Си	Мн	Ни	Жу	Мэ
1	3,33	2,85	0,45	-	-	0,07
2	3,43	2,90	0,40	1,0	-	0,06
3	3,34	2,85	0,49	1,5	-	0,07
4	3,70	2,80	0,50	2,0	-	0,06
5	3,23	2,95	0,45	1,0	0,5	0,05
6	3,21	2,92	0,46	1,5	0,5	0,04
7	3,16	3,00	0,48	1,5	0,8	0,05

Остаточное количество магния в образцах составляло 0,040-0,065%. Содержание фосфора во всех плавках составляло менее 0,1%, серы – 0,02%.

Кокильные отливки подвергали двухстадийной термической обработки: ферритизирующему отжигу и нормализацию с непрерывным охлаждением.

При кокильном способе отливки имеют значительный отбел. Поэтому перед механической обработкой необходимо проведение отжига с целью ферритизации металлической основы. В процессе отжига происходит графитизация всех видов цементита – от первичного до входящего в состав перлита. В результате за счет получения ферритной структуры обеспечиваются повышенные пластичность и ударная вязкость чугуна, снижается твердость, улучшается обрабатываемость.

Ферритизирующий отжиг осуществляли по следующему режиму: загрузка отливок в печь при температуре не ниже 200^{0}С с целью предотвращения коробления; нагрев до температуры 930+20^{0}С со скоростью 7-10^{0}С/мин; выдержка отливок при этой температуре в течение трехпяти часов; немедленное охлаждение с печью до 700-680^{0}С со скоростью 4-5^{0}С/мин; выдержка при этой температуре в течение трех часов; охлаждение с печью до температуры 600 - 550^{0}С; извлечение отливок из печи и охлаждение на воздухе до температуры окружающей среды.

Для получения бейнитных чугунов кокильные отливки подвергнуты нормализации с непрерывным охлаждением по следующему разработанному режиму: загрузка отливок в печь при температуре не ниже 200^{0}С с целью предотвращения коробления; нагрев до температуры 900+10^{0}С со скоростью 7-10^{0}С/мин; выдержка отливок при этой температуре в течение 40-50 мин; охлаждение, отпуск с нагревом в течение 3 часа до температур от 200 до 400^{0}С; извлечение отливок из печи и охлаждение на воздухе до температуры окружающей среды.

После отжига структура металлической матрицы чугуна состояла полностью из феррита. В некоторых отливках в структуре присутствовали отдельные участки перлита общей площадью не более 5-10% и отдельное изолированные включения цементита суммарной площадью менее 5,0%. На не травленном шлифе при увеличении х100 определяли соответствие формы графита согласно ГОСТ 3443-87 форме ШГ$_ф$4 и ШГ$_ф$5. В отдельных отливках в микроструктуре наряду с графитом шаровидной формы (ШГ$_ф$4 - ШГ$_ф$5) присутствовали до 30% вермикулярного графита (ВГ$_ф$2 - ВГ$_ф$3).

Испытания на хладостойкость проводились при температурах +20, -20, -40 и -60^{0}С. Результаты исследований приведены в табл.2.

Анализ результатов испытаний показывает, что металлическая основа является доминирующим фактором, определяющим величину ударной вязкости чугуна. Установлено, что показатель ударной вязкости чугуна с ферритной основой выше, чем у чугунов с ферритно-перлитной и перлитно-бейнитной основами. Это связано с тем, что при разрушении чугуна с ферритной матрицей, имеющей значительный запас пластичности, происходит замедление скорости распространения трещины между включениями графита.

Кроме того, установлено, что вязкость ВЧШГ, полученного способом литья в кокиль, выше, чем у чугуна, полученного литьем в песчаную форму и термообработанного по аналогичному с кокильным чугуном режиму.

Таблица 2
Структура и механические свойства

Номер плавки	Структура металлической основы чугуна	Механические свойства			Ударная вязкость, Дж/см²			
					Температура испытания, °С			
		$\sigma_в$, МПа	НВ, МПа	δ,%	+20	-20	-40	-60
1	ферритная	450	1560	14	107	85	66	39
	ферритно-перлитная	495	1700	10	62	51	42	27
	перлитно-бейнитная	580	2410	2,2	26	22	16	11
2	ферритная	520	1590	19	112	95	79	48
	ферритно-перлитная	570	1670	13	102	81	64	37
	перлитно-бейнитная	630	2350	3.7	40	31	23	15
3	ферритная	560	1760	15	116	98	82	50
	ферритно-перлитная	590	1870	10	102	84	65	34
	перлитно-бейнитная	700	2550	2,6	37	29	18	12
4	ферритная	580	1610	12	115	106	91	55
	ферритно-перлитная	600	1920	10	102	88	69	34
	перлитно-бейнитная	730	2630	2,9	36	28	16	11
5	ферритная	580	1800	15	141	115	106	69
	ферритно-перлитная	620	2000	11	112	92	86	55
	перлитно-бейнитная	720	2550	2,8	50	40	29	12
6	ферритная	490	1630	17	132	121	108	69
	ферритно-перлитная	530	1700	13	126	113	96	53
	перлитно-бейнитная	600	2400	2,3	46	33	28	14
7	ферритная	480	1620	17	130	118	105	67
	ферритно-перлитная	520	1680	14	124	110	94	51
		580	2370	2,5	45	31	25	13

Объяснить это можно значительно меньшей ликвацией по сечению отливки химических элементов, в первую очередь, кремния, и меньшей величиной эвтектического зерна у кокильных отливок, обусловленного их высокой скоростью затвердевания и охлаждения в кокиле. Это обусловлено и высокой плотностью ВЧШГ, полученного литьем в кокиль, наличием в его структуре дисперсных, равномерно распределенных включений графита шаровидной формы .

Более высокие показатели ударной вязкости легированных ВЧШГ, по сравнению с нелегированными объясняется повышением степени гомогенности структуры и уменьшением величины зерна при легировании и особенно такими элементами, как никель и медь.

Установлено, что ферритно-перлитный и перлитно-бейнитной чугуны, легированные медью и никелем имеют более высокие показатели ударной вязкости, чем нелегированный ВЧШГ с аналогичной структурой. Происходит это, в основном потому, что оба элементы содействует образованию вокруг включений шаровидного графита ферритной оболочки с невысоким содержанием кремния, которая является своеобразным демпфером, тормозящим процесс распространения трещины.

Результаты свидетельствуют о том, что наиболее интенсивное падение ударной вяз-

кости с понижением температуры происходит у перлитных чугунов. Свойства ферритных и бейнитных чугунов изменяются в меньшей степени. В то же время хладостойкость ферритных и бейнитных чугунов одного и того же состава находится примерно на одном уровне.

Установлено, что лучшие показатели ударной вязкости при – 60^{0}С обнаруживают чугун, легированного 2% Ni. Однако чугун, легированный 1,0% Ni и 0,5% Cu, также показывает достаточно высокий уровень свойств, что подтверждает правильность его выбора.

Определено, что ВЧШГ с ферритной структурой охрупчивается при понижении температуры ниже – 60^{0}С. Тип концентратора напряжений оказывает незначительное влияние на работу разрушения легированного ВЧШГ, а его наличие в полторадва раза уменьшает ее. Установлено, что понижение температуры незначительно влияет на работу разрушения легированного ВЧШГ с перлитной структурой.

Заключение. Таким образом, экспериментально установлено, что ВЧШГ, легированный никелем и медью, соответственно 1,0 и 0,5%, может быть рекомендована для деталей ответственного назначения запорных устройств, работающих в условиях с отрицательными климатическими температурами.

ЛИТЕРАТУРЕ

1. Гасанли Р.К. Высокопрочный чугун с шаровидным графитом. Баку, Наука, 2008, с. 203

2. Велиев Т.К. Высокопрочный чугун как материал деталей устьевого фонтанного оборудования. Дисс. канд. техн. наук-Харьков, 2006, с. 137

3. Дубров В.В. и др. Применение высокопрочного чугуна в арматуро строении. Высокопочный чугун с шаровидным графитом. Киев, Наукова думка, 2014, с. 78-81.

4. Высокопрочный чугун с шаровидным графитом. Теория, технология производства, свойства и применение / Под ред. Волощенко М.В. Киев, Наука думка, 2012, с. 203

R.Həsənli

Yüksəkmöhkəm çuqunun zərbə özlülüyünün tədqiqi

Xülasə

Mənfi temperaturlu iqlim şəraitinə malik bölgələrdə tətbiq edilən qurğu təyinatlı avadanlıqların ənənəvi olaraq kürəvi qrafitli yüksəkmöhkəm çuqundan hazırlanması səbəbindən, aşağı temperaturlarda onların zərbə özlülüyünün tədqiqi olduqca lazımlı və akualdır.

İşin məqsədi metal qəliblərdə (kokillərdə) hazırlanan, legirləyici elementlər, xüsusilə mis və nikel istifadə olunan kürəvi qrafitli yüksəkmöhkəm çuqunun soyuğadavamlılığının, yəni zərbə özlülüyünün artırılmasından ibarətdir.

Müəyyən edilmişdir ki, metal qəliblərə tökülən, 0,5% mis və 1,0% nikellə legirlənən kürəvi qrafitli yüksəkmöhkəm çuqunları mənfi temperaturlu iqlim şəraitinə malik bölgələrdə işləyən avadanlıqların məsul təyinatlı hissələrinin hazırlanması üçün tövsiyə etmək olar.

R.Hasanli

Investigation of toughness of high-strength cast iron

Summary

Studying of impact strength of high-strength pig-iron with spherical graphite at low temperatures rather actually, in connection with the amplifying tendency of its application in the equipment of responsible appointment working in regions with negative climatic temperatures.

The purpose of the present work is increase of cold resistance of high-strength pig-iron with the spherical graphite, made in metal forms, by means of use of alloying elements, in particular copper and nickel. It is established, that high-strength pig-iron with the spherical graphite, cast in the metal forms, alloyed by nickel and copper in quantities, accordingly 1,0 and 0,5, it is possible to recommend for details of responsible appointment of latches working in conditions with negative climatic temperatures.

Peşə təhsili və insan kapitalı. Cild 2, №2, 2019 s.78-81

MÜASİR DÖVRDƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR İŞİNİN DÖVLƏT ORQANLARININ SƏMƏRƏLİ FƏALİYYƏTİNƏ TƏSİRİ

Anar Şükürov,
Azərbaycan Respublikasının Prezidenti
yanında Dövlət İdarəçilik Akademiyasının
İnzibati idarəetmə fakültəsinin dekan müavini, doktorant
e-mail: anar-shukurov2015@list.ru

UOT: 65

Xülasə. *Məqalədə ictimaiyyətlə əlaqənin tarixi və mahiyyəti, dövlət orqanları tərəfindən bu işin daha da səmərəli qurulması, idarəedilməsi və strategiyasından bəhs edilir. Eyni zamanda, ictimaiyyətlə əlaqə xidmətlərinin optimal idarəetmə qərarlarının qəbulu üçün şərait yaratdığı, bir çox mübahisə və münaqişəli hallarda ilk zərbəni öz üzərinə götürdüyü kimi cəhətləri diqqətə çatdırılır.*

Açar sözlər: *ictimaiyyətlə əlaqə xidmətləri, dövlət idarəetmə orqanları, səmərəlilik, strategiya, institusional qurum.*
Key words: *public relations services, public administration bodies, efficency, strategy, institutional structure.*
Ключевые слова: *службы по связям с общественностью, органы государственного управления, эффективность, стратегия, институциональная структура.*

Son zamanlar sənayeləşmənin nəticəsi olaraq informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə əlaqədar ortaya çıxan yeniliklər, qloballaşma, biznes və idarəetmə sahəsində baş verən dəyişiklik, rəqabətin artması və istehlakçı meyillərinin fərqlənməsi ilə birlikdə qurumlar üçün hədəf kütlələrlə təsirli ünsiyyət qurmaqda əhəmiyyətli fəaliyyətlərdən biri və ən əsası ictimaiyyətlə əlaqələr işidir.

Dövlət və bələdiyyə idarəetmə obyektləri məcmusuna daxil olan vətəndaşlar və onların təşkilatları ilə bütövlükdə ictimaiyyətlə münasibətlərin qurulmasına xidmət edən subyektin xüsusi fəaliyyət sahəsi ictimaiyyətlə əlaqələr adı ilə idarəetmə elminə daxil olmuşdur. **İctimaiyyətlə əlaqə** ingilis dilindən tərcümədə ***"public relations"***, qısaca (PR) ***"xalqla əlaqə"*** mənasını verir. PR üzrə mütəxəssis ictimaiyyətlə əlaqələri necə qurmaq barədə məsləhət verən ekspertdir. Mütəxəssislərin ictimaiyyətlə əlaqələr haqqında müxtəlif fikirləri mövcuddur. Con Marston "The Nature of Public Relations" adlı kitabında ictimaiyyətlə əlaqələri "hədəf kütləyə təsir etmək üçün ictimaiyyətin razılaşması istiqamətində planlaşdırılmış əlaqələr kimi izah etmişdir" [4].

İctimaiyyətlə əlaqələr terminindən ilk dəfə ABŞ prezidenti Tomas Cefersonun istifadə etdiyi deyilir. O, 1807-ci ildə "Konqresə 7-ci müraciəti"nin qaralamasında ilk dəfə olaraq ictimaiyyətlə əlaqələr – PR terminini işlətmişdir. Bu ter-

min altında o, ölkə miqyasında hökumətə inam ab-havasının yaradılmasını və bu işdə siyasi institutların səylərinin artırılmasını başa düşürdü [5].

Qərb ölkələrində dövlət səviyyəsində həyata keçirilən PR siyasəti bir aksiomaya əsaslanır: – *"Hökumət xalqın rifahı və əmin-amanlığı naminə işləməlidir, lakin xalq da arxayın olmalıdır ki, hökumət onun rifahı naminə səmərəli işləyir"*. Məhz bu inam iqtidara imkan verir ki, ölkədə sabitlik yaratsın və öz siyasətini sakit şəraitdə həyata keçirtsin. Beləliklə, əhalidə hakimiyyətə qarşı inam yaratmaq dövlət strukturlarında ictimaiyyətlə əlaqələr strategiyasını təşkil edən başlıca məqsəddir.

Demokratik və müasir cəmiyyətdə dövlət xidmətlərinin aparılmasında xalqın məlumat sahibi olması bir haqq olaraq ortaya çıxır. Dövlət orqanlarının təqdim etdiyi xidməti tələb edən hər bir fərd işinin hansı mərhələdə olduğu və qurumun fəaliyyəti barədə məlumat sahibi kimi lazımi orqanlara müraciət edə bilər. Bu mərhələdə o, özünə ən yaxın məntəqə olaraq ictimaiyyətlə əlaqələr departamentini görür. Ona görə də dövlət müəssisə və təşkilatlar üçün ən vacib fəaliyyətlərdən biri – ictimaiyyətlə əlaqələr işidir.

Dövlət orqanlarının münasibət yaratdığı ictimai təbəqənin inam və dəstəyinin təmini məqsədi ilə iki istiqamətli rabitəyə əsaslanan ictimaiyyətlə əlaqələr işindən istifadə edilir. Nəticədə ictimaiyyətin, təşkilatın və cəmiyyətin istədiyi istiqamətdə dəyişikliklərin edilməsinə və beləliklə də qurum ilə ətrafı arasında ən uyğun miqyasda harmoniya və tarazlığın təmin olunmasına yönəlik davamlı sistemli işlər görülür.

Dövlət orqanlarında ictimaiyyətlə əlaqələrin ortaya çıxan səbəbləri aşağıdakılardır:

– dövlət anlayışındakı dəyişmələr;

– dövlətin fəaliyyətində xalqın dəstəyinin hiss edilməsi;

– dövlətin funksiyalarının artması nəticəsində ortaya çıxan çətinlikləri aradan qaldırmağın səbəbləri.

Ümumi olaraq qurum ilə hədəf kütlə arasında qarşılıqlı anlaşma, konsensus və əməkdaşlığı təmin etməyə, bu münasibətləri saxlamağa və idarəetməyə istiqamətlənmiş fəaliyyət kimi əsaslandırılan və günümüzün əsas peşələri arasında yer alan ictimaiyyətlə əlaqələr – media münasibətlərindən təşkilat mədəniyyətini formalaşdırmağa, təşkilati sosial məsuliyyətdən böhran idarəetməsinə, sponsorluq işlərindən ümumi marketinq ünsiyyətinə, təsirli idarəetmə formalarından lobbiçiliyə qədər çox müxtəlif tətbiq sahələrini əhatə edir.

ABŞ-ın PR mütəxəssisləri dövlət siyasəti sahəsində vəzifələrinə çox ciddi yanaşırlar. **Onların fikrincə, bu vəzifələrə aşağıdakılar daxildir [2]:**

– dövlət qurumlarının fəaliyyəti haqqında vətəndaşların məlumatlandırılması;

– dövlət proqramlarının həyata keçirilməsində vətəndaşların fəal iştirakının təmin olunması (əhalinin geniş təbəqələrinin siqaret çəkməyə, yol hərəkəti qaydalarının pozulmasına qarşı kampaniyalara, habelə seçkilərdə iştiraka və s. cəlb olunması);

– vətəndaşlar tərəfindən siyasətçilərin və onların müxtəlif proqramlarının dəstəklənməsinə stimul yaradılması.

İctimaiyyətlə əlaqələr işinin təməl xüsusiyyətlərini aşağıdakı kimi sadalamaq olar [6]:

⁎ *İctimaiyyətlə əlaqələr təşkilati iş olduğu üçün təşkilatlanma onun mühüm atributudur.*

⁎ *Müəyyən bütövlük içərisində aparılan ictimaiyyətlə əlaqələr işi əvvəldən müəyyənləşdirilmiş məqsədəuyğun fəaliyyətdir.*

⁎ *İctimaiyyətlə əlaqələr işinin qurumun məqsədlərinə çatması üçün müəyyən vasitələrə və vasitəçilərə ehtiyacı vardır.*

⁎ *İctimaiyyətlə əlaqələr dövlət idarəçiliyində dövlət-vətəndaş əlaqəsi, müəssisə idarəçiliyində isə firma-müştəri əlaqəsi şəklində bir görünüşə sahibdir.*

⁎ *Qurum ilə hədəf kütlə arasındakı münasibətləri tənzimləyən bir sıra qanunlara ehtiyac vardır. Ona görə də qanunvericilik ictimaiyyətlə əlaqələr işi baxımından əhəmiyyətli yer tutur.*

⁎ *İctimaiyyətlə əlaqələr işi yüksək texnologiya və keyfiyyətli kadr tələb edən fəaliyyətdir. Onların təmin edilməsi müəyyən maliyyələşirmə məsələlərinin öyrədilməsi və araşdırılması üçün lazımi xarakterə malikdir.*

⁎ *İctimaiyyətlə əlaqələr işinin məqsədinə çatıb-çatmadığını, qurum üçün faydalı olub-olmadığını müəyyənləşdirməklə, bu fəaliyyətə ilk mərhələdən son mərhələyədək nəzarət etmək lazımdır.*

Fərdlər istədikləri məlumatları oxuyub müşahidə və təhlil edərək, ya da düşüncələri ilə analizdən keçirərək hipotezlər yaratmaqla anlaya bilirlər. Həmçinin fərdlər həyatlarının hər sahəsində inzibati prosedur və hərəkətlərlə qarşılaşaraq özlərinə təsir edən müdaxilələrə qarşı haqlarını müdafiə etmək üçün bu proseslərin necə və hansı yolla həyata keçirildiyini bilmək ehtiyacı duyur və məlumat sahibi olmaq istəyirlər [1].

Dövlət müəssisələrində fəaliyyətin səmərəliliyinin yüksəldilməsi üçün həyata keçirilən işlərdən xalqın xəbərdar edilməsi lazımdır. Dövlət müəssisələrində ictimaiyyətlə əlaqələr fəaliyyətində etik dəyərlərə diqqət etməli və bu dəyərlər ictimaiyyətlə əlaqə işləri üçün yol göstəricisi olmalıdır. Bu işlərdə etikadan kənar davranışların sərgilənməsinə icazə verilməməlidir.

Dövlət orqanları ictimaiyyətdə hər zaman müsbət təəssürat yaratmaq, hər şeydən öncə öz maraq və məqsədlərini həyata keçirtmək üçün ictimaiyyətlə əlaqələr işinə xüsusi əhəmiyyət verməlidirlər. Bunun üçün öz idarəetmə fəaliyyətləri haqqında cəmiyyətə informasiya verməli, ictimaiyyətin düşüncə və meyilləri barədə məlumat sahibi olmalıdırlar. Bununla da dövlət orqanları xalqın xidmətində durmaq ideyasından hərəkət edərək fəal və səmərəli xidmətlər göstərdikdə cəmiyyətdə də müsbət təəssürat yaradacaq. Belə olan təqdirdə ictimaiyyət də həmişə həmin dövlət orqanına inam və dəstəyini göstərəcəkdir.

Demokratik ölkələrdə dövlət qurumlarına səlahiyyətli orqanların nümayəndələrinin seçilməsi ilə xalqın vəzifəsi heç də bitmir. Dövlət orqanlarında münasibətlərin demokratikləşdirilməsi ilə xalqın verilən qərarlarda iştirak etməsi, fikirlərini bildirməsi və baş verənlərdən xəbərdar olması hüququnu qazanmış olur.

Dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələrin xarakteri belədir:

– dövlət idarəçiliyinin təşkilati quruluşu;

– dövlət idarəçiliyinin gücü;

– dövlət təşkilatlarını tənzimləyən hüquqi aktlar;

– dövlət idarəetmə rəhbərlərinin işçilərinə təsiretmə səviyyəsi.

Dövlətin və qurumların əsas vəzifəsi xalqın tələblərini yerinə yetirmək, xalqa xidmət etməkdir. İctimaiyyətlə əlaqələrin əsas məqsədi qurumlarla ictimaiyyət arasında əldə olunmuş anlaşmanın təmini, fəaliyyətin geniş təbliği, əhali ilə əlaqələrin möhkəmləndirilməsidir.

Dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələrin məqsədini aşağıdakı kimi ümumiləşdirə bilərik:

– ictimaiyyəti maarifləndirmək, təşkilatın apardığı siyasəti xalqa mənimsətmək;

– ictimaiyyətdə hakimiyyətə qarşı daha müsbət mövqe yaratmaq;

– rəhbərliklə olan münasibətlərdə xalqın işini asanlaşdırmaq;

– xidmətlərin aparılmasında ictimaiyyətlə əməkdaşlığı təmin etmək;

– qurum imici yaratmaq və cəmiyyətə yaxşı mənada qəbul etdirmək;

– ictimaiyyətin dövlət orqanının işi istiqamətindəki meylini ölçmək və lazımi tənzimləmələr etmək;

– ictimaiyyəti dövlət orqanının xidmət siyasəti barədə məlumatlandırmaq işini asanlaşdırmaq;

– ictimaiyyətə son qərarları verməzdən əvvəl təşkilatların həyata keçirdikləri əhəmiyyətli layihələr barədə məlumat sahibi olmaq imkanı qazanmaq;

– qərarların daha dəqiq olmasına təsir edəcək məlumatları dövlət orqanından əldə etmək;

– vətəndaşlara qanuni qaydalar haqqında məlumat vermək və onların qanunlara riayət etmələrini təmin etmək;

– dövlət orqanları ilə xalq arasında əməkdaşlığı təmin etmək.

İctimaiyyətlə əlaqələr zamanı qurumun fəaliyyəti nəticəsində "mən" düşüncəsi yerinə "biz" düşüncəsi qurum üzvlərinə məqsədli şəkildə məimsədilir. Beləliklə, səmərəliliyi və məhsuldarlığı artıran bir element kimi ictimaiyyətlə əlaər işi institusional qurum mədəniyyətinə təsir göstərir. Burada ictimaiyyətlə əlaqələrin dövlət idarəçiliyindəki əhəmiyyəti ortaya qoyulmaqla, cəmiyyətlə dövlətin ortaq bir vəzifəsi kimi fəaliyyət göstərməsi vurğulanır.

Dövlət orqanları xalqda müsbət təəssürat yaatmaq üçün hər şeydən əvvəl öz məqsədləri istiqamətində əhaliyə doğru, səmərəli xidmət təqdim etməli və məqsədlərini reallaşdırmaq üçün ictimaiyyətlə əlaqələrə önəm verməlidirlər.

Bunun üçün idarəetmə fəaliyyəti barədə cəmiyyətə məlumat təqdim etməli və cəmiyyətin hiss, fikir və meyilləri haqqında məlumat sahibi olmalıdırlar. Hakimiyyət xalqa, cəmiyyətə fəal və səmərəli xidmət göstərərsə, nəticədə cəmiyyətdə də müsbət təəssürat yaradacaqdır [3].

İctimaiyyətlə əlaqələr dövlət müəssisə və təşkilatlarında, daxili və xarici dairələr arasında qarşılıqlı ünsiyyəti təmin edən bir idarəetmə prosesi olaraq açıqlana bilər. Buna uyğun olaraq ictimaiyyətlə əlaqələrin ***üç*** *mərhələsi vardır:* ***birinci****, iki istiqamətli bir əlaqənin mövcud olması;* ***ikinci,*** *məlumatlandırma, anlama və imic yaratmaqla ictimaiyyətə təsir göstərməsi;* ***üçüncü,*** *bir idarəetmə vəzifəsi olmasıdır.*

Müasir dövrümüzdə ictimaiyyətlə əlaqələr işinin ötəri deyil, məqsədyönlü və sistemli olaraq öyrədilməsi və həyata keçirilməsi lazımdır. Bu iş müasir idarəetmənin əsas elementlərindəndir. Çünki ictimaiyyətlə əlaqələr təşkilatın işini daha da gücləndirir və ona görə də bir idarəetmə funksiyası olaraq qəbul edilib. İnkişaf etmiş ölkələrdə ictimaiyyətlə əlaqələr daha səmərəli nəticələr əldə etmək məqsədi ilə mükəmməl hazırlanmış siyasət kimi təşkilat və qurumlar tərəfindən yürüdülür. Qurumların istənilən bölməsi müntəzəm surətdə ictimaiyyətlə əlaqəli siyasət həyata keçirərkən, digər bölmələr hər hansı bir fərqli siyasət yeridə bilməz, çünki o hədəf kütlənin gözündə tam təşkilat olaraq qəbul edilib. Ona görə də bu təşkilatın ictimaiyyətlə əlaqəli siyasəti qurumun bütün bölmələrini əhatə edərək gerçəkləşdirilməlidir. Bu vəziyyətə uyğun olaraq ictimaiyyətlə əlaqələrin təşkilatın bütün şöbələrinə xitab etməsi, yəni qurumun üst dairələrinə yaxın bir şəkildə təşkilatlanması zərurətini ortaya çıxarır. Beləliklə, ictimaiyyətlə əlaqələrin əsas xüsusiyyətlərindən biri olan idarəetmə funksiyası təbii olaraq yaranır.

İctimaiyyətlə əlaqələrin mənasının çoxsaylı elementlərin hamısına birgə təsiri olsa da, o media və xüsusən elektron medianın müstəsna rolu sayəsində daha sürətlə və geniş inkişaf edib. Müasir ictimaiyyətlə əlaqələr (PR) nəzəriyyələrinin mükəmməl sosioloji, psixoloji və sosial-psixoloji kökləri vardır. Sosial kommunikasiya nəzəriyyəsinə söykənən bu anlayışın dövlət və bələdiyyə idarəçiliyində də tətbiqi səmərəli olmuş və bu gün də aktualdır.

Nəticə. Son illər ictimaiyyətlə əlaqələr gündəmi tutan dünya əhəmiyyətli və inkişaf edən bir mövzudur. İctimaiyyətlə əlaqələrin təşkili və idarə olunması bu günün demokratik inkişaf, plüralizm, sosial dövlət prinsiplərini qəbul edən hər bir dövlətdə olduğu kimi, bizdə də fəaliyyət göstərən qurum və şirkətlərdə aktual bir problem olaraq qarşıda durur.

ƏDƏBİYYAT

1. Aksoy Necdet. Yerel yönetimlerde halkla ilişkiler ve teknoloji kullanımı. Türk idare dergisi, yıl 78, sayı 452, 2006, sah. 54-59.
2. Cutlip Scott M., Center A.H. və Brom G.M. Effective public relations. New Jersey, 2009.
3.http://kitaplar.ankara.edu.tr/dosyalar/pdf/118.pdf
4. Kazancı. Halkla ilişkiler. İstanbul, 2003, 43 sah.
5. William Albig, Modern Public Opinion. New York, Mc Graw Hill, 1986.
6. Sabuncuoğlu Z. İşletmelerde halkla ilişkiler. Ezgi Kitab Evi, Bursa, 2001, 5 sah.
7. Əkbərli Ə. Dövlət və bələdiyyə idarəçiliyində ictimaiyyətlə əlaqələr fənni üzrə proqram. Bakı, 2016.

A.Shukurov

The influence of public affairs on the effectiveness of state agencies in modern time

Summary

This article contains informations the history and essence of public relations even more efficient constuction of a work by state bodies, public administration and from strategy. At the same time creating conditions for optimal management decisions for public relations services.

А.Шукуров

Влияние общественных отношений на эффективность деятельности государственных органов в современном мире

Резюме

В статье рассматриваются история и сущность связей с общественностью, более эффективного построения, управления и стратегии правительства. В то же время существует множество противоречивых и конфликтных ситуаций, которые привели к созданию оптимальных управленческих реше-

Peşə təhsili və insan kapitalı. Cild 2, №2, 2019 s.82-85

YAPONİYA TƏHSİL SİSTEMİNİN TARİXİ

Kenzo Endo,
Avropa üzrə Dünya Sülh Təltif Komitəsi (İsveç) sədrinin müavini,
yapon dili üzrə mütəxəssis
e-mail; kenzoing@gmail.com

Yaponiya Uzaq Şərqdə, Sakit okeanın qərb hissəsində yerləşən adalar ölkəsidir. Ən böyük adaları – Honşu, Kyuşu, Şikoku və Hokkaido daxil olmaqla, təxminən 6800 kiçik adadan ibarətdir. Ərazisi 377.835 km^2-dir.

Yaponlar öz ölkələrinə Yaponiya yox, "Nihon" və ya "Nippon" deyirlər. Bunun mənası *"Günəşin yüksəldiyi yer"* deməkdir. Çinlilərin yanaşmasına görə, günəş Yaponiyadan doğur. Ona görə də Yaponiya bəzən "Gündoğan ölkə" adlandırılır. Yaponiya paytaxt Tokio şəhəri də daxil olmaqla, 47 prefekturanı əhatə edir. Ölkə əyalətlər, şəhərlər, qəsəbələr və kəndlər şəklində yerli idarəetmələrdən ibarətdir. Rəsmi dili – yapon dilidir. Yaponiya iqtisadiyyatının əsas rəqibləri ABŞ, Avropa və Çindir. İqtisadiyyatının əsas aparıcı sahəsi isə idxal olunan yanacaq və xammaldan asılı olan sənaye sahəsidir.

Dünya daim dəyişir, inkişaf edir. Dünya dəyişdikcə qarşıda duran məqsədlər, hədəflər də dəyişir. Ölkəmiz dünyanın bir parçası olaraq hər keçən gün müasirləşir, dünyaya daha çox inteqrasiya edir. Bütün bu dəyişikliklər fonunda dünyanın aparıcı ölkələrində təhsil sahəsinə diqqət getdikcə genişlənir və bu dövlət siyasətinin əsas prioritetinə çevrilir.

Yaponiya təhsil sisteminin tarixi dünya xalqlarına bir o qədər də məlum deyildir. Yaponiyada təhsil Çinlə qarşılıqlı münasibətlərdə bu ölkənin simvollarını idxal edərkən başladı. Dövlət qurulanda təhsil icbari idi. VI əsrdə özəl məktəblər əvvəlcə nəcib ailələr vasitəsi ilə inkişaf etmişdir.

Yaponya təhsili müəyyən tarixi dövrlər üzrə inkişaf edib: *Asuka dövrü (592-710); Nara dövrü (710-794); Heian dövrü (794-1185); Kamakura dövrü (1185-1333); Muromachi dövrü (1336-1573); Edo dövrü (1603-1868); Meiji dövrü (1868-1912).*

Təhsilə maraq göstərən siyasətçilər və ziyalılar arasında şahzadə Şotoku **Asuka dövründə (592-710)** Suikonun kralı olub. O, gücünü mərkəzləşdirmək üçün 603-cü ildə məhkəmədə "On iki səviyyəli idarəetmə ((冠位十二階))" sistemini qurdu və onu "On yeddi maddəli konstitusiya" (Seventeen-article constitution) elan etdi. Büddizmi öyrənmək üçün "Sangyö Gisho (三経義疏)"-nu yazaraq, Buddist fəlsəfəsinə əsaslanan idealist siyasəti yürütməyin niyyətində idi, lakin burada təhsilə dair heç bir yazılı nəzəriyyə yox idi. Buna baxmayaraq, "İchijou-thought (乗思想)" nəzəriyyəsində təhsilə dair aydın düşüncələri var idi. O, təhsilin hər kəsə bərabər şəkildə verilməli olduğunu və təhsil vasitəsi ilə ideal dövlət qurulmasının vacibliyini vurğulamışdır.

Yaponiya bu tənzimləməni bir imperatorla

mərkəzləşdirdi. Bununla da ölkənin tarixində ilk dəfə təhsilin dəqiq strukturu – Tang sülaləsindən **"Guozijan (国子監)" sistemi**, daha sonra "Daigaku-ryö (大学寮)" ali təhsil sistemi yarandı. Burada klassik çin və yapon ədəbiyyatını, çin və yapon dilindəki sözlərin düzgün tələffüzü, hüsnxət (xəttatlıq) sənətinin və hesabın tədqiqatının öyrədilməsi önə çəkilmişdir. Bundan əlavə, bu dövrdə Ənənəvi Asiya Tibb və Əczaçılıq və Sənaye kollecləri, Ənənəvi Yapon Musiqisi və İncəsənət kollecləri, Ənənəvi Yapon Ezoterik Kosmologiya və Astronomiya kollecləri yaradılmışdır.

Nüfuzlu aristokrat Fujivara qəbiləsi Ooe qəbiləsi ilə birlikdə The Bunshouin (文章) məbədini tikirlər və burada Fujivara qəbiləsindən olan alimlər rəsmi tədris işindən başqa, tələbələrinə və izləyicilərinə yurdlarda (məbədlərdə) təhsil verirdilər. Digər aristokratlar da təhsil sahəsinə maraq göstərməyə başlayaraq öz təhsil sistemlərini "yurdlarında" (məbədlərində) qururdular. Bu rəqabətli inkişaf özəl ali təhsil müəssisələrinin başlanğıcını da formalaşdırdı.

Nara dövründə (710-794) ölkənin ilk və davamlı hökumət mərkəzi VIII əsrin əvvəlində Na-



rada qurulub. Yaponiya cəmiyyətinin sürətlə çinliləşməsi, ilk tarixi salnamənin yaranması, mədəniyyətin, əsasən də buddizmin və poeziyanın çiçəklənməsi ilə xarakterikdir. Bu dövrdə ilk yapon poeziya məcmuəsi – "Manyesyu" yaranıb. Bu imperatorluq 710-794-ci illəri əhatə edib. 794-cü ildə isə Kiotoda yeni bir hökumət mərkəzi qurulur. Paytaxtın Kiotoya köçürülməsi ilə yeni Heian dövrü başlanır.

Heian dövründə (794-1185) hökumət poçtları (vəzifələri) üçün irsi sistem gücləndi və bu sistem Daigaku-ryö sisteminə təsir etdi. Alimlər və müəllimlər irsi sistemi ardıcıl saxlamaq üçün sadəcə öz davamçılarına öyrətməyə başladılar. 1177-ci ildə "Daigaku-ryö" və "Bunshouin" talanda yandırılır. Bundan sonra bu sistem bərpa edilmir və mövcudluğu sona çatır.

Kamakura dövrünün (1185-1333) ilk illərində aristokratlar bələdçilik etmək üçün müəllim (təlimatçı) olmuş, əsasən də klassik ədəbiyyatın tədqiqatının öyrədilməsinə, qədim məhkəmə və hərbi təcrübələrin yayılmasına çalışmışdılar. Zaman ötdükcə aristokratların təsiri tədricən azalır, əvəzinə yaxşı təhsilli, oxumuş buddist rahiblər və bu dövrdə yeni yaranan Samuray sinfinin nümayəndələri – samuraylar Yaponiyada təhsilin genişlənməsində aparıcı qüvvə olur. Kamakura dövrndə buddistlər tərəfindən "Beş dağ" (五山文Gozan-bungaku) nəzəriyəsi yaranır. Samuraylar irsi ardıcılığı davam etdirmək və gənc samurayların oxuması üçün tarixi Kanazava kitabxanasının (金沢文庫 Hojo Sanetoki Kanazava Bunko) əsasını qoyur, orada xeyli sayda kitab – ədəbiyyat toplayırlar.

Muromachi dövründə (1336-1573) Samuray Uesugi Norizan 1432-ci ildə uzun müddət mövcud olmuş Aşikağa Akademiyasını bərpa edir. Akademiyanın idarəedilməsi üçün o, əlverişli və asan qaydalar tətbiq edir. Aşikağa Akademiyası misioner fransiz Xavier tərəfindən Yaponiyada olan 11 ali təhsil müəssisələri arasında ən yaxşı universitet kimi tərifə layiq görüldü. Aşikağa Akademiyasının fəaliyyəti dövründə burada 3000 şagird təhsil alırdı. Burada yalnız Çin klassikləri deyil, tibb və hərbi taktika da öyrədilirdi. Müəllimlərin əksəriyyəti buddist rahibləri idi, lakin Norizan buddizmi öyrətməyi rahiblərə icazə vermirdi. Baxmayaraq ki, Aşikağa Akademiyası məbəd binalarından istifadə edir və hətta binanın mərkəzində Buddanın heykəli də var idi.

Edo dövrü (1603-1868) Yaponiyada yerli hakimiyyət orqanlarının məmurlarının davamlı hazırlanması üçün 270 akademiya vardı. Feodallar öz domenlərində hər bir hərbi taktikada, milli ədəbiyyat və Konfutsi ədəbiyyatında, onların samuray ardıcıllarını öyrətmək üçün ictimai akademiyaların təşkil edilməsində rəqabət aparırdılar. Bu dövrdə Hayashi Razan tərəfindən Konfutsi müqəddəs məbədi yaradılır və burada Konfutsi fəlsəfəsi öyrədilir. Bundan əlavə, bütün müxtəlif fənlər, klassik ədəbiyyat, tibb (dərman), təbiətşünaslıq, texnologiya öyrədən özəl akademiyalar da mövcud idi ki, bu akademiyaların sayı 1500-dən artıq idi. Yaponiyanın bəzi ixtisas akademiyaları həmin dövrdə ölkənin bütün ərazilərindən tələbələri təhsilə cəlb edirdi. Məsələn, Qərb tədqiqatı üçün özəl akademiyalardan biri siyasi nəzəriyyəçi Fukuzava Yukichi tərəfindən qurulmuş və hazırda həmin akademiya Keio Universiteti kimi fəaliyyətini davam etdirir.

Meiji dövründə (1868-1912) təhsil qərb fikirlərini, elmini və texnologiyasını tez bir zamanda qəbul etmək və qarşıya çıxan problemləri həll etmək üçün ölkədə böyük rol oynadı. Bu da Yaponiyanın bərpası və sürətli inkişafına, İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra onilliklər ərzində iqtisadi artımına səbəb oldu. Lakin XXI əsrin ilk illərində dəyişən mədəniyyət normaları, elm və texnologiyanın inkişafı, iqtisadi qloballaşma və çətin biznes mühiti nəticəsində Yapon cəmiyyəti bir çox problemlərlə üzləşdi. Bu çətinliklərlə qarşılaşan gəncləri həyata hazırlamaq yapon təhsili üçün vacib məsələ idi. Bu cəhdlə atılacaq addımlar hökumətdə, təhsil ictimaiyyətində və bütövlükdə Yapon cəmiyyətində çox böyük müzakirə mövzusuna çevrildi [Mənbə: Web-Yaponiya, Xarici İşlər Nazirliyi, Yaponiya].

Yapon təhsil müəssisələri Meiji dövründə əsaslı təmir edilmiş və Avropa məktəb sistemindən sonra modelləşdirilmişdir. 1886-cı ildə hər bir uşaq üç və ya dördillik məktəblərdə məcburi təhsil almalı idi. 1900-cü ildən məcburi təhsil pulsuz həyata keçirildi. 1908-ci ildən onun müddəti altı ilədək uzadıldı və dərsliklər standartlaşdırıldı. Bu təhsil pilləsi olmadan növbəti illərdə əldə edilən sürətli modernləşmə mümkün olmayacaqdır. Meiji liderləri Qərbə üz tutmaq və milli birliyin inkişaf etdirilməsi üçün səylərinin əsas hissəsi kimi yeni bir təhsil sisteminin yaradılmasına başladı. İbtidai məktəb, orta məktəb və universitetin üç səviyyəli sistemi yaradıldı ki, ibtidai məktəb həm oğlan, həm də qızlar üçün məcburi idi [Ibid].

1886-cı ildə təhsildə üç yeni tənzimləmə qaydası yaradıldı. İlkin əsas təhsil Qətnaməsi ibtidai məktəblərdə 4 illik təhsil konsepsiyasını təqdim etdi. Qətnaməyə həmçinin 3 dəfə yenidən baxıldı və yoxlamalardan sonra təhsilin müddəti 4 ildən 6 ilədək uzadıldı. İkinci pedaqoji (maarifləndirici) Qətnamə ibtidai məktəb təhsili ilə 12 yaş dövründən sonra 5 illik əlavə təhsil verdi. Yuxarı ikinci pedaqoji (maarifləndirici) Qətnamə 1894-cü ildə daha aşağı orta təhsili tamamladıqdan sonra 4-5 illik təhsil müddətini irəli sürdü. Belə ki, bu pedaqoji (maarifləndirici) sistemdə xüsusi təhsil proqramları müəyyən edildi. Bu təhsil proqramları əsasında bir çox texniki, tibbi, kommersiya və kənd təsərrüfatı kollecləri yaradıldı, bəzi kolleclər də isə fakültələrinin sayı artırılmaqla yeni universtetlər kimi tanındı. Beləliklə, bu Qətnaməyə görə Tokio Universiteti birinci İmperiya Universiteti oldu. Müharibədən əvvəl 7 İmperiya Universiteti quruldu, eyni zamanda Yaponiya iqtisadiyyatına və texnoloji (texniki) inkişafa davam gətirmək üçün aparıcı pedaqoji (maarifləndirici) təşkilatlar yaradıldı. Qadınlar üçün təhsili davamlı olaraq yaxşılaşdırmaq məq-

sədi ilə 1899-cu ildə ikinci pedaqoji (maarifləndirici) Qətnamə buraxıldı. Bundan sonra qadınlar üçün ali təhsil almaq daha asan oldu. 1918-ci ildə təsis edilən universitet Qətnaməsinə əsasən, yalnız dövlət deyil, prefektura və şəhər universtetləri, kolleclər, həmçinin şəxsi (özəl) universtetlərin qurulmasına imkan verildi.

1947-ci ildə Məktəb Təhsili Aktı – Təhsilin Əsas Fundamental Qanunu buraxıldı. Bu Qətnaməyə əsasən, Yapon təhsil sistemi 6-3-3-4 tipində oldu. Bu sistem çərçivəsində (6 il ibtidai məktəb, 3 il natamam orta məktəb, 3 il orta məktəb, 4 il universitet təhsili olmaqla) Yapon Təhsil Nazirliyi təhsilin keyfiyyətini yaxşılaşdırmağa cəhd edirdi.

1947-ci ildə General Duqlas Macartur və onun administrasiyası demokratiyanı irəli çəkərək Yapon pedaqoji (maarifləndirici) ənənəsinin davamlı inkişafı üçün Yaponiya Müəllimlər İttifaqının təşkilinə kömək etdi. Onun Yaponiyada sosial və kommunist partiyaları ilə möhkəm əlaqələri var idi. Bunun nəticəsi olaraq, kommunist fəalları 1986-cı ildə Tokio Universitetini tutdu. Bütün bunlara baxmayaraq, müha-

ribədən əvvəl Yapon təhsil sistemi artıq dəyişmiş və Amerika pedaqoji (maarifləndirici) təhsil sisteminə yönəldilmişdir.

XXI əsrin başlanğıcında mühafizəkarlar ənənəvi təhsil sistemini bərpa etməyə çalışırdı. Müxalifət partiyaları isə bu fikrə qarşı çıxırdı. Köhnə Əsas Qanunu (1947) bərpa etmək mübahisəli problemə çevrilir. Buna baxmayaraq, Liberal Demokratik Partiyası Komei Partiyası ilə birlikdə 2006-cı ildə təhsilin yeni əsas qanununun qəbul edilməsinə (New Fundamental Law) qərar verir. Bu 18 maddədən ibarət yeni qanuna müvafiq təhsilin məqsədi tam yetkin şəxsin (şəxsiyyətin) formalaşdırılması idi.

İkinci Dünya Müharibəsindən əvvəl Yapon təhsili hipnozalizmlə xarakterizə edilmişdir. Şagirdlər milliyyətçi bir gündəmə uyğun digər irqlərin aşağı olduğunu və imperatorun bir tanrı olduğunu öyrənirdilər. İkinci Dünya Müharibəsindən sonra Yapon məktəbləri Amerika məktəblərinə uyğun bir qədər modelləşdirilmiş və Təhsil Nazirliyinin nəzarəti altına keçmişdir. Müharibə başa çatdıqdan sonra – 1947-ci ildə Təhsil haqqında Əsas Qanun və Məktəb Təhsili Qanunu işğal qüvvələrin rəhbərliyi altında qəbul edilmişdir. Bu gün sonuncu Qanunda istifadə olunan sistem – altı il ibtidai məktəb, üç il orta məktəb, iki və ya dördillik universitet kimi müəyyən edilmişdir.

Yaponiya vətəndaşları olaraq arzumuz ölkəmizi demokratik, mədəni bir dövlət kimi inkişaf etdirmək, sülh və insanlıq rifahının təkmilləşdirilməsi naminə öz töhfələimizi dünyaya yaymaqdır. Bu ideyaları reallaşdırmaq məqsədi ilə həqiqəti və ədaləti çox istəyən, ictimai ruha əməl edən, insanlıq, yaradıcılıq potensiallı, ictimai fəaliyyəti zəngin, fəal olan insanlara dayaq və dəstək oluruq.

Məqsədimiz Yaponiyanın Konstutsiyasına müvafiq olaraq ölkəmizin hər zaman gələcəyinə yol açan təhsil sistemini inkişaf etdirmək, dünya ölkələrində təhsil fondları qurmaq və təhsil sistemini davamlı olaraq irəli çəkərək dünyaya tanıtmaqdır. O cümlədən də, bu məqsədimizi Azərbaycan ölkəsi ilə də qarşlıqlı formada həyata keçirtmək niyyətindəyik.

Məqaləni ingilis dilindən "Sakura Azərbaycan" Yaponiya İctimai Birliyinin sədri **Təranə Hüseynova** *tərcümə etdi.*

PEŞƏ TƏHSİLİ MÜƏSSİSƏLƏRİ İLƏ İŞƏGÖTÜRƏNLƏR (SAHİBKARLAR) ARASINDA ƏLAQƏ

Günay Haşımova,
Oğuz Peşə Məktəbinin tədris-istehsalat işləri üzrə direktor müavini
e-mail: hasimova1982@mail.ru

Son illər dövlətimizin peşə təhsilinə göstərdiyi diqqət və qayğısının nəticəsi olaraq, peşə təhsili müəssisələri ilə işəgötürənlər (sahibkarlar) arasında əlaqələr genişləndirilmiş və bu sahə üzrə "Azərbaycan Pespublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)", "Azərbaycan Respublikasında Məşğulluq Strategiyası (2006-2015-ci illər)" və digər Dövlət Proqramları qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə prioritet istiqamətlərdən biri də işəgötürənlərlə (sahibkarlarla) peşə təhsili müəssisələri arasında müxtəlif səviyyədə tərəfdaşlıq əlaqəsinin qurulması və bu sahədə bir çox müvafiq tədbirlərin keçirilməsidir.

Təhsil nazirinin müavini F.Qurbanovun çıxışlarının birində dediyi kimi, "Dünya ölkələrinin təcrübəsi göstərir ki, kadr hazırlığı prosesi istehsalatdan təcrid edilmiş formada həyata keçirilə bilməz. Təhsil müəssisəsi sifarişçinin, yəni işəgötürənin tələb və ehtiyacını öyrənmirsə, onda təhsil müəssisəsində hazırlanan kadrların rəqabətqabiliyyətliliyinin səviyyəsi aşağı olur. Azərbaycanda ilk dəfə olaraq qəbul edilən "Peşə təhsili haqqında" Qanunda işəgötürənlərin stimullaşdırılması ilə bağlı maliyyə, hüquqi və digər sahələr üzrə güzəştlərin verilməsi nəzərdə tutulur. Bu da özəl sektorun peşə təhsili ilə tərəfdaşlığına daha çox maraq göstərməsinə imkan yaradacaq. Bundan əlavə, peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında sıx əməkdaşlıq münasibətlərinin qurulması baxımından əsas istiqamətlərdən biri kimi işəgötürənlərin peşə təhsili və tədrisi sisteminə inteqrasiyası, yüksəkixtisaslı kadrların tədris prosesinə cəlb edilməsi müəyyən edilib".

İqtisadiyyatın müxtəlif sektorlarında fəaliyyət göstərən işəgötürənlər ilə peşə təhsili müəssisələri arasında müxtəlif səviyyələrdə tərəfdaşlığın qurulmasının günün tələbi olduğunu nəzərə alaraq **Oğuz Peşə Məktəbinin** kollektivi də bu Fərmandan irəli gələn vəzifələri yerinə yetirməyə çalışır. Məhz ona görə də mütəmadi olaraq məktəbimizdə sahibkarlarla görüşlər keçirilir və mühəndis-pedaqoji heyət müəssisələrə gedərək müqavilə bağlanılan təşkilatlarla yaxından tanış olurlar. Həmin təşkilatlardan bir neçəsinin adını qeyd edə bilərik: "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Şəki regional nümayəndəliyinin Oğuz Regional Bölməsi, "Panorama", "LT" və "AFRA" otelləri, Kərimli kənd Fındıq Emalı zavodu, Kərimli kənd Quşçuluq fabriki, Tikinti

materialları üzrə qapı-pəncərə sexi və digər müəssisələrlə məktəbimizdə görüşlər baş tutub. Bundan əlavə, məktəbimizdə fərdi sahibkarlarla da tez-tez belə görüşlər təşkil edilir. Onlardan ***"dərzi"*** ixtisası üzrə tikiş ustaları Pakizə Dadaşova, Afət İsmayılova, Vəsilə Azakova və başqalarının adlarını çəkə bilərik. Həmçinin ***"tütün"*** *və* ***"genişprofilli traktorçu-maşinist, təmirçi-çilingər"*** ixtisasları üzrə fərdi sahibkarlarla yanaşı Bayan kənd bələdiyyəsi, Kərimli kənd bələdiyyəsi, Qumlaq kənd bələdiyyəsi, Şirvanlı kənd bələdiyyəsi və rayonda yerləşən ailəvi istirahət mərkəzləri ilə də əməkdaşlıq edirik. Əməkdaşlıq etdiyimiz sahibkarlarla, idarə və müəssisələrlə birgə çalışırıq.

Onu da qeyd edək ki, əməkdaşlıq etdiyimiz və memorandum imzaladığımız adları çəkilən bu şirkətlərin məktəbimizə çox böyük faydası vardır. Sahibkarlar məktəbimizdə tələbələrlə görüşərək geniş söhbətlər aparır və onların təcrübə keçmələrinə, işlə təmin olunmalarına köməklik göstərirlər. Bütün bunlarla yanaşı, əməkdaşlıq etdiyimiz həmin sahibkarlar məktəbimizin maddi-texniki bazasının zəif olduğunu nəzərə alıb bizə yaxından kömək edirlər.

Məktəbimizdə ilk növbədə, istehsalat təliminə çox ciddi yanaşma mövcuddur. Məktəb rəhbərliyi bu sahəni daim diqqət mərkəzində saxlayır. Məktəbimiz 2018-2019-cu tədris ilinə 30-dan artıq idarə və müəssisələrdən sifariş alıb. Artıq müqavilə bağladığımız və bizə sifariş verən sahibkarlar yaxşı başa düşürlər ki, dünya iqtisadi məkanına inteqrasiya etmək üçün yalnız ali təhsilli deyil, eyni zamanda, peşə təhsili alan gənclərə də ciddi ehtiyac vardır. Bu işlərin həyata keçirilməsi üçün peşə məktəbləri də müəyyən işlər görür. Elə bu məqsədlə bu yaxınlarda məktəbimizdə işəgötürənlərlə görüş təşkil edilmişdir. Tədbirin keçirilməsində əsas məqsəd sahibkarlarla yaradılmış əməkdaşlıq əlaqəsinin genişləndirilməsi və bacarıqlı məzunların işlə təmin edilməsi olub. Görüşdə "peşə məktəbi –

sahibkar əlaqələri" geniş müzakirə edilmiş və məzunların işlə təminatında tələbələrin istehsalat təcrübəsinin səmərəli keçirilməsi məsələləri sahibkarların nəzərinə çatdırılmışdır. Sahibkarlar çıxışlarında bu məsələyə ciddi önəm verdiklərini və məktəbimizlə sıx əlaqəli fəaliyyət göstərəcəklərini əminliklə vurğulayıblar.

Bu gün respublikamız sürətlə inkişaf edir, iqtisadiyyatımız ildən-ilə genişlənir, yeni-yeni iş yerləri, zavodlar, fabriklər yaradılır, turizm sahəsi xüsusilə inkişaf edir. O cümlədən, **Oğuz rayonu** da turizm və iqtisadi sahədə çox sürətlə inkişaf edib. Bu da ilk növbədə, məktəbimizin məzunlarının işlə təmin edilməsinə zəmin yaradır. Peşə təhsili əmək bazarının "çağırışına" daha çevik diqqət yetirdikdə iş axtaran peşə məktəbinin məzununun ixtisas hazırlıq səviyyəsi ilə əmək bazarındakı boş iş yerinə olan tələblər üst-üstə düşür. Çalışırıq ki, belə iş yerlərində məzunlarımız fəaliyyət göstərsinlər. Kollektivimiz başa düşür ki, hazırda əmək bazarında iştirak etmək üçün insan özünün başlıca kapitalı hesab etdiyi peşəsinə ümid bəsləyir. Bu baxımdan biz də əlimizdən gələni edirik ki, məzunlarımız əmək bazarında iştirak etsin və iş tapmaqda problem yaşamasınlar.

İnanırıq ki, məktəbimizin sahibkarlarla əlaqəsi nə qədər sıx olarsa, tələbələrdə sahibkarlıq düşüncəsi daha da genişlənər, onlarda peşəyə maraq və gələcəyə inam artar.

Peşə təhsili və insan kapitalı. Cild 2, №2, 2019 s.88-91

KOMPETENSİYALARA ƏSASLANAN MODUL TEXNOLOGİYALARININ PEŞƏ TƏHSİLİNDƏ TƏTBİQİNİ ZƏRURİ EDƏN AMİLLƏR

Malik Qurbanov,
Azərbaycan Respublikası Təhsil İnstitutunun Peşə təhsili şöbəsinin baş mütəxəssisi, dissertant
e-mail: tehsilproblemleri@mail.ru

UOT: 376 (072)

Xülasə. *Məqalədə yüksək texnologiyaların sürətli inkişafı şəraitində peşə təhsili müəssisələrinin çevikliyinin artırılması, təlim tədris işlərinin müasir tələblərə uyğun qurulması məsələləri, onun texnoloji inkişafdan geri qalma səbəbləri araşdırılır, bunların aradan qaldırılması yolları göstərilir.*

Bazar iqtisadiyyatı şəraitində peşə təhsili müəssisələrinin lazımi dərəcədə bilik, bacarıq və vərdişlərə yiyələnmiş kadrların hazırlanması əsas şərt kimi vurğulanır və müəyyən nəticələrə gəlinir.

Açar sözlər: *kompetensiya, kvalifikasiya standartı, çeviklik, kənd təsərrüfatı, modul texnologiyası, informasiya, insan kapitalı.*
Key words: *competence, qualification standard, agility, agriculture, module technology, information, human capital.*
Ключевые слова: *компетентность, квалификационный стандарт, ловкость, сельское хозяйство, модульная технология, информация, человеческий капитал.*

Müasir informasiya cəmiyyəti insanlarda öz bilik və bacarıqlarını artırmağa zəruri ehtiyac yaradır. Sürətlə dəyişən texnologiyalar isə kadr hazırlığından çeviklik tələb edir. Hazırkı şəraitdə ixtisası bir dəfə öyrənməklə təhsili tamamlanmış hesab etmək olmur, çünki inkişaf nəticəsində bir sıra ixtisaslar köhnələrək sıradan çıxır, onların əsasında yeniləri yaranır. Odur ki, əldə edilmiş bilik və bacarıqlar daima yenilənməli və təkmilləşdirilməlidir. Bunun üçün peşə təhsili sistemi çevik olmalı, bazar iqtisadiyyatının tələblərinə uyğun qısa müddət ərzində işini yenidən qurmağı bacarmalıdır.

Uzun illərdir ki, fəaliyyət göstərən mövcud fənyönümlü tədris metodikası artıq müasir dövrün tələblərinə cavab vermir, əmək bazarının tələblərinə uyğun səviyyədə ixtisaslı kadr hazırlaya bilmir. Təhsil müddəti çoxdur, lakin təhsil müddəti təhsilalanların fərdi qabiliyyətlərinə uyğunlaşdırılmır. Müxtəlif yaş və bilik bazasına mənsub insanlara kvalifikasiya standartında nəzərdə tutulmuş kompetensiyaları aşılamaq üçün vahid tədris metodikası yoxdur. Bilik hələ də fənyönümlü tədrisin absurd ölçü vahidi olan beşballıq qiymət sistemi ilə qiymətləndirilir.

Peşə təhsili pilləsi ölkə prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət peşə

təhsilinin inkişafı üçün lazım olan addımı atır. Bütün bunlara baxmayaraq, bu gün cəmiyyətdə peşə təhsilinə maraq hələ də azdır.

Bunun səbəbini, ilk növbədə, peşə təhsili sisteminin özündə axtarmaq lazımdır. Peşə təhsilinin mövcud problemlərini ümumiləşdirməklə belə bir qənaətə gəlmək olar ki, köhnə fənyönümlü tədris metodikası əsasında aparılan təlim və tədris prosesi qəbul qaydalarında, idarəetmə strukturlarında başdansovdu dəyişikliklər aparmaqla mövcud problemləri aradan qaldırmaq, peşə təhsilinə olan marağı artırmaq, onu dövrün tələbləri səviyyəsinə yüksəltmək praktiki olaraq mümkün deyildir.

Peşə təhsili müasir dövrün tələblərinə cavab verməli və çevik olmalıdır, əks-təqdirdə onun istehsal etdiyi məhsulun (ixtisaslı kadrın) alıcısı olmayacaq, başqa sözlə desək, işəgötürənlər (sahibkarlar) peşə təhsili müəssisəsinin məzununu mütəxəssis kimi işə qəbul etməyəcəklər.

İşəgötürənlər bazar iqtisadiyyatı şəraitində elə işçiləri işə qəbul edirlər ki, onların fəaliyyətdə olan mövcud texnoloji prosesə dair lazımi dərəcədə bilik, bacarıq və vərdişləri (kompetensiyaları) olsun. Lakin mövcud texnoloji prosesin də elə bir pilləsi vardır ki, o tədris prosesi planlaşdırılarkən nəzərə alınmayıb. Yaxud da təhsil müəssisəsinin mövcud proqramlarında texnoloji prosesin həmin həlqəsi yoxdur. İşəgötürənə də məhz həmin həlqəni bacaran ixtisaslı kadr lazımdır ki, işi ləngiməsin.

Göründüyü kimi, texnologiyada daima təkmilləşmə prosesi gedir, lakin hər şeyi yenidən dəyişməyə lüzum qalmır. Çünki dəyişiklik heç də bütün texnoloji prosesə deyil, onun ayrı-ayrı mərhələlərinə aid olur. Odur ki, peşə təhsili müəssisəsində tədris prosesi elə təşkil edilməlidir ki, o bazarın tələblərinə uyğun kadr hazırlamağa qadir olsun.

Məlumdur ki, peşə təhsili sistemində resursların məhdudluğu təhsil proqramlarının (kurikulumların) çevikliyini daha zəruri edir. Təhsil proqramları (kurikulumlar) əmək bazarının real tələblərini ödəməyə yönəlməklə yanaşı, iqtisadi cəhətdən də sərfəli olmalıdır. Çevik peşə təhsili təhsilalanlar üçün də sərfəlidir, çünki çeviklik məzunların vaxtı ilə qazandıqları təhsil nəticələrini təlim zamanı nəzərə almağa imkan verir. Peşə təhsili sistemi çevik olduğu qədər də şəffaf və anlaşılan olmalı, həm işəgötürənlər, həm də təhsilalanlar təlim proqramlarının (kurikulumların) nəticələrini qabaqcadan aydın görməlidirlər.

Yüksək texnoloji inkişaf, avtomatlaşdırılmış idarəetmə sistemlərinin yaradılması və müasir informasiya cəmiyyəti insanlarda öz bilik və bacarıqlarını artırmağa zərurət yaradır. Belə olduğu təqdirdə təhsil sistemi də bu dəyişikliklərə çevik reaksiya verməlidir. Sübut etməyə ehtiyac yoxdur ki, məhz keyfiyyətli təhsil vasitəsi ilə müvafiq bilik və bacarıqlar əldə etməklə şəxsiyyət inkişaf edir, onun əmək məhsuldarlığı və gəlirlərinin həcmi artır, eyni zamanda, iqtisadi və sosial həyatda fəal iştirakı təmin olunur. Bu baxımdan dövlət və fərd tərəfindən təhsilə ayrılan vəsaitə "xərc" kimi deyil, gələcəyə qoyulan sərmayə kimi baxılır.

Fənyönümlü tədris metodikasından istifadə etdiyinə görə çevik olmayan peşə təhsilinə böyük miqdarda xərc qoymaq iqtisadi cəhətdən özünü doğrultmur. Peşə təsili müəssisələrinə ayrılan vəsaitin çox böyük hissəsi dövlət büdcəsi hesabına qarşılanır. Təhsilalanın, yaxud işəgötürənin maraqları ödənilərsə, peşə təhsilinə qoyulan sərmayədə dövlətin payı azalar, özəl sektorun payı isə analoji olaraq artar.

Bu gün peşə təhsili və təlimi üçün elə yeni təlim texnologiyaları hazırlanmalıdır ki, onlar işəgötürənlərin və təhsil almaq istəyənlərin maraq dairəsində olan aşağıdakı məzmunda suallara müsbət cavab verə bilsin:

- *Təhsil müddətini təhsilalanların fərdi qabiliyyətlərinə necə uyğunlaşdırmaq olar?*
- *Müxtəlif yaş və bilik bazasına mənsub insanlara təhsil (kvalifikasiya) standartında nəzərdə tutulmuş kompetensiyaları vahid metodika ilə necə aşılamaq olar?*
- *Biliyin qiymətləndirilməsi təhsil (kvalifikasiya) standartı əsasında aparılmalıdır. Belə olan halda qeyri-formal və informal təhsili formal təhsilə çevirmək və rəsmiləşdirmək (sertifikatlaşdırmaq) niyə problemə çevrilir?*
- *Minlərlə insanın təhsil almaq hüququnu fənnyönümlü tədrisin bir neçə qüsurlu cəhətinə görə əlindən almaq nə dərəcədə ədalətlidir?*
- *Biliyin beşballıq sisem üzrə müəllim tərəfindən qiymətləndirilməsi fənyönümlü tədris metodikasının ən absurd tərəflərindən biridir.*

Peşəsinə laqeyd yanaşan sənətkar heç kəsə lazım deyil. Təhsilalanın nəzəri bilikləri yox, onun peşə standartı üzrə kompetensiyaları qiymətləndirilməlidir. Fənyönümlü tədrisdə kompetensiyalar qiymətləndirilmir. Kompetensiyaların qiymətləndirilməsi necə həyata keçirilməlidir? Kompetensiyaları qiymətləndirmək niyə bu dərəcədə aktualdır? Kompetensiyalar bizə nə verir?

• *Kənd təsərrüfatı ixtisasları üzrə tələbə (öyrənən) qəbulunu və təlim-tədris prosesini digər ixtisaslarla eyni reqlamentdə aparmaq nə dərəcədə doğrudur?*

O qədər də mürəkkəb olmayan bu suallara mövcud fənyönümlü tədris prosesinə istinad etməklə müsbət cavab vermək mümkün deyil, amma onları cavablandırmaq peşə təhsili sisteminin vəzifə borcudur. Bunun üçünsə peşə təhsili zamanla ayaqlaşmalıdır. Bundan başqa, fənyönümlü proqramlar əsasında aparılan mövcud tədris prosesinin yaratdığı bir neçə mücərrəd məqam da kompetensiyalara əsaslanan modul texnologiyalarının tətbiqini zəruri edir. Peşə təhsili pilləsinin işi (mahiyyəti, təyinatı, məqsədi) tələbələrə (öyrənənlərə) alacaqları peşənin spesifik cəhətlərini öyrətmək, bu peşə üzrə işləmək üçün onlarda vacib kompetensiyaları aşılamaqdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2010-cu il tarixli, "İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı (kurikulum)"nın təsdiq edilməsi haqqında 77 nömrəli Qərarına əsasən, tədris müddəti bir il olan qruplarda peşə-ixtisas fənlərinə (nəzəri) istehsalat təlimi və istehsalat təcrübəsi ilə birlikdə 1117 saat (200+397+520) vaxt ayrılır ki, o da 15 sentyabr tarixindən 30 iyun tarixinədək olan dövrü əhatə edir.

1 iyul tarixindən 15 sentyabr tarixinədək olan 75 günlük zaman ərzində peşə profilindən asılı olmayaraq təhsil alan tələbələr (öyrənənlər) yay tətilində olurlar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 oktyabr 2011-ci il tarixli, 178 №-li Qərarı ilə təsdiq edilmiş "İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatında [2] aşağıdakı ixtisas qrupları üzrə otuz yeddi ixtisas, həmçinin "aqroservis mütəxəssisi", "bitkiçilik mütəxəssisi" və bu tipdə olan digər ixtisaslar üzrə hazırlanan kadrlar, məhz iyun, iyul, avqust və sentyabr aylarında çox zəruri praktiki bacarıqlar əldə edə bilirlər. Bu ixtisas qruplarındakı peşələrin (ixtisasların) əksəriyyəti kənd təsərrüfatıyönümlü olduğu üçün, təhsilalanlar məhz yay aylarında praktiki təcrübədə olmalıdırlar.

İxtisas şifri: Peşə profillərinin sayı

30301 – bitkiçilik----------12

30302 – kənd təsərrüfatı nəqliyyatı və elektrik avadanlığına xidmət----------9

30303 – maşın-traktor parkına texniki xidmət----------2

30304 – heyvandarlıq üzrə mütəxəssis-----7

30305 – atların minik təlimi----------1

30306 – arıçılıq----------1

30318 – meşə təsərrüfatı----------2

30319 – bağ-park və landşaft sahələrinə nəzarət----------2

Bu ixtisas qruplarında praktiki məşğələlər təcrübə sahələrində aparılmalıdır. Əkin yerləri payız və yazda şumlanır. Deməli, bitkilərin əksəriyyəti bu aylarda əkilir. Tərəvəz sahələrində isə əkinə yaz aylarında başlanılır. Kənd təsərrüfatı məhsullarının böyük hissəsi yay aylarında tədarük edilir. Qısası, fermer, yaxud kənd təsərrüfatı ilə məşğul olan hər kəs məhz qış aylarında yox, yerdə qalan aylarda da iş cəbhəsində olmalıdır.

Bağban, arıçı, üzümçü, pambıqçı, meyvə-tərəvəz ustası və bu qəbildən olan digər peşələr üzrə təhsilalanlar üçün ən optimal təcrübə vaxtı yay aylarıdır. Təhsilalanlar isə məhz bu vaxt yay tətilində olurlar. Deməli, qəbul və tədris müddəti elə planlaşdırılmalıdır ki, yuxarıda qeyd edilmiş ixtisas qrupları üzrə təhsilalanlar yay aylarında tədris və istehsalat təcrübəsində olsunlar.

Tədris kompetensiyalara əsaslanan modul texnologiyaları əsasında aparılarsa, qeyd olunan anlaşılmazlığı aradan qaldırmaq olar. Yəni tədris müddəti optimallaşdırılmalı, bu ixtisaslar üzrə yarımillik və illik vaxt bölgüsü elə planlaşdırılmalıdır ki, yay ayları tətil tədris-təcrübə vaxtı olsun.

Ən gözəl nümunə kompetensiyalara əsaslanan modul texnologiyalarında qeyd edildiyi kimi, nəzəriyyə ilə praktikanın vəhdətdə tədrisidir. Kənd təsərrüfatı peşələri üzrə nəzəri materialların praktiki işlərlə vəhdətdə tədrisi, məhz yay aylarında mümkün olduğu üçün yuxarıda

qeyd olunan qəbul və tədris prosesində müvafiq dəyişikliklər edilməli, tədris prosesi yay aylarında həyata keçirilməli, tətil vaxtının isə qış aylarında olması daha məqsədəuyğundur.

Nəticə. Kompetensiyalara əsaslanan modul texnologiyalarının tətbiqini zəruri edən bütün amilləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

– İlk peşə-ixtisas təhsili üzrə ixtisasların "Təsnifatı"ndakı bütün ixtisas qrupları üzrə tələbə qəbulu və təlim prosesini eyni reqlament üzrə aparmaq doğru deyildir. Yuxarıda qeyd edilmiş ixtisas qrupları üzrə təlim prosesi təşkil edilərkən hər bir ixtisasın spesifik xüsusiyyətləri ciddi nəzərə alınmalı, tədris prosesi yay aylarında aparılmalı, tələbələrə tətil qış aylarında verilməlidir.

– Kənd təsərrüfatı sahələri üzrə bütün peşələrdə praktiki işlər auditoriyada, yaxud laboratoriyada deyil, tarlada, bağda, fermada və s. yerlərdə yerinə yetirilməlidir. Peşə təhsili üzrə modullarda nəzərdə tutulmuş kompetensiyaların praktiki işlərdə aşılanması tədris prosesinin ali məqsədi olmalıdır.

– Yuxarıda qeyd edilmiş kənd təsərrüfatıprofilli ixtisas qrupları üzrə qış tətili iki ay müddətində olub, dekabrın 15-dən növbəti ilin fevral ayının 15-dək davam etməlidir.

– Fənyönümlü tədris kompetensiyalara əsaslanan modul texnologiyaları (KƏMT) əsasında hazırlanmış proqramlarla (kurikulumlarla) əvəz edilməlidir. Məhz KƏMT yuxarıda sadalanan sualların hər birinə müsbət cavab verməyə, problemləri qısa zaman ərzində çevik şəkildə həll etməyə, işəgötürənlərin və təhsil almaq istəyənlərin maraqlarını özündə ehtiva etməyə qadirdir.

ƏDƏBİYYAT

1. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2018.

2. "İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı". Bakı, 2011.

3. "Peşə təhsilinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 116 nömrəli Qərarı. Bakı, 1996.

4. "Peşə təhsili müəssisələrinə qəbul Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 102 nömrəli Qərarı. Bakı, 2019.

M.Qurbanov

The factors that mane use of comfeting based mobile technologies in vacational education

Summary

The article considers the development high technology in the enterprise vocational education, the study of the teaching curiculum in line with modern requirements and the reasons for retirement.

İt is essential to prepare professionals who have arquired the skills abilities and skills of vocational education institutions in the market economy.

М.Гурбанов

Факторы, которые требуют использования модульных технологий в профессиональном образовании

Резюме

В статье рассматриваются вопросы повышения гибкости учреждений профессионального образования в условиях бурного развития высоких технологий, разработка учебных программ в соответствии с современными требованиями, причины его технологического развития и пути их решения.

В условиях рыночной экономики подготовка учреждений профессионального обучения, а также навыков, умений персонала является обязательным условием и достигаются определенные результаты.

Müasir dərs nümunəsi

ƏDƏBİYYAT FƏNNİNİN TƏDRİSİNDƏ MÜƏLLİM FƏALİYYƏTİNİN ÜSTÜNLÜKLƏRİ



Sədaqət Məmmədova,
Bakı Şəhəri üzrə Təhsil İdarəsinin
Təlimə Dəstək Mərkəzinin metodisti
e-mail: sadaqat_mammadova@mail.ru

Təhsil islahatının qarşıya qoyduğu vəzifələr ümumi təhsil müəssisələrində ədəbiyyat fənninin də tədrisinə diqqəti artırır. Peşəyönümü işinin təşkili üçün fənnin tədrisi metodikası yeni axtarışları, vacib problemləri gündəmə gətirərək, bu gün yaradıcı, təşəbbüskar gənclərin tərbiyə edilməsində hər bir müəllimdən yeni təlim metodlarından səmərəli istifadəni tələb edir. Təhsil müəssisələrində ədəbiyyat fənninin tədrisi zamanı nəzəri və praktiki məsələlərin həlli müasir metodlar, idrak fəallığının yaradılması əsasında reallaşır. Mövzunun mənimsənilməsində şagirdlər yalnız yaddaşa deyil, təfəkkürə əsaslanmağa üstünlük verirlər. Xüsusi olaraq qeyd edim ki, ədəbiyyat fənninin tədrisi prosesində standartların tələbinə müvafiq olaraq, yaradıcı münasibətə xüsusi diqqət ayrılmalı, məntiqi, tənqidi və yaradıcı təfəkkürə geniş meydan verilməlidir. Əsəri hissələrə ayırmaq, başlıq müəyyən etmək, özünü hekayədə bəhs olunan qəhrəmanın yerində hiss etmək, hadisələri dəyişmək, obrazlara münasibət bildirmək, səciyyələndirmək, əsərdəki əsas fikrə münasibət bildirməklə esse yazmaq kimi xüsusiyyətlər şagirdlərin yaradıcılıq keyfiyyətlərini və bacarıqlarını inkişaf etdirir. Bacarıq inkişaf etdikcə şagirdlər qarşıya çıxan problemləri analiz edir, onların həlli yolları haqqında düşünür, bu problemləri uğurlu şəkildə necə həll etməyi öyrənirlər.

Məqalədə məqsəd oxuculara ədəbiyyat fənninin tədrisi metodikasından bir nümunəni təqdim eməklə, eyni zamanda, məktəblərimizdə peşəyönümü işinin həyata keçirilməsinə kömək etmiş olarıq.

Fənn: Ədəbiyyat

Mövzu: Elçinin "Talvar" əsəri üzərində iş.

Standartlar:

1.2.4. Əsərin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.

2.1.2. Əsərin mövzusuna müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

Dərsin məqsədi:

1. Hekayənin mövzu və ideyasını günümüzün aktuallığına əsaslandırmaqla şərh edir.

2. Hekayənin mövzu və ideyasına əsaslandırılmış münasibət bildirir.

3. Hekayənin mövzusuna müqayisə və ümumiləşdirmə aparmaqla münasibət bildirir.

İş forması: Kiçik qruplarla iş, kollektivlə iş.

İş üsulları: Əqli hücum, ziqzaq.

İnteqrasiya: Texnologiya: 1.3.4; 1.3.6.

Resurslar: İş vərəqləri, dərslik.

Dərsin gedişi:

Motivasiya (problemin qoyuluşu):

N.Gəncəvinin "Kərpickəsən kişinin dastanı" əsərinin bədii qiraətçinin ifasında səsləndirilməsini təmin etməklə sinifdə əməyin, peşənin insan həyatındakı roluna münasibət formalaşdırmaq və mühit yaratmaq.

Tədqiqat sualı: Əsərdə peşəyə məhəbbət və əməli fəaliyyət oxucuda nəticə etibarı ilə hansı hissi formalaşdırır?

Tədqiqatın aparılması: Elçinin "Talvar" hekayəsinin ziqzaq üsulu ilə oxusunu təşkil etməklə əsərin məzmunu ilə şagirdləri tanış etmək. Məzmunla tanışlıqdan sonra qruplara tədqiqat üçün işçi vərəqləri vermək və sualları müzakirə edərək cavablandırılmasına vaxt vermək.

I qrup

1. Əliabbas kişinin xar tutla bağlı inamı, baxışı və köhnə alətlərlə bağlı peşə bacarığı haqqında fikirlərinizi şərh edin.

2. Əsərdə yazıçının diqqəti cəlb etmək istədiyi başlıca problem nədir?

3. Sizcə, müasir gənclərimiz sosial mövqeyindən asılı olmayaraq, müəyyən sənətə, peşəyə önəm verməlidirmi və nə üçün?

II qrup

1. Əliabbas kişi və cavan ustanın dialoqu sizdə hansı düşüncənin yaranmasına səbəb oldu? Fikrinizi nümunələrlə əsaslandırın.

2. Əsərə çəkilmiş şəkli uğurlu hesab edirsinizmi? Şəklin əsərin mövzu və ideyası ilə əlaqəsini əsaslandırın.

3. Müasir dövrümüzdə köhnə sənət alətlərinə əsərdəki cavan usta mövqeyindən baxışa münasibəti necə dəyərləndirərdiniz?

III qrup

1. Əsərdəki başlıca fikri – ideyanı necə müəyyənləşdirərdiniz?

2. Əliabbas kişinin peşəsinin vurğunu olduğu hansı məqamlarda qabarıq əks olunub?

3. "Həyatda hər bir insanın hər şeydən əvvəl bir peşəsi olmalı" fikrinin doğruluğuna münasibətiniz necədir?

Məlumat mübadiləsi: Qruplar tərəfindən əldə edilən nəticələr, qənaətlər, təqdimatların dinlənilməsi təşkil olunur, fikirlər dinlənilir.

Məlumat müzakirəsi: Dinlənilən təqdimatlara digər şagirdlər tərəfindən münasibət bildirilir, əks-əlaqə yaradılır. Əlavə fikirlər səslənir, təqdimatçıların əlavə fikirlərdən yararanması təmin edilir.

Nəticə, ümumiləşdirmə. (müəllim tərəfindən təşkil edilir):

• Peşə adamlarını sevdirən, onlara nüfuz qazandıran səbəblər nə ola bilər? (Əsərdən çıxış edərək fikrinizi əsaslandırın).

• Peşəsinin ustadı olmaq peşə seçimindən, peşəyə sevgidən ya peşə bacarığından qaynaqlanır?

• Əsər sizdə peşə sevgisi ilə bağlı daha çox hansı hissi oyatdı?

• Peşəyə, sənətə həsr olunmuş hansı ibrətamiz əsər, atalar sözü və aforizmləri tanıyırsınız?

• Dövrümüzdə niyə daha çox ali təhsil dalınca qaçılır, peşələrə maraq və diqqət elə də xüsusi önəm daşımır?

• Hər hansı bir peşəyə malik olmaq yalnız maddi təminat üçündürmü?

• Peşəsinin vurğunu olan insan, yoxsa öz sahibinə şöhrət qazandıran peşə sevilir?

Aforizm və atalar sözləri:

"İş insanın cövhəridir", "İşləməyən dişləməz", "Zəhməti sevən işdən qaçmaz", "Zirəklik comərdlik gətirər", "Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan" və s.

Yaradıcı təqdimetmə:

İnsan:

• Hər hansı bir peşəni mükəmməl bilməyə səy etməlidir. Çünki həmişə peşəsini sevən və vurğunu olan insanlar sənəti ilə seçilir və sevilir.

• Həyatda rahat və xoşbəxt yaşamını təmin etmək üçün elmi biliyi ilə yanaşı, mühüm peşə bacarıqlarına da malik olmalıdır.

• Şəxsiyyət olaraq formalaşmaq yolunun əməyə dəyərdən keçdiyi reallığını dərk etməlidir.

• Sosial mövqeyindən asılı olmayaraq, həyati bacarıqlara malik olmalıdır.

Qiymətləndirmə: *(Qrupların qiymətləndirilməsi)*

Meyarlar	*I qrup*	*II qrup*	*III qrup*
Əsərin mövzusuna müqayisə və ümumiləşdirmələr aparmaqla münasibət bildirir.			
Əsərin mövzu və ideyasını şərh edir və əsaslandırılmış münasibət bildirir.			
Əməkdaşlıq			

Ev tapşırığı:

"Ən çox sevdiyin peşə hansıdır?" mövzusunda **esse** yazmaq.

Peşə təhsili və insan kapitalı. Cild 2, №2, 2019 s.94-97

ATOM FİZİKASI ELEMENTLƏRİNİN TƏDRİSİ TƏCRÜBƏSİNDƏN

Esmira Rəhimova,
Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin ixtisas fənn müəllimi, Əməkdar müəllim
e-mail: ailesdib@gmail.com

Hazırda köklü islahatlar aparılan ölkəmiz müasir dünyanın şəxsiyyətyönümlü təhsil sferasına daxil olmaqla, tələbatlara uyğun, fəal, interaktiv məzmun, ən yeni təlim strategiyaları, qiymətləndirmə mexanizmləri və demokratik idarəetmə sistemini daha da təkmilləşdirmək üçün mütərəqqi dünya texnologiyalarından yaradıcılıqla istifadə edir.

Təlim – tələbənin bilik, bacarıq və dəyərləri mənimsəməsi üçün təşkil olunan məqsədyönlü prosesdir. Bu prosesin iştirakçıları olan tələbə və müəllim fəaliyyətinin xüsusiyyətlərinin öyrənilməsi, təlimin səmərəli təşkili onun keyfiyyətinin yüksəldilməsi üçün mühüm məsələlərdəndir.

Təhsil müəssisələrində fizika fənninin tədrisinə üstünlük verilməsi heç də təsadüfi deyildir. Dövrümüzün elektron və kosmos əsri olduğunu nəzərə alsaq, fizikanın bir fundamental elm kimi yeri və rolu aydın olar. Günümüzü fiziki qanunların və onun ayrı-ayrı elementlərinin tətbiqindən ayrılıqda təsəvvür etmək qeyri-mümkündür.

Müasir fizikanın əsas sahələrindən olan və tədrisi mürəkkəb mövzu hesab edilən atom fizikasının sirlərini açmaq, məhz kvant təbiəti sayəsində mümkün olmuşdur. Kvant mexanikasının qanunlarından istifadə etməklə, tam dəqiqliklə istənilən atomun elektron örtüyünün quruluşunu hesablamaq olar. Fizikanın başqa bölmələri ilə yanaşı, **"Atom fizikası"** bölməsinin tədrisi yüklü zərrəciklərin elementlərini öyrənmək üçün geniş imkan yaradır. Bu imkandan dərs prosesində istifadə etdikdə atom, nüvə və elementar zərrəciklər bölməsinin tədrisi xeyli asanlaşır. Bu zaman tələbələr atomun nüvəsini, ölçüsünü, maddənin sıxlığını kvant təbiəti prinsiplərinə əsasən hesablamağı bacarır, eyni zamanda, atomun elektromaqnit şüalanmasının kvant təbiətinə malik olmasını, elektronun nə üçün nüvə ətrafında hərəkət etdiyini və ya nüvənin daxilində elektronun olmadığını, maddə və sahə zərrəciklərinin qarşılıqlı çevrilməsinin səbəblərini və s. kimi məsələləri öyrənməklə fiziki prosesləri müasir fiziki nöqteyi-nəzərdən izah edə bilirlər.

Peşə təhsili müəssisələri üçün fizika proqramında "Atom fizikası" bölməsinin tədrisinə 15 saat, elektromaqnit rəqsləri, dalğaları bölməsinə isə 13 saat vaxt ayrılmışdır. İş təcrübəmizdə belə qənaətə gəlmişik ki, bu qədər materialı yuxarıda göstərilən vaxtda tam öyrənmək mümkündür. Atom fizikası fəslində materiallar ardıcıl sistem əsasında verilmişdir. Zərrəciklərin dalğa xassəsini izah etməzdən əvvəl fotonlar haqqında deyilənlərə aşağıdakıları da əlavə etmək olar. İşıq zərrəciyinin – fotonun klassik mexanikadan, maddi nöqtələr kimi məlum olan zərrəciklərdən fərqini tələbələrə anlatmaq üçün sadə sxemdən istifadə edilir və bu sxem vasitəsi ilə gələcəkdə mikroobyektlər arasında prinsipial fərq olmadığını izah etmək asanlaşır. İzahata belə başlayırıq:

– ***Uşaqlar, şəkildə gördüyünüz iki yarığı olan***

maneədən keçən fotonların hərəkətinə diqqət yetirin.

şəkil 1.



şəkil 2.

İşıq dedektoru kimi tək-tək fotonları qeydə alan fotoelementlərdən istifadə edilir. Fotoelementi şəkil 1-də göstərilən qayda ilə aşağı-yuxarı hərəkət etdirməklə, işığın intensivliyinin koordinatlardan asılılıq qrafikini qursaq, adi difraksiya mənzərəsi alınar. Fotoelementi baş maksimuma uyğun gələn nöqtədə saxlayıb, ona düşən fotonun hansı yarıqdan gələcəyini müəyyənləşdirək. Bunun üçün fərz edək ki, əvvəlcə **B** yarığı bağlıdır. İşığın intensivliyi (qeyd olunan fotonların sayı) A-nın (amplitudanın) kvadratı ilə mütənasibdir. Sonra isə **B** yarığını açıb, **A** yarığını bağlayırıq. İntensivlik yenə də əvvəlki kimi a^2 ilə mütənasib olacaqdır. Əgər hər iki yarığı birdən açsaq, əvvəlki dərslərdən məlum olduğu kimi, intensivlik iki dəfə deyil, dörd dəfə artacaqdır $(2a)^2=4a^2$. Əgər fotonlar yarıqdan (bəziləri **A**-dan, digərləri **B**-dən) adi zərrəciklər kimi keçmiş olsaydılar, intensivlik dörd dəfə yox, iki dəfə artmalı idi. Deməli, fotonlar bizim bu vaxtadək tanıdığımız "foton" zərrəcik deyildir. Təcrübənin nəticəsini belə izah etmək olar: **hər bir fotonun hər iki yarıqdan eyni zamanda keçmə ehtimalı sıfırdan fərqlidir.**

Dediklərimizi tələbələrə daha aydın başa salmaq üçün fotoelementi difraksiya mənzərəsindəki minimuma uyğun yerə qoyuruq. Bu halda tələbələr deyirlər ki, fotoelement heç bir fotonu qeydə almayacaq. Yarıqlardan birini bağlasaq, fotonlar fotoelementə düşməyə başlayacaqlar. Buradan da belə nəticəyə gəlmək olar ki, minimum yerini dəyişmişdir. Deməli, fotonlar yarıqlardan birinin bağlı olduğunu bilir. Belə bir şəraitdə, əlbəttə, fotonun hansı yarıqdan keçməsi haqqında sual vermək mənasızdır. İzah etdiklərimizin fikri təcrübə olmadığını tələbələrə aydınlaşdırmaq üçün Ceffri Teylor tərəfindən aparılmış təcrübə haqqında qısaca məlumat veririk:

İşıq çox zəif olan mənbədən (1) tutqun süzgəc (2) üzərinə düşüb, çox ensiz yarıqdan (3) keçir. Yarığın qarşısında nazik iynə (4), onun arxasına fotolövhə (5) qoyulmuşdur. Qurğu işıq keçirməyən qutunun (6) içərisində yerləşdirilmişdir (şəkil 2). İşığın şiddətini elə nizamlayırlar ki, hər bir anda qutuda ancaq bir foton olsun. Lövhənin üzərində xəyalın kəskin alınması üçün Teylor təcrübəni üç ay müddətində aparmışdır. Üç aydan sonra fotolövhə aydınlaşdırıldıqda qutuda hər anda bir fotonun olmasına baxmayaraq, fotolövhə üzərində difraksiya zolaqları aydın görünürdü. Beləliklə də məlum olur ki, difraksiya hətta ayrı-ayrı işıq hissəciklərində də baş verir. İzah edirik ki, hər bir foton difraksiya mənzərəsi vermir və fotolövhənin müəyyən yerinə düşür. Onların yığını isə difraksiya zolaqlarını yaradır. Hər bir fotonun qabaqcadan düşəcəyi yeri dəqiq demək olmaz. Onun müəyyən bir yerə düşməsinin yalnız ehtimalı var. Hər hansı bir nöqtəyə düşən fotonların sayı digər nöqtələrə düşən fotonların sayından 3-5 dəfə çoxdur. Tələbələrdə bu təcrübə böyük motivasiya doğurur, çünki hadisələr "sağlam düşüncəyə" ziddir. Həmin marağı daha da artırmaq lazım gəlir. Bu da imkan verir ki, tələbələr yaşadığımız dünyanın nə qədər rəngarəng, sirli, insan zəkasının bu sirləri açmağa qadir olduğunu başa düşsünlər. Həmçinin bu, qədim yunan alimi Aristotelin *"elm təəccüblənməkdən başlayır"* ideyasına əsaslanmaq deməkdir. Hər bir elmi fərziyyə, heç nədən təsadüfən doğula bilməz. Onun yaranması bütün elmin inkişafı müddətində hazırlanır. Təsadüflər isə yalnız hazırlıqlı ağıla kömək edir. Bu nöqteyinəzərdən dərslikdə verilmiş "Elektromaqnit şüalanmasının kvant təbiəti. Foton." mövzusu da müstəsnalıq təşkil etmir. Beləliklə, yuxarıda göstərilən mövzunun nümunəvi dərs planını təqdim edirəm.

Mövzu: Elektromaqnit şüalanmasının kvant təbiəti. Foton.

Standartlar:

1.1.1. Elektromaqnit, atom və nüvə hadi-

sələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir.

1.1.2. Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsinə aid (qrafik kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

2.1.1. Maddə və sahə zərrəciklərinin qarşılıqlı çevrilməsinə dair müxtəlif tipli məsələlər qurur və həll edir.

2.2.2. Əlaqəli sistemlərdə (elektromaqnit, güclü və zəif) qarşılıqlı təsirin xüsusiyyətlərinə dair məsələlər qurur və həll edir.

Dərsin məqsədi: Atomun elektromaqnit şüalanmasının kvant təbiətinə malik olmasını, maddə ilə fiziki sahə arasında qarşılıqlı əlaqənin mövcudluğunu düzgün izah etmək.

İş forması: Fərdi iş, bütün siniflə iş.

Üsul və vasitələr: Beyin həmləsi, araşdırma, müşahidə, anlayışın çıxarılması.

İnteqrasiya: Riy. 1.1.1., 1.2.3., 2.1.1., B 2.1.3, 4.2.1. C1.1.1. 2.1.3., İnf. 1.1.2

Resurslar: İnteraktiv lövhə, kompüter, proyektor, təbaşir.

Motivasiya (problemin qoyuluşu): Dərsə başlayarkən mürəkkəb əlaqəli sistemlər haqqında tələbələrin malik olduqları təsəvvürləri inkişaf etdirib fizikadan atomun planetar quruluşu, kimya fənnindən isə atom haqqında təsəvvürlərinə istinad edərək, aşağıdakı suallarla tələbələrə müraciət etmək olar:

1. Atom hansı zərrəciklərin əlaqəli sistemidir?

2. Atom nüvəsi hansı zərrəciklərdən təşkil olunmuşdur?

3. Atom nə üçün neytraldır?

4. Atomun quruluşunun hansı modelləri var?

5. Atomun neytral yüklü olmasını nə təmin edir?

6. "Atom planetar modelə malikdir" – nə deməkdir?

Daha sonra verilən nəzəri materialla tanışlıq tələbələr tərəfindən "fəal oxu" üsulu ilə aparıla bilər. Bu sualların müzakirəsi onları atomun quruluş modellərinin müxtəlif olması fikrinə yönəldir və nəticədə tədqiqat sualı formalaşdırılır.

Tədqiqat sualı: "Qızdırılan cisimlərin elektromaqnit dalğaları şüalandırması fasiləsiz olaraq nə vaxta qədər davam edə bilər? Foton maddə zərrəciyindən nə ilə fərqlənir?

Tədqiqatın aparılması: Dərs zamanı tələbələr adəti üzrə qruplaşdırılır və iş vərəqləri onların səviyyəsi nəzərə alınmaqla hazırlanır. Tələbələr dərslikdə göstərilən "Pərlərin öz-özünə fırlanmasına səbəb nədir? – araşdırmasını yerinə yetirirlər, eyni zamanda "Kruks radiometri" adlanan cihazla da tanış olurlar. Beləliklə, onlar dərslikdə verilən nəzəri materialdan yararlanırlar.

Məlumat mübadiləsi: Dərslikdə əsasən verilən bu izahdan yararlanılır ki, foton elektromaqnit sahəsinin elementar zərrəciyidir. Onun antizərrəciyi müəyyən edilməyib. Fotonlar real və virtual şəkildə olur. Real fotonlar elektromaqnit şüalanmasının enerji daşıyıcısıdır. Virtual fotonlar isə elektromaqnit qarşılıqlı təsirin daşıyıcılarıdır. Dərslikdə fotonun müxtəlif xassələri və araşdırılmadan çıxarılan nəticələr qruplarda oxunub müzakirə edildikdən sonra müxtəlif didaktik vərəqələr paylanılır.

– Foton nədir?

– Foton maddə zərrəciyindən nə ilə fərqlənir?

– Maddə ilə şüalanma arasında istilik tarazlığının bütün temperaturlarda mövcud olmasının səbəbi nədir?

– Foton müasir təsəvvürlərə görə hansı xassələrə malikdir?

Məlumat müzakirəsi: Didaktiv vərəqlər yığıldıqdan sonra dərsin əsas məzmunu haqqında izahlar verilir.

Foton atomda sərbəst halda mövcud deyil. O atomda elektronların energetik halının dəyişməsi zamanı yaranır. Plank fərziyyəsinə əsasən, fotonun enerjisi şüalanma tezliyi ilə mütənasibdir.

$$E=h\nu=h\frac{c}{\lambda}$$

Foton impulsa malikdir. Fotonun impulsu işıq süası istiqamətindədir.

$$P=mc=\frac{h\nu}{c}=\frac{h}{\lambda}$$

Elektromaqnit şüalanması (foton) enerji və qarşılıqlı təsir daşıyıcısıdır. Fotonun sürəti onun enerjisindən asılı deyil.

Nəticə, ümumiləşdirmə. Foton yaşama müddətinə görə sərbəst halda davamlı elektrik cəhətdən neytral zərrəcikdir. Foton tam şəkildə mövcuddur. Bütün mövzunu mənimsədikdən sonra, tələbə atomun elektromaqnit şüalanmasının kvant təbiətinə malik olmasını şərh etməyi

bacarır. Maddə ilə fiziki sahə arasında qarşılıqlı əlaqənin mövcudluğunu düzgün izah edir. Elektromaqnit şüalanmasının kvant təbiətinə və kvantın xassələrinə aid məsələ qurur və düzgün həll edir.

Yaradıcı tətbiqetmə: Maddə və sahə zərrəciklərinin qarşılıqlı çevrilməsinə dair məsələ həll edin. Sərbəst iş – "Foton haqqında məlumat toplusu" mövzusu.

Məsələ 1. Şüalanma zamanı orqanizmin hər qramı enerjisi 5 MeV olan 108 sayda α-zərrəciyi udmuşdur. Şüalanmanın udulma dozasını hesablayın:

$$D=\frac{E}{m}=\frac{(5\cdot1.6\cdot10^{-13}\cdot3\cdot10^{8})}{10^{-3}}\frac{C}{kq}=8\cdot10^{-2}\,qr=80mqr$$

Məsələ 2. Dalğa uzunluğu $0{,}7\cdot10^{-6}$ m olan görünən şüalanmanın (fotonun) kütləsini təyin etməli.

Verilir:

$\lambda = 0{,}7\cdot10^{-6}$ m

---

m-?

həlli:

Kütlə ilə enerji arasındakı əlaqə düsturuna görə

$$m=\frac{E}{c^2}=\frac{h\nu}{c^2}=\frac{h}{c\lambda} \qquad \nu=\frac{c}{\lambda}$$ – işığın tezliyidir.

$$m=\frac{6.63\cdot10^{-34}}{3\cdot10^{8}\cdot0{,}7\cdot10^{-6}}=3{,}2\cdot10^{-36}\ (kq)$$

Fotonun kütləsi $3{,}2\ 10^{-36}$ (kq).

Qiymətləndirmə: Aşağıdakı meyarlar əsasında təlim məqsədlərinə nail olmaq dərəcəsini müəyyən etmək olar:

Meyarlar	I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Şərhetmə	Elektromaqnit, atom və nüvə hadisələrinin qanunauyğunluqlarla əlaqəsini çox çətinliklə izah edir.	Elektromaqnit, atom və nüvə hadisələrinin qanunauyğunluqlarla əlaqəsini müəllimin köməkliyi ilə izah edir.	Elektromaqnit, atom və nüvə hadisələrinin qanunauyğunluqlarla əlaqəsini az səhv etməklə izah edir.	Elektromaqnit atom və nüvə hadisələrinin qanunauyğunluqlarla əlaqəsini düzgün izah edir.
İzahetmə	Fiziki sahə və maddə arasında qarşılıqlı əlaqənin mövcudluğunu izah edərkən ciddi səhvlərə yol verir.	Fiziki sahə və maddə arasında qarşılıqlı əlaqənin mövcudluğunu müəllimin köməyi ilə izah edir.	Fiziki sahə və maddə arasında qarşılıqlı əlaqənin mövcudluğunu müəyyən səhvlərə yol verərək izah edir.	Fiziki sahə və maddə arasında qarşılıqlı əlaqənin mövcudluğunu düzgün izah edir.
Məsələqurma və məsələ həlletmə	Kvant xassələrinə aid məsələləri müəllimin köməyi olmadan qurur, lakin həll edə bilmir.	Kvant xassələrinə aid məsələləri sərbəst qura bilmir, lakin müəllimin köməyi ilə həll edir.	Kvant xassələrinə aid məsələ qurur və əsasən, müəllimin köməyi ilə həll edir.	Kvant xassələrinə aid məsələ qurur və düzgün həll edir.

ƏDƏBİYYAT

1. Сетенов Н.Н., Наука и общество. Издательство «Наука», Москва, 1973.
2. Давыдов А.С. Квантовая механика 3-изд. 2011. (https://ru. Wikipedia. Org./wiki/ квантовая механика).
3. Murquzov M., Fizika (dərslik). 2017.
4. Abdurazaqov R., Əliyev R., Fizika (metodiki vəsait). Bakı, 2018.

Peşə təhsili və insan kapitalı. Cild 2, №2, 2019 s.98-100

SƏRİŞTƏƏSASLI MODULLARIN İNTEQRASİYALI TƏDRİSİNİN ƏHƏMİYYƏTİ

Hikmət Camalov,
Abşeron-Ceyranbatan Peşə Liseyinin ixtisas fənn müəllimi,
peşə hazırlığı üzrə metodkomissiya sədri
e-mail: camalov@bk.ru

UOT: 372.8 (072)

Xülasə. *Məqalədə səriştəəsaslı modul kurikulumları ilə ixtisaslı kadrların hazırlanmasının nəticəyönümlü olmasını təmin edən amillərdən biri kimi nəzəri və praktiki təlimlərin qarşılıqlı inteqrasiyasının vacibliyinin təsviri verilir. Eyni zamanda, məqalədə əmək bazarının tələblərinin doğurduğu texnoloji dəyişikliklərə mükəmməl kompleks peşə hazırlığı ilə vaxtında, gecikmədən cavab verən və yeni mühitə tez bir zamanda uyğunlaşan kadrların hazırlanmasını təmin edən modul təlimlər zamanı nəzəriyyə ilə praktikanın inteqrasiyasının rolunun öyrənənlərin peşə-ixtisas kompetensiyalarına sahib olmalarından bəhs edilir.*

Açar sözlər: *modul, səriştə, nəzəri və praktiki təlimlər, inteqrasiya, əmək bazarı, motivasiya.*
Key words: *module, competence, theoretical and practical exercises, integration, labor market, motivation.*
Ключевые слова: *модуль, компетентность, теоретические и практические занятия, интеграция, рынок труда, мотивация.*

Peşə təhsili müəssisələrində keyfiyyətli, səriştəli kadrların hazırlanmasına təsir göstərən amillərdən biri nəzəri və praktiki təlimlərin əlaqəli tədrisinin aparılmasıdır. Belə ki, ixtisasa dair öyrənilən maşınların, texniki və texnoloji qurğuların quruluşu və iş prinsipləri müəyyən fiziki, texniki, kimyəvi, riyazi və s. elmi əsaslı qanunauyğunluqlara əsaslanır. Təcrübə göstərir ki, təhsil müəssisələrində nəzəri və praktiki təlimlər əlaqəli tədris edildikdə öyrənənlərdə mənimsəmə yaxşı olur, nəticəyönümlülük yüksəlir. Nəzəri təlimlərlə praktiki təlimlərin əlaqəli tədrisi zamanı eyni anlayışların izah olunması iki dəfə təkrar edilmir, az vaxtda təhsilalanların əvvəldən qazandıqları biliklər yeniləşdirilir, digər tərəfdən tələbələrdə kompleks bilik sisteminin yaranmasına imkan verir. Bundan əlavə, nəzəri və praktiki təlimlərin elmi əsaslara istinad edən inteqrasiyalı tədrisi tələbələrin idrak fəaliyyətlərinin gücləndirilməsinə, onların ixtisasa dair peşə səriştələrinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Ona görə də təlimlərin bu cür əlaqəli şəkildə tədrisinin böyük didaktik əhəmiyyəti vardır. Məsələn, qaynaq tikişini keyfiyyətli aparmaq üçün qaynaqçıya iş zamanı işlətdiyi materiallar haqqında (metallar, ərintilər, elektrodlar və s.) biliklər lazımdır. Bütün bu biliklər praktiki təlimlərdə deyil, ixtisasa dair nəzəri təlimlərdə aşılanır. Praktiki təlimlərdə isə nəzəri təlimlərdən qazanılan elmi biliklər əsasında tələbələrə peşələrinə dair praktiki bacarıqlar və səriştələr təlqin edilir.

Təcrübə göstərir ki, tədris prosesində moduldaxili və modullararası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların tələbələr tərəfindən daha asan mənimsənilməsində, dərslərin maraqlı

və məzmunlu qurulmasında, təhsilalanlarda tədqiqatçılıq meyillərinin yaranmasında vacib şərtlərdən biridir. Moduldaxili inteqrasiya müəyyən bir təlim nəticəsinin aşıladığı anlayışların, bilik və bacarıqların əlaqələndirilməsi, modul daxilində səpələnmiş faktların sistemləşdirilməsidir. Belə səviyyədə inteqrasiyanı verilmiş materialın ayrı-ayrı təlim nəticələrinə cəmləşdirilməsi kimi də hesab etmək olar. Bu isə son nəticədə modulun məzmununun strukturunun dəyişdirilməsinə gətirib çıxarır və inteqrasiya olunmuş məzmun informativ cəhətdən daha tutumlu olur, tələbələrin əhatəli kateqoriyalarla düşünmə bacarıqlarının formalaşmasına kömək edir. Peşə təhsilində modulların tədrisində geniş şəkildə istifadə olunan moduldaxili inteqrasiya üçün konsentrik prinsipə əsaslanan spiralvari quruluşu daha xarakterik hesab etmək olar. Bu cür inteqrasiya prosesində dəyərlərin dərk olunması xüsusidən ümumiyə və yaxud ümumidən xüsusiyə doğru ola bilər. Beləliklə, məzmun get-gedə yeni məlumatlarla, bağlılıqlarla və asılılıqlarla zənginləşərək daha maraqlı hala gəlir. Bu formanın üstün xüsusiyyəti ondan ibarətdir ki, tələbələr başlanğıc problemi diqqətdən qaçırmadan onunla bağlı olan bilgilərini daha da genişləndirir və dərinləşdirirlər.

Modullararası inteqrasiya bir neçə modulun əhatə etdiyi ortaq bilik və bacarıqların sintezi olmaqla, bir modula aid anlayışların və metodların digər bir modulun tədrisində istifadəsini nəzərdə tutur. Bu inteqrasiya müxtəlif modullar arasında məntiqi əlaqələrin qurulmasına xidmət edir. Bu proses həm də eyni bir bacarığın ayrı-ayrı modullar vasitəsi ilə daha da təkmilləşdirilməsini təmin etməklə yanaşı, təlim prosesinin səmərəliliyinin artırılmasına şərait yaradır.

Modullararası və moduldaxili münasibətlərin sadəcə əlaqə deyil, inteqrasiya xarakteri daşıması bu münasibətlərin daha sıx və möhkəm olmasına, onun bütöv bir prosesə çevrilməsinə şərait yaradır. Müəllimlər pedaqoji prosesdə ondan daha səmərəli qaydada istifadə etmək imkanı qazanırlar. Bundan əlavə, modullararası və moduldaxili inteqrasiya interaktiv öyrənməyə geniş yol açır. Tələbələrin qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır.

İnteqrasiya nəticəsində tədris materialının yığcamlığı təmin edilir, təkrara yol verilmir, tələbələr artıq yüklənmir və tədris vaxtına qənaət edilir. Onlar qısa vaxt ərzində çox, həm də birbiri ilə üzvi əlaqədə formalaşmış bilik və bacarıqlar əldə edirlər. Bu məqsədlə tələbələri inteqrativ bilik əldə etməyə hazırlayan modullararası əlaqəyə geniş yer verilməlidir. Bunun təmin edilməsi üçün müəllim bütün modullar üzrə proqram materiallarına yaxşı bələd olmalı və modullararası əlaqədən istifadə etməyin yollarını, onun metodikasını dərindən bilməlidir.

Modullararası əlaqə prosesində tədris olunan təlim materialı tələbələr tərəfindən yaxşı mənimsənilir, bir neçə modul üzrə bilik, bacarıq və vərdişlər təkrarlanır. Nəticədə biliyin tələbələr tərəfindən sistemli mənimsənilməsi təmin edilir. Bununla yanaşı, modullararası əlaqədən ardıcıl şəkildə istifadə tədrisin səviyyəsini yüksəldir, tələbələrin təfəkkürünü inkişaf etdirir, dünyagörüşünü genişləndirir. Ona görə də təhsilə ayrı-ayrı fənlərin öyrədilməsi kimi deyil, XXI əsrin tələb etdiyi həyati bacarıqların inkişaf etdirilməsi prosesi kimi baxılmalı, tələbələr daim öyrənməyə hazırlanmalıdırlar. Deməli, səriştələrə əsaslanan modul təhsil texnologiyalarının əsas ideyası təhsilalanlarda təlim üçün nəzərdə tutulan iş yerlərində aktiv fəaliyyətə geniş imkanlar açır və onlar özlərini maksimum dərəcədə sərbəst hiss edirlər. Bu da təhsilalanlara imkan verir ki, onlar real əmək fəaliyyətinə tez bir zamanda adaptasiya olunsun, öyrəndiklərini inkişaf etdirə və işəgötürənlərin müvafiq peşələr üzrə tələb etdikləri səriştələrə sahib ola bilsinlər.

Təlim prosesində yalnız nəzəriyyə ilə praktikanın inteqrasiyası kifayət deyildir. Bundan əlavə, təlim prosesi elə təşkil olunmalıdır ki, o təhsilalanlara səriştələrə əsaslanan peşəkarlığa yiyələnmənin açarlarını verən effektli münasibətlər qurmağı, yaradıcı olmağı aşılasın. Hər prosesə başlamazdan əvvəl təhsilalanlar modulun spesifikasiyası və bu moduldan nələri öyrənmələri, hansı nəticələrin onlardan gözlənildiyi haqda məlumatlarla tanış olmalıdırlar. Təlimin bu cür təşkili təhsilalanlarda təlimlərin effektliyini, keyfiyyətini yüksəltmələri və təlim nəticələrinə çatmaları üçün motivasiya aşılayır.

Təhsilalan şüurlu olaraq başa düşməlidir ki, təlim nəticələrinə görə yalnız öyrədənlər deyil, onun özü də məsuliyyət daşıyır. Bundan ötrü təhsilalan təlimlər zamanı işlərin kiçik qruplarda

təşkil olunmasında, layihələrin işlənilməsində, problemlərin həlli üzrə tapşırıqların yerinə yetirilməsində və s. fəal olmağa çalışmalıdır. Onu da vurğulayaq ki, tələbə nəzəri təlimlərdə peşə üzrə kompetensiyaların formalaşdırılmasına dair yalnız məlumatlar alır. Əldə edilən bu məlumatlar kompetensiyalara o zaman gətirib çıxarır ki, təhsilalan bu məlumatları praktiki olaraq tətbiq etsin. Tətbiq zamanı təhsilalan informasiya mübadilələrində iştirak edir və onun söylədikləri yoldaşları tərəfindən qəbul olunduqca, bu, onu daha irəli getməyə həvəsləndirir. Tapşırığa dair işlərin yerinə yetirilmə prosesində tələbələrin psixoloji və praktiki fəaliyyətləri dəyişilməz qalmır. Əvvəlcə tələbə ona tanış olmayan bir işlə üz-üzə durur, tədricən tapşırıqları mərhələ-mərhələ yerinə yetirdikcə, görülən işlər təkrarlandıqca onda özünəinam və öyrənmək həvəsi artır, sonda işləri sərbəst və köməksiz yerinə yetirməyə başlayır.

Nəticə. Bununla da belə nəticəyə gəlmək olur ki, müasir dünyada sürətlə inkişaf edən sosial, mədəni və texnoloji dəyişikliklər qlobal düşünmə tərzinin əhəmiyyətini xeyli artırır. Belə olan halda tələbələr təlim prosesinin passiv iştirakçısı olmur. İnteqrativlik tələbələrə ətraf aləmin dərk edilməsinə yaradıcı idraki münasibət bəsləyən subyektlər kimi yanaşılmasına imkan yaradır. Bu, o zaman mümkün olur ki, təhsil müddətində öyrənilən modullar və onların əhatə etdiyi mövzular ayrı-ayrı deyil, əlaqəli, inteqrativ şəkildə tədris olunur. Digər bir tərəfdən, inteqrativ kurikulum tələbələrin dərsliklərdə verilən materiallara yaradıcı yanaşmasına kömək edir.

ƏDƏBİYYAT

1. Скакун В.А. Организация и методика профессионального обучения. Москва, 2009.

2. Олейникова О.Н. Модульные технологии. Москва, 2010.

3. Orucov Z. Peşə təliminin nəzəri və praktiki məsələləri. Bakı, 1997.

H.Jamalov

İmportance of integrative teaching of specialized modules

Summary

Experience shows that when theoretical and practical exercises are taught in the relevant exercises, it is useful to master the students, and the results in the exercises increase. The explanation of the same concepts in theoretical training in practical exercises with theoretical training is not repeated twice, and the knowledge gained by students in a short time is updated. on the other hand, allows students to create a complex system of knowledge. In addition, the integration of theoretical and practical exercises with the curriculum on a scientific basis contributes to improving the cognitive abilities of students and improving their professional skills.

Х.Джамалов

Важность интегрированного обучения в компетентностных модулях

Резюме

В статье описывается важность интеграции теоретических и практических упражнений, как одного из факторов, обеспечивающих подготовку квалифицированных кадров с компетентностными модулями. В то же время в статье описываются технологические изменения, которых требует рынок труда, с его совершенной сложной профессиональной подготовкой, своевременной, поздней и быстрой адаптацией к новой среде, а также роль интеграции теории с практикой профессиональных квалификаций учащихся.

MƏQALƏLƏRİN TƏRTİBATI QAYDALARI

Dərc olunacaq məqalə redaksiyaya həm kağız, həm də elektron formada təqdim olunmalıdır. Məqalə hazırlanarkən aşağıdakı tələblər nəzərə alınmalıdır:

1. Məqalə azərbaycan, rus və ingilis dillərindən birində hazırlanmalı, məqalənin adı, xülasə və açar sözlər hər üç dildə təqdim olunmalıdır.

2. Məqalə Microsoft Word mətn redaktorunda A4 formatında (soldan, yuxarıda, aşağıdan və sağdan – 2 sm.), Times New Roman şrifti ilə 12 pt. ölçüdə, vahid sətirarası intervalla və mətndaxili yazıda 1sm. abzas buraxmaqla hazırlanmalıdır və həcminə məhdudiyyət qoyulmur.

3. Məqalənin mətninin aşağıdakı bölmələrdən ibarət olması tövsiyə olunur:

• giriş (məsələnin aktuallığı, problemin hazırkı vəziyyəti);
• tədqiqatın məqsədi, məsələnin qoyuluşu;
• məsələnin həll üsulları aprobasiyası;
• alınan nəticələrin tətbiqi;
• nəticə.

4. Məqalə aşağıdakı ardıcıllıqla hazırlanmalıdır: UOT – soldan, böyük hərflərlə, qalın şiriftlə, sonda 6pt. interval; məqalənin adı – ortadan, böyük hərflərlə, qalın şriftlə; müəlliflərin iş yeri, şəhər, ölkə və e-poçt ünvanı – ortadan, sonda 6pt. interval; xülasə (mətn təqdim olunan dildə), sonda 6pt. interval; açar sözlər – kursivlə, sonda 6pt. interval; giriş və digər alt başlıqlar – soldan, qalın şriftlə, əvvəlində və sonunda 6 pt. intervalla.

5. Ədəbiyyat siyahısı: hər bir istinad olunan mənbənin adı tərcümə olunmadan, məqalədə istifadə olunma ardıcıllığına uyğun olaraq nömrələnir. Mənbənin biblioqrafiq təsviri Ali Attestasiya Komissiyasının dissertasiya işlərində mənbənin biblioqrafik təsvirinə irəli sürdüyü tələblərə uyğun olaraq göstərilməlidir.

6. Məqalədə cədvəl və şəkillər nömrələnir: cədvəl cədvəlin yuxarısında, kursivlə, ortadan, (məs., cədvəl 1.) şəkil şəklin altında, kursivlə, ortadan (məs., şəkil 1.) və mətn hissədən (yuxarıdan və aşağıdan) 1 boş sətir buraxmaqla göstərilməlidir. Cədvəllər bilavasitə məqalənin mətnində yerləşdirilməlidir. Hər cədvəlin öz başlığı olmalıdır. Cədvəllərdə mütləq ölçü vahidləri göstərilməlidir. Əlyazma mətndə şəkillər və cədvəllərin yeri göstərilir. Eyni bir məlumatı mətndə, cədvəldə və əlyazmada təkrarlamaq yolverilməzdir.

7. Düsturlar Microsoft Equation-də standart parametr ilə yığılır. Mətndə ancaq istifadə olunan düsturlar nömrələnir. Düsturun nömrəsi sağda mötərizədə yazılır.

8. Redaksiyaya məqalə göndərildikdə müəlliflər haqqında məlumat: soyadı, adı, elmi dərəcəsi, elmi rütbəsi, iş yeri, vəzifəsi, telefon nömrəsi, e-mail ünvanı da təqdim olunmalıdır.

9. Müəssisədə yerinə yetirilən tədqiqatın nəticələrini açıqlayan məqalənin çap edilməsi üçün müvafiq yazılı razılıq olmalıdır.

10. Məqalədə göstərilən məlumat və faktlara görə müəllif məsuliyyət daşıyır.

11. Redaksiyaya daxil olan məqalələrə rəy təqdim olunur və müsbət rəy almış məqalələr çapa tövsiyə olunur.

12. Redaksiya məqalənin əsas məzmununa xələl gətirməyən redaktə dəyişiklikləri və ixtisarları etmək hüququnu özündə saxlayır.

13. Məqalə çapa verilmədikdə redaksiya heyətinin qərarı barədə müəllifə məlumat verilir və əlyazma müəllifə qaytarılmır. Redaksiyanın məqaləni yenidən işləmək haqqında müraciəti, onun çapa veriləcəyini ehtiva etmir. Belə ki, ona əvvəl rəyçilər, sonra isə redaksiya heyəti yenidən baxır. Çap üçün məqbul sayılmayan məqalə müəllifin məqalənin çapına yenidən baxılması xahişi ilə redaksiya heyətinə müraciət etmək hüququ var.

14. Məqalənin korrekturası müəllifə göndərilmir. Məqalə çap olunandan sonra redaksiya otiskləri yazışma üçün göstərilən ünvana göndərir.

15. Məqalə sadalanan tələblərə cavab verməzsə, baxılmaq üçün qəbul edilmir və müəllifə qaytarılır. Əlyazmanın daxil olduğu vaxt redaksiyanın mətnin son variantının redaksiyaya daxil olduğu gündən sayılır.

16. Redaksiyanın ünvanı: Bakı, AZ 1033, N.Hacıyev 4. Tel. (+994 12) 566 -09 -67
Fax: (+994 12) 566-09-87; www.jurnal.vet.edu.az; E-mail: peshetehsili.jurnali@vet.edu.gov.az

PREPARATİON RULES OF ARTICLES

Articles published in the paper, as well as in electronic form will be submitted. The fellowing requirements must be taken into account while preparing the article:

1. Articles should be prepared in one of the languages-Azerbaijani, Russian and English, the name of the article, abstract and keywords should be submitted.

2. The articles should be submitted in the Microsoft Word text editor A4 format (from left, above, below and right-2cm.), with the font Times New Roman 12 font., 1 cm inter-text interval, remaining paragraphs and the scope of the article is not limited.

3. Article text consisting the following sections is recommended:

• introduction (the problem actuality, state-of-the-art of the problem);
• the purpose of the research, formulation of the problem;
• the problem solution methods and approbation;
• application of achieved results;
• result.

4. The articles must be prepared in the following sequence: The unified decimal qualification-from left bold, 6 font. interval; the name of the article-from the middle, capitalized, bold, 6 font, interval, initials and surname of authors-from the left and bold italic authors place of work city country ande-mail address-fromthe left in the end 6 fond interval summary (in the language of the article)-italics in the end 6 font, interval; key words-italics, in the end 6 font, interval introduction and other sub-headings-from left, bold, and at the beginning end 6 font, interval.

5. List of bibliography each referred source must be numbered in accordance with the sequence used in the article and remained untranslated.

6. The table and pictures in the article must be numbered: Table – at the top of the table, from the right (eg, Table 1.), a picture-below the picture from the middle (eg Picture 1.) remaining parts (from the above and below) a blank line. Tables should be inserted into texst and have titles. Units arc required to be indicated in tables. The authors should mark in margins the location of illustrations and tables in the text. Please do not duplicate data in the text tables and figures. Captions should be supplied on a separate sheet.

7. Formulas must be assembled in standards parameter-Microsoft Equation. Only formulas used in the text must be numbered. The formula numbers must be written in brackets in the right.

8. Sending articles to the editorial office must contain information about the authors: surnarne, name, scientific degree, scientific rang, place of work, position, phone number, or e-mail address.

9. Articles stating results of researches, executed in establishments, have to have corresponding permission to publication.

10. The author is responsible for the information and facts mentioned in the article.

11. The articles received by the editorial office are presented for reference and the articles with positive references are recommended for publication.

12. The Editorial Board has the right to edit the manuscript and abridge it without misrepresenting the paper contents.

13. The Editorial Office informs the authors of paper denial and the reviewers conclusion without returning the manuscript. A request to revise the manuscript does not imply that the paper is accepted for publication since it will be reviewed and considered by the Editorial Board. The authors of the rejected paper have the right to apply for its reconsideration.

14. Proofs are not sent to the authors. Three offprints of each paper will be supplied free of charge of the corresponding author.

15. Papers not meeting the above requirements are denied and returned to the authors. The date of receipt of the final version by Editorial Office is considered as the submission date.

16. Editorial Office Address: AZ1033, Baku city, ave N.Hajiyev 4. Phone (+994 12)566 09 67; Fax (+994 12) 566 09 87; www.jurnal.vet.edu.az; E-mail: peshetehsili.jurnali@vet.edu.gov.az

ПРАВИЛА ОФОРМЛЕНИЯ СТАТЕЙ

Публикуемая статья должна быть представлена в редакцию в бумажном и в электронном виде. При подготовке статьи должны быть выполнены следующие требования:

1. Статья должна быть подготовлена на одном из языков – азербайджанском, русском или английском. Название статьи, аннотация и ключевые слова должны быть представлены на трех языках.

2. Электронный вариант статьи должен выполняться в текстовом редакторе MicrosoftWord в формате А4 (поля: левое, правое, верхнее и нижнее – 2 см), шрифтом Times NewRoman размером 12 пт. Междустрочный интервал – одинарный, абзацный отступ – 1 см и не должен ограничиваться размером статьи.

3. Текст статьи рекомендуется составлять из нижеследующих разделов:

• введение (актуальность проблемы, нынешнее состояние проблемы);
• цель исследования, постановка задачи;
• методы решения и апробация задачи;
• внедрение полученных результатов;
• результат.

4. Статья должна быть подготовлена в следующей последовательности: УДЖ – слева, жирном шрифтом, в конце интервал 6 пт; название статьи – в центре, прописным и жирным шрифтом, в конце интервал 6 пт; инициалы и фамилии авторов – в центре, прописным и жирным шрифтом; место работы авторов, страна, город и адрес электронной почты – по центру, в конце интервал 6 пт; аннотация (на языке представленного текста) – в конце интервал 6 пт; ключевые слова – курсивом, в конце интервал 6 пт; введение и другие подзаголовки – слева, жирным шрифтом, в начале и конце интервал 6 пт.

5. Список литературы: название каждого источника не переводится и нумеруется в статье в соответствии с последовательностью использования. Библиографическое описание источников должны быть указаны в соответствии с требованиями, предъявляемыми ВАК к библиографическому описанию источников в диссертационной работе.

6. В статье нумеруются таблицы и рисунки: таблица – в верхней части таблицы, курсивом, в центре (например, таблица 1), рисунок – под рисунком, курсивом, в центре (например, рисунок 1) и, пропуская одну пустую строку от текста (из верхней и нижней частей).

Таблицы располагается непосредственно в тексте статьи. Каждая таблица должна иметь заголовок. В таблицах обязательно указываются единицы измерения величин. В тексте рукописи на полях указываются место для рисунков и таблиц. Повторение одних и тех же данных в тексте, таблицах и рисунках недопустимо. К статье прилагается список подрисуночных подписей.

7. Формулы набираются стандартными параметрами в Microsoft Equation. Номер формулы пишется в скобках с правой стороны. В тексте нумеруются только использованные формулы.

8. При отправке статей в редакцию также должны быть представлены сведения об авторах: фамилия, имя, ученая степень, ученое звание, место работы, должность, номер телефона, адрес электронной почты.

9. Статьи, излагающие результаты исследований, выполненных в учреждениях, должны иметь соответствующие разрешение на опубликование.

10. Автор несет ответственность за информацию и факты, указанные в статье.

11. Статьи, поступившие в редакцию, направляются на отзыв; статьи, получившие положительные отзывы, рекомендуются к публикации.

12. Редакция оставляет за собой право производить редакционные изменения и сокращения, не искажающие основное содержание статьи.

13. В случае отклонения статьи редакция сообщает автору решения редколлегии и заключение рецензента, рукопись автору не возвращается. Просьба редакции о доработке статьи не означает, что статья принята к печати, так как она вновь рассматривается рецензентами, а затем редакционной коллегией. Автор отклоненной статьи имеет право обратиться к редколлегии с просьбой повторно рассмотреть вопрос о возможности опубликования статьи.

14. Корректура авторам не высылается. После опубликования статьи редакция высылает оттиски по адресу, указанному для переписки.

15. Статьи, не отвечающие перечисленным требованиям, к рассмотрению не принимаются и возвращаются авторам. Датой поступления рукописи считается день получения редакцией окончательного текста.

16. Адрес редакции: AZ1033, г. Баку, пр. Н.Гаджиев 4, Тел: (+994 12) 566 09 67;
факс: (+994 12) 566 09 87; www.jurnal.vet.edu.az; E-mail: peshetehsili.jurnali@vet.edu.gov.az

Yaradıcı heyət

Baş redaktor müavini
Əfsanə Zülfüqarova

məsul katib
Afaq Xanpaşayeva

şöbə redaktorları
Fikrət Əhədov
Vüqar Səlimova
Sevinc Məmmədova
Günel Ələsgərova

müxbir-redaktor
Rəna Rüstəmova

korrektor
Lalə Niyazqızı

texniki-redaktor
Pərvanə İbrahimova

Jurnal Azərbaycan Respublikası Təhsil Nazirliyinin 23.11.2017-ci il tarixli, 416 №-li əmri ilə təsis edilmiş və dövlət qeydiyyatına alınmışdır. Qeydiyyat № 2000314101

* * *

Jurnalın yaradıcı kollektivi Azərbaycan Jurnalistlər Birliyinin Həsən bəy Zərdabi adına Diplomuna layiq görülmüş və jurnal Azərbaycan Mətbuat Şurasının üzvüdür.

Redaksiyanın ünvanı: AZ 1033, Bakı şəhəri, Nazim Hacıyev 4;
Tel./Fax: 566-09-67; 566-09-87; www.jurnal.vet.edu.az
E-mail: peshetehsili.jurnali@vet.edu.gov.az

Rekvizitlər

Müştəri:	"Peşə təhsili və insan kapitalı" jurnalı	VÖEN:	1401555071
VÖEN:	2000314101	M/hesab:	AZ41NABZ01360100000000003944
H/h:	AZ36CTRE00000000000002167908	SWIFT:	CTREAZ22
Bank:	Dövlət Xəzinədarlıq Agentliyi	D3. Büdcə təsnifatının kodu:	142319
Kodu:	210005	D4. Büdcə səviyyəsinin kodu:	03

Çapa imzalanmışdır: 27.06.2019. Kağız formatı: 60x84 1/8.
Çap vərəqi: 13. Sifariş: . Tiraj: 2600.
"Peşə təhsili və insan kapitalı" jurnalı redaksiyasında yığılıb və
"Letterpress" MMC-nin mətbəəsində çap olunub.